**ISSN 1682-9123**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ODLAR YURDU UNİVERSİTETİ**

# ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ

# THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

# НАУЧНЫЕ И ПЕДАГОГИЧЕСКИЕ ИЗВЕСТИЯ УНИВЕРСИТЕТА ОДЛАР ЮРДУ

№ 48

Bakı ✩ 2018 ✩ Baku

**Baş redaktor: f.r.e.d., prof.Ə.A.VƏLİYEV**

**Məsul katib**: f.-r.e.n., dosent F.K.Xudaverdiyev

**Humanitar elmlər üzrə baş redaktor müavini**: h.e.d.S.Ə.Vəliyev
**Dəqiq elmlər üzrə baş redaktor müavini**: prof.F.S.Məmmədov (Türkiyə)

**Redaksiya heyətinin üzvləri:** akad.A.M.Paşayev, akad.T.Ə.Bünyadov, AMEA müxbir üzvü R.S.Qurbanov, i.e.d.Ə.Q.Əlirzayev, f.r.e.d.Ə.X.Şamilov (Türkiyə), f.e.d.R.K.Rəsulov, tibb e.d.Z.Ö.Qarayev, tibb e.d.Ə.V.Musayev, i.e.d.M.M.Bağırov, akad.N.Q.Cəfərov, tex.e.d.M.İ.Əliyev, tex.e.d.N.H.Cavadov, tex.e.d.T.S.Abdullayev, AMEA müxbir üzvü prof. Q.C.İmanov, prof.A.Avey (Türkiyə), prof.M.Cəmşidi (ABŞ), prof.K.V.Bonfiq (Almaniya), prof.F.T.Əliyev (Türkiyə), prof.X.D.Barkero (İspaniya), prof.H.B.Meladze (Gürcüstan), prof.A.Çxeidze (Gürcüstan), prof.K.Kordzaiya (Gürcüstan), prof. Y.M.Morozov (Rusiya), i.e.f.d.M.Ə.Vəliyev, h.e.f.d.H.D.Qənbərov, i.e.f.d.Ə.H.Ələkbərov, sos.e.f.d. F.Ş.Həsənov, p.e.n.S.V.Vəliyeva, b.e.f.d. T.H.Kərimova, f.e.f.d. S.X.Abdurəhmanova, f.r.e.f.d. E.M.Rzazadə

**Журнал рецензируется и реферируется в ВИНИТИ (№10211-5335/54-34)**

**Editor-in-chief: Prof. A.A.VALIYEV**

**Executive Secretary:** ass. prof.F.K.Hudaverdiyev

**Deputy Editors-in-chief:** prof.S.A.Valiyev (Humanities), prof.F.S.Mamedov (Exact Sciences)

**Editorial Board:** acad.A.M.Pashayev, acad.T.A.Bunyadov, acad.M.I.Aliyev, correspondent member of the National Academy of Science of Azerbaijan R.S.Gurbanov, prof.A.G.Alirzayev, prof.A.H.Shamilov (Turkey), prof.R.K.Rasulov, prof.Z.O.Garayev, prof.A.V.Musayev, prof.M.M.Baghirov, acad.N.G.Jafarov, prof.M.I.Aliyev, prof.N.H.Javadov, prof.T.S.Abdullayev, correspondent member of the National Academy of Science of Azerbaijan prof.G.J.Imanov, prof.A.Avey (Turkey), prof.M.Jamshidi (USA), prof.K.V.Bonfig (Germany), prof.F.T.Aliyev (Turkey), prof.J.D.Barquero (Spain), prof.D.G.Gordeziani (Georgia), prof.H.B.Meladze (Georgia), prof.A.Chheidze (Georgia), prof.K.Kordzaia (Georgia), prof.Y.M.Morozov (Russia), M.A.Valiyev, H.D.Ganbarov, A.H.Alekperov, F.Sh.Hasanov, S.V.Valiyeva, T.H.Karimova, S.X.Abdurahmanova, E.M.Rzazadeh

**All the articles in this journal are peer-reviewed and include summaries.**

The address of editorial office:
General Department, Odlar Yurdu University, 13 Koroglu Rahimov St., Baku AZ1072, Azerbaijan
Tel.: (office) (+994 12) 465 82 62, (+994 12) 465 82 00
(mob.) (+994 51) 572 34 36, (+994 50) 378 86 30
Fax: (+994 12) 465 67 05
http:// www.journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

OYU-2018

Az.073 «Odlar Yurdu» nəşriyyatı, 2018-ci il

Redaksiyanın ünvanı: Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13
Odlar Yurdu Universiteti, Ümumi şöbə

TƏSİSÇİ:

Odlar Yurdu Universiteti

Jurnal 1998-ci ilin dekabr ayından nəşr olunur

Dövriliyi ildə ən azı iki dəfədir

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən rəsmi qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: AB022011, 27.11.1998

Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən riyaziyyat, mexanika, iqtisad, texnika, tibb, əczaçılıq, biologiya, aqrar, hüquq, tarix, antropologiya, siyasi, psixologiya, pedaqogika və filologiya elmləri sahəsində tövsiyə edilən elmi nəşrlər siyahısına daxil edilmişdir

*Redaksiyanın ünvanı:* Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, Ümumi şöbə

Tel.: (051) 572 34 36
Faks: (012) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

FOUNDED BY

Odlar Yurdu University

Published since December 1998

Issued at least twice a year

Registered by the Ministry of Justice of the Republic of Azerbaijan under reference number №022011 (AB series) on November 27, 1998

Included into the list of scientific periodicals recommended by the Higher Certifying Commission under the President of the Republic of Azerbaijan in the fields of Mathematics, Mechanics, Economics, Technical Science, Medicine, Pharmacology, Biology, Agrarian Science, Law, History, Anthropology, Political Science, Psychology, Pedagogy and Philology.

*Editorial Address:* General Department, Odlar Yurdu University, 13 Koroglu Rahimov St., Baku AZ1072, Azerbaijan

Tel.: (051) 572 34 36
Fax: (012) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

УЧРЕДИТЕЛЬ:

Университет Одлар Юрду

Издается с декабря 1998 года

Выходит не менее двух раз в год

Официально зарегистрирован Министерством Юстиции Азербайджанской Республики. Регистрационный номер: AB022011 от 27.11. 1998

Включен в перечень изданий, рекомендованных ВАК при Президенте Азербайджанской Республики для публикации основных результатов кандидатских и докторских диссертаций в области математики, механики, экономики, технических наук, медицины, фармакологии, биологии, аграрной науки, права, истории, антропологии, политологии, психологии, педагогики и филологии.

*Адрес редакции:* Баку AZ1072, ул. Кёроглу Рахимова 13, Университет Одлар Юрду, Общий отдел

Тел.: (051) 572 34 36
Факс: (012) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

# R İ Y A Z İ Y Y A T

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# M A T H E M A T I C S

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# BƏZİ TİPİK ÜSTLÜ TƏNLİKLƏRİN HƏLLİ

**F.N.Səmədzadə**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: samadzade.farahim@mail.ru

***Açar sözlər:*** üstlü tənlik, qrafik həll, qüvvətin əsası, qüvvətin üstü
***Keywords:*** exponential equation, graphical solution, base of power, exponent
***Ключевые слова:*** экспоненциальное уравнение, графическое решение, основание степени, экспонента

Məlum olduğu kimi, $a^x = b\ (a > 0, a \neq 1)$ şəklində tənliklərdə, $y = a^x$ funksiyasının qiymətlər oblastı $(0;+\infty)$ çoxluğu olduğundan, $b > 0$. Əgər $b \leq 0$ olarsa, onda tənliyin həlli yoxdur. $a^x = b$ şəklində tənliyin həlli $x = \log_a b$ şəklində tapılır.

Məsələ və misalların həlli zamanı üstlü tənliklərin müxtəlif şəkillərinə rast gəlirik. Bunların həlli bəzən o qədər də sadə və asan olmur. Ona görə də burada müxtəlif şəkillərdə verilmiş tipik üstlü tənliklərə və onların həlli nümunələrinə baxacağıq.

**1.** $ma^{2x} + na^x + l = 0$ şəklində verilmiş üstlü tənliyə baxaq. Belə tənliklərin həlli üçün $a^x$=t əvəzləməsini aparmaqla, $mt^2 + nt + l = 0$ şəklində $t$-yə nəzərən kvadrat tənlik alırıq. Bu kvadrat tənliyin köklərini $t = \dfrac{-b \pm \sqrt{n^2 - 4ml}}{2m}$ düsturu ilə tapırıq. Belə ki, burada $n^2 - 4ml \geq 0$ olduqda bu tənliyin həqiqi kökləri var. Tənliyin kökləri $t_1$ və $t_2$ olarsa, bu köklərin ancaq müsbət olanı və ya olanları götürülür. Əgər $t_1$ və $t_2$ hər ikisi mənfi ədəd olarsa, onda $a^x = t$ əvəzləməsindən alınan tənliyin həlli yoxdur. Yəni, $t_1$ və $t_2$ köklərindən asılı olaraq, verilmiş tənliyin bir və ya iki kökü ola bilər və yaxud kökü olmaya bilər.

**2.** $a^x + b^x = c(0, b > 0, c > 0, a \neq 1, b \neq 1, c \neq 2)$ şəklində verilmiş üstlü tənliyə baxaq. Belə tənliklərdə $a^x$ ilə $b^x$ arasında birinin digəri ilə ifadə olunması üçün bir əlaqə olmadıqda, tənliyin həlli çətinləşir.

Məsələn, $3^x + 4^x = 83$ tənliyinin həllində $3^x$ ilə $4^x$ arasında birini digəri ilə ifadə edən bir asılılıq yoxdur. Odur ki belə tənliklərin həlli üçün qrafik üsul daha əlverişli üsuldur. Bunun həlli üçün $y = a^x$ və $y = -b^x + c$ funksiyalarinin qrafikləri qurulur. Qrafiklərin kəsişmə nöqtəsinin absisi verilmiş üstlü tənliyin həlli olur. Burada aşağıdakı hallar mümkündür:

1. $a > 1$ və $b > 1$;
2. $a > 1$ və $0 < b < 1$;
3. $0 < a < 1$ və $b > 1$;
4. $0 < a < 1$ və $0 < b < 1$.

Bu hallara ayrı-ayrılıqda nəzər salaq.

$a>1$ və $b>1$ olduqda $c>0$ olduğundan, $y=a^x$ və $y=-b^x+c$ funksiyalarinin qrafikləri yalnız bir nöqtədə kəsişir. Tənliyin ancaq bir həlli var. Eyni qaydada $0<a<1$ və $0<b<1$ olduqda $c>0$ olduğundan yenə də

$y=a^x$ və $y=-b^x+c$ funksiyalarının qrafikləri yalnız bir nöqtədə kəsişir. Yəni, tənliyin ancaq bir həlli var. Baxdığımız bu iki halın hər birinə aid bir misal göstərək.

**<u>Misal 1.</u>** $2^x+3^x=13$ üstlü tənliyini həll edin.

Bu tənliyin həlli üçün $y=2^x$ və $y=-3^x+13$ funksiyalarının qrafiklərini quraq (Şəkil 1). Bu qrafikləri adi qaydada cədvəl tərtib edib müəyyən qiymətlər verməklə qurmaq elə də çətin deyil. Nəticədə bu iki funksiyanı qrafikləri $M(2;4)$ nöqtəsində kəsişir. Burdan alırıq ki, $x=2$ verilmiş tənliyinin yeganə köküdür.

**<u>Misal 2.</u>** $\left(\frac{1}{2}\right)^x+\left(\frac{1}{3}\right)^x=\frac{5}{6}$ üstlü tənliyini həll edin.

Bu tənliyinin həlli üçün də eyni qaydada

$y=\left(\frac{1}{2}\right)^x$ və $y=-\left(\frac{1}{2}\right)^x+\frac{6}{5}$ funksiyaların qrafiklərini quraq. Bu qrafikləri də cədvəl tərtib edib, qiymətlər verməklə qurmaq olar (Şəkil 2).

Bu funksiyaların qrafikləri $M\left(1;\frac{1}{2}\right)$ nöqtəsində kəsişir. Burdan alırıq ki, verilmiş üstlü tənliyinin həlli $x=1$-dir.

Əgər üstlü tənlik $a>1$ və $0<b<1$ və ya $0<b<1$ və $b>1$ şəklində verilmişdirsə, $y=a^x$ və $y=-b^x+c$ funksiyalarının qrafikləri yenə də yuxarı yarımmüstəvidə ancaq iki nöqtə kəsişir. Deməli, bu iki halda tənliyin iki müxtəlif kökü olur. Aşağıdakı misala baxaq:

**<u>Misal 3.</u>** $3^x+\left(\frac{1}{2}\right)^x=3{,}5$ üstlü tənliyi həll edin.

Burada $y=\left(\frac{1}{2}\right)^x$ və $y=-3x+3{,}5$ funksiyalarının qrafikini quraq (Şəkil 13). Bu qrafiklər $M_1$ və $M_2$ nöqtələrində kəsişir. $M_2$ nöqtəsinin koordinatları $x_1=1$ və $y_1=\frac{1}{2}$ asanlıqla tapılır. $M_2$ nöqtəsinin koordinatları təqribi hesablanır. $M_2$-yə uyğun olan $x_2$ kökü üçün $-2<x_2<1{,}5$. Bir qədər də dəqiqləşdirmə aparsaq, $x_2\approx-1{,}8 y_2\approx 83{,}4$ təqribi qiymətlərini taparıq.



Şəkil 1 Şəkil 2 Şəkil 3

**3.** $a^x - b^x = c(a > 0, b > 0)$ şəklində $c$ hər hansı həqiqi ədəddir. $c = 0$ olduqda $a^x = b^x$ alınır ki, onda da $x = 0$. $c < 0$ – yəni $c$ mənfi ədəd olduqda tənliyin hər tərəfini $(-1)$ - ə vurmaqla $b^x + a^x = c(c > 0)$ almaq olar. Deməli, bu tipdə tənliklər həmişə $y = a^x$ və $y = b^x + c$ şəklində ifadə etməklə qrafiklər qura bilərik. Burada da $a$ və $b$ $2$-ci halda araşdırdığımız mümkün hallarda verilə bilər. Yəni,

$1.\, a > 1, b > 1,\quad 2.\, a > 1, 0 < b < 1,\quad 3.\, 0 < b < 1, b > 1\quad 4.\, 0 < a < 1,\ 0 < b < 1$

mümkün hallardır.

Bu hallara nəzərən $a > 1, b > 1$ olduqda $y = a^x$ və $y = b^x + c$ funksiyalarının qrafikləri koordinat müstəvisinin $I$ rübündə bir nöqtədə kəsişirlər. Yəni, tənliyin yeganə $x > 0$ müsbət həlli var.

$0 < a < 1$ və $a < b < 1$ olduqda eyni qaydada $y = a^x$ və $y = b^x + c$ funksiyalarının qrafikləri koordinat müstəvisinin $II$ rübündə bir nöqtədə kəsişirlər. Yəni bu tənliyin də yeganə, lakin $x < 0$ mənfi həlli var.

$a > 1$ və $c < b < 1$ və $0 < a < 1$ və $b > 1$ halları üçün də $y = a^x$ və $y = b^x + c$ funksiyalarının qrafikləri yuxarı yarımmüstəvidə $I$ və $II$ rübdə ancaq bir nöqtədə kəsişirlər. Yəni bu halda tənliyin yeganə olmaqla, həm müsbət, həm də mənfi ola bilər. Aşağıdakı misallara baxaq:

**Misal 4.** $5^x - 3^x = 2$ tənliyini həll edin. Tənliyin həlli üçün $y = 5^x$ və $y = 3^x + 2$ funksiyalarının qrafiklərini qursaq, bu qrafiklərin $M(1;5)$ nöqtəsində kəsişdiyini görərik. Yəni tənliyin $x = 1$ kökü var (Şəkil 4).

**Misal 5.** $\left(\frac{1}{2}\right)^x - \left(\frac{1}{3}\right)^x = -5$ tənliyi həll edin. Tənliyin həlli üçün $y = \left(\frac{1}{3}\right)^x$ və $y = \left(\frac{1}{2}\right)^x + 5$ funksiyaların qarfiklərini qurub, $x = -2$ kökünü alarıq (Şəkil 5).

**Misal 6.** $3x - \left(\frac{1}{5}\right)^x = \frac{-14}{3}$ tənliyin həll edin. Bu tənliyin həlli üçün $y = \left(\frac{1}{5}\right)^x$ və $y = 3^x + \frac{14}{3}$ funksiyalarının qrafiklərini qurub, $x = -1$ kökü tapırıq (Şəkil 6).




Şəkil 4 Şəkil 5 Şəkil 6

**4.** $a^x + b^x = c^x(a > 0, b > 0, c > 0)$ şəklində üstlü tənliklər. Belə tənliklərin həlli zamanı aşağıdakı şəkildə çevirmələr aparmaq olar: $a^x \neq b, b^x \neq 0$ və $c^x \neq 0$ olduğundan, bu tənliyin hər tərəfini bu qüvvətlərin birinə bölmək olar. Məsələn, hər tərəfi $c^x$ -ə bölsək, $\left(\frac{a}{b}\right)^x + \left(\frac{b}{c}\right)^x = 1$ şəklində tənlik alırıq. $\frac{a}{c} = t$ və $\frac{b}{c} = \frac{1}{t}$ əvəz etməklə $t^2 - t + 1 = 0$ şəklində tənlik alarıq ki, bunun da həqiqi ədədlər çoxıuğunda həlli yoxdur. Əgər $\frac{a}{b}\ \frac{b}{c} \neq 1$ olarsa, onda 2-ci bənddə olduğu kimi, $y = \left(\frac{a}{c}\right)^x$ və $y = -\left(\frac{a}{c}\right)^x 1$ funksiyalarının qrafiklərini qurmaqla, kəsişmə nöqtələrini tapıb verilən tənliyi həll etmək olar. Bəzən bu tipdə tənliklər daha ümumi şəkildə, $ma^x + nb^x = lc^2$ şəklində verilir. Bu halda da tənliyin hər tərəfini $c^x$ -ə bölməklə $mt + \frac{n}{t} = l$ və ya $mt^2 + = 0$ şəklində kvadrat tənlik alırıq. Bu kvadrat tənliyi həll etməklə verilmiş üstlü tənlik həll edilir.

Aşağıdakı misala baxaq.

**Misal 7.** $3\ 4^x + 2\ 9^x = 5\ 6^x$ tənliyini həll edin.

Tənliyin hər tərəfini $6^x$ -ə bölsək,

$3\left(\frac{4}{6}\right)^x+2\left(\frac{9}{6}\right)^x=5$ və ya $3\left(\frac{2}{3}\right)^x+2\left(\frac{3}{2}\right)^x=5$ alarıq. $\left(\frac{2}{3}\right)^x=t$ olarsa, onda $\left(\frac{2}{3}\right)^x=\frac{1}{t}$ qəbul etsək, $3t+2\frac{1}{t}=5$ və ya $3t^2-5t+2=0$ kvadrat tənliyini alırıq. Bu tənliyin həlli $t_1=1$ və $t_2=\frac{-2}{3}$ olur. Buradan da $\left(\frac{2}{3}\right)^x=1$ və ya $\left(\frac{3}{2}\right)^x=\left(\frac{3}{2}\right)^0$. Onda $x=0$ kökü alınır.

Baxdığımız bu hallarda əlavə kökaltı ifadələrlə üstlü tənliklər verilir. Bunların bir neçəsi maraqlı və çox rast gəlinən variantlarına baxaq.

5. $\left(\sqrt{a+\sqrt{a^2-1}}\right)^x+\left(\sqrt{a-\sqrt{a^2-1}}\right)^x=c\left(a,b,c>0 v\ a^2>1\right)$.

Beləliklə, tənliklərin həlli üçün kökaltı ifadələrin birinin digərinin qoşması və həm də hasilləri $1$-ə (vahidə) bərabər olduğunu bilərək,

$\left(\sqrt{a+\sqrt{a^2-1}}\right)^x=t$ və $\left(\sqrt{a-\sqrt{a^2-1}}\right)^x=\frac{1}{t}$ əvəz etməklə,

$t+\frac{1}{t}=c$ və ya $t^2-ct+1=0$ şəklində kvadrat tənlik alınır. Yenə də eyni qaydada bu tənliyin müsbət kökü və ya köklərinin əvəzləmədə yerinə yazmaqla verilmiş tənliyin köklərini tapırıq.

6. $\left(\sqrt{a+\sqrt{b}}\right)^x+\left(\sqrt{d-\sqrt{b}}\right)^x=a+d\left(a,d>0,d^2>b\right)$

Belə tənliklərdə $\sqrt{b}$ ifadəsinin tənliyin həllində sanki heç bir rolu yoxdur. Yəni verilmiş şərtlər daxilində $b$ istənilən ədəd olduqda tənliyin həlli dəyişmir. Tənliyin həlli üçün aşağıdakı əvəzləmələri aparaq:

$\left(\sqrt{a+\sqrt{b}}\right)^x=m$ və $\left(\sqrt{d-\sqrt{b}}\right)^x=n$ olsun. Onda $m+n=a+d$. Digər tərəfdən, $a+\sqrt{b}=m^{\frac{2}{x}}$ $(m>0)$ və $d-\sqrt{b}=n^{\frac{2}{x}}$ $(n>0)$. Bu tənlikləri tərəf-tərəfə toplasaq, $a+d=m^{\frac{x}{2}}+n^{\frac{2}{x}}$ alınır. Bu tənliklərdə $a+d=m+n$ olduğunu nəzərə alsaq, $\frac{2}{x}=1$ və ya $x=2$. Deməli, bu tipdə tənliklərin həlli üçün $x=2$ olur.

Xüsusi halda yuxarıdakı tənlikdə $a=d$ olduqda

$\left(\sqrt{a+\sqrt{b}}\right)^x+\left(\sqrt{a-\sqrt{b}}\right)^x=2a$ tənliyi alınır. Bu da eyni qaydada həll olunur. 6-cı bəndə aid aşağıdakı misalları göstərək.

**Misal 8.** $\left(\sqrt{3+\sqrt{5}}\right)^x+\left(\sqrt{4-\sqrt{5}}\right)^x=7$ tənliyini həll edin.

$\left(\sqrt{3+\sqrt{5}}\right)^x=m$ və $\left(\sqrt{4-\sqrt{5}}\right)^x=n$ əvəz edək. Onda $m+n=7$. Digər tərəfdən,

$3+\sqrt{5}=m^{\frac{2}{x}}$ və $4-\sqrt{5}=n^{\frac{2}{x}}$. Bu bərabərlikləri tərəf-tərəfə toplasaq, $m^{\frac{2}{x}}+n^{\frac{2}{x}}=7$ alınar. $m+n=7$ olduğunu nəzərə alsaq, onda $m+n=m^{\frac{2}{x}}+n^{\frac{2}{x}}$ alarıq. Buradan da $\frac{x}{2}=1$ və $x=2$.

Doğrudan da, $\left(\sqrt{3+\sqrt{5}}\right)^2+\left(\sqrt{4-\sqrt{5}}\right)^2=3+\sqrt{5}+4-\sqrt{5}=7$. Deməli, tənliyin kökü $x=2$-dir.

**Misal 9.** $\left(\sqrt{5+\sqrt{2}}\right)^x+\left(\sqrt{5-\sqrt{2}}\right)^x=10$ tənliyini həll edin. Bu tənliyin həllində eyni şəkildə əvəzləmə aparılır. $\left(\sqrt{5+\sqrt{2}}\right)^x=mv\left(\sqrt{5-\sqrt{2}}\right)^x=n$ olarsa, $m+n=10$ və $\sqrt{5+\sqrt{2}}=m^{\frac{2}{x}}$ və $\sqrt{5-\sqrt{2}}=n^{\frac{2}{x}}$ olduğunu nəzərə alsaq, $m^{\frac{2}{x}}+n^{\frac{2}{x}}=10$ və ya $m^{\frac{2}{x}}+n^{\frac{2}{x}}=m+n$ bərabərliyi alınar. Onda $\frac{x}{2}=1$ və $x=2$ alınır.

### Ədəbiyyat

1. M.C.Mərdanov və b. Cəbr və analizin başlanğıcı. IX–XI siniflər. Bakı, 2014
2. Ə.M.Məmmədov, R.Y.Şükürov. Elementar riyaziyyat. Bakı, 2010
3. V.Q.Boltyanskiy və b. Elementar riyaziyyatdan mühazirələr və çalışmalar. Moskva, 1972
4. Ə.M.Məmmədov. Funksiya və onun xassələri. Bakı, 2002
5. Y.S.Koçetkov və Y.S.Koçetkova. Cəbr və elementar funksiyalar. Bakı, 1976
6. M.X.Nəsibov. Məktəb kursunda riyazi analizin elementləri. Bakı, 1991

## SOLVING SOME TYPICAL EXPONENTIAL EQUATIONS

**F.N.Samadzadeh**

### SUMMARY

When solving exponential equations, one encounters typical ones which are hard to solve by algebraic methods. Therefore, in addition to algebraic methods, graphical methods for solving these equations are considered in this article. Examples are given.

## РЕШЕНИЕ НЕКОТОРЫХ ТИПИЧНЫХ ПОКАЗАТЕЛЬНЫХ УРАВНЕНИЙ

**Ф.Н.Самедзаде**

### РЕЗЮМЕ

При решении показательных уравнений встречаются типичные уравнения, решение которых алгебраическими методами составляет определенные трудности. Поэтому в статье, наряду с алгебраическими методами, рассмотрены также графические методы решения. Проведены исследования на конкретных примерах.

**2018 - № 48**

# FUNKSİYANIN QİYMƏTLƏR OBLASTININ TAPILMASI QAYDALARI

**M.B.Vəliyev, F.N.Səmədzadə**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail:samadzade.farahim@mail.ru

***Açar sözlər:*** funksiya, təyin oblastı, qiymətlər oblastı
***Keywords:*** function, domain, range
***Ключевые слова:*** функция, область определения, область значений

Orta məktəbin Cəbr və analizin başlanğıcı dərsliyində funksiya, onun qiymətlər oblastı, ən böyük və ən kiçik qiymətləri, funksiyanın tərsi haqqında zəruri bilgilər verilmişdir. Bu məqalədə məqsədimiz bu bilgiləri genişləndirməkdir.

Tərif: Əgər müəyyən $f$ qaydası və ya qanunu ilə $X$ çoxluğunun hər bir $x$ ədədinə müəyyən $y$ ədədi uyğun (qarşı) qoyularsa, bu uyğunluğa təyin oblastı $X$ olan funksiya deyilir.

Bu zaman $x$-ə qarşıqoyulan $y$-ə funksiyanın $x$ nöqtəsində aldığı qiymət deyilir və $f(x)$ kimi işarə olunur. $f$ aydasına funksiyanın xarekteristikası deyilir və funksiya $f, f(x)$, $y = f(x)$ kimi işarə olunur. Məsələn, $y = \sqrt{x}$ funksiyasının təyin oblastı $X = [0; +\infty)$ aralığı, xarekteristikası isə kök almadır.

$y = f(x)$ funksiyasının təyin oblastını $D_x$ və ya $D_f$ kimi işarə edəcəyik. Funksiyanın ala bildiyi bütün qiymətlərinin çoxluğuna onun qiymətlər oblastı və ya dəyişmə oblastı deyəcəyik, $D_y$ və ya $R_f$ kimi işarə edəcəyik:

$$D_y = \{f(x): x \in D_x\}$$

Funksiya $x$ və $y$ dəyişənləri arasındakı asılılıqdır. Bu zaman $x$ dəyişəninə sərbəst dəyişən və ya arqument, $y$ dəyişəninə isə asılı dəyişənin və ya $x$ dəyişəninin funksiyası deyilir.

Funksiya o zaman verilmiş hesab edilir ki, onun təyin oblastı və xarakteristikası verilmiş olsun.

Funksiya müxtəlif üsullarla verilə bilər: analitik üsul, qrafik üsul, cədvəl üsulu, sözlə ifadə üsulu və s. Analitik üsulla verilən funksiya düsturla ifadə olunur.

Məsələn, $f(x) = \sqrt{x^2 - 1}$ , $1 \leq x \leq 2$ funksiyası. Əgər analitik üsulla verilmiş funksiyanın təyin oblastı göstərilməmişsə, onda onun təyin oblastı olaraq arqumentin elə qiymətləri çoxluğu qəbul olunur ki, bu qiymətlərdə verilən düsturun mənası olsun.

Məsələn, $g(x) = \sqrt{x^2 - 1}$ funksiyasının təyin oblastı $D_x = (-\infty; -1] \cup [1; +\infty)$ çoxluğudur.

İki funksiya o zaman eyni və ya bərabər hesab olunur ki, onların təyin oblastları eyni olsun və arqumentin hər bir qiymətində həmin funksiyalar eyni qiymətlər alsınlar.

Məsələn, $f(x) = \sqrt{x^2 - 1}$, $1 \leq x \leq 2$ və $g(x) = \sqrt{x^2 - 1}$ funksiyaları bərabər deyillər, çünki onların təyin oblastları müxtəlifdir. $y = \frac{x^2}{x}$ və $y = x, x \neq 0$ funksiyaları

isə eyni funksiyalardır.

Tərif. Koordinat müstəvisinin $x \in D_f$, $y = f(x)$ olmaq şərtilə bütün mümkün $(x, y) = (x, f(x))$ nöqtələri çoxluğuna $y = (x)$ funksiyasının qrafiki deyilir.

Funksiyanın qrafiki onun haqqında dolğun məlumatları əyani göstərir. Funksiyanın tərifindən aydındır ki, ordinat oxuna paralel düz xətt qrafiki birdən artıq nöqtədə kəsə bilməz, absis oxuna paralel olan düz xətt isə qrafiki bir neçə, hətta sonsuz sayda nöqtədə kəsə bilər.

Əgər funksiyanın qrafikini qələmi vərəqdən ayırmaq şərtilə çəkmək mümkündürsə, onda belə funksiyaya kəsilməz funksiya deyilir. Əks halda ona kəsilən funksiya deyilir. Məsələn, $y = x^2$ funksiyası $(-\infty, +\infty)$ aralığında kəsilməzdir. $y = \frac{1}{x}$ funksiyası $(-\infty, 0)$ və $(0, +\infty)$ aralıqlarında kəsilməzdir, $x = 0$ nöqtəsində isə kəsilir.

Veyerştrass teoremi. $[a, b]$ parçasında kəsilməz olan funksiya bu parçada ən böyük və ən kiçik qiymətlərə malikdir.

Bu təklif interval və yarıminterval üçün doğru deyil. Məsələn, $f(x) = x,\ 0 < x < 1$ və $g(x) = \frac{1}{x}$, $0 < x < 1$ funksiyaları (0,1) intervalında kəsilməzdirlər, lakin (0,1) aralığında nə ən kiçik nə də ən böyük qiymətlərə malik deyillər.

Koşinin aralıq qiymət teoremi. Əgər $[a, b]$ parçasında kəsilməz olan $f(x)$ funksiyası parçanın uclarında heç olmazsa bir c nöqtəsində sıfır qiymətini alır. $f(c) = 0$.

Tutaq ki, $f(b) > 0$. Onda $f(x)$-in qrafikinin $A(a; f(a))$ ucu absis oxundan aşağıda, $B(b; f(b)$ ucu isə absis oxundan yuxarıda yerləşir.

Bu halda $A$ və $B$ nöqtələrini istənilən kəsilməz əyri, o cümlədən qrafiklə birləşdirsək, o, absis oxunu müəyyən $c$ nöqtəsində kəsəcək və deməli, $f(c) = 0$.

Veyerştrass və Kosi teoremlərindən çıxan nəticəyə görə, təyin olunduğu parçada kəsilməz olan funksiyanın qiymətlər oblastı da parçadır. Ümumiyyətlə, kəsilməz funksiya aralığı aralığa inikas edir.

Funksiyanın qiymətlər oblastının tapılmasının iki üsulunu göstərək.

Təyin oblastı $E = D_f$ olan $f(x)$ funksiyanın qiymətlər oblastı elə $y$ ədədləri çoxluğudur ki, $f(x) = y$ tənliyinin heç olmazsa bir $x \in E$ həlli olsun.

Misal 1. $f(x) = \frac{x-1}{x^2-x+1}$ funksiyasına baxaq. Onun təyin oblastı $D_x = (-\infty, +\infty)$ həqiqi oxudur. $f(x) = y$, yəni $\frac{x-1}{x^2-x+1} = y$ tənliyinin $y$-in hansı qiymətlərində həllinin olduğunu müəyyən edək. Bu tənlik $yx^2 - (1 + y)x + y + 1 = 0$ tənliyi ilə eynigüclüdür. Bu kvadrat tənliyin o zaman həlli var ki,

$$D = (1 + y)^2 - 4y(y + 1) = -3y^2 - 2y + 1 \geq 0$$

olsun. Burdan alırıq ki, funksiyanın qiymətlər oblastı $-1 \leq y \leq \frac{1}{3}$ parçasıdır.

Misal 2. $f(x) = \frac{sinx + cosx}{5 + cosx}$, $D_x = (-\infty; +\infty)$ funksiasına baxaq. $f(x) = y$, yəni

$$\frac{sinx + cosx}{5 + cosx} = y$$

tənliyini x-ə görə həll edək. Aşağıdakı tənliyi alırıq:

$$sinx + (1 - y)cosx = 5y$$

Köməkçi bucaq daxil etmə üsuluna görə bu tənliyin o zaman həlli var ki,

$$\left| \frac{5y}{\sqrt{1 + (1 - y)^2}} \right| \leq 1$$

olsun. Bu bərabərsizliyi həll edək.

$$5|y| \le \sqrt{2-2y+y^2} \Leftrightarrow \begin{cases} y^2-2y+2 \ge 0 \\ 25y^2 \le y^2-2y+2 \end{cases} \Leftrightarrow 25y^2 \le y^2+2 \Leftrightarrow$$

$$12y^2+y-1 \;\Leftrightarrow\; -\tfrac{1}{3} \le y \le \tfrac{1}{4}\;.\; D_y = [-\tfrac{1}{3}; \tfrac{1}{4}]$$

Misal 3. $f(x) = \sqrt{x^2+2x-3} + x$ funksiyasının təyin oblastı

$D_x = (-\infty; -3] \cup [1; +\infty)$

$f(x) = y$ tənliyi aşağıdakılarla ekvivalentdir:

$$\sqrt{x+2x-3} = y-x \quad \Leftrightarrow \begin{cases} x \le y \\ x^2+2x-3 = (y-x)^2 \end{cases}$$

$$\Leftrightarrow \begin{cases} x \le y \\ 2(1+y)x = y^2+3 \end{cases} \Leftrightarrow \begin{cases} x \le y \\ x = \frac{y^2+3}{2(1+y)} \end{cases}$$

Buradan alırıq ki,

$$\frac{y^2+3}{2(1+y)} \le y \Leftrightarrow \frac{y^2+2y-3}{2(1+y)} \ge 0$$

Bu bərabərsizliyi intervallar üsulu ilə həll etsək, $y \in [-3; -1) \cup [1; +\infty)$ alarıq. Deməli, $D_y = [-3; -1) \cup [1; +\infty)$. Aralıqda kəsilməz funksiyanın qiymətlər oblastı onun ən böyük və ən kiçik qiymətləri vasitəsilə də tapıla bilər. Orta məktəb dərsliyində parçada kəsilməz funksiyasının ən kiçik $m$ və ən kiçik $M$ qiymətlərinin tapılma qaydası verilmişdir. Bu halda funksiyanın qiymətlər oblastı $[m; M]$ parçası olur.

İndi isə tutaq ki, sonlu və ya sonsuz $E$ aralığında kəsilməz $f(x)$ funksiyası verilmişdir. $E$ aralığının uclarından hər hansı biri bu aralığa daxil olmaya da bilər. Fərz edək ki, həmin ucda funksiya sonlu və ya sonsuz limit qiymətinə malikdir. Funksiyanın $E$-dəki böhran nöqtələrindəki qiymətlərini, $E$-yə daxil olan ucdakı qiymətini və $E$-yə daxil olmayan ucunda limit qiymətini hesablayırıq. Bu qiymətlərin ən kiçiyi $A$, ən böyük $B$ olsun. Qeyd edək ki, burada $A = -\infty$ və $B = +\infty$ halları da mümkündür. Funksiyanın qiymətlər oblastı ucları $A$ və $B$ olan aralıq olur. Bu uclar aralığa daxil ola da, olmaya da bilər. Əgər $A$ və ya $B$ funksiyanın yuxarıda tapdığının qiymətlərindən biridirsə həmin uc qiymətlər oblastına daxildir, əks halda daxil deyil.

Misal 4. $y = \sqrt{x^2+x+2}$-$\sqrt{x^2+2+8}$ funksiyasına baxaq. Bu funksiyanın təyin oblastı

$D_y = (-\infty; +\infty)$

$$y' = \frac{2x+1}{2\sqrt{x^2+x+2}} - \frac{2x+2}{2\sqrt{x^2+x+8}}$$

$y' = 0$ tənliyini həll edək:

$$(2x+1)\sqrt{x^2+2x+8} = (2x+2)\sqrt{x^2+x+2}$$

$$(4x^2+4x+1)\,(x^2+2x+8) =$$

$$(4x^2+8x+4)(x^2+x+2)$$



$$41x^2+34x = 20x^2 + 20x$$

$21x^2 + 14x = 0, x_1 = 0, x_2 = -\frac{2}{3}$

$y(0) = \sqrt{2}$-$\sqrt{8}$=$-\sqrt{2}$

$y\left(-\frac{2}{3}\right) = -\frac{4}{3}$

$$\lim_{x\to+\infty} y(x) = \lim_{n\to+\infty} \frac{-x-6}{\sqrt{x^2+x+2}+\sqrt{x^2+2x+8}} =$$

$$= \lim_{x\to+\infty} \frac{-1-\frac{6}{x}}{\sqrt{1+\frac{1}{x}+\frac{2}{x^2}}+\sqrt{1+\frac{2}{x}+\frac{8}{x^2}}} = \frac{-1}{1+1} = -\frac{1}{2}$$

$$\lim_{x\to-\infty} y(x) = \lim_{x\to-\infty} \frac{1+\frac{6}{x}}{\left(-\frac{1}{x}\right)\left(\sqrt{x^2+2x+2}+\sqrt{x^2+2x+8}\right)} =$$

$$\lim_{x\to-\infty} \frac{1+\frac{6}{x}}{\sqrt{1+\frac{1}{x}+\frac{2}{x^2}}+\sqrt{1+\frac{2}{x}+\frac{8}{x^2}}} = \frac{1}{1+1} = \frac{1}{2}$$

$-\sqrt{2} < -\frac{4}{3} < -\frac{1}{2} < \frac{1}{2}$ olduğundan, funksiyanın qiymətlər oblastı $D_y = [-\sqrt{2}\ ;\frac{1}{2})$ olar.

Misal 5.

$$y = \frac{\sqrt[3]{1+x}-1}{x}\ ;\ x \neq 0$$

funksiyasının qiymətlər oblastını tapaq. Aydındır ki, $D_x$ =$(-\infty; 0) \cup (0; +\infty)$ $x$-in sürətindəki dərəcəsi məxrəcdəki dərəcəsindən kiçik olduğundan

$\lim_{x\to-\infty} y(x) = 0;\ \lim_{x\to+\infty} y(x) = 0$

Sürət və məxrəci sürətin qoşmasına vurmaqla alırıq ki,

$$\lim_{x\to 0} y(x) = \lim_{x\to 0} y(x) \frac{1}{\sqrt[3]{(1+x)^2}\ \sqrt[3]{1+x}+1} = \frac{1}{3}$$

$$y' = \frac{\frac{x}{3\sqrt[3]{(1+x)^2}} - \sqrt[3]{1+x}+1}{x^2} = \frac{-2x-3+3\sqrt[3]{(1+x)^2}}{3x^2\sqrt[3]{(1+x)^2}}$$

$$y' = 0 \Rightarrow 3\sqrt[3]{(1+x)^2} = 2x+3 \Rightarrow x(8x+9) = 0 \Leftrightarrow x = -\frac{9}{8}$$

$y\left(-\frac{9}{8}\right) = \frac{-\frac{1}{2}-1}{-\frac{9}{8}} = \frac{4}{3}$ Buradan alırıq ki, $D_y = (0; \frac{4}{3}]$.



Misal 6. $y = e^{-x}sinx$ funksiyanın $0 \le x \le +\infty$ aralığında qiymətlər oblastını tapaq. $y(0) = 0$,

$\lim_{x\to 0} y(x) = 0.$

$y' = e^{-x}(\cos x - \sin x) = \sqrt{2}\, e^{-x} \cos(x + \frac{\pi}{4})$. $y' = 0 \Rightarrow x + \frac{\pi}{4} = \frac{\pi}{2} + n\pi$,

$x = \frac{\pi}{4} + n\pi, n = 0,1,2,\ldots$. $y = \left(\frac{\pi}{4} + n\pi\right) = e^{-\frac{\pi}{4}+n\pi} \sin\left(\frac{\pi}{4} + n\pi\right), n = 2k$ qiymətlərində $y\left(\frac{\pi}{4} + n\pi\right) = \frac{1}{\sqrt{2}} e^{-\left(\frac{\pi}{4}+2\pi n\right)}$ və $n = 2k + 1$ qiymətlərində isə $y\left(\frac{\pi}{4} + n\pi\right) = \frac{1}{-\sqrt{2}} e^{-\left(\frac{5\pi}{4}+2kn\right)}$. Bu ədədlərin ən kiçiyi $\frac{1}{-\sqrt{2}} e^{-\frac{5\pi}{4}}$, ən böyüyü isə $\frac{1}{\sqrt{2}} e^{\frac{\pi}{4}}$ olduğundan, $D_y = \left[-\frac{1}{\sqrt{2}} e^{-\frac{5\pi}{4}}; \frac{1}{\sqrt{2}} e^{\frac{\pi}{4}}\right]$.

## ÇALIŞMALAR

Funksiyaların dəyişmə oblastlarını tapın.

1.$y = \frac{x}{x^2+x+1}$ $\left(D_y = \left[-\frac{1}{3}; 1\right]\right)$

2.$y = \frac{x-1}{x^2-x+2}$ $\left(D_y = \left[-\frac{1}{2}; \frac{1}{2}\right]\right)$

3. $y = \frac{cos2x}{1+sinxcosx}$ $\left(D_y = \left[-\frac{2}{\sqrt{3}}; \frac{2}{\sqrt{3}}\right]\right)$

4. $y = \frac{sinx+2cosx}{\sqrt{2}+cosx}$ $\left(D_y = [-5; 1]\right)$

5. $y = \sqrt{x^2 - x + 2}$ $\left(D_y = \frac{1}{2}; +\infty)\right)$

6. $y = \sqrt{x+1} - \sqrt{x}$ $(D_y = (0; 1))$

7. $y = xe^x$ $\left(D_y = \left(-\frac{1}{e}; +\infty\right)\right)$

8. $y = \frac{\sqrt{1+x}-1}{x}$ $\left(D_y = \left(0; \frac{1}{2}\right) \cup \left(\frac{1}{2}; 1\right]\right)$

9.$y = 3cos^2x + 3sinxcosx - sin^2x$ $(D_y = [-1{,}5; 3{,}5])$

10. $y = 5cos^2x + 5sinxcosx - 7sin^2x$ $(D_y = [-0{,}5; 12{,}5])$

11.$y = e^{-x}cosx$ $\left(D_y = \left[-\frac{1}{\sqrt{2}} e^{-\frac{5\pi}{4}}; \frac{1}{\sqrt{2}} e^{-\frac{7\pi}{4}}\right]\right.$

12. .$y = x - \sqrt{x^2 - 3x + 2}$ $\left(D_y = [1; 2]; \left\{\frac{3}{2}\right\}\right)$

13.$y = \frac{lnx}{x}, x > 0$ $\left(D_y = \left(\left[-\infty; \frac{1}{e}\right]\right)\right)$

14. $y = \sqrt{3x+1} - \sqrt{2x+1}$ $\left(D_y = \left(-\frac{1}{3}; +\infty\right]\right)$

15.$y = \frac{\sqrt{x}+1}{\sqrt{x}+1}$ $\left(D_y = \left(\left[\frac{1}{\sqrt{2}}; 1\right]\right)\right)$

16.$y = 3x^4 - 8x^3 - 6x^2 + 24x + 1$ $(D_y = ([15; +\infty))$



**Ədəbiyyat**

1. M.C.Mərdanov və b. Cəbr və analizin başlanğıcı. IX–XI siniflər. Bakı, 2014.

2. Ə.M.Məmmədov, R.Y.Şükürov. Elementar riyaziyyat. Bakı, 2010
3. V.Q.Boltyanskiy və b. Elementar riyaziyyatdan mühazirələr və çalışmalar. Moskva, 1972
4. Ə.M.Məmmədov. Funksiya və onun xassələri. Bakı, 2002
5. Y.S.Koçetkov və Y.S.Koçetkova. Cəbr və elementar funksiyalar. Bakı, 1976
6. M.X.Nəsibov. Məktəb kursunda riyazi analizin elementləri. Bakı, 1991

## THE RULES TO FIND THE RANGE OF A FUNCTION

**M.B.Valiyev, F.N.Samadzadeh**

### SUMMARY

Usually, it is somehow difficult to find the range of a function in the framework of secondary school curriculum. Sometimes it proves impossible to make use of standard rules. Therefore, the issues concerning the range of a function are considered in this paper using different methods. The rules of finding the ranges of continuous and discontinuous functions in finite and infinite intervals are also considered. Examples are given.

## ПРАВИЛА НАХОЖДЕНИЯ ОБЛАСТИ ЗНАЧЕНИЙ ФУНКЦИИ

**М.Б.Велиев, Ф.Н.Самедзаде**

### РЕЗЮМЕ

Поиск области значений функции в школьном курсе обычно составляет некоторые трудности. Так, не всегда возможно применение стандартных правил. Поэтому в статье, с помощью различных методов, рассмотрены вопросы, касающиеся области значений функции. Также рассмотрены правила определения области значений для непрерывных и разрывных функций в конечных и бесконечных интервалах. Приведены конкретные примеры.

# İ N F O R M A T İ K A

# B Ö L M Ə S İ

# S E C T I O N   O F

# I N F O R M A T I C S

# PSEVDOTƏSADÜFİ ƏDƏDLƏR ARDICILLIQLARININ ŞİFRLƏMƏ PROSESLƏRİNƏ TƏTBİQİ

**G.C.İsgəndərova**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: gunel_asg@mail.ru

***Açar sözlər:*** psevdotəsadüfi ədədlər, deterministik xaos, şifrləmə, kriptoqrafik açar
***Keywords:*** pseudo-random numbers, deterministic chaos, encryption, cryptographic key
***Ключевые слова:*** псевдослучайные числа, детерминистический хаос, шифрование, криптографический ключ

İnformasiya nəzəriyyəsi və kriptoqrafiyanın əsası sayılan "Riyazi rabitə nəzəriyyəsi" və "Məxfi sistemlərdə rabitə nəzəriyyəsi" əsərlərinin müəllifi K.Şennona görə [1] şifrlənmiş verilənlərin statistik analizdən müdafiəsi üçün iki üsuldan istifadə edilməsi zəruridir: səpələnmə (diffusion) və qarışdırılma (confusion). Bu proseslər elə aparılmalıdır ki, alqoritm məlum olduqda belə kənar şəxs ilkin verilənləri bərpa edə bilməsin. Səpələnmə və qarışdırılma proseslərinin keyfiyyətli aparılması məqsədilə, əksər hallarda, kriptoqrafik açar kimi təsadüfi ədədlər ardıcıllığından istifadə edilməsi məqsədəuyğun sayılır. Səpələnmə prosesi zamanı şifrlənməsi tələb olunan informasiyanı təşkil edən struktur vahidlər (informasiya bitləri, simvollar, piksellər və s.) psevdotəsadüfi ədədlər ardıcıllığının elementləri ilə müəyyən edilən mövqelərə səpələnir (yerləri dəyişdirilir). Qarışdırılma prosesində isə, bir qayda olaraq, verilənləri təşkil edən elementlər ($t_i$) hər hansı bir üsulla generasiya edilmiş təsadüfi ədədlər ardıcıllığının elementləri ($k_i$) ilə 2 moduluna görə (XOR -"istisnalı və ya" məntiqi əməliyyatı) toplanılır. Belə bir məntiqi əməliyyatdan istifadə edilmənin üstünlüyü ondan ibarətdir ki, alınan $s_i$ elementi yenidən $k_i$ elementi ilə mod 2-yə görə topladıqda ilkin $t_i$ elementi alınmış olur. Yəni, ilkin (şifrlənməli) informasiyanın i-ci elementinin ikilik kodu $t_i$=10110101, təsadüfi elementin ikilik kodu $k_i$=00010110 olduqda mod 2-yə görə toplama əməliyyatını yerinə yetirdikdən sonra

$$s_i = t_i \oplus k_i = 10110101 \oplus 10010110 = 00100011$$

alınar. $s_i$ elementinin ikilik kodu ilə $k_i$ elementinin ikilik kodu üzərində təkrar mod 2-yə görə cəmləmə əməliyyatı yerinə yetirdikdə ilkin $t_i$ kodu alınmış olur:

$$00100011 \oplus 10010110 = 10110101.$$

Belə çevirmə əməliyyatları simmetrik şifrləmə üsullarının əsasını təşkil edir və bu daha çox o halda effekt verir ki, $k_i$ elementləri bir-birindən asılı olmasın və təkrarlanmasın, yəni, əsl təsadüfi elementlər çoxluğundan ibarət olsun. Lakin qeyd etmək lazımdır ki, real sistemlərdə əsl təsadüfi ədədlərdən istifadə etmək mümkün olmur [2]. Əsl təsadüfi ədədlərdən istifadənin çətinliyi onlara alternativ olan psevdotəsadüfi ədədlərdən istifadəni zəruri edir.

**Psevdotəsadüfi ədədlər**

Psevdotəsadüfi ədədlər hər hansı başlanğıc ədəd (seed) əsasında determinik alqoritmlərlə hesablanır [2-3]. Başlanğıc ədədi bilməklə sonrakı bütün psevdotəsadüfi ədədləri qabaqcadan müəyyən etmək olar, məhz buna görə kriptoqrafik sistemlərdə başlanğıc ədəd, bir qayda olaraq, açar kimi istifadə edilir.

Bu günədək istifadə olunan çoxsaylı psevdotəsadüfi ədədlər generatorlarının hər birinin özünəməxsus xüsusiyyətləri, müsbət və mənfi cəhətləri vardır. Fon Neyman tərəfindən təklif olunmuş klassik psevdotəsadüfi ədədlər generatorunun [4] alqoritmi ona əsaslanır ki, əvvəlcə, onluq say sistemində olan hər hansı bir çoxrəqəmli ədəd (məsələn, 45869127) seçilir, onun ortadakı rəqəmlərindən bir qrupu (8691) götürülərək kvadrata yüksəldilir, alınmış ədədin (75533481) ortadakı eyni sayda rəqəmlərindən ibarət ədəd (5334) yenidən kvadrata yüksəldilir və proses bu qayda ilə lazımi sayda ədədlərin alınmasınadək davam etdirilir. Alqoritm "ortada olanların kvadratı" adını almışdır, onun reallaşdırılması sadədir və hər bir iterasiyadan sonra alınmış ədədlər ardıcıllığındakı təsadüfilik kifayət qədərdir. Bu alqoritmin əsas çatışmazlığı ondan ibarətdir ki, sıfırların üstünlük təşkil etdiyi ədədin kvadrata yüksəldilməsindən sonra alınan ədədlər sıfırlardan ibarət olacaqdır (məs., $3000^2$=9000000, $0000^2$=0000, və s.) ki, bu da yolverilən hal sayılmır.

Daha geniş tətbiq olunan digər üsul Lemer tərəfindən təklif olunmuşdur və xətti kongruent üsul adlanır [4-5]. Alqoritm aşağıdakı iterativ bərabərlik əsasında təsadüfi ədədlər ardıcıllığını generasiya edir:

$$X_{n+1} = (aX_n + c) \bmod m. \tag{1}$$

Bu üsulda dörd parametrdən istifadə olunur: *m*- modul (sistemin əsası), *a*-vuruq, *c*-artım, $X_0$-başlanğıc qiymətdir. Burada modulun qiyməti sıfırdan böyük, *a, c,* $X_0$ kəmiyyətləri isə mənfi olmayan və *m*-dən böyük olmayan ədədlər olmalıdır, yəni, $m > 0$, $0 \le a < m$, $0 \le c < m$, $0 \le X_0 < m$ şərtləri ödənməlidir. *a, m, c* parametrləri tam ədəd olarsa, baxılan alqoritm əsasında tam təsadüfi ədədlər ardıcıllığı generasiya olunacaqdır. Parametrlərin düzgün seçilməsinin çətinliyi alqoritmin əsas çatışmazlığı hesab olunur.

Psevdotəsadüfi ədədlərin alınması üçün aşağıdakı determinik xaotik çevirmə funksiyalarından geniş istifadə olunur [6-12]:

1. Feygenbaum logistik xəritəsi:

$$x_{n+1} = rx_n(1 - x_n), \tag{2}$$

burada $r_1$ əmsalı [3.6, 4], $x_0$ başlanğıc qiyməti isə [0,1] intervalında dəyişir.

2. Diskret Lorens funksiyası:

$$x_{t+1}=1-2*/x_t/, \tag{3}$$

burada $x_0$=[-1; +1].

3. Çebışev xaotik ardıcıllığı:

$$x_{n+1} = 2 \cdot x_n^2 - 1, \tag{4}$$

burada $x_0$=[-1; +1].

4. Bernulli funksiyası:

$$y(x) = \begin{cases} \dfrac{x}{\mu}, & 0 \le x < \mu \\ \dfrac{x-\mu}{1-\mu}, & \mu \le x \le 1. \end{cases} \quad (5)$$

5. Henon diskret funksiyası:

$$x_{n+1} = 1 - \alpha x_n^2 + y_n,$$
$$y_{n+1} = \beta x_n, \quad (6)$$

burada $x_n$ və $y_n$ dinamiki dəyişənləri, $\alpha$ və $\beta$ isə sistemin parametrləridir. $\beta$=0 olduqda Henon funksiyası $x_{n+1} = 1 - \alpha x_n^2$ birölçülü logistik funksiyaya çevrilir.

Ədəbiyyatda bu funksiyaların müxtəlif modifikasiyalarla informasiyanın şifrlənməsi məsələlərinə tətbiqi haqqında kifayət qədər geniş məlumat vardır [8-10]. Qeyd etmək lazımdır ki, kriptoqrafik sistemlərdə tətbiq olunması baxımından həm klassik "ortada olanların kvadratı" və xətti kongruent üsullar, həm də determinik xaotik çevirmə funksiyalarının bir ümumi çatışmazlığı vardır. Belə ki, baxılan funksiyalarla alınan psevdotəsadüfi ədədlər ardıcıllığında bir və ya ardıcıl gələn bir neçə element məlum olduqda, digər elementləri asanlıqla müəyyən etmək olur [2, 4]. Bu səbəbdən, həmin ardıcıllıqların istifadə olunması üçün onların müxtəlif üsullarla modifikasiya edilməsinə ehtiyac yaranır.

Ümumiyyətlə, psevdotəsadüfi ədədlər ardıcıllığının elementləri arasında statistik asılılığın zəiflədilməsi, kriptoqrafik sistemlərdə istifadə oluna bilməsi baxımından, aktual məsələdir və bu baxımdan bir neçə psevdotəsadüfi ardıcıllıqların elmentlərinin kombinə edilməsi yolu ilə yeni bir ardıcıllığın alınması üsulları maraq doğurur.

**Psevdotəsadüfi ədədlər ardıcıllığı alınmasının təklif edilən üsulu**

Bu məqalədə bir neçə determinik xaotik çevirmə funksiyaları əsasında generasiya olunmuş psevdotəsadüfi ədədlər ardıcıllıqlarının elementlərinin kombinə edilməsi yolu ilə yeni psevdotəsadüfi ədədlər ardıcıllığının alınması üsuluna baxılmışdır. Üsulun mahiyyəti ondan ibarətdir ki, eyni dəyişmə diapazonuna malik iki generatordan generasiya olunan $L_n$ *və* $M_n$ ardıcıllıqları əsasında yeni bir $K_n$ psevdotəsadüfi ədədlər ardıcıllığı alınır. $K_n$ ədədlər ardıcıllığının elementləri $K_i = L_i \oplus M_i$ ifadəsinə əsasən hesablanılır. Burada, $\oplus$ işarəsi 2 moduluna görə toplama əməliyyatını bildirir.




Şəkil 1. İki psevdotəsadüfi ədədlər ardıcıllığı elementlərindən yeni psevdotəsadüfi ədədlər ardıcıllığının alınmasının funksional sxemi

## Effektivlik analizi

Psevdotəsadüfi ədədlər ardıcıllığının elementləri arasında asılılığın azaldılması üçün təklif olunan bu üsulun Delphi proqramlaşdırma mühitində reallaşdırdığımız nümunəsində psevdotəsadüfi ədədlər ardıcıllığı kimi “Feygenbaum logistik xəritəsi”nə (2) əsaslanan funksiyadan istifadə edilmişdir. Giriş ardıcıllıqları və onların elementlərindən kombinə edilmiş çıxış ardıcıllığı qrafiki olaraq Şəkil 2-də təsvir edilmişdir. Vizual olaraq, hər bir təsvirin (Şəkil 2, a-c) xaotik prosesi əks etdirdiyi və elementlərinin təsadüfi paylandığı görünür. Bununla bərabər, qeyd etmək lazımdır ki, təsadüfiliyin yoxlanılması üçün çoxlu sayda testlər vardır və onlardan da ən çox istifadə olunanları Amerikanın NİST standartlarıdır [8]. İstifadə etdiyimiz üç giriş ardıcıllıqları və onların elementlərindən kombinə edilmiş yeni psevdotəsadüfi ardıcıllıq NİST standartlarına daxil olan testlərdən biri ilə yoxlanılmışdır. Bu testin mahiyyəti ondan ibarətdir ki, ardıcıllıqda olan elementlərin ikilik kodlarında “1” və “0”-ların nisbəti yoxlanılır. İdeal təsadüfi ardıcıllıqda vahid və sıfırların sayı bərabər olmalıdır. Bizim hesablamalarda 30 fərqli giriş verilənləri əsasında hər iki giriş funksiyası və onların elementlərindən kombinə edilmiş yeni ardıcıllıq üçün alınmış orta göstəricilər cədvəldə verilmişdir. Göründüyü kimi, yeni ($K_n$) ardıcıllığın elementlərinin ikilik kodlarında “1”-lər ümumi sayın 51,2 %-ni, “0”-lar isə 48,8 %-ni təşkil etmişdir ki, bu da digər iki ($L_n$, $M_n$) ardıcıllıqlar üçün olan göstəricilərə çox yaxındır. Yoxlamanın nəticəsi sübut edir ki, alınmış yeni ardıcıllığın elementlərinin təsadüfiliyi pozulmamışdır.




Şəkil 2, a. $L_n$ psevdotəsadüfi ədədlər ardıcıllığının qrafik təsviri ($r1$=3.95; $x_0'$=0.63)




Şəkil 2, b. $M_n$ psevdotəsadüfi ədədlər ardıcıllığının qrafik təsviri ($r2$=3.98; $x_0''$=0.36)




Şəkil 2, c. $K_n$ psevdotəsadüfi ədədlər ardıcıllığının qrafik təsviri

Bundan əlavə, müxtəlif başlanğıc qiymətlər əsasında hesablanmış $L_n$ *və* $M_n$ psevdotəsadüfi ədədlər ardıcıllıqlarının elementləri ilə yekun ($K_n$) ardıcıllığın elementləri arasında korrelyasiya asılılıqları da yoxlanılmışdır. Nəticə qənaətbəxşdir, belə ki, giriş parametrlərinin 50 müxtəlif variantında aparılan hesablamaların nəticələrinə görə çıxış ardıcıllığı ilə giriş ardıcıllıqları arasında korrelyasiya əmsallarının orta qiyməti, uyğun olaraq, 0.086 və 0.073 olmuşdur. Korrelyasiya asılılığının zəif olması giriş ardıcıllıqları əsasında yekun ardıcıllığın proqnoz edilməsinin mümkün olmamasına və ya çox çətin olmasına dəlalət edir.

Cədvəl 1. Psevdotəsadüfi ədədlər ardıcıllıqlarında elementlərin statistik göstəriciləri

| | $L_n$ ardıcıllığı | $M_n$ ardıcıllığı | $K_n$ ardıcıllığı |
|---|---|---|---|
| "1"-lərin miqdarı | 52.9 % | 51.4 % | 51.2 % |
| "0"-ların miqdarı | 47.1% | 48.6% | 48.8% |
| $K_n$ ardıcıllığı ilə korrelyasiya asılılığı | 0.086 | 0.073 | - |

Təklif olunan üsulun əsas üstünlüyü ondan ibarətdir ki, yeni psevdoardıcıllığın ($K_n$) müəyyən elementləri kənar şəxsə (bədniyyətliyə) məlum olduqda, həmin elementlərdən əvvəl və ya sonra gələn elementləri real vaxt ərzində hesablamaq mümkün olmur və bu, bir daha təsdiq edir ki, alınmış psevdotəsadüfi ardıcıllıq kriptoqrafik sistemlərdə istifadə oluna bilər. Bundan əlavə, psevdotəsadüfi ardıcıllığın yaradılması üçün istifadə olunan ilkin açar sahəsi də xeyli genişləndirilmiş olur. Baxdığımız nümunəyə görə, sadə halda, başlanğıc qiymətlər kimi giriş funksiyalarının hər birində *r1* (*r2*) və $x_0'$ ($x_0''$) şifrləmə sistemin ümumi açarının tərkib hissələridir və onların hər birinə 32 bit ayrılarsa, onda açar sahəsinin ümumi uzunluğu 128 bit olacaqdır. Lakin, ilkin ardıcıllıqların bütün elementlərindən deyil, onların müəyyən bir həddindən başlayaraq istifadə olunması, həmçinin giriş funksiyalar kimi iki deyil, üç və daha artıq funksiyalardan istifadə etməklə açar sahəsini daha da genişləndirmək olar ki, bu da kənar şəxslərin müdaxiləsi zamanı bütün variantlardan istifadə etməklə açarların tapılması üsulunu tamamilə əlverişsiz edər.

## Nəticə

Şifrləmə proseslərində istifadə üçün iki psevdotəsadüfi ədədlər ardıcıllığının elementlərindən yeni psevdotəsadüfi elementlər ardıcıllığının alınması təklif olunmuşdur. Hesablamalarla yoxlanılmışdır ki, alınan ardıcıllığın elementlərinin təsadüfilik səviyyəsi ilkin ardıcıllıqların elementlərinin təsadüfilik səviyyələrindən aşağı deyil. Bununla bərabər, yeni psevdotəsadüfi ədədlər ardıcıllığının bir və ya bir neçə elementi məlum olduqda onun digər elementlərini hesablamaq mümkün olmur. Açar sahəsinin kifayət qədər genişləndirilməsinə imkan verdiyi də nəzərə alınarsa, təklif edilən üsulun şifrləmə proseslərində tətbiqinin effektiv olacağı qənaətinə gəlmək olar.

## Ədəbiyyat


1. К.Шеннон. Теория связи в секретных системах. /http://kek.ksu.ru/student/crypto/files/shannon.pdf
2. Н.Птицын. Приложение теории детерминированного хаоса в криптографии. М. 2002, 80 с.
3. Н.Фергюсон, Б.Шнайер. Практическая криптография, 2005, 424 с.
4. Д.Э.Кнут. Искусство программирования - 3-е изд. - М.: Вильямс, 2000. - Т. 2- 832 с.
5. www.wikipedia.org/wiki/Линейный_конгруэнтный_метод
6. Б.Шнайер. Практическая криптография, 2-е издание, 610 с. (https://htrd.su/wiki/_media/zhurnal/2012/03/23/todo_prikladnaja_kriptografija/cryptoshn.pdf)
7. А.Б.Бегесинова. Защита информации с помощью динамического хаоса при передаче по каналам связи. Магист. дисс., Алматы, 2014, 88 с.
8. Б.Я.Рябко, А.Н. Фионов. Криптографические защиты информации. Учебное пособие, М.2005, 229 с.
9. А.А.Чураев. Защита информации посредством применения хаотических отображений, автореферат дисс.на соиск.к.ф.м.н., Москва, 2007, 24 с.
10. В.М.Довгаль, В.В.Гордиенко, М.О.Никитин. Способ иерархической криптографии на основе дискретных отображений // Эл.научный журнал Курского Государственного Университета, 2014, №1
11. Р.Л.Политанский, П.М.Шпатарь, А.В.Гресь, А.Д.Верига. Система передачи данных с шифрованием хаотическими последовательностями // Технология и конструирование в электронной аппаратуре, 2014, №2–3 (Система передачи и обработки сигналов), Украина, с.28-32
12. А.В.Сидоренко, И. В. Шакинко, Ю. В. Сидоренко. Алгоритм шифрования изображений с использованием двумерных хаотических отображений // Системный анализ и прикладная информатика, 2016, №2, с.44-49
13. А.П.Алферов, А.Ю.Зубов, А.С.Кузьмин, А.В.Черемушкин. Основы криптографии. Учебное пособие, Москва, 2002, 480 с.
14. Arun S.Menon, Sarila K.S. Image encryption based on chaotic algorithms: An overview // International Journal of Science, Engineering and Technology Research (IJSETR), Volume 2, No 6, June 2013, 1328-1332.


## APPLICATION OF SEQUENCES OF PSEUDO-RANDOM NUMBERS IN THE PROCESSES OF ENCRYPTION

**G.J.Isgandarova**

## SUMMARY

The problem of decreasing the statistical dependence between the elements of a pseudo-random sequence for cryptographic problems is considered. Transformations describing the processes of deterministic chaos are used as input sequences. The weakening of the dependencies between the elements of the input sequences is carried out on the ba-

sis of the principle of selecting and converting individual elements by the logical operations XOR.

## ПРИМЕНЕНИЕ ПОСЛЕДОВАТЕЛЬНОСТЕЙ ПСЕВДОСЛУЧАЙНЫХ ЧИСЕЛ В ПРОЦЕССАХ ШИФРОВАНИЯ

**Г.Дж.Искендерова**

### РЕЗЮМЕ

Рассматривается задача ослабления статистической зависимости между элементами псевдослучайной последовательности для криптографических задач. В качестве входных последовательностей используются преобразования, отображающие процессы детерминированного хаоса. Ослабление зависимостей между элементами входных последовательностей осуществляется на основе принципа выбора и преобразования отдельных элементов логическими операциями XOR.

# T İ B B

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# M E D I C I N E

**2018 - № 48**

# ЧАСТОТА ВСТРЕЧАЕМОСТИ ЦИТОМЕГАЛОВИРУСНОЙ ИНФЕКЦИИ У ВЗРОСЛЫХ ПАЦИЕНТОВ С РАЗЛИЧНЫМИ ПАТОЛОГИЯМИ В г.БАКУ

**М.Г.Алиев**
Азербайджанский Медицинский Университет
Баку, ул.С.Вургуна 167
**Н.С.Алиаскерли**
Университет Одлар Юрду
Баку, ул. К.Рахимова 13
**Л.И.Рустамова**
НИИ Медицинской Профилактики им. В.Ю.Ахундова
Баку, ул.Дж.Джаббарлы 37
e-mail: iris.ax@mail.ru

***Açar sözlər:*** sitomeqalovirus infeksiyası, SMV infeksiyanın markerləri, polimeraza zəncirvari reaksiyası, immunferment analiz

***Keywords:*** cytomegalovirus infection, CMV infection markers, polymerase chain reaction, enzyme-linked immunoassay

***Ключевые слова:*** цитомегаловирусная инфекция, маркеры ЦМВ-инфекции, полимераза цепная реакция, иммунферментный анализ

Williamson transaksiya xərclərini gəlir gətirmək baxımından təsnifləşdirərək firmanı bazara görə daha üstün və daha təsirli bir qurum olaraq görmüşdür. Hər şeydən əvvəl firma hər əməliyyat üçün ayrı-ayrı müqavilələr yerinə tək bir müqavilə ilə və iyerarxik bir quruluş içində fəaliyyət göstərərək xərclərini azaltmış olur. Müqavilələrdə məhdud rasionallıq (səmərəlilik) olduğundan yəni müqavilə bağlanarkən tərəflər haqqında tam məlumat olmur yalnız müəyyən iş ( xidmət) icra olunduqdan sonra anlaşılır ki, bu da öz növbəsində transaksiya xərclərinin artımına şərait yaradır.

Transaksion xərclər iqtisadi əhəmiyyətlilik baxımından aşağıdakı kimi təsifləşdirilir:

1. Bazarın araşdırılması və informasiya toplama xərcləri:

İstehsalı nəzərdə tutulan əmtəənin (işin, xidmətin) bazarda olub-olmadığını, ilkin bazar araşdırmasını, əmtəənin (işin, xidmətin) keyfiyyətini, təklif edilən ən aşağı qiyməti-ni, həmin qiyməti təklif edən iqtisadi subyektin tapılması kimi xərclər aiddir ki, əmtəənin (işin, xidmətin) bazarda reallaşdırılması və iqtisadi sistemdə üzünmüddətli dövrdə fəaliy-

yət göstərmək üçün bu ilkin araşdırmanı aparmaq vacibdir.

2. Bazara daxil olma və məqsədə çatma xərcləri:

İki iqtisadi subyekt arasındakı bir mübadilə prosesinin olması üçün edilən müzakirələrin xərci, müqavilənin hazırlanma, bağlanma və dəyişmə xərcləri və s. daxil edilir. Daşınmaz əmlak bazarlarında və bazarların daxili iştirakçılarının araşdırılmasında bu xərclər təklif qiyməti ilə sorğu qiyməti arasındakı fərqin funksiyasını əks etdirir.

3. Nəzarət və tətbiq etmənin yoxlanılması xərcləri:

Təsərrüfat əməliyyatlarını yerinə yetirmək üçün bağlanılan müqavilələrin tərəfləri olan hər iki iqtisadi subyektin müqavilə şərtlərini müqavilədə olduğu kimi icrasına nəzarət etməsini və tətbiqlərini təmin etmək üçün daşıyacaqları xərcləri aiddir. Məsələn, malın təslimindən sonra keyfiyyətə nəzarət xərcləri.

Əgər iki tərəfdən birisinin bu müqavilənin şərtlərinə əməl etmədiyi iddia edilərsə və aşkar ortaya çıxarsa bu iddianın doğru olub-olmadığının nəzarəti xərcləri (dövlət ədalət sistemini istifadə edərək) lazım olan sanksiya, cəza xərclərini və şərtlərə uyğun gəlmək üçün yenidən yüklənilən xərclər aid edilir.

Paul R.Milgrom və John Roberts 11 fevral 1992-ci ildə yazdıqları "*Economics, Organization and Management*" adlı kitablarında transaksion xərcləri iki qrupa aid edərək bazar münasibətləri şəraitində bağlanılmış müqavilələrin əməliyyat xərcləri kimi aşağıdakı təsnifatını vermişlər [3].

1. Koordinasiya ilə əlaqədar olan xərclər;

2. Məqsədə çatma ilə bağlı olan xərclər.

1. Koordinasiya ilə əlaqədar olan xərclərə aşağıdakı xərclər aiddir:

a) Müqavilənin müddəalarını müəyyən edən xərclər. Bu xərclərə bazarın öyrənilməsi və məhsulla təmin olunma xərcləri aiddir.

b) Ortaqların (şəriklərin) tapılması xərcləri - təsərrüfat subyektinə lazım olan məhsulları (işi, xidməti) təklif edən ortaqların (şəriklərin) aşkar edilməsi və onların imkanlarının öyrənilməsi xərcləri daxildir.

c) Birbaşa koordinasiya xərcləri. Buraya müqavilə şəraitində tərəflər barədə informasiyanın cəmlənməsi funksiyasını yerinə yetirən strukturun yaradılmasına yönəldilən xərclər aiddir.

2. Məqsədə çatma ilə bağlı xərclər.

Məqsədlə əlaqədar transaksion xərclər konkret məsrəflərin ayrı-ayrı meyarlara cavab vermə vaxtına görə qiymətləndirilir.

a) Natamam informasiyaya ilə əlaqədar xərclər. İnformasiya yayımına məhdudiyyət qoyulması transaksiyanın icrasının qarşısını ala bilər. Natamam informasiya şəraitində qərarın yerinə yetirilməsinin klassik nümunəsi kimi fond bazarının ləğv edilməsi göstərilə bilər. Deyək ki, insanlar müəssisənin gələcəkdə işləyib-işləməyəcəyi haqda heç bir təsəvvürə malik olmurlar. Bu halda qeyri-müəyyənlik səviyyəsi o qədər yüksək olur ki, insanlar əlavə məlumat üçün hər hansı bir məbləğ ödəmək əvəzinə transaksiyadan imtina etməyi üstün tuturlar.

b) Opportunizmlə əlaqədar xərclər. Bunlara əsasən firma daxilində və həmçinin bazar münasibətlərində də rast gəlmək olar. Mümkün opportunist fəaliyyətin, şəriklərin qeyri-vicdani hərəkətləri nəticəsində yaranan xərclərin azalması üçün ya nəzarətçidən istifadə edilməli, ya da şərikin effektiv işləməsi üçün müqavilədə əlavə dəyişikliklərin aparılması vacibdir.

Transaksiya xərcləri firmaların reallaşdırdıqları fəaliyyətlərdə dəyişmə əməliyyat-

ları nəticəsində yaranan və bu dəyişmə əməliyyatlarının idarəçilik strukturlarının qurulmasını təmin edən transaksiya xərcləri, bazarlarda və firma daxili təşkilatlanmada (iyerarxik) və ya bu iki iqtisadi subyekt arasında əməkdaşlığa söykənən hibrid strukturlardakı idarəçilik mexanizminin o əməliyyatın həyata keçirilməsi üçün hansının daha səmərəli və məhsuldar olduğunu aşkar etməyə imkan verir.

İqtisadi fərdlər öz maraqlarını gözləyən, məhdud şüurluluğa sahib və riskdən qaçınan quruluşa sahib olduğundan, təşkilatlar fərdin bu davranış tutumları nəticəsində meydana gələ biləcək mənfi təsirini azaldan strukturlarını formalaşdırır.

Transaksiya xərcləri, bazar iqtisadiyyatı şəraitində firmaların sərhədlərinin təyin edilməsi və təşkilatların fəaliyyətlərini daha məhsuldar davam etdirə bilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Ronald Coase H. (1937). “The Nature of the Firm”. Economica, N.S., 4(16), pp. 386-405. “The Problem of Social Cost” of Law and Economics (1960), pp. 1-44.
2. Williamson, Oliver E. (1981). “The Economics of Organization: The Transaction Cost Approach”. “The American Journal of Sociology”, Cilt 87(3), say.577, say.548.
3. Paul R.Milgrom, John Roberts. Prentice Hall (1992), “Economics, Corporate Governance, Management.”
4. http://www.gevestor.de/details/transaktionskosten-definition-in-der wirtschaft-und-der-theorie-656564.htm
5. http://wirtschaftslexikon.gabler.de/Definition/transaktionskosten.html
6. http://www.haushaltssteuerung.de/lexikon-transaktionskosten.html
7. http://www.economicshelp.org/blog/glossary/transaction-costs/

## CLASSIFICATION AND ANALYSIS OF TRANSACTION COSTS

**R.A.Alizadeh**

## SUMMARY

This paper considers the principles of classification and the essence of transaction costs in the emerging market economy. Using comparative analysis, statistical, economical, constructive, monographic and other scientific methods, the author stresses the importance of scientific innovations for the study of transaction costs. The results obtained in this paper can be useful for the specialists engaged in this field.

## КЛАССИФИКАЦИЯ И АНАЛИЗ ТРАНСАКЦИОННЫХ ИЗДЕРЖЕК

**Р.А.Ализаде**

### РЕЗЮМЕ

В статье рассматриваются принципы классификации и сущность трансакционных издержек в зарождающейся рыночной экономике. Используя сравнительный анализ, статистическо-экономический, конструктивный, монографический и другие научные методы, автор отмечает необходимость научных инноваций для изучения трансакционных издержек. Результаты статьи могут быть полезны для специалистов, работающих в данной области.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜNÜN MODELLƏRİNDƏN İSTİFADƏ VƏ MİLLİ İQTİSADİYYATIN İNKİŞAFI

**N.H.Muxtarlı**
Qərb Universiteti
Bakı, İstiqlaliyyət küçəsi 27
e-mail: nicatm1992@mail.ru

***Açar sözlər:*** BƏB, innovasiya, səmərəlilik
***Key words:*** IDL, innovation, efficiency
***Ключевые слова:*** МРТ, инновации, эффективность

Məqalədə iqtisadi fikirlərin ümumiləşdirilməsi və qiymətləndirməsi yolu ilə beynəlxalq əmək bölgüsünün (BƏB) iqtisadi inkişafa təsiri tədqiq olunur. Statistik təhlil nəticəsində müəyyən edilmişdir ki, BƏB-in üstünlüklərindən faydalanmaq və ölkəmizin dünya bazarında yerini gücləndirmək üçün istehsalın ixtisaslaşma istiqamətlərinin təkmilləşdirilməsi məqsədəuyğundur.

BƏB-də iştirak etmək ölkə brendinin dünya bazarında yerinin genişləndirilməsinə imkan verir. Elə buna görə də ölkənin valyuta ehtiyatlarını artırmaq üçün BƏB-in üstünlüklərindən istifadə edilməsinə diqqət gücləndirilməlidir. Məqalədə bu məsələlər tədqiq olunur və istifadə olunmayan ehtiyatlar üzrə çıxarılır.

İqtisadi ədəbiyyatlar əsasında belə bir fikir formalaşıb ki, istehsalın beynəlxalq ixtisaslaşması və beynəlxalq kooperasiya BƏB-in ən əsas inkişaf mərhələləri hesab olunurlar. Beynəlxalq ixtisaslaşma və beynəlxalq kooperasiya BƏB-in mahiyyətini xarakterizə edir. Beynəlxalq ixtisaslaşma və beynəlxalq kooperasiyanın genişləndirilməsi hazırda BƏB və BİM-in əsas inkişaf istiqamətlərinə çevrilmişlər. Çünki ixtisaslaşma və kooperasiya prosesləri özü-özlüyündə BƏB-in təşəkkülü, onun dərinləşməsi üçün ilkin əsas yaradır və BİM-in formalaşdırılmasını zərurətə çevirir. Tarixən beynəlxalq ixtisaslaşma və kooperasiya məhsuldar qüvvələrin inkişaf etdirilməsi, əmək məhsuldarlığının artırılması ehtiyacından əmələ gəlmişdir. XX əsrin 50-ci illərindən etibarən bura ETT və ETİ amili də əlavə olundu. İstehsalın texnoloji strukturunun mürəkkəbləşməsi hazır məhsulda istifadə olunan detal və qovşaqların sayının kəskin şəkildə çoxalması ilə nəticələndi. Məsələn, hazırda minik avtomobillərində 20 minə qədər, prokat dəzgahlarında 100 minədək, elektrovozlarda 250 minədək detal və qovşaqlardan istifadə olunur. Əlbəttə, belə vəziyyətdə bütün lazımi texnoloji əməliyyatları bir təsərrüfat subyekti çərçivəsində həyata keçirmək qeyri-mümkündür. Bu amil dünya təsərrüfat subyektlərinin ixtisaslaşma və kooperasiya səviyyəsinin daha da artırılmasını zəruri etdi və nəticədə XX əsrin II yarısından BƏB həm üfüqi, həm də şaquli istiqamətlərdə daha da dərinləşərək, yeni inkişaf səviyyəsinə yüksəldi. Ona görə də demək olar ki, BƏB-in mahiyyəti 2 prosesin dinamik vəhdətində, yəni istehsalın, əməyin hissələrə bölünməsində və onların birləşməsində təzahür edir.

İxtisaslaşma fəaliyyətin dar çərçivədə müəyyən növ əmtəə, xidmət istehsalı üzərində cəmləşdirilməsidir. Beynəlxalq ixtisaslaşma isə dünya təsərrüfat subyektlərinin, yəni ayrı-ayrı ölkələrin, ölkə qruplarının müxtəlif əmtəə növlərinin istehsalı üzrə ixtisaslaşmasını nəzərdə tutur.

Beynəlxalq ixtisaslaşma 2 istiqamətdə inkişaf edir:

1) ərazi istiqaməti üzrə; 2) istehsal istiqaməti üzrə.

İstehsal istiqaməti isə öz növbəsində 3 səviyyədə ixtisaslaşmanı özündə birləşdirir:

1) sahələrarası ixtisaslaşma - yəni BƏB-də iştirak edən ölkələrin təsərrüfat fəaliyyətinin müxtəlif sahələrində ixtisaslaşması başa düşülür.

2) sahədaxili ixtisaslaşma - BƏB-də iştirak edən subyektlərin təsərrüfat fəaliyyətinin eyni bir sahəsinin müxtəlif istiqamətləri üzrə ixtisaslaşmasını (məsələn, maşınqayırmada - dəzgahqayırma və avtomobilqayırma) nəzərdə tutur.

3) növlərarası ixtisaslaşma - istehsalın müxtəli növləri məsələn, maddi əmtəələr istehsalı, xidmətlər istehsalı, qeyri-maddi istehsal (informasiya, EHM-nın proqram təminatı, film, musiqi və s.) üzrə ixtisaslaşmanı nəzərdə tutur.

Ərazi aspektində istehsalın beynəlxalq ixtisaslaşması dedikdə müxtəlif ölkələrin, ölkə qruplarının və regionların ayrı-ayrı əmtəə növlərinin istehsalı üzrə ixtisaslaşması başa düşülür. Məlum olduğu kimi, beynəlxalq ixtisaslaşmanın əsas təzahür formalarına aşağıdakılar aid edilir:

a) əşya (yəni, hazır məhsulların istehsalı) üzrə ixtisaslaşma;

b) hissələr (yəni, ayrı-ayrı detalların, qovşaqların istehsalı) üzrə ixtisaslaşma;

c) mərhələlər üzrə, yaxud texnoloji (yəni müxtəlif əməliyyatların, məsələn: yığma, rəngləmə, qaynaq, tədarük və sairənin həyata keçirilməsi) ixtisaslaşma.

Onu da qeyd etmək lazımdır ki, ölkələrin, iqtisadi proseslərin həddən artıq sürətləndiyi müasir dövrdə, bu və ya digər istiqamət üzrə beynəlxalq ixtisaslaşmasının strukturu ilk növbədə ETT-nin təsiri ilə tez-tez dəyişə bilir [3, s.126]. Məsələn, XX əsrin 50-60-cı illərində ilkin sahələr (hasilat, maşınqayırma, kimya və s.) səviyyəsində ixtisaslaşma aparıcı mövqe tuturdu. Lakin keçən əsrin 70-80-ci illərindən etibarən ön mövqelərə beynəlxalq sahədaxili ixtisaslaşma keçdi. Və beynəlxalq mübadilədə istehlak xarakteristikasına görə fərqlənən əvəzedici əmtəələrin mübadiləsi böyük xüsusi çəkiyə malik oldu (məsələn, təkərli traktorların sepli traktorlara, dəri ayaqqabıların rezin ayaqqabılara mübadiləsi). Digər tərəfdən əgər əvvəllər hazır əmtəələr üzrə ixtisaslaşma BƏB-də üstün yer tuturdusa, hazırda BƏB-in inkişafının əsas forması kimi ölkələrin, sahələrin, firmaların detallar, qovşaqlar üzrə beynəlxalq ixtisaslaşmasının genişlənməsi çıxış edir. Müasir dövrdə son məhsul istehsalı üzrə ixtisaslaşmaya əsaslanan BƏB öz yerini ayrı-ayrı hissələr istehsalı üzrə ixtisaslaşmaya əsaslanan BƏB-ə verir. Bunların hamısı qeyd etdiyimiz kimi elmi-texniki proseslərin təsiri ilə istehsal əməliyyatlarının və əmtəələrin strukturunun həddən artıq mürəkkəbləşməsi və ayrıca götürülmüş təsərrüfat subyekti çərçivəsində hər hansı bir əmtəənin istehsalının yüksək texnoloji səviyyədə təmin edilməsinin getdikcə çətinləşməsi ilə əlaqədardır.

*Beynəlxalq ixtisaslaşmanın əhəmiyyəti.* Hər bir ölkənin və bütün dünya təsərrüfatının beynəlxalq ixtisaslaşmaya cəlb edilməsi bəşəriyyətə aşağıdakı töhfələri verir:

Qlobal səviyyədə əməyin səmərəli təşkili → beynəlxalq məhsuldar qüvvələrin inkişafı → dünya üzrə əmək məhsuldarlığının artımı, əmtəələrin əmək tutumunun azalması, dünya iqtisadiyyatında ümumi istehsal xərclərinin aşağı düşməsi → əvvəlki xərclərlə və əvvəlki müddət ərzində daha çox məhsul istehsalının mümkün olması → beləliklə bütün bəşəriyyətin rifah halının yüksəlməsi.

Lakin beynəlxalq ixtisaslaşmanın bütün bu müsbət tərəflərinə baxmayaraq, müasir dövrdə onun bəzi mənfi nəticələri öz həllini gözləməkdədir. Belə ki, bir tərəfdən milli is-

tehsal xərcləri beynəlxalq xərclərdən aşağı olan 1-2 əmtəənin istehsalı və ixracı üzrə ixtisaslaşma ən optimal və mənfəətli variant kimi qiymətləndirilə bilər. Ancaq digər tərəfdən ölkənin bütün iqtisadiyyatını həmin əmtəələrin dünya bazarında koyunkturunun və qiymətlərinin tərəddüdlərindən, hava şəraitindən, təbii fəlakətlərdən asılı vəziyyətə salır. Məsələn, XX əsrin 80-ci illərinin əvvəllərində Brazilyada hava şəraitinin kəskin dəyişməsi, soyuması kofe plantasiyalarının məhvinə və ölkənin əsas ixrac məhsulu, valyuta gəlirlərinin mənbəyi olan kofe istehsalının çox-çox aşağı düşməsinə gətirdi. Belə vəziyyət həmin dövrdə Brazilyada iqtisadi böhranla nəticələndi. Eyni zamanda məlumdur ki, müasir dövrdə qlobal səviyyədə işçi qüvvəsi təbii resurslar ixracı üzrə ixtisaslaşmış çoxlu sayda ölkələr mövcuddur. Və belə ixtisaslaşmanın öz milli mənafelərinə uyğun olmadığını onlar artıq başa düşürlər. Bu isə xammal ixrac edən ölkələrlə onların xammalından hazırlanmış son məhsulları ixrac edən ölkələr arasında iqtisadi qarşıdurma, ziddiyətləri getdikcə gücləndirir. Dünya konyunkturunun tərəddüdlərindən asılılığı aradan qaldırmaq və öz xammallarından tam istifadə etmək üçün dövlətlər çox zaman kor-təbii şəkildə istehsal olunan hazır əmtəələrin sayını maksimumlaşdırmağa çalışırlar. Bu isə BƏB-in mahiyyətinə ziddir və beynəlxalq ixtisaslaşmanın yaratdığı üstünlükləri tam reallaşdırmağa imkan vermir. Çünki həddən artıq sayda son məhsulun istehsalını bütöv şəkildə həyata keçirməyə çalışan ölkə məhsuldar qüvvələrin rasional yerləşdirilməsinə nail ola bilməz. Məhsuldar qüvvələrin irrasional istifəadəsi isə əmək məhsuldarlığının potensial artımının qarşısını alan ən birinci amildir. Yaranmış mürəkkəb vəziyyətdən optimal çıxış yolu, fikrimizcə, dünya təsərrüfatı subyektlərinin BƏB-in inkişafının növbəti mərhələsi sayılan beynəlxalq kooperasiya əlaqələrinə keçmələri ola bilər.

*İstehsalın beynəlxalq kooperasiyası və BƏB-in inkişafı.* Beynəlxalq kooperasiya dedikdə iqtisadi müstəqilliklərini saxlamaqla hər hansı bir əmtəənin hazırlanmasında iştirak edən müxtəlif ölkələrə mənsub təsərrüfat subyektləri arasındakı istehsal iqtisadi münasibətlər başa düşülür.

Beynəlxalq kooperasiya zamanı fərqli ölkələrin istehsalçıları müqavilə əsasında hər hansı son əmtəənin buraxılması üçün onun ayrı-ayrı hissələrini hazırlayırlar və öz əmtəələri ilə bir-birilə mübadilə edirlər. Nəticədə bir, yaxud bir neçə istehsalçı son əmtəənin hazırlanmasını həyata keçirir. Göründüyü kimi beynəlxalq kooperasiya əlaqələri nəticəsində dünya təsərrüfat subyektlərinin ixtisaslaşma səviyyəsi BƏB daha da dərinləşir, əməyin müxtəlif formalarının bir-birindən ayrılmasına və istehsalın ixtisaslaşmasına gətirən BƏB beynəlxalq kooperasiya vasitəsilə öz məntiqi sonluğunu tapır.

İEÖ-lə İEOÖ arasında BƏB sahəsində yuxarıda qeyd edilən ziddiyətlərin aradan qaldırılmasında beynəlxalq kooperasiyanın rolu əvəzedilməzdir. Çünki xammal ixrac edən ölkələr beynəlxalq kooperasiya əlaqələrində fəal iştirak etməklə ilk növbədə təbii resurslarının kifayət qədər yüksək səviyyədə emalına nail ola bilərlər. Həm də hazır əmtəələrə nisbətən hissələrin sayı külli miqdarda olduğundan kooperasiya əlaqələrinə girən hər hansı bir dövlətin BƏB-də ixtisaslaşma istiqamətlərinin miqdarını da dəfələrlə artırmaq imkanı yaradır. Eyni zamanda kooperasiya münasibətləri müqavilə müqavilə əsasında qurulduğundan bütün bunlar ölkələrin iqtisadi inkişafının dünya bazarının koyunktur tərəddüdlərindən asılılığını dəfələrlə aşağı salır. Ona görə də beynəlxalq kooperasiya əlaqələri burada aktiv iştirak edən ölkələrin bütün təbii resurs, işçi qüvvəsi ehtiyatlarını öz dövriyyəsinə cəlb etmək potensialına malikdir və onun ən əsas müsbət xüsusiyyəti ondan ibarətdir ki, bu zaman həmin istehsal amilləri məhz mənsub olduqları dövlətin ərazisində əlavə dəyərin yaradılması üçün istifadə olunur, həmin dövlətin iqtisadi inkişafına xidmət edir

[4, s.212]. İqtisadçı alim və mütəxəssislər beynəlxalq kooperasiyanın əsas əlamətlərinə aşağıdakıları aid edirlər:

a) tərəflərin əvvəlcədən birgə fəaliyyətin şərtlərinin razılaşdırılması;

b) əməkdaşlığın əsas metodu kimi müxtəlif ölkələrdən olan tərəfdaşların müəyyən qarşılıqlı razılaşdırılmış sferada təsərrüfat fəaliyyətinin koordinasiyasının çıxış etməsi;

c) kooperasiyanın əsas obyekti kimi müxtəlif hazır əmtəələrin, komponentlərin, texnologiyaların müqavilə əsasında təsdiqlənməsi;

ç) kooperasiya fəaliyyətinin əsas məqsədlərinə uyğun olaraq razılaşdırılmış proqram çərçivəsində işlərin tərəfdaşların istehsal ixtisaslaşması istiqamətlərinə müvafiq şəkildə bölüşdürülməsi;

d) tərəfdaşların həyata keçirdiyi qarşılıqlı, yaxud birtərəfli əmtəə təchizatlarının reallaşdırılan proqram ilə birbaşa əlaqəli olması, yəni kooperasiya proqramından kənar tərəfdaşlar arasında həyata keçirilən alqı-satqı əməliyyatları kooperasiyanın inkişaf səviyyəsini xarakterizə etmir.

Beynəlxalq kooperasiyanın fəaliyyəti zamanı aşağıdakılar müəyyənləşdirilməlidir:

1. Əməkdaşlığın obyekti (əməkdaşlığın həyata keçiriləcəyi sahə);

2. Əməkdaşlığın metodu (əməkdaşlığın təşkilati formaları və vasitələri);

3. Kooperasiya iştirakçıları tərəfindən qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün normativ aparat.

Beynəlxalq kooperasiya əlaqələri müxtəlif sferalarda əməkdaşlıq münasibətlərini əhatə edə bilər. Onlardan ən çox rast gəlinənləri aşağıdakılardır:

1) İstehsal-texnoloji əməkdaşlıq: a) layihə-konstruktor sənədlərinin, texnoloji proseslərin, əmtəələrin texniki səviyyəsinin, keyfiyyətinin, tikinti və quraşdırma işlərinin, kooperasiylaşdırılmış müəssisələrin moderinizasiyası və s. bu kimi məsələlərin işlənib hazırlanması və reallaşdırılması; b) istehsalın idarə edilməsinin, standartlaşdırma, unifikasiya, sertifikatlaşdırma, istehsal proqramlarının bölüşdürülməsi məsələlərinin təkmilləşdirilməsi.

2) Məhsulun reallaşdırılması ilə bağlı ticarət-iqtisadi məsələlər;

3) Satışdan sonra servis xidmətinin göstərilməsi ilə bağlı məsələlər.

Beynəlxalq kooperasiya əlaqələrinin qurulması zamanı 3 əsas metoddan istifadə edilməsi məqsədəuyğun hesab edilir:

1) Birgə proqramların həyata keçirilməsi;

2) Müqavilə əsasında ixtisaslaşma;

3) Birgə müəssisələrin yaradılması.

Birgə proqramların həyata keçirilməsi öz növbəsində 2 istiqamətdə reallaşdırmaq mümkündür: a) podrat istehsalı; b) birgə istehsal yolu ilə.

Podrat istehsalı kooperasiya iştirakçılarının sifarişinin verdiyi müəyyən tapşırıqları yerinə yetirmələrini nəzərdə tutur. Tərəflər arasında podrat istehsalı əsasında kooperasiya münasibətləri qurularkən əməkdaşlığın həcmi, keyfiyyəti və s. göstərilir.

Müqavilə əsasında ixtisaslaşma beynəlxalq kooperasiyanın iştirakçıları arasında istehsal proqramının bölüşdürülməsini nəzərdə tutur. Razılaşan iqtisadi subyektlər hər iki tərəfin həyata keçirdiyi eyni istehsal əməliyyatlarını özləri arasında bazar rəqabətini minimumlaşdırmağa çalışırlar.

Birgə müəssisələr zamanı tərəflər qarşılıqlı razılaşdırılmış məqsədlərə çatmaq üçün öz kapitallarını birləşdirirlər.

Beynəlxalq kooperasiya əlaqələrinə girmiş iqtisadi subyektlər öz əmtəələri ilə aktiv şəkildə qarşılıqlı alqı-satqı əməliyyatları həyata keçirirlər. Lakin bununla belə onu beynəlxalq ticarətdən fərqləndirən bir neçə əlamət də mövcuddur. Bunlara aşağıdakılar daxildir:

I. Beynəlxalq kooperasiya əlaqələri beynəlxalq ticarətdən fərqli olaraq stabil və uzunmüddətli xarakter daşıyır;

II. Beynəlxalq kooperasiya zamanı, beynəlxalq ticarətdən fərqli olaraq, tərəfdaşların fəaliyyəti qarşılıqlı asılı xarakter daşıyır.

III. Beynəlxalq kooperasiya zamanı, beynəlxalq ticarətdən fərqli olaraq, tərəfdaşlar hərə öz məqsədinə nail olmaq üçün deyil, ümumi məqsədin əldə edilməsinə yönəldilmiş birgə fəaliyyət həyata keçirirlər. Yəni onların fəaliyyəti bir ümumi məqsədin nail olunmasına xidmət edir. Bütün bunlarla yanaşı, belə bir faktı qeyd etmək çox yerinə düşər ki, bəşəriyyətin inkişafın bütün mərhələlərində beynəlxalq əmək bölgüsünün xüsusiyyətinə uyğun olaraq onun müəyyən inkişaf modeli olmuşdur.

*BƏB-in inkişaf modelindən səmərəli istifadə edilməsi.* İqtisadi model dedikdə iqtisadi sistemdə cərəyan edən prosesləri keyfiyyət nöqteyi-nəzərdən xarakterizə edən ümumiləşdirilmiş təsəvvürlər və həmin proseslərin keyfiyyət etibarı ilə fərqli məcralara yönəldilməsini təmin edən iqtisadi qaydaların, qanunların məcmusu başa düşülür. Qeyd edək ki, BƏB-in də bir iqtisadi sistem kimi müxtəlif formaları vardır. Buraya ixracyönümlü, idxal əvəzlənməsi, horizontal, vertikal BƏB modelləri aid edilə bilər.

BƏB-in vertikal və horizontal modelləri yüzilliklərlə bundan əvvəl baş vermiş hərbi-siyasi proseslərin (koloniyalaşdırma, müstəmləkəçilik, imperialist müharibələr) nəticəsi olsa da, hələ də dünya ölkələrinin əksəri bu modellər üzrə ixtisaslaşmaqda davam edirlər.

BƏB-in vertikal modeli zamanı İEOÖ əsasən İEÖ-ə «Şimal-Cənub» marşrutu üzrə xammal-resurslar ixrac edib hazır məhsullar, maşın və avadanlıqlar idxal edirlər.

BƏB-in horizontal modeli şəraitində «Şimal-Qərb» istiqamətində İEÖ-in bir-birinə, ya da «Cənub-Cənub» marşrutu üzrə İEOÖ-in bir-birinə hazır məhsullar ixrac və idxalını xarakterizə edir. Horizontal model ona görə təşəkkül tapmışdır ki, İEÖ-in yüksək texnoloji səviyyəyə malik əmtəələrinin daxili bazarlarının həcmi kiçik, alıcılıq qabiliyyəti aşağı səviyyədə olan İEOÖ-də istehlakçıları çox azdır. Odur ki, İEÖ öz hazır əmtəələrini böyük həcmdə yüksək alıcılıq səviyyəsinə malik İEÖ-in bazarlarına ixrac edirlər. Digər tərəfdən də İEOÖ-in məhsullarının texnoloji səviyyəsi İEÖ-in əmtəələrininkinə nisbətən xeyli aşağı olduğundan onların əmtəələri İEÖ-in bazarlarında yerli əmtəələrlə rəqabətə girə bilmirlər. Hər hansı İEOÖ-nin son məhsulları yalnız onun özü kimi texnoloji cəhətdən geridə qalmış digər İEOÖ-in bazarlarında rəqabətqabiliyyətli ola bilir. Bu səbəbdən də İEOÖ öz hazır məhsullarını əsasən bir-birnə ixrac edirlər.

BİM-də milli maraqlar baxımından əlverişli şərtlər daxilində iştirak edə bilmək üçün demək olar ki, hər bir dövlətin iqtisadi inkişafın əsasən ilkin dövründə BƏB-in idxalın əvəzlənməsi modelini qəbul edir. İdxalın əvəzlənməsi modelinin tətbiqi zamanı ölkə ilk növbədə hansı sferalarda müqayisəli üstünlüklərə və hansı sahələrin BƏB-də iştirak üçün prioritet əhəmiyyətə malik olduğunu müəyyənləşdirir. Sonra həmin istiqamətlərdə proteksionizm siyasəti yeritməyə başlayır. İdxalın əvəzlənməsi modelinin əsas məqsədi qeyd edilən sahələrdə ölkənin idxal asılılığının ləğv edilməsi olduğu üçün o, milli təsərrüfatın diversifikasiyasını təmin edir [2, s.96].

İdxalın əvəzlənməsi modelinin ən əsas xarakteristikası ondan ibarətdir ki, bu modelin tətbiqi mütləq zaman və iqtisadiyyat sahələrinin sayı etibarilə məhdud xarakter daşımalıdır. Çünki, birincisi əvvəl qeyd etdiyimiz kimi idxalın əvəzlənməsi modeli yalnız öl-

kənin konkret müqayisəli üstünlüklərə malik olduğu sferalara şamil edilməlidir. İkincisi isə, idxalın əvəzlənməsi modelinin yalnız müəyyən müddət, yəni həmin prioritet sahələrin dirçəlməsi, gücləndirilməsi üçün lazım olan müddət ərzində istifadə olunalıdır.

Əgər idxalın əvəzlənməsi modeli heç bir fərq qoyulmadan bütün sferalarda tətbiq edilərsə onda BƏB nöqteyi-nəzərindən iqtisadiyyatın qeyri-effektiv bölmələri əsassız yardım alacaqlar, ölkə başqa dövlətlərin malik olduğu müqayisəli üstünlüklərdən istifadə edə bilməyəcəkdir. Nəticədə hər hansı bir məhsul yüksək keyfiyyətlə, həm də ucuz qiymətə xaricdən idxal olunacağı halda, baha qiymətlərlə onun istehsalı ölkə daxilində təşkil olunur, yəni resurslar ölkənin müqayisəli üstünlüklərə malik olmadığı sferalara yönəldilir, məhsuldar qüvvələr qeyri-rasional istifadə olunur. Belə olan halda mahiyyət etibarilə ölkənin ixtisaslaşma səviyyəsini dərinləşdirilməsinə və BƏB-in inkişafına xidmət etməli olan idxalı əvəzləmə modeli əslində ölkənin özü-özünü BƏB sistemindən təcrid etməsinə gətirib çıxaracaqdır.

Digər tərəfdən idxalın əvəzlənməsi modeli ona görə yalnız məhdud və uzun olmayan müddət ərzində tətbiq edilməlidir ki, bu modelin təmin etdiyi dinamik və effektiv inkişaf mərhələsi çox da böyük zamanı əhatə etmir. İdxalın əvəzlənməsi modelini uzunmüddətli ümumi iqtisadi inkişafın anna xətti kimi qoyan ölkələr gec-tez ciddi böhranla qarşılaşırlar. Çünki, proteksionizm və xarici firmalar tərəfindən rəqabətin olmaması ilə xarakterizə edilən milli iqtisadiyyatın «istixana» rejimində inkişaf edən təsərrüfat subyektləri heç də sağlam, konyunktur dəyişikliklərinə tez reaksiya verə bilən effektiv iqtisadi sistemin qurulmasına səbəb olmurlar. Proteksionizm tədbirləri ona gətirib çıxarır ki, milli istehsalçılar xarici istehsalçılarla müqayisədə qeyri-effektiv işlədiyi halda, bazarda rəqabət olmadığı üçün gəlir əldə edirlər. Buna görə də onlar istehsala, yeni məhsuldar metodlar, avadanlıqların tətbiqinə, təzə məhsulların buraxılışına çalışmırlar. İqtisadi subyektləri çevik idarəetmə sisteminin yaradılması məhsulun keyfiyyətinin yüksəldilməsi, istehsal xərclərinin aşağı salınması problemləri narahat etmir və maraqlandırmır. Lakin ölkənin daxili bazarının həcmi əhalinin tədiyyə qabiliyyətli tələbindən asılı olaraq müəyyən həddlərə malikdir və yerli müəssisələr bu tələbi ödədikdən sonra istehsalın rentabelliyini, artım templərini saxlamaq üçün xarici bazarlara çıxmağa məcbur olurlar. Ancaq yuxarıda göstərdiyimiz səbəblərdən onlar xarici müəssisələrlə rəqabətə girə bilmir, beləliklə beynəlxalq bazarlara çıxa bilmirlər. Ona görə də uzun müddət idxalın əvəzlənməsi modeli ilə inkişaf edən iqtisadiyyat müəyyən dövrdən sonra durğunluqla üzləşir.

Bu səbəbdən də idxalın əvəzlənməsi modeli qısa müddətdən sonra öz yerini ixracyönlü BƏB modelinə verməlidir. Qeyd olunan model tətbiq olunarkən dövlət bütün (xüsusən də xarici) iqtisadi əməliyyatların maksimum liberallaşdırılmasını həyata keçirir, adminstrativ, iqtisadi, texniki, valyuta məhdudiyyətləri aradan qaldırılır, ixracın fəal dəstəklənməsi siyasəti yürüdülür. İxracyönlü BƏB modelinin ən müsbət tərəfi ondan ibarətdir ki, bu model ölkənin həm öz üstünlüklərindən, həm də digər dövlətlərin malik olduğu müqayisəli üstünlüklərdən milli iqtisadiyyatın inkişafı üçün maksimum səmərəli istifadə edilməsinə imkan verir. İxracyönlü BƏB modelinin digər mühüm üstünlüyü isə odur ki, bu zaman ölkə iqtisadiyyatı birbaşa dünya bazarının tələbinin ödənilməsinə yönəldiyi üçün milli təsərrüfatın uzun müddətə yüksək dinamik inkişafı təmin olunur.

Respublikamıza gəlincə, fikrimizcə onun müqayisəli üstünlüklərə malik olduğu sahələri dirçəltmək üçün yaxın persrektivdə həmin sahələrdə idxalın əvəzlənməsi modelini tətbiq etməklə bərabər müvafiq sahələrin əmtəələrinin dünya bazarında reallaşdırılmasını təmin etmək məqsədilə ixracyönlü modeldən istifadə ixracın stimullaşdırılmasına, xarici

investisiyaların cəlb olunmasına şərait yaradan iqtisadi alətlərdən iqtisadi alətlərindən və rıçaqlarından da aktiv surətdə istifadə olunmalıdır [4, s.169]. Yəni ölkəmizin spesifik durumu, potensial imkanları, dünya təsərrüfatında bu və ya digər sahənin əmtəələrinə olan konyunktur dəyişmələrinin istiqamətləri nəzərə alınmaqla Azərbaycanda qısa zaman üçün bu 2 modelin simbioz forması tətbiq edilməlidir. İqtisadi islahatların indiki dövrü üçün isə orta və uzun müddətli perspektivdə dominant BƏB modeli, əlbəttə ki, ixracyönlü model olmalıdır. İqtisadiyyatda struktur dəyişmələrinin dünya təcrübəsi onu göstərir ki, belə dəyişmələrin effektivliyinin ən əsas faktoru ixracyönlü iqtisadiyyat yaratmaqdan ibarətdir.

Azərbaycanın BƏB-də optimal iştirakı modelinin formalaşdırılması qarşısında bir çox problemlər durur. Say etibarilə onların ən çoxu struktur dəyişiklikləri ilə bağlı iqtisadi problemlərdir. Lakin mahiyyət etibarı ilə onlardan ən əsası, fikrimizcə, Ermənistanın Azərbaycana qarşı həyata keçirmiş olduğu elan edilməmiş işğalçı müharibə və bunun Azərbaycan üçün hələ nə ilə nəticələnəcəyin qeyri-müəyyənliyidir. Müharibə nəticəsində öz torpaqlarından qovulmuş 1 milyondan çox qaçqın əhali ölkəmizi ixtisassız işçi qüvvəsi ixrac edən dövlət olmağa vadar edərək onu BƏB-in vertikal modelinə sürükləyir. Eyni zamanda özünün 20% demək olar ki, ən yaxşı topraqlarını itirmiş ölkəmiz həmin ərazilərin yeraltı, yerüstü sərvətlərindən, aqrar iqtisadiyyat, turizm, yeyinti, yüngül, tikinti sənayesi və s. bu kimi hazır əmtəə istehsalı sahələrində malik olduğu böyük potensialdan istifadə edə bilmir. Ən mühümü isə ölkəmizdə rəqabətqabiliyyətli hazır əmtəələrin istehsalı məqsədilə mütləq xaric investisiyaların, beynəlxalq kooperasiya əlaqələrinin qurulmasının tələb olunduğu hamı üçün aydın olduğu halda, müharibə ilə əlaqədar yaranmış siyasi stabilliyinin qeyri-müəyyənliyi investisiyaları nisbətən uzun ödəmə müddəti olan son əmtəələrin istehsalı sahələrinə yönəltməyə imkan vermir. Məhz bu səbəbdəndir ki, xarici investorlar riskləri azaltmaq üçün investisiyaları yalnız qısa ödəmə müddətinə malik xammal hasilatı sahələrinə yönəldirlər. Belə vəziyyət respublikamızın vertikal BƏB modelinə cəlb olunmasını gücləndirən ən əsas faktordur. Odur ki, cəmiyyətimiz iqtisadiyyatdan nə qədər uzaq görünsə də, onunla birbaşa əlaqəsi olan Azərbaycanın BƏB-də iştirakını müsbət istiqamətdə kökündən dəyişə biləcək bu siyasi problemin həllinə çalışmalıdır.

## Ədəbiyyat

**1.** G.Gənciyev. "İxrac ehtiyatlarından istifadənin yaxşılaşdırılması yolları". Bakı, "Kooperasiya" nəşriyyatı, 2003, s.91-92

**2.** G.Gənciyev. "Beynəlxalq iqtisadi münasibətlər". Bakı, 2012, s.96

**3.** Ç.Abbasov. "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları". Bakı, "Elm", 2005, s.252

**4.** Ə.Həsənov. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı, 2005, s.132

## USING THE MODELS OF INTERNATIONAL DIVISION OF LABOR AND NATIONAL ECONOMY DEVELOPMENT

**N.H.Mukhtarli**

## SUMMARY

This work studies the importance of international division of labor (IDL) models for the effective development of national economy. Statistical analysis shows the expediency of improving the areas of specialization of production in order to benefit from

the advantages of the IDL and to strengthen the positions of national economy in the world market.

## ИСПОЛЬЗОВАНИЕ МОДЕЛЕЙ МЕЖДУНАРОДНОГО РАЗДЕЛЕНИЯ ТРУДА И РАЗВИТИЕ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

**Н.Г.Мухтарлы**

**РЕЗЮМЕ**

В статье исследуется роль моделей международного разделения труда (МРТ) в эффективном развитии национальной экономики. В результате статистического анализа выявлена целесообразность улучшения направлений специализации производства с целью получения возможности воспользоваться преимуществами МРТ и укрепления позиций национальной экономики на мировом рынке.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# TURİZM SAHƏSİ ÜÇÜN KADR HAZIRLIĞINDA BEYNƏLXALQ TƏCRÜBƏ

**İ.Ş.Əliyeva, A.N.Eminov**
Azərbaycan Turizm və Menecment Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 822/23
e-mail: i.aliyeva@atmu.edu.az

***Açar sözlər:*** beynəlxalq təcrübə, turizm, kadr hazırlığı
***Keywords:*** international practice, tourism, personnel training
***Ключевые слова:*** международная практика, туризм, подготовка кадров

Turizm sahəsi üzrə Avropa peşə təhsili modellərinin əsas strategiyası tədrisin əhəmiyyətli hissəsinin praktiki bacarıqlar və təcrübə əldə edilməsi məqsədilə müəyyən müəssisələrdə həyata keçirilməsidir. Bu təhsil modellərində tələbələrin müştəri psixologiyasına uyğun formalaşmasına, təhsil müəssisələri ilə sənaye təşkilatları arasında sıx əməkdaşlığa xüsusi diqqət yetirilir. Avropadakı turizm və qonaqpərvərlik məktəblərinin əksəriyyəti mehmanxanalar bazasında fəaliyyət göstərir. Tələbələr eyni yerdə həm nəzəri, həm də praktiki bacarıqlara real mühitdə yiyələnirlər.

Turizm və qonaqpərvərlik sənayesi üzrə mütəxəssislərin ixtisaslarını artırmaq üçün kurslar və məktəblər ilk olaraq 1941-ci ildə İsveçrədə, 1960-cı ildə Avstraliyada, 1972-ci ildə ABŞ-da və 1986-cı ildə Böyük Britaniyada açılmışdır [2].

ABŞ-da təhsil müəssisələrinin bazasında turizm sektorunda ixtisaslaşmış departamentlər ilə əlaqəli vahid informasiya sistemi formalaşdırılmışdır. Amerika modellinin üstünlükləri təhsilin ictimai peşə təşkilatları ilə sıx inteqrasiya şəraitində həyata keçirilməsi, idarəetmə sahəsində ümumi nəzəri biliklərin dərindən öyrənilməsi, qabaqcıl təlim və yenidən hazırlıq üçün çox sayda müxtəlif kursların olmasıdır.

Hər il turizm üzrə təhsil alan tələbələrin sayının daim artması turizm sənayesinin dünya iqtisadiyyatının durmadan inkişaf edən bir sahəsi olduğunu təsdiqləyir. ABŞ-da çoxşaxəli sənaye sahəsi olan turizm, yüz milyonlarla insana öz xidmətlərini təklif edir. Turizm xidmətlərinin miqyası haqqında onu demək kifayətdir ki, 230 milyon amerikalı bir il müddətində 45 milyard restoran yeməyinin, 675 milyon otel nömrəsinin, 1133 milyard təyyarə biletinin dəyərini ödəyir. ABŞ-da turizm sahəsi işə götürməyə görə ikinci yerdə durur, hər il 110 milyondan çox insanı işlə təmin edir. Bu sahə, iqtisadiyyatın bir ildə 400 milyard dollar gəlir gətirən bir xidmət sahəsidir [1, 2].

ABŞ-da təhsil gizli bir xəzinə kimi qiymətləndirilir və ölkə mədəniyyətinin inkişafının hüdudlarını genişləndirmək üçün önəmli bir vasitə hesab olunur. ABŞ-da XXI əsrdə yeni iqtisadiyyatda müvəffəqiyyət qazanmaq üçün tələbələrin bilməli olduğu hər şeyi özündə ehtiva edən yeni təhsil standartları müəyyənləşdirilmişdir. Birləşmiş Ştatlarda universitetlərin attestasiya göstəriciləri xüsusi təhsil standartlarına uyğun müəyyənləşdirilir. Bu proses peşəkar icmalar tərəfindən hazırlanıb qəbul olunur və aşağıdakıları əhatə edir: universitetlərin vəzifə və məqsədlər, maliyyə, fiziki obyektlər, materiallar, avadanlıq, kitabxana və resurslar baxımından standartlaşdırılması, xüsusi proqramların davamlı tədrisi, elmi-metodik və elmi-tədqiqat işləri, aspirantura proqramları və s.

Uzun illərdir ki, ABŞ-da testlə qiymətləndirilmə sistemi mövcuddur. ABŞ-dakı dörd illik kollec və universitetlərin əksəriyyətində, ilk giriş imtahanının zəruri bir hissəsi olan və üç saat davam edən Scholastic Aptitude Test (SAT) test sistemindən istifadə olunur. SAT 1926-cı ildən ABŞ-da tətbiq olunur. SAT ballarının sayı 200-dən 800-ə qədərdir, kollec və ya universitetin nüfuzu daha yüksəkdirsə, belə bir universitetə qəbul üçün daha çox bal tələb olunur. 1959-cu ildə Kolleclər Şurası "Amerika Kolleclərinin Amerika Testi Proqramı"nı və ACT qiymətləndirməsini təsdiqləmişdir. Magistr proqramına daxil olan tələbələr, imtahan proqramlarını Graduate Record Examinational proqramından keçirməlidirlər.

Müəssisəyə işlə əlaqəli müraciət edən şəxs də müəssisədəki mövqeyini müəyyən etmək məqsədi ilə sınaqdan keçirilir. Testlərin, müvafiq təhsil səviyyəsinin məzunlar üçün peşəkar səviyyədə müəyyən edilmiş və müəyyən tələbləri əks etdirdiyinə inanılır. Bu tələblər qiymətləndirmə vasitəsi kimi sayılır, lakin məzunların hazırlığına tələblərin dəqiq təsviri yoxdur. 1963-cü ildə Miçiqan Universiteti ilk dəfə olaraq Turizm universitet proqramını açdı. Artıq 2008-ci ildə 100-dən çox universitetlərdə 30-dan çox turizm proqramı tətbiq olunurdu. 1991-ci ildə ilk dəfə təhsildə test satandartları üzrə Milli Komitə yaradılmışdır:

- təhsil standartları yekun və ortaq məqsədlərdən ibarətdir (təhsil islahatı sahəsində);
- hər bir təhsil səviyyəsinin sonunda yekun imtahanlar keçirilir.

Təhsil standartları aşağıdakı normativ sənədlərlə tənzimlənir:

İqtisadi Təhlükəsizliyin təşviqi üzrə təhsil haqqında qanun (1991), 2000-ci il Amerika Təhsil Strategiyası(1991), proqramın ABŞ Milli Qubernatorlar Assosiyası

Təhsil standartları sabit göstəricilər olduqlarına görə qarışıq olan sistemə aydınlıq gətirir:

- tədris proqramı ölkə üzrə ümumi olaraq istifadə olunur;
- əsas akademik təhsil hər tərəfli öyrədilir sürətləndirilmiş təlim hesab olunmur;
- vaxtın 25- 30% seçmə kurslara ayrılır.

Amerikanın təhsil sistemi Avropa sisteminə bənzər xüsusiyyətlərə malikdir, lakin bəzi fərqləri də var. Belə ki, Amerika sisteminin üstünlüyü ictimaiyyətlə sıx inteqrasiyada fəaliyyət göstərməsidir. ABŞ-da qonaqpərvərlik menecment ixtisası ilk dəfə 1922-ci ildə Cornell Universitetində açıldı. Daha sonra qonaqpərvərlik sənayesi üçün mütəxəssislər hazırlayan çox sayda təhsil müəssisəsi ortaya çıxdı [3].

Texas İdarəetmə İnstitutu (TMT) turizm sahəsində kadr hazırlığını həm nəzəri, həm də praktiki tədris planı əsasında həyata keçirir. Buna görə də Texas İdarəetmə İnstitutunda təhsilini bitirən hər bir tələbə turizm müəssisələrində hər bir fəaliyyətlə məşğul ola bilmə qabliyyətinə sahibdirlər. Peşəkar mütəxəssislər sahələri üzrə texniki və metodiki olan problemləri həll etmək bacarıqlarına, eləcə də çətin vəziyyətdən çıxmaq üçün yaradıcı təfəkkürə malik olurlar.

Amerika Birləşmiş Ştatlarında "Turizm sahəsinin idarə olunması" sahəsində bakalavr dərəcəsi üçün nəzərdə tutulan tədris planının təkrib hissəsini təşkil edən ümumi fənnlər bloku ilkin və üst linkə bölünməlidir. Bütün tələbələr bu bölmənin hər bir tələblərini yerinə yetirməlidirlər.Ümumi fənnlər bloku istisna olmaqla beş əlavə kurs var. Tələbələr əsas kursu daha dərindən öyrənmək üçün bu əlavə kurslardan birini seçirlər və turizm təhsil sistemi əsas iki bloka ayırılır. Bütün tələbələr bu blokların tələblərini yerinə yetirməlidirlər. Fənnlərin ümumi blokundan əlavə, beş əlavə kursları vardır. Tələbələr əsas kursu daha yaxşı hazırlamaq üçün bu alt kurslardan seçim edirlər.

1. Ümumi fənlər bloku:

1.1. Ümumi fənnlər blokunun ilkin hissəsinə daxildir; maliyyə və mühasibat hesabatlarının əsasları, mühasibat uçotunun əsasları, biznesin hüquqi sahəsi, informasiya sahəsinin vasitələri, səyahət sənayesinin əsasları.

1.2. Ümumi fənnlər blokunun yuxarı hissəsinə daxildir; səyahət sənayesinin hüquqi sahəsi, informasiya texnologiyaları sistemləri, xidmət müəssisələrinin idarə edilməsi, səyahət sənayesinin marketinq prinsipləri, səyahət sənayesində maliyyənin idarə olunması, insan resurslarının idarə olunması, statistika, marketinqin əsas prinsipləri.

2. Seçmə fənnlər bloku: Tələbələrə üç mövzu üzrə seçim etmək təklif olunur. Seçilmiş sahə üzrə tələbə 4-cü və 5-ci kursda öyrənməlidirlər, məsələn, otel sənayesinin idarəedilməsi, turizm sahəsində idaretmə, nəqliyyat sektorunda idaretmə bu fənnlər seçmə fənnlər hesab edilir.

Texas bakalavr proqramı səyahət sənayesi üçün kadr təlimini asanlaşdırır. Texas bakalavr proqramı əsasında hazırlanan peşəkar mütəxəssislər turizm sahəsində yaranan bütün çətin vəziyyətlərdə necə hərəkət etməyi və bu çətinliklərə qarşı dinamik fikir irəli sürməyi bacarır. İnstitutda bir neçə ixtisaslar üzrə kadrlar hazırlanır [2]. Belə ki, institutda turizm sahəsi üzrə bir neçə ixtisaslaşdırılmış kurs inkişaf etməkdədir:

1. İxtisaslaşma "Otel sənayesinin idarə edilməsi" Tələbələr müxtəlif təbəqələrin əlaqəlirini (müştəri sahibkar heyyəti); otel müəssisələrinin idarə edilməsi və funkisiyasını öyrənirlər. Bu sahə üzrə kurslara aiddir; nəzarət və idarəetmə formaları; maliyyə məsələləri; dizayna təsir edən amillər, otellərin planlaşdırması və tikintisi; gəlirlilik; otel sektorunda marketinqin əsas prinsipləri; bu sahədə qiymətlərin formalaşması və reklamın idarəedilməsi; dizayın əsasları, marketinq; xidmət sektorunda ticarət əməliyyatlarının fəaliyyəti; qida sahəsi; qida istehsalının əsas prinsipləri və onun miqdarı və s.

2. "Turizm sahəsində idarəetmə". Bu ixisaslaşma səyahət sahəsi ilə, marketinq prinsipləri və müəyyən müəssisələrin daxilində idarə etmə, nəqliyyat agentləri, eləcə də səyahət agentləri və digər aspektlər ilə sıx əlaqəlidir. Bu kursda tələbələr makroiqtisadi amillərlə tanış olur, turizm inkişafı ilə bağlı tədqiqat metodlarını, özəl və dövlət sektorunda turizm siyasətinin formalaşmasını öyrənirlər.

3.Nəqliyyat. Tələbələr ABŞ-ın nəqliyyat sistemlərinin (ölkədaxili və beynəlxalq) xüsusiyyətlərini, nəqliyyat şəbəkəsinin əsas rejimini, nəqliyyat sistemlərini, müxtəlif nəqliyyat metodlarının idarə edilməsini təhlil edir. Nəqliyyat sisteminin idarəetmə problemlərini, hava yolları və hava yollarının istismarı ilə bağlı yeni paylama metodlarını və nəqliyyat sahəsində yeni tendesiyyaları, şəhər nəqliyyat sisteminin turizm ilə bağlı vəziyyətini, sərnişin nəqliyyat sistemlərini, beynəlxalq hava və dəniz nəqliyyatını analiz edirlər.

Təcrübə əyləncə, istirahət və turizm sahəsində tədris zamanı əldə edilən təcrübədir. Elə məqsədli dərslər təklif edir ki, bunlar məcburi olaraq kurslara daxil olunur və fərdi olaraq tədqiqat aparmaq üçün nəzərdə tutulur. Bu istiqamətdə bakalavr dərəcəsini tamamlamaq üçün turizm sahəsində 800 saatlıq təcrübə də olmalı və 3 kredit üçün təlim keçməlidir. Tələbələr: ikinci ilin sonuna kimi 400 saatlıq təcrübəni, üçüncü ilin sonuna kimi isə ikinci 400 saatlıq təcrübəni bitirərək ümumi fənnlər blokunun yuxarı kurslarının 60 kreditini tamamlamış olular. Ümumi fənnlər blokunun yuxarı kursları 300 kredit təşkil edir. Ümumiyyətlə, əlavə olaraq 9-15 kredit seçmək tələb olunur.

Magisratura proqramı "Səyahət sənayesinin idarə edilməsi" fakültəsində tələbələrə səyahət sənayesinin mürəkkəb xarakterini geniş şəkildə analiz etməyə imkan verir. Pro-

qram iki il davam etdirilir və turizm sahəsinin bütün sahələrini - turizm, otel işi və nəqliyyat sahələrini əhatə edir. Hər bir tələbə ümumi fənnlər və seçmə fənnlərdən əlavə olaraq, proqramın əsas hissəsini təşkil edən dissertasiya işini bir elmi məsləhətçinin rəhbərliyi altında hazırlamalıdır. Magistr proqramının əsas məqsədi tələbələri turizm və səyahət sahəsində, otel, restoran və nəqliyyat sistemləri, informasiya texnologiyaları və elektron kommunikasiyaları sahələri üzrə dərin biliklər verərək perspektivli idarəetmə karyerasına hazırlamaqdır. Magistr dərəcəsi namizədləri məzun olmaq üçün əsas fənnlər blokunda 36 saatlıq krediti bitirməlidirlər. Magistr işinin müvzusunu hazırlayan zaman tələbələr geniş şəkildə sosioloji və müqayisəli tədqiqat, təhlil əməliyyatı aparmalı və müəyyən məlumatların geniş olaraq təsvirini verməlidir.

Magistr proqramının əsas kurslarına; informasiya texnologiyaları, marketinq strategiyası, səyahət sahəsinin marketinqi, səyahət sahəsində ticarət, nəqliyyat sisteminin idarə olunması,otel sistemində beynəlxalq sistemin idarəedilməsi, turizm sahəsində tədqiqatların aparılması, turizm sahəsində proseslərin idarəolunması aid edilir.

Texas İdarəetmə İnstitutu çox sayda qabaqcıl təlim kursları təklif edir. Məsələn, institutda turizm sahəsində liderlik üzrə təlim keçirilir. Bundan əlavə institut tələbələri və peşəkar mütəxəssislər üçün hər il 20 günlük intensiv “Sakit okean gəzintisi” proqramı təşkil olunur. Bu cür təlimlərin iştirakçıları mehmanxana işçiləri, tur operatorlar, aviaşirkət əməkdaşları, və digər turizm mütəxəssisləriolur. Bir çox qabaqcıl təlim kursları disdant təhsilin xüsusiyyətlərinə də malik olur. Turizmin idarə edilməsi üzrə keçirilən təlim kurslarının praktiki istiqamətləri (mütəxəssislərin hazırlanma metodikasının praktiki istiqamətləri) bütün ixtisaslar üçün ümumi prinsiplərə əsaslanır.

Turizm üzrə doktorluq disertasiyalarının sayı dünyada artmaqdadır. 1951-ci ildən 1986-cı ilə qədər ABŞ-da 197 doktorluq üzrə müdafiə keçirilmişdir, onlardan iqtisadiyyat üzrə 40, antropologiya üzrə 25, coğrafiya üzrə 24, turizm üzrə 23, pedaqogika üzrə 9, sosiologiya üzrə 7, şəhər və regional planlaşdırma üzrə 5, və s. Hər il ABŞ-da müdafiə sayları artmaqdadır.

İndi isə Böyük Britaniyada turizm təhsili verən universitetlərin profilləri ilə tanış olaq.

Glasgow universiteti. Glasgow universiteti turizm üzrə yalnız magistratura təhsili verir. Magistratura təhsili daha çox ümümi menecment,turizm,irs və inkişafa fokuslanır. Glasgow universitetində bu magistratura proqramını oxumaqla tələbə yuxarıda qeyd olunan sahələr üzrə fərdi və kollektiv şəkildə bilik toplayır və onlar asrasındakı qarşılıqlı əlaqəni praktiki olaraq qavrayırlar. Ümumi menecment ,turizm, irs və inkişaf, Avropa, Amerika, Asiya və xüsusilə də Şotlandiya timsalında beynəlxalq səviyyədə həm nəzəri həm də praktiki cəhətdən tədris edilir. Bu magistratura proqramında tədris olunan əsas ana fənnlər aşağıdakılardır:

- ümumi menecment;
- inkişaf və dəyişikliklər menecmenti;
- mədəni turizm menecmenti;
- turizm menecmenti;
- destinasiya menecmenti;
- irs menecmenti;
- dayanıqlı turizm menecmenti;
- ekoloji turizm.

Tədris olunan fənnlər tələbəyə aşağıdakı istiqamətdə biliyini və təcrübəsini artırmağa imkan verir:




Yuxarıda qeyd olunan ümümi tədris eskizinə baxdıqda həqiqətən də Glasgow universitetinin turizm sahəsində verdiyi təhsilin daha çox spesifik, siyasi çalarlı və mədəni irs istiqamətində olduğu görünür . Təsadüfi deyildir ki, bu universitetdə turizm təhsili alan tələbələr iş karyeralarını otellərdə, restoranlar və əyləncə mərkəzlərində deyil, turizmə dair strateji araşdırma agentliklərində, UNESCO-da və ya turizm və mədəniyyətlə bağlı olan dövlət qurumlarında qururlar.

Glasgow universiteti tələbələri təcrübə üçün Böyük Britaniya, İspaniya və İrlandiyada mədəni və irsi turizm, inkişaf və dəyişikliklər, turizmdə dayanıqlıq menecmneti ilə məşğul olan müəssisələrə iki-üç aylıq göndərir. Eyni zamanda tədris ili boyu Böyük Britaniya daxilində “field study”lər təşkil edir.

Məlum olduğu kimi, İsveçrə dünyada turizm və qonaqpərvərlik üzrə təhsil verən ən qabaqcıl ölkələrdən biridir. İsveçrədə Les Roches və Glion universitetləri öz təhsil keyfiyyəti, təcrübə imkanları, maddi texniki baza və sair kriteriyalara görə top universitet-

lər arasındadır. Böyük Britaniya, Kanada, Rusiya və digər ölkələrin turizm üzrə təhsil verən universitetlərindən fərqli olaraq İsvecrədə turizm təhsili verən universitetlər turizmə makro səviyyədə deyil mikro səviyyədə yanaşır və qonaqpərvərlik və otel işinə fokuslanırlar. Les Roches universitetində təhsilin ilk pilləsində beynəlxalq restoran və otellərdə ön büro və yerləşmə ilə bağlı müxtəlif funksiyaları yerinə yetirmə bacarıqları aşılanır :

1-ci semestrdə qazanılan bacarıqlar ikinci semestrdə müxtəlif arxa şöbələrin işlərini yerinə yetirmək üçün zəmin yaradır. Belə ki, 2-ci semestrdə aşağıdakı fənn və bacarıqlar mənimsədilir:

- özünəxidmət və banket əməliyyatları – mətbəxə əsaslanan praktiki öyrənmə;
- şirniyyatların hazırlanması əməliyyatları – praktiki öyrənmə;
- nahar və fastfoodların hazırlanması – mətbəxə əsaslanan praktiki öyrənmə;
- otaq bölgüsü idarəçiliyi;
- qidalanma və qidanın elmi prinsipləri;
- təşkilati davranış.

İlk iki semestrdə qazanılan nəzəri və məhdud praktiki bacarıqlar 4-6 ay müddətində davam edən ilk istehsalat təcrübəsində ya restoran , bar və otaq xidməti olmaqla xidmətdə, ya da ön büro və ya housekeeping olmaqla otaqların bölgüsündə əməliyyat səviyyəsində tətbiq edilir.

Növbəti mərhələdə yekun otel əməliyyatları semestrində tələbə otel və restoranın şöbələrində menecment funksiyalarını yerinə yetirmə bacarıqlarını öyrənir.

İkinci 4-6 ay davam edən istehsalat təcrübəsi özündən əvvəlki öyrənilən nəzəri və məhdud praktiki bacarıqların inkişafına və effektiv tətbiqinə istiqamətlənir. Belə ki, burada tələbələr idarəçilik , layihə menecmenti , vaxt menecmenti və kommunikasiyaya aid olan bacarıqlarını işə salırlar. Sonuncu il yəni 6-cı və 7-ci semestrlər daha geniş biznes təcrübəsi və strateji menecmentə fokuslanır.

Göründüyü kimi, İsveçrədə turizm təhsili tam praktiki əsaslarla keçirilir ki, bu da universitet təhsilindən sonra işə başlayan biri üçün təcrübə adaptasiyası mərhələsini öncədən təmin edir.

Glion ali təhsil institutu dünyada beynəlxalq karyera üçün 3 ən yaxşı qonaqpərvərlik menecmenti məktəblərindən biridir (TNS, Global research, 2013). Təxminən 100 şirkətdən nümamyəndələr hər il Glion institutuna gələrək otel zəncirləri, tədbirlər, lüks biznes, maliyyə və xidmət sahələrində işləmək və ya istehsalat təcrübəsi keçmək üçün tələbələri işə götürürlər.

Glion 50 ildən çoxdur ki, qonaqpərvərlik təhsili üzrə brend təhsil ocağı sayılır. 1962 ci ildə yarandığı gündən bəri Glion öz proqram və kurslarını daim dəyişən sənayeyə uyğunlaşdıraraq ənənəvi İveç qonaqpərvərliyi ruhu qazanmışdır.

Glion ali təhsil institutu İsveçrədə iki, Londonda isə bir kampusu olmaqla həqiqi qlobal müəsissədir.

3 il yarımlıq biznes idarəçiliyi üzrə bakalavr və ya qonaqpərvərlik menecmenti üzrə bakalavr təhsilində tələbə biznes və turizmə dair hərtərəfli təcrübə qazanır.

Glionun unikal qonaqpərvərlik təhsil modeli tətbiqi öyrənmə və otel menecmenti kursları və bundan başqa liderlik və “soft skills” öyrətməklə istehsalat təcrübələrində daha da inkişaf etdirir.

Glionda təhsil 7 semestr olmaqla 3 il yarımdır. İlk semestrlərdə:

| ilk semestr | ilk semestr | ilk semestr |
|---|---|---|
| **Mətbəx əməliyyatlarına dair tətbiqi öyrənmə ,**<br>**Qida və içki xidmətinə dair tətbiqi öyrənmə**<br>**Biznesə giriş**<br>**Qonaqpərvərlik və turizm dünyası** | **İnformasiya texnologiyaları**<br>**Akademik ingilis dili,**<br>**İnsan resurslarına giriş** | **Maliyyə mühasibatlığı**<br>**Şəxsi inkişaf**<br>**Qida və içki idarəçiliyi kimi fənnlər tədris edilir .** |

3 cü semestrdə isə ilk iki semestrdə öyrənilən nəzəri və məhdud praktiki biliklərin tətbiqi nəzərdə tutulur.

Növbəti mərhələdə otaq gəlirlərinin idarə olunması , sahibkarlıq menecmenti , arxitektura və dizayn, musiqi ilə terapiya , təbii landşaftın interperetasiyası , sağlamlıq üçün qidalanma, film və ədəbiyyat vasitəsilə qeyri-avropa mədəniyyətinin aspektləri, tibbin modellərinin müqayisəsi, Qərb sivilizasiyasının qurulması, yekun həllə dair məsləhətləşmə və danışıqlar kimi fənnlər tədris edilir ki onlar öz tətbiqini 5-ci semestrdə istehsalat təcrübəsində tapırlar.

Sonuncu semestrlərdə qonaqpərvərlik sənayesində:

| | | | |
|---|---|---|---|
| İnsan resursları | Qanunvericilik və müqavilə hüququ | Turizm və istirahət üçün iqtisadiyyat | Konfrans və sərgi menecmenti |
| Marketinq və kommunikasiya | Təşkilati davranış | Statistika | Biznes araşdırması metodları |
| Koorporativ sosyal məsuliyyət və idarəçilik | Elektron kommersiya | Media münasibətləri | Etik qərar qəbulu |
| Liderlik | Sahibkarlıq maliyyəsi | Ətraf mühitin menecmenti | |

Əgər biz hətta İsveçrədəki turizm təhsili verən ali təhsil müəssisələri olan Glion və Les Roches institutlarını müqayisə etsək, açıq-aydın görərik ki, Les Roches institutu turizm sahəsi üzrə daha çox spesifik və praktiki təhsilə meyllidir. Bu da onun daha üstün olduğu-

nu göstərən amillərdən biridir.

Beynəlxalq səviyyədə tədris olunan turizm təhsilinin Azərbaycanda tətbiqinə gəldikdə isə qeyd edilməlidir ki, bu kifayət qədər çətin məsələdir. Məsəlinin çətinliyi əsasında yalnız məhdud resurslar, zəif infrastuktur və güclü texnoloji mühit durmur. Belə ki, xarici ölkələrin praktikasının Azərbaycanda uğurlu tətbiqi psixologiyamızda və müəllimlərə verilən məvacibdə əsaslı dəyişiklikdən də asılıdır. Əgər Maslounun ehtiyaclar iyerarxiyasına əsaslansaq görərir ki, uğura çatmaq və yüksək performans göstərmək üçün öncəki ehtiyacları uğurla ödəmək lazımdır. Yəni hansısa standartın tətbiqindən öncə müəllim heyyətini o standartı tətbiq etməyə həvəsləndirmək lazımdır. Bu isə yüksək əməkhaqqı, sağlam iş mühiti və rəhbərliyin heyyətin şəxsi inkişafında marağından keçir. Avropa və Türkiyə turizm təhsili standartlarının Azərbaycanda inzibati yöndən deyil, birbaşa təhsil yönündən tətbiqi isə özündə daha fərqli elementləri və köklü islahatları ehtiva edir. Bunu aşağıda daha ətraflı izah edək:

- İnfrastrukturun yaxşılaşdırılması, maddi-texniki bazanın gücləndirilməsi;
- Tədrisə mümkün qədər ixtisaslı kadrların cəlb edilməsi;
- Ingilis dilinin tədris dili kimi tətbiq edilməsi4
- Dərslərin nəzəri yükünün azaldılıb, praktiki yükünün artırılması;
- İstehsalat təcrübəsinin yalnız 3-cü və 4-cü kursda deyil, hər kursun sonunda həyata keçirilməsi;
- İstehsalat təcrübəsi keçirilən müəssisələrlə effektiv koordinasiya;
- İxtisaslara uyğun istehsalat təcrübəsi müəssisələrinin müəyyən edilməsi, yəni menecment ixtisası üzrə təhsil alan tələbənin hər hansı bir restoranda ofisiant və ya hər hansı bir oteldə qeydiyyatçı, bellboy kimi təcrübə küçməsi deyil , kifayət qədər çəkili bir müəssisədə ixtisaslı və təcrübəli menecerlər yanında təcrübə keçməyə göndərmək lazımdır;
- İmtahanlarda praktiki performansa üstünlük verilməsi;
- Müəllimlərdə təkcə müəllimlik deyil, həm də mentorluq qabiliyyətini inkişaf etdirmək;
- Tələbələrə fənn və müəllim seçimində azadlıq vermək;
- Dünyaca nüfuzlu turizm ali təhsil ocaqları ilə tələbə və müəllim mübadiləsini genişləndirmək, oradakı təcrübəni Azərbaycanda da tətbiq edə biləcək gənc kadrlara maksimum şərait yaratmaq və Azərbaycana töhfə vermək üçün motivasiya etmək;
- Yuxarıda qeyd edildiyi kimi, xarici universitetlərlə təcrübə mübadiləsini aparmaqla yerli universitetlərdə beynəlxalq tələbə mühiti yaratmaq;
- Tələbələrin yalnız il sonu istehsalat təcrübələrinə göndərilməsi deyil, həmçinin müəllimlər ilə birlikdə semestr ərzində müvafiq dərslərin mahiyyətinə uyğun "fieldtrip"lərə göndərilməsi;
- Müəllim-tələbə arasında effektiv kommunikasiyanın inkişafını dəstəkləmək.

Yuxarıda sadaladığımız amillərin kifayət qədər effektiv təhsilə nail olmağa imkan verəcək amillər olduğunu düşünürəm. Təbii ki, mənim bu düşüncələrimin formalaşmasında hal hazırda xaricdə turizm üzrə təhsil alan insanların və internet üzərindən etdiyim müstəqil araşdırmaların böyük təsiri vardır. Düşünürəm ki, universitet tələbələrə turizm sektorunun ehtiyaclarına uyğun bir təhsil verməlidir. Bu isə sektorun ehtiyac duyacağı bacarıqlar ilə təchiz olunmuş turizmçiləri yetişdirəcək gerçək zamanlı təcrübə şansını tələbələrə təqdim edərək mümkün ola bilər. Bu şəkildə tələbələr karyeraları

və maraq göstərdikləri iş sahələri üçün lazım olan ilk təcrübələrini, məlumatı, texnikaları və bacarıqları əyani olaraq həyata keçirərək əldə edəcəklər.

**Ədəbiyyat**


1. Панина Т.С., Вавилова Л.Н. Современные способы активизации обучения. - М.: Академия, 2006
2. Сакун Л.В. Теория и практика подготовки специалистов сферы туризма в развитых странах мира. - К.: МАУП, 2004. - 399 с.
3. Алферов Ю.С. Оценка и аттестация кадров за рубежом. - К., 1997. - 103 с.
4. Cathy, H.C.Shu. Global tourism higher education, past, present and future. 2011, New York, USA
5. Airey, D. & Tribe, J. Issues for the future. In: D. Airey, & J. Tribe (Eds.), An international handbook of tourism education (pp. 501-506). UK: Elsevier, 2005
6. Walker, J.R. Introduction to Hospitality Management, 2nd Edition, New Jersey. Pearson Education, Inc., 2007


## INTERNATIONAL PRACTICE OF PERSONNEL TRAINING FOR TOURISM SECTOR

**I.Sh.Aliyeva, A.N.Eminov**

**SUMMARY**

This paper studies the working principles of international educational institutions engaged in personnel training for tourism sector. The ways to use their experience in Azerbaijan are identified.

## МЕЖДУНАРОДНАЯ ПРАКТИКА ПОДГОТОВКИ КАДРОВ В ТУРИСТИЧЕСКОЙ СФЕРЕ

**И.Ш.Алиева, А.Н.Эминов**

**РЕЗЮМЕ**

В статье исследуются принципы работы мировых учебных заведений, занимающихся подготовкой кадров в области туризма. Определены направления применения их опыта в Азербайджане.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# AQRAR SEKTORDA LİZİNQ ƏMƏLİYYATLARININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**G.M.Səfərova**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: gunel83@yahoo.com

***Açar sözlər:*** lizinq, lizinq müqavilələri, lizinq əməliyyatları.
***Keywords:*** leasing, leasing contracts, leasing operations
***Ключевые слова:*** лизинг, лизинговые контракты, лизинговые операции.

Azərbaycan Respublikasında aqrar sahədə istifadə edilən texnikanın xeyli köhnəlməsi nəticəsində son illərdə texniki potensialın azalması meyli yaranmışdır ki, bu da maşın və avadanlıqların yenilənməsi üçün imkanlar axtarışına çıxmağa təkan verir. Standarlara uyğun olmayan, köhnəlmiş maşın və avadanlıqların yenidən qurulması və dəyisdirilməsi üçün müasir investisiya vasitəsi kimi lizinqdən səmərəli istifadə edilməsi zəruri məsələlərdən biridir.

Ölkəmizdə aqrar sektorun sürətli inkişafı üçün 23 oktyabr 2004-cü ildə "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən Sərəncam imzalanması və 31 mart 2005-ci ildə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları"nın təsdiq edilməsi və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının qüvvəyə minməsi aqrar sahədə lizinq münasibətlərinin inkişafına əlverişli şərait yaratdı [1].

Aqrar sahənin mövsümü xarakterli olması və kreditqaytarma qabiliyyətinin aşağı səviyyədə olması səbəbindən kommersiya bankları kənd təsərrüfatı istehsalçılarına kredit verməkdən çəkinir və buna çox da maraqlı deyillər. Eyni zamanda, kommersiya banklarının kredit faizlərinin çox yüksək olması kənd təsərrüfatında bir sıra maneələr yaradır. Bu səbəbdən də istehsalçılar özlərinin maddi-texniki bazasını yüksək texnoloji maşın və avadanlıqlarla vaxtında təchiz edə bilmirlər.

Lizinqin səmərəli forması olan maliyyə lizinqindən istifadə edilməsi aqrobiznesin maliyyələşdirilməsinin ən əlverişli üsullarından biridir.

Aqrar müəssisələrin investisiya fəaliyyəti sahə xarakterinə görə daim qeyri-müəyyən şəraitdə həyata keçirildiyi üçün bu sahəyə tələb olunan həcmdə investisiyanın və onun maliyyələşdirilməsi mənbələrinin planlaşdırılması prosesində müəyyən problemlər yaranır.

Aqrar sektorda kiçik və orta biznesi inkisaf etdirmək üçün lizinq maliyyələşməsi üsulu çox faydalıdır. Belə ki, kommersiya bankları və kredit təskilatları kiçik sahibkarlıq subyektlərinin xüsusi kapitalının olmamasını əsas tutaraq, onlara kredit verməkdən imtina edirlər.

Dünyanın bir çox ölkələrində lizinq iqtisadiyyata investisiya qoyulusu üsullarından birinə çevrilmisdir. Yənki ki, dünyanın bir çox inkisaf etmis ölkələrində iqtisadiyyata investisiya qoyuluşunun 25-30%-ni lizinq vasitəsilə həyata keçirilir, yeni çeşidlı məhsulların 80%-ə qədəri icarəyə alınmış avadanlıqlarda istehsal edilir (6, s.126).

Dünya təcrübəsi göstərir ki, lizınq mexanizminin tətbiqi kənd təsərrüfatında istehsalın artımına müsbət təsir göstərmişdir.

Lizinq yolu ilə əldə olunmuş texnika sahibkara xüsusi vəsaitin digər hissəsinin avdanlıq əldə edilməsinə yönəltməsinə və istehsalın genisləndirilməsini həyata keçirməsinə imkan yaradır. Amma lizinqin inkisafı bir sıra amillərin təsirindən asılıdır.

Lizinq – ixtisaslaşmış lizinq şirkətinin, firmasının, bank şöbəsinin lizinq alan üçün əmlak olaraq, həmin əmlakın hər hansısa bir müddətə icarəyə verilməsi ilə əlaqədar olaraq əsas vəsaitlərə investisiya qoyuluşunun maliyyələşdirilməsidir. Müddətindən asılı olaraq, üç növ icarə müqaviləsi mövcuddur:

1. qısamüddətli icarə – 1 gündən 1 ilə qədər müddətə;
2. ortamüddətli icarə – 1 ildən 3 ilə qədər müddətə;
3. uzunmüdəətli icarə – 3 ildən 20 ilə qədər.

Maşın və avadanlıqların uzunmüddətli icarəsi dedikdə lizinq nəzərdə tutulur. Bu proses daxilində istehsal məqsədilə avadanlıq və maşınlar icarəçi tərəfindən icarədara təqdim olunur. Lizinq müddəti ərzində mülkiyyət hüququ icarəçidə olur.

Araşdırmalardan görünür ki, son illərdə kənd təsərrüfat müəssisələrində məhsul satışından əldə edilən gəlirin səviyyəsi artması kənd təsərrüfat müəssisələrinin əsas fondla təminatı yüksəlmişdir. Çünki əsas vəsaitlərin alınması lizinq mexanizmi hesabına həyata keçirilmişdir. Bitkiçilik və heyvandarlıq sahələrinə, həmçinin quşçulugun həm yumurtalıq, həm də damazlıq üçün saxlanmasına lizinq yolu ilə innovasiyalı texnologiyalar alınmıs və tətbiq edilmişdir. İstehsalın fondla təchizatı, əməyin ən müasir texnika və texnologiyalarla silahlanması ümumilikdə məhsul istehsalının artmasına müsbət təsir göstərmişdir.

Araşdırmalar göstərir ki, aqrar sektorda istehsal sahələrinə lizinq yolu ilə qoyulan investisiyalar bəzi bitkiçilik məhsullarının maya dəyərinin artmasına, heyvandarlıqda isə bütün heyvandarlıq məhsullarının maya dəyərinin artmasına səbəb olmusdur. Belə ki, bitkiçilik sahəsində dənli və dənli paxlalıların, xam pambıgın, şəkər çugunduru, yasıl çay yarpagı, bostan bitkiləri və üzümün maya dəyəri xeyli artmısdır. Heyvandarlıqda isə iribuynuzlu mal-qaranın, qoyun, keçi və donuzların, heyvandarlıq məhsulları, süd, yun və yumurtanın maya dəyəri də xeyli yüksəlmişdir.

Bir qayda olaraq, icarə üzrə qarşılıqlı fəaliyyət təcrübəsi, daxili lizinq əməliyyatları ilə müqayisədə beynəlxalq lizinq üzrə əməliyyatların daha yüksək kefiyyətli olmasını təsdiq edir. Əgər avans ödənişindən istifadə edilirsə və əgər zəmanət məbləğinin hesablanması zamanı ikiqat vergiyə cəlb olunmanın aradan qaldırılması haqqında razılıq nəzərə alınırsa, beynəlxalq əməliyyatların effektivliyi adətən əhəmiyyətli dərəcədə yüksək olur.

Təcrübə göstərir ki, lizinqin əsas üstünlükləri aşağıdakılardan ibarətdir:

- əmlak kimi investisiyalaşdırma pul kreditindən fərqli olaraq pulların geri qaytarılmaması riskini azaldır, demək olar ki, çox hallarda lizinq verən icarəyə verdiyi əmlak üzərində mülkiyyət hüququnu öz əlində saxlayır;
- lizinq 100%-lik kreditləşdirməni nəzərdə tutur və ödənişlərin dərhal başlanmasını tələb etmir ki, bu da icarədara böyük maliyyə xərcləri olmadan istehsal fondlarını yeniləməyə və bahalı və məhsuldar avadanlıqlar əldə etməyə imkan verir. Qeyd edilən kredit-

dən istifadə zamanı müəssisə alış dəyərinin bir hissəsini şəxsi vəsaitləri ilə ödəməlidir;

- avadanlığın mənəvi və fiziki köhnəlməsi riski lizinq alan üçün azalır, çünki o, əmlakı şəxsi mülkiyyətə keçirilmək üçün deyil, müvəqqəti istifadə üçün əldə edir;
- vergiyə cəlb olunan mənfəəti azalır çünki, lizinq ödənişləri lizinq alanın istehsal xərclərinə aid edilir;
- avadanlıq istehsalçısı məhsulun satışının təşkili və bazarın yeni seqmentlərinin mənimsənilməsi üzrə əlavə imkanlar əldə edilir.

Dünya təcrübəsindən göründüyü kimi, iqtisadiyyata investisiya qoyuluşunun çoxsaylı müxtəlif istiqamətləri var. Bunlardan son 35-40 ildə ən inkişaf etmişı lizinq modelidir. Araşdırmalara görə, dünyanın inkişaf etmiş ölkələrində iqtisadiyyata investisiya qoyuluşunun 25-30%-i lizinqlə bağlıdır.

Ölkəmizdə lizinq xidmətlərinin, şirkətlərinin geniş inkişaf etməməsini Azərbaycan üzrə qanunvericilik bazasının geniş olmaması ilə, lizinq əməliyyatlarına əlavə dəyər vergisinin tətbiq edilməsi ilə, marifləndirmənin zəif olması və s. ilə əlaqələndirirlər.

Deyilənlərə əsaslanaraq demək olar ki, lizinq əmaliyyatları çox əhəmiyyətli bir investisiyadır. Lizinq əməliyyatları həm malını satan, həm lizinqə vermək üçün mal alan, həm də malın son istifadəçisinin maraqlarını tamami ilə ödəyir. Lizinq bazarının zəif inkişaf etməməsinin əsas səbəblərindən biri də məhz bu fəaliyyət növü ilə bağlı istehsalçılarda lazımı məlumatın olmamasıdır.

Həm iqtisadi ədəbiyyatlarda, həm də praktikada çox vaxt lizinq dedikdə daha çox icarə işi kimi başa düşür. Lakin bu bizim bildiyimiz həmişəki klassik icarə forması deyil. İcarə əmlakən İcarəçinin müvəqqəti istifadəsinə verilməsidir. İcarə zamanı icarəçi əmlakdan istifadə etməklə bərabər ondan gəlir götürmək hüququna malikdir. İcarə münasibətləri qarşılıqlı xarakter daşıyır. Lizinqin xarakteri isə fərqlidir.

Respublikamızda lizinqin bir çox sahələrdə inkişaf istiqamətləri var. Misal üçün, kənd təsərrüfatı məhsullarının saxlanması üçün soyuducu avadanlıqların, saxlanma anbarlarının, o cümlədən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün istilik avadanlıqlarının, telekommunikasiya sahəsində qiymətli avadanlıqların çox müddətə maliyyələşməsi sahəsində lizinq qənaətbəxş hesab oluna bilər. Hazırda lizinq Azərbaycanda daha çox kənd təsərrüfatı və tikinti sektorununu əhatə edir.

Kənd təsərrüfatı bu gün lizinq şirkətləri üçün perspektivli sahələrdən biridir. Amma Azərbaycanda fəaliyyət göstərən lizinq şirkətləri «Aqrolizinq» şirkəti ilə rəqabətə girə bilmədiyindən, bu sahə onların fəaliyyətdən kənarda qalır və ya cüzi bir yer tutur. Məlumdur ki, Aqrolizinq şirkət bu gün xeyli imtiyazlara malikdir, dövlət büdcəsindən güzəştli maliyyələşmə əldə edir və cüzi faizlərlə və ya faizsiz texniki avadanlıqları kənd təsərrüfatında işləyən sahibkarlara lizinqə verir Amma başqa lizinq şirkətləri Aqrolizinqə verilmiş imtiyazlardan və güzəştli maliyyə vəsaitlərindən kənarda qalır.

Belə ki, lizinq şirkətləri geniş formada maliyyə resurslarına malik banklarla rəqabətə girə bilmirlər, bu da lizinq sektorunun zəifləməsinə və lizinq portfelinin aşağı düşməsinə gətirib çıxarır.

Lizinq fəaliyyətində xarici təcrübə göstərir ki, ABŞ-da son illərdə avadanlıqların lizinqi maşın və avadanlıqlara investisiya qoyuluşunun ümumi həcminin 30%-ni təşkil etmiş, lizinq müqavilələri isə il ərzində 100-131 mlrd. dollarla çatmışdır. Lizinq əməliyyatlarının yüksək səviyyəsi Böyük Britaniyada da mövcuddur.

Azərbaycanda sürətlə inkişaf edən bir çox sahələrdə lizinqdən istifadə edilməsi məqsədəuyğundur. Belə ki, telekommunikasiya, tikinti, informasiya texnologiyaları, nəq-

liyyat, kənd təsərrüfatı, infrastruktur layihələrində, emal sənayesi, yüngül sənaye və başqa sahədə inkişafda olan lizinqdən geniş istifadə edilə bilər. Bununla da lizinq sektorunun inkişafı respublikada mühüm yer tutmuş olardı (5, s.305).

Respublikamızda lizinq münasibətlərinin formalaşması «Lizinq xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu [2] və Azərbaycan Respublikasının «Mülki Məcəlləsi» ilə tənzimlənir. Mülki Məcəllənin 747-751-ci maddələri lizinqu münasibətlərə həsr olunmuşdur [3].

Aparılan təhlillər göstərir ki, ölkəmizdə aqrar sektorda lizinq şirkətlərinin fəaliyyətlərinin dövlət tərəfindən dəstəklənməsi üzrə aşağıdakı tədbirlər daha yüksək səmərə verər:

- respublikanın və ayrı-ayrı bölgələrinin ortamüddətli və uzunmüddətli sosial-iqtisadi inkişaf proqramının tərkib hissəsi kimi lizinq fəaliyyətinin inkişaf etdirilməsi proqramının hazırlanması və həyata keçirilməsi;
- dövlət əmlakından istifadə etməklə lizinqə bank investisiyalarının qoyuluşunu təmin etmək üçün girov fondlarının yaradılması;
- ayrı-ayrı məqsədli investisiya - lizinq layihələrində lizinq fəaliyyətinin infrastrukturunun yaradılmasında dövlət kapitalının iştirakının xüsusi çəkisinin artırlması;
- lizinq layihələrinin həyata keçirilməsi üçün investisiya kreditlərinin verilməsi;
- kənd təsərrüfatı məhsullarının emalını və yığımını həyata keçirən lizinq alanlara, lizinq müqaviləsində nəzərdə tutulmuş şərtlər əsasında lizinq ödənişlərini məhsul göndərilməsi yolu ilə həyata keçirmək hüququnun verilməsi;

Texnika pul vəsaitləri ilə dərhal ödənmə üsulundan fərqli üsullar vasitəsilə əldə edilirsə, bu halda həmin texnikalar üzrə gələcək ödənisləri təskil etmək lazımdır. Kredit satıslarının ən sadə formalarında satınalan səxsə məblәgi ödəmək üçün müəyyən müddət verilir və bu halda debitor/kreditor borcları ilə əlaqədar olan normal uçot prosedurları tətbiq edilir. Bu səbəbdən də son illərdə kənd təsərrüfatında lizinq müqavilələrinin sayında əhəmiyyətli artım bas vermisdir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 197-ci maddəsinə görə vergitutma obyektləri olan hüquqi və fiziki şəxslərin mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik qalıq dəyəri əmlak vergisinə cəlb edilir. Lizinq əməliyyatları zamanı tərəflər arasında əmlak münasibətləri müəyyən edildiyindən icarəyə verən və icarədar əmlak vergisinin ödəyiciləri sayılırlar. Müqavilə sərtlərinə uygun olaraq lizinq predmeti tərəflərdən hansı birinin balansında əks olunursa həmin tərəf də əmlak vergisini ödəyir. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 202-ci maddəsinə görə müəssisələrdə əmlak vergisi lizinq predmeti olan əsas vəsaitlərin orta illik qalıq dəyəri əsas götürülməklə hesablanır. Müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) orta illik qalıq dəyəri müəssisənin əmlakının hesabat ilinin əvvəlinə və sonuna qalıq dəyəri toplanıb ikiyə bölünməsi qaydasında hesablanır [4].

Lizinq özündə bank krediti, icarə, investisiya elementlərini cəmləşdirən münasibətlər kompleksidir. Lizinq lizinq verənlə lizinq alan arasında əksər hallarda uzunmüddətli xarakter daşıyan maliyyə sazişidir. Lizinq müqaviləsinə görə lizinq verən lizinq alana lazım olan əmlakı satıcıdan mülkiyyət hüququ ilə əldə etməli və lizinq alanın müvəqqəti sahibliyinə və istifadəsinə verməlidir. Lakin lizinqin bir investisiya mexanizmi kimi inkişafı nəticəsində banklar və sığorta şirkətləri də lizinq münasibətlərinə qatılırlar. Beləliklə, lizinqin şərtləri bütün tərəflər üçün daha çevik və daha sərfəli olur.

Lizinq vasitəsilə istehsalatın müasirləşdirilməsi kiçik və orta sahibkarlığın inkişafı yolunu təmin edir. Orta və kiçik müəssisələrin kredit qabiliyyəti aşağı olduğuna, onlar likvid girovun təklif edilməsi imkanına malik olmadıqlarına görə həmin müəssisələrin maliyyələşdirilməsində lizinq şirkətləri mühüm rol oynayırlar.

Lizinq xidməti ilə yanaşı, rentinq xidməti də vardır. Bu, maşınların, avadanlıqların və digər texnikanın qısa müddətə – adətən bir il müddətinə icarəyə verilməsi deməkdir. Lakin icarədara həmin maşın və avadanlıqları sonradan satın almaq hüququ verilmir. Maşın və avadanlıqların sahibi bir qayda olaraq rentinq cəmiyyətləri olurlar. Həmin cəmiyyətlər müqavilənin qüvvədə olduğu müddətdə maşın və avadanlıqlara sahiblik, mülkiyyət hüququnu saxlayır, onların təmirinə xərc çəkir. Lizinqə nisbətən rentinq üzrə icarə haqqı daha çoxdur.

Aqrar sektorda dinamikanı yüksəltmək, məhsul istehsalının artımına və səmərəliliyin yüksəlməsinə nail olmaq üçün lizinq əməliyyatlarının genişləndirilməsi məqsədəuyğundur.

### Ədəbiyyat

1. "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 23 oktyabr 2004-cü il tarixli, 466 №-li Azərbaycan Respublikası Prezidentinin sərəncamı.
2. "Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 38-ci fəsil
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi.
5. Bağırov M.M. "Banklar və bank əməliyyatları" (Ali məktəblər üçün dərslik). Bakı, "Nurlan", 2003, 512 s.
6. Məmmədov Z.F. Bank işi v elektron bankçılıq. Bakı, Qanun nəşriyyatı, 2003, 375 s.

## DIRECTIONS OF DEVELOPMENT FOR LEASING OPERATIONS IN AGRARIAN SECTOR

**G.M.Safarova**

### SUMMARY

This work stresses the importance of leasing in the agrarian sector in Azerbaijan and reveals development tendencies for achieving more efficiency in this field. Legislative base of leasing is considered, recommendations are given for further improvement.

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ЛИЗИНГОВЫХ ОПЕРАЦИЙ В АГРАРНОМ СЕКТОРЕ

**Г.М.Сафарова**

### РЕЗЮМЕ

В статье отмечается важность лизинга в аграрном секторе Азербайджана, а также определены тенденции развития для получения большей эффективности в этой отрасли. Рассмотрена законодательная база лизинга, даны рекомендации по дальнейшему усовершенствованию.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# KREDİTLƏŞDİRMƏ SİSTEMİNİN İQTİSADİ MAHİYYƏTİ

**R.Z.Bayramov**
AMEA İqtisadiyyat İnstitutu
Bakı, H.Cavid prospekti 115
e-mail: ramin.zahidoglu@gmail.com

***Açar sözlər:*** kredit sistemi, kreditor, borcalan, pul və valyuta sistemi
***Key words:*** credit system, creditor, borrower, money and currency system
***Ключевые слова:*** кредитная система, кредитор, заемщик, денежная и валютная системы

*Ödənişlik prinsipi* borcalanın kreditordan aldığı pulu müəyyən faizlə (kredit haqqı ilə) geri qaytaracağını nəzərdə tutur. *Müddətlilik prinsipi* maliyyə resurslarının borcalan tərəfindən kreditora qaytarılmasında müddətliliyi əks etdirir. Kredit müddətlilik prinsipinə görə qısamüddətli (1 ilə qədər) və uzunmüddətli (1 ildən çox) kimi təsnifatlana bilir.

*Təminatlılıq prinsipi* kreditora hüquq verir ki, borcalandan onun borcunu faizlə qaytarmaq öhdəliyinin təmin edilməsini tələb etsin. Bir çox hallarda təminat formasında daşınmaz əmlak obyektləri çıxış edir. Lakin 1997-ci ildə Yaponiyada daşınmaz əmlak qiymətlərinin kəskin şəkildə aşağı düşməsi səbəbindən yaranan bank böhranı təminat portfelinin diversifikasiyasının zəruriliyini üzə çıxardı.

*Kreditin məqsədli istifadə prinsipi* borcalanın kreditordan aldığı vəsaitlərin istifadə olunacağı məqsədlərin kredit müqaviləsində müəyyənləşdirilməsini nəzərdə tutur. Bu prinsipin rolu kreditorda əminlik yaratmaqdan ibarətdir ki, vaxtı çatanda borcalan borcu və faizi qaytara biləcək və onun borc almaqla həyata keçirmək istədiyi məqsədlər potensial şəkildə mənfəət gətirəndir.

Kontragentlərin seçimində kreditorun və borcalanın *diferensiallaşdırılmış yanaşma prinsipi*. Kreditor bütün mümkün borcalanlar arasında seçim edərək, öz məbləğini maliyyə cəhətdən daha dayanıqlı olan, onda əminlik yaradan və kreditorun bütün tələblərinə cavab verən subyektə verir. Borcalan da özünün müddətlilik və ödənişlik şərtlərini əsas tutaraq, kreditoru seçir [2, s.179-180].

Kreditin yaranmasının əsasını əmtəə-pul münasibətlərinin toplusu təşkil edir. Buna uyğun olaraq, kredit əmtəə və pul formasında çıxış edə bilər. Bank, kommersiya, istehlak, lizinq, ipoteka, beynəlxalq və dövlət kreditləri mövcuddur. Dövlət kreditinin kredit münasibətlərinə aid edilməsi bir çox maliyyəçilərdə şübhə yaradır. Onlar dövlət kreditinə maliyyə sisteminin bir hissəsi kimi baxırlar. Dövlət krediti, bir tərəfdən, göstərilən prinsiplər əsasında kreditorla borcalan arasındakı klassik kredit münasibətlərini, dövlətin tərəflərdən biri kimi çıxış etdiyi münasibətləri nəzərdə tutur. Digər tərəfdən, dövlət öz funksiyalarını yerinə yetirərək, mərkəzləşdirilmiş fondların formalaşdırılması və bölüşdürülməsi üçün borc fondundan istifadə edir və bunlar da maliyyə münasibətləridir. Beləliklə, maliyyə və kredit münasibətlərinin qovşağında yerləşən dövlət krediti kreditlə maliyyə arasındakı əlaqəni göstərir. Bu əlaqə hər iki iqtisadi kateqoriyaya xas olan bölüşdürmə funksiyasının oxşarlığından da törəyir.

Kreditin mahiyyəti onun funksiyalarını üzə çıxarır. Bunlar yenidən bölüşdürmə və

nağd pulların kredit pulları ilə əvəzlənməsi funksiyalarıdır [1].

Bütün kredit münasibətlər toplusu kreditləşdirmə sistemini əmələ gətirir. Kreditləşdirmə sisteminin institusional tərifi də mövcuddur. Bu tərif kredit institutlarının toplusunu əks etdirir. Kreditləşdirmə sisteminin təşkilati strukturu mürəkkəb və qeyri-bircinsdir. Xarici ölkələrin əksəriyyətində kredit sisteminə milli qanunvericiliklə nizamlanmış üç səviyyə daxildir: mərkəzi bank, kommersiya bankları və digər xüsusi kredit-maliyyə müəssisələri.

Birinci səviyyə mərkəzi banklar və ya bəzən adlandırıldığı kimi, mərkəzi emissiya banklarıdır. Məsələ ondadır ki, ölkənin qanuni ödəniş vasitələrinin emissiyasını həyata keçirməklə bağlı inhisarçı hüquq məhz mərkəzi banka məxsusdur. Mərkəzi bankların əsas məqsədləri pul kredit sisteminin dayanıqlığının təmin edilməsi və kommersiya banklarının stabil fəaliyyətidir. Ölkənin mərkəzi bankı öz statusuna uyğun olaraq aşağıdakı formalarda təzahür edir:

- ölkə ərazisində pul emissiyası ilə bağlı inhisarçı hüquqdan istifadə edən, milli qızıl-valyuta ehtiyatlarını nəzərə alan və qoruyub saxlayan vahid emissiya mərkəzidir;
- dövlətin iqtisadi proqramlarını müdafiə etməyə, dövlət büdcəsinin kəsir kreditləşməsini həyata keçirməyə və dövlətin qiymətli kağızlarını yerləşdirməyə borclu olan hökumət bankıdır;
- daxili ödəniş dövriyyəsinin və antiinflyasiya siyasətinin, o cümlədən xarici kontragentlərlə əməliyyatların maneəsiz həyata keçirilməsinə cavabdeh olan milli pul sisteminin stabillik orqanıdır;
- banklar bankıdır, yəni likvid vəsaitlərin müvəqqəti kəsiri zamanı milli institutlara müəyyən şərtlər daxilində yenidən maliyyələşmək imkanı verən son mərhələli kreditordur;
- bank nəzarəti orqanıdır; mərkəzi bank fəaliyyətinin lisenziyasından, məcburi normativlərin müəyyənləşdirilməsindən, əmanətlərin sığortalanmasından, kredit institutları fəaliyyətinin hesabat analizindən, təftiş və yoxlamasından istifadə edərək bank sisteminin stabilliyini müdafiə etməyə, əmanətçilərin və kreditorların maraqlarını qorumağa çalışır və bu zaman kredit müəssisələrinin operativ fəaliyyətinə qarışmır.

Mərkəzi bank üç əsas funksiyanı yerinə yetirir: tənzimləyici, nəzarətedici və informasiya-tədqiqat.

Mərkəzi bankın əsas funksiyası dövlətin monetar siyasətini reallaşdırmaqdır. Monetar siyasətin növündən asılı olaraq, mərkəzi bankların əsas məqsədləri aşağıdakılar ola bilər: qiymətlərin stabilliyi, milli valyutanın dayanıqlığı, pul kütləsinin stabilliyi və başqaları. Monetar siyasətin dörd növü mövcuddur:

- *valyuta rejiminin targetinqləşməsi (exchange – rate targeting).* Bu strategiya müəyyən həcmli milli valyutanın daha aşağı inflyasiyalı ölkə valyutasına nəzərən qeydiyyat formasını nəzərdə tutur. Alternativ qismində devalvasiyanın müəyyənləşdirilmiş faizi ilə dəyişmə kurslarının sürüşkən qeydiyyatı çıxış edə bilər. Məsələn, Fransa 1987-ci ildə öz valyutasını alman markasına bağlamışdır. Həmin dövrdə Fransanın inflyasiyası 3% təşkil edirdi. Bu, Almaniya ilə müqayisədə 2% çox idi. 1992-ci ildə Fransadakı inflyasiya indeksi 2%-ə düşmüş və hətta Almaniyadakından da az olmuşdur. 1990-cı ildə İngiltərə funtun markaya nəzərən dəyişmə kursunu qeyd edərək, 1992-ci ildə inflyasiyanı 10%-dən 3%-ə qədər azaltmışdır;
- *pul kütləsinin targetinqləşməsi (monetary targeting).* Pul aqreqatlarının tənzimlənməsi vasitəsilə inflyasiya səviyyəsini optimallaşdırmağa çalışan ölkələr arasında ABŞ, Kanada, Böyük Britaniya var. Almaniya və İsveçrədə bu rejim iyirmi il ərzində (1974-cü

ildən başlayaraq) tətbiq edilmişdir;

• *inflyasiya səviyyəsinin targetinqləşməsi (inflation targeting).* Bu siyasəti reallaşdıran ilk dövlət Yeni Zelandiya (1990), onun ardınca Kanada (1991), Böyük Britaniya (1992), İsveç və Finlandiya (1993), Avstraliya və İspaniya (1994) oldu. İnflyasiya səviyyəsinin məqsədli göstərici rejimi bir neçə elementdən ibarətdir. 1. İnflyasiyanın konkret göstəricilərinin əldə edilməsi ildə bağlı ortamüddətli deklarasiya; 2. İnflyasiyanın məqsədli parametrlərinin dövlət inkişafının uzunmüddətli konsepsiyasına daxil edilməsi; 3. İnflyasiyanın optimal səviyyəsinin əldə edilməsi ilə bağlı ümumi strategiyada aralıq göstəricilərin, məsələn, pul kütləsinin rolunun azaldılması; 4. Cari vəzifələrə və planlara aşkarlıq vermək yolu ilə uzunmüddətli monetar siyasətin şəffaflığına nail olmaq; 5. inflyasiyanın məqsədli səviyyəsinə nail olmaq üçün Mərkəzi bankın təhtəlhesabının artırılması;

• *gizli göstəricinin targetinqləşməsi (monetary policy with an implicit but not an explicit nominal anchor).* Bu strategiyanın reallaşdırılmasının ən parlaq nümunəsi ABŞ və Avropa pul ittifaqıdır (2002-ci ildən başlayaraq). Gizli göstəricinin targetinqləşməsinin mahiyyəti gələcək inflyasiya səviyyəsinə kəskin nəzarət strategiyasının hazırlanmasından ibarətdir. Bu strategiya yaxınlaşan inflyasiyanın əlamətlərinin hərtərəfli monitorinqini, inflyasiya proseslərinin potensial təhlükəsinə qarşı «xəbərdarlıq zərbələrinin» hazırlanmasını və vurulmasını nəzərdə tutur [1, 2, s.29].

Mərkəzi bank öz fəaliyyətində aşağıdakı alətlərdən istifadə edir.

*Valyuta intervensiyası.* Monetar tənzimlənmə orqanları valyuta bazarlarında intervensiyaları müxtəlif məqsədlərlə, o cümlədən dəyişmə kursunun saxlanması üçün və beynəlxalq ehtiyatların arzuolunan səviyyəsinin əldə edilməsi üçün həyata keçirir. Milli valyuta kursunun yüksəldilməsi üçün xarici valyutanın satışı, aşağı salınması üçün isə alışı həyata keçirilir. Valyuta intervensiyasının həyata keçirilməsinin müxtəlif üsulları var. Məsələn, ABŞ-ın Federal ehtiyat sistemi dövri olaraq gizli intervensiyalar aparırsa, Almaniya Federal bankı və İngiltərə Bankı özlərinin bu tədbirdəki iştiraklarını geniş işıqlandırırlar ki, intervensiyaların həyata keçirilməsi üçün valyuta xərci azalsın. Bəzən mərkəzi bank bazarı «şifahi intervensiyalar» yolu ilə saxlamağa cəhd edir, yəni valyuta kursunun hərəkət tendensiyasına nəzərən özünün maraqlı olması barədə iştirakçıları məlumatlandırır.

*Devalvasiya/revalvasiya.* Milli valyuta kursunun devalvasiya yolu ilə tənzimlənməsi, yəni onun rəsmi kursunun əlaqələndirici valyutaya nəzərən aşağı düşməsi (revalvasiyada – kursun yüksəlməsi) sonradan rəsmi qeydiyyatı ilə birlikdə valyuta münasibətinin kəskin sıçrayışını və dəyişikliyini nəzərdə tutur. Adətən, «devalvasiya» və «revalvasiya» terminləri qeyd olunmuş dəyişmə kursu olan rejimin xarakteristikasında istifadə olunur. Üzən mexanizmdə kursun dəyişmə halında isə uyğun olaraq «qiymətdən düşmə» və «bahalaşma» terminləri tətbiq olunur [3, s.75].

*Açıq bazardakı əməliyyatlar dövlətin* qiymətli kağızlarının təkrar bazardakı alışından və ya satışından ibarətdir. Əgər mərkəzi bank açıq bazarda qiymətli kağızları satır, kommersiya bankları isə onları alırsa, onda kommersiya banklarının resursları da, uyğun olaraq onların müştərilərə borc vermək imkanı da azalır. Bu, dövriyyədəki pul kütləsinin azalmasına və uyğun olaraq, dəyişmə kursunun yüksəlməsinə gətirib çıxarır. Bazarda kommersiya banklarından qiymətli kağızlar alan mərkəzi bank onlara əlavə vəsaitlər verir və onların borc təqdim etməklə bağlı imkanlarını genişləndirir. Nəticədə pul kütləsi artır, valyuta kursu isə aşağı düşür. Açıq bazarda əməliyyatların köməyilə pul küt-

ləsinin tənzimlənməsi nəticə etibarilə intervensiyaya bənzəyir və mübadilə kursunun dəyişməsinə gətirib çıxarır. Açıq bazarda mərkəzi bankın qarşılıqlı əks əməliyyatlarının uyğunlaşdırılması və tutuşdurula bilən ölçüdə intervensiyalar sterilləşmə adlanır və mübadilə kursunun dəyişməsinə baxmayaraq, pul kütləsinin həcmini saxlamağa imkan verir. «Açıq bazarda əməliyyatlar» termini ilk dəfə XX əsrin 20-ci illərində ABŞ-da istifadə olunmağa başlamışdır. Burada dövlətin bu növ əməliyyatları daha geniş vüsət almışdır. 30-cu illərin əvvəllərində bu alət Böyük Britaniyada tətbiq olunmağa başlamış və Ingiltərə Bankının siyasətində uçot əməliyyatlarının payını tədriclə azaltmışdır. Təqribən elə həmin dövrdə Almaniya Reyxsbankı da açıq bazarda əməliyyatların həyata keçirilməsinə başlamışdır.

*Uçot norması.* Uçot mexanizmi monetar tənzimlənmənin mühüm alətini təmsil edir. Bu mexanizmdə monetar tənzimlənmə orqanları öz kreditlərinin təqdim olunma məbləğini və şərtlərini dəyişdirmək yolu ilə ehtiyat pulların miqdarına və dəyişmə kursuna təsir göstərə bilirlər. Belə ki, uçot normasının artırılması faiz norması daha aşağı olan ölkələrdən kapitalın axıb gəlməsini stimullaşdırır və bu da xarici valyuta kütləsinin artmasına və milli pul vahidi kursunun yüksəlməsinə səbəb olur. Məsələn, 1980-ci illərin əvvəllərində ABŞ administrasiyası tərəfindən Qərbi Avropa ölkələri və Yaponiya ilə müqayisədə müəyyənləşdirilmiş daha yüksək faiz norması digər ölkələrin investorları üçün dolları cəzbedici etmişdir. Məhz bunun sayəsində Birləşmiş Ştatlarda əlavə iş yerləri açılmış, nəticədə iqtisadi inkişaf sürətinin artırılması üçün zəmin yaradılmışdır.

*Məcburi ehtiyat normaları.* Monetar hakimiyyət kommersiya banklarının onlarda saxlamalı olduqları məcburi ehtiyatların ölçülərini dəyişdirmək yolu ilə mübadilə kursuna təsir göstərə bilərlər. Məsələn, məcburi ehtiyat normasının yüksəldilməsi bank sistemini məcbur edəcək ki, depozitlərin verilmiş səviyyəsini örtmək üçün ehtiyatların daha böyük miqdarını saxlasın. Bu isə nəticədə milli pullara olan təklifin azalmasına və kursun yüksəlməsinə gətirib çıxarar. Lakin son illər məcburi ehtiyat normalarının azalma və ya tamamilə ləğv edilmə tendensiyası nəzərə çarpmışdır. Bu, bankların rəqabətədavamlılıq qabiliyyətinin itməsi ilə əlaqədardır. Məsələ ondadır ki, mərkəzi bank, adətən, ehtiyat hesabları üzrə kommersiya banklarına faiz ödəmir. Nəticədə kommersiya bankları bu ehtiyatlardan heç nə qazanmır və həmin pulu borc verəcəkləri halda qazana biləcəkləri gəliri itirirlər.

Mərkəzi banklar mülkiyyət əlamətinə görə dövlət, səhmdar və qarışıq mərkəzi banklara bölünürlər. Mərkəzi dövlət bankları Alman Federal Bankı, İngiltərə Bankı və Fransa Bankıdır. Səhmdar mərkəzi bankların ən parlaq nümunəsi ABŞ-ın Federal ehtiyat sistemidir. Qarışıq mərkəzi banklara elə banklar aiddir ki, onların kapitalında dövlətlə birlikdə şəxsi sektor da iştirak etsin (Yaponiya Bankı).

Dövlətin kreditləşdirmə sisteminin ikinci səviyyəsində **kommersiya bankları** yerləşir. Onların ən iriləri geniş əhatəli əməliyyatlar keçirən və müştərilərə tam maliyyə xidməti göstərən universal profilli institutlardır.

Kommersiya banklarının əsas funksiyalarını üç qrupa ayırmaq olar:

- banklar mal və xidmətlərin kommersiya dövriyyəsində əsas rol oynayırlar. Onlar təsərrüfat fəaliyyətinin iştirakçılarına bank sisteminin infrastrukturundan və ödəniş alətlərindən istifadə edərək bağlanan müqavilələr üzrə hesabatları həyata keçirmək imkanı verirlər;
- banklar iqtisadiyyatda «əmanət-investisiyalar» prosesini təmin edən maliyyə vasitəçiləridir. Yəni onlar, bir tərəfdən, müəssisələrin və əhalinin müvəqqəti sərbəst vəsait-

lərinin əsas kütləsinin saxlandığı yerə çevrilir, digər tərəfdən isə təsərrüfat subyektlərinin və vətəndaşların investisiya tələbatlarının təmin olunması üçün vəsait mənbəyi rolunu oynayırlar;

- kommersiya bankları iqtisadiyyatın əsas likvidlik mənbəyi olub, mal və xidmətlərin alıcı və satıcılarına öz fəaliyyətlərini sabit və kəsilməz şəkildə həyata keçirmək imkanı verir. Effektiv bank sistemi olmadan milli iqtisadiyyatın stabil fəaliyyət imkanı həddən artıq məhdud olur.

Bank resursları bankın xüsusi vəsaitlərindən, yəni onun kapitalından və cəlb edilmiş vəsaitlərdən, yəni borc vəsaitlərindən ibarətdir. Cəlb edilmiş vəsaitlər bankın digər kredit təşkilatları, müəssisə və vətəndaşlar qarşısındakı öhdəliklərini nəzərdə tutur. Onlar öz vəsaitlərini bankda müxbir, hesablaşma və cari hesabların qalıqları qismində, depozitlər şəklində, bankın qiymətli borc kağızlarına yatırımlar şəklində qoyurlar.

Bank kapitalının doldurulması və ya xərclənməsi ilə əlaqədar olan əməliyyatları, yəni vəsaitlərin cəlb edilməsi və qaytarılması ilə bağlı əməliyyatları passiv əməliyyatlar adlandırmaq qəbul olunmuşdur. Bu onunla izah olunur ki, bankın xüsusi vəsaitləri və öhdəlikləri balansın passivində əks olunur (balansın sağ tərəfində). Bankın xüsusi yatırımları balansın aktivində əks olunur və uyğun olaraq aktivlər adlanır. Aktivlərlə bağlı əməliyyatları isə aktiv əməliyyatlar adlandırırlar.

Kreditləşdirmə sisteminin üçüncü səviyyəsi ***ixtisaslaşmış kredit-maliyyə müəssisələridir.*** İxtisaslaşmış kredit-maliyyə institutlarına (Böyük Britaniyada onları bankətrafı institutlar da adlandırırlar) investisiya bankları və şirkətləri, etibarlılıq şirkətləri, ipoteka bankları, təqaüd fondları, bütün mümkün ola bilən qarşılıqlı və pay bankları, kredit ittifaqları və assosiasiyaları, malların möhlət ödənişli satışının maliyyələşdirilmə kompaniyaları, faktorinq, forfeytinq, lizinq kompaniyaları və b. aiddir. Adı çəkilən müəssisələrin bəziləri tarixən maliyyə xidmətinin ayrı-ayrı növlərinə olan tələbatın təmin edilməsi ilə bağlı kəsirlərin yarandığı yerdə əmələ gəlirdi. Onlar kiçik əmanətlərin cəlb edilməsi, torpaq və daşınmaz əmlakın girov krediti, istehlak krediti, kənd təsərrüfatı istehsalçılarına kredit, xarici ticarət üzrə hesablaşma və maliyyələşmə əməliyyatları, sənaye şirkətlərinin qiymətli kağızlarının yerəlşdirilməsi və kapitalın investisiya olunması kimi sferalarda daha geniş yayılmışlar.

İxtisaslaşmış kredit-maliyyə müəssisələrinin daha əhəmiyyətliləri arasında emissiya-təsisçi fəaliyyəti ilə məşğul olan investisiya banklarını göstərmək lazımdır. Bu banklar sənayenin qiymətli kağızlar bazarında onların buraxılması və yerləşdirilməsi ilə bağlı əməliyyatları həyata keçirirlər. İnvestisiya bankları, bir qayda olaraq, öz səhmlərini satmaq yolu ilə və ya kommersiya banklarının krediti hesabına kapital cəlb edirlər. Onların depozit cəlb etmək hüququ, iqtisadiyyatın müxtəlif sahələrinin uzunmüddətli kreditləşməsini və maliyyələşməsini həyata keçirmək hüququ yoxdur.

Əmanət müəssisələri də kredit sistemində mühüm yer tutur. Onları üç növə ayırmaq olar:

- müddətli kiçik əmanətlər qəbul edən qarşılıqlı-əmanət bankları. Cəlb edilmiş vəsaitlər müxtəlif öhdəliklərə və qiymətli kağızlara, əsasən yaşayış tikililərinin girovluğu ilə ipotekaya, dövlətin qiymətli kağızlarına və yerli hakimiyyət orqanlarının istiqrazlarına yatırılır;
- pay əsasında təşkil olunmuş *borc-əmanət assosiasiyaları*; bu assosiasiyaların kapitalı müştərilərə xüsusi sertifikatların satılması hesabına yaradılır. Xüsusi sertifikatlar sahiblərinin ilk tələbi əsasında nominal üzrə alınır və faiz şəklində gəlir gətirir. Qarşılıqlı

əmanət banklarında olduğu kimi, assosiasiyaların da əsas kapitalı yaşayış tikililərinin girovu ilə ipotekaya yatırılmışdır;

- kredit ittifaqları - peşəkar və ya dini əlamətlərinə görə birləşən insan qruplarının təşkil etdikləri kooperativlərdir. Onun kapitalı xüsusi səhmlərin alış formasında pay haqları hesabına yaranır. Vəsaitlər isə qısamüddətli borcların təqdim edilməsi üçün istifadə olunur (avtomobilin alınmasına, evin təmirinə və s.). Pay məbləğlərinə görə faiz ödənilir.

Mühüm əhəmiyyət kəsb edən xüsusi kredit müəssisələrindən biri də *sığorta şirkətləridir.* Onların xarakterik xüsusiyyəti vəsaitlərin cəlb edilməsinin spesifik forması – sığorta polisinin satışıdır. Sığorta şirkətləri vəsaitlərin yerləşdirilməsi prosesində digər kredit müəssisələri ilə rəqabət aparırlar. Onların aktivlərinin əsas maddəsi – sənaye şirkətlərinin istiqrazları, səhmlər, dövlətin qiymətli kağızlarıdır. Sığorta obyektinə görə sığorta şirkətləri həyatın və əmlakın sığortası ilə məşğul olan şirkətlərə təsnifatlanırlar.

*Təqaüd fondları* şəxsi şirkətlər və dövlət müəssisələri tərəfindən yaradılır, müəyyən yaşa çatan fəhlə və qulluqçulara təqaüdlərin verilməsini nəzərdə tutur. Şəxsi təqaüd fondları fəhlə və qulluqçuların öz əmək haqlarından verdikləri ödəmələr hesabına yaradılır. Sahibkarların ödəmələrini isə üzərinə vergi qoyulmuş gəlirdən tutulan haqlar təşkil edir. Təqaüd fondlarının aktivləri əsasən fondu təsis edən müəssisələrin qiymətli kağızlarına, o cümlədən ona birləşmiş və asılı şirkətlərin qiymətli kağızlarına qoyulur.

İnvestisiya şirkətləri öz öhdəliklərini (səhmlərini) kiçik sahiblər arasında yerləşdirir və əldə olunmuş vəsaitləri qiymətli kağızların alınması üçün istifadə edirlər. «Açıq tipli» və «bağlı tipli» investisiya şirkətləri mövcuddur. «Açıq tipli» investisiya şirkətləri səhm sahiblərinin tələbi ilə öz səhmlərini almaq öhdəliyinə malikdir, «bağlı tipli» investisiya şirkətləri isə belə hüququ vermirlər.

Maliyyə şirkətləri - topdan və pərakəndə ticarətdə malların satışını kreditləşdirən institutlardır. Onlar müştərilərin öhdəliklərini alaraq ticarətçilərin möhlətlə satdıqları mallar üzrə onlara kredit verirlər. Digər maliyyə şirkətləri isə malları möhlətli ödəmə şərti ilə yükləyən sənaye şirkətlərinə borc verirlər.

Son illər inkişaf etmiş xarici ölkələrin kreditləşdirmə sistemlərinin inkişafında ən mühüm tendensiyalardan biri – bankların ayrı-ayrı növləri arasında, bank və qeyri-bank kredit təşkilatları arasında olan fərqlərin silinməsidir. İri bank fəaliyyətinin universallaşdırılmasına istiqamətlənən qlobal tendensiya bir sıra kredit institutlarının ayrı-ayrı bank əməliyyatlarındakı ixtisaslaşması ilə uyğunlaşır.

Beləliklə, kredit münasibətlərini və bu münasibətləri təşkil edən institutların toplusunu təmsil edən kreditləşdirmə sistemi üç səviyyədən ibarətdir: mərkəzi bank, kommersiya bankları və xüsusiləşmiş kredit-maliyyə müəssisələri (Şəkil 1).




Şəkil 1. Dövlətin kredit sisteminin hissələri

Kredit sisteminin fəaliyyəti təkcə maliyyə sistemi ilə deyil (toplum halda onlar maliyyə-kredit sistemini əmələ gətirirlər), pul və valyuta sistemləri ilə də sıx əlaqədardır [1]. Bu qarşılıqlı əlaqə aşkardır, çünki pullar (valyuta) kredit obyektidir, pul münasibətləri isə kredit və maliyyə münasibətlərinin yaranmasının zəruri şərtidir. Kredit münasibətləri kimi maliyyə münasibətləri də pul münasibətlərinin bir hissəsidir. Ona görə də maliyyə-kredit sistemi pul sisteminin müəyyən bir hissəsinə aid edilə bilər.

**Ədəbiyyat**

1. M.M.Bağırov. Banklar və bank əməliyyatları (ali məktəblər üçün dərslik). Bakı, “Nurlan”, 2003, 512 s.
2. K.V.Rudıy. Xarici ölkələrin maliyyə-kredit sistemi. Bakı, 2009
3. N.M.Məmmədova. Maliyyə və kredit. Bakı, 2009
4. Z.F.Məmmədov. Bank işi və elektron bankçılıq. Bakı, “Qanun”, 2003, 450 s.
5. Z.F.Məmmədov. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Bakı, “Qanun”, 2001, 426 s.

## ECONOMIC ESSENCE OF CREDIT SYSTEM

**R.Z.Bayramov**

**SUMMARY**

Principles of credit operations are considered in this paper as one of the key elements in the credit system. It is shown that the historical necessity for the institution of credit was inseparably linked to commodity and money relations.

## ЭКОНОМИЧЕСКАЯ СУЩНОСТЬ КРЕДИТНОЙ СИСТЕМЫ

**Р.З.Байрамов**

**РЕЗЮМЕ**

В статье рассматриваются принципы кредитных операций, являющихся одним из ключевых элементов системы кредитования. Отмечается, что историческая необходимость появления института кредита неразрывно связана с товарно-денежными отношениями.

2018 - № 48

# SƏLAHİYYƏTLƏRİN BÖLGÜSÜ: TRANSAKSİON XƏRCLƏR VƏ İNFORMASİYA TƏMİNATI

**R.Ə.Əlizadə**
Azərbaycan Respublikası Auditorlar Palatası
Bakı AZ1072, S.Y.Bakuvi küçəsi 14
e-mail: rahimalizade080@gmail.com

***Açar sözlər:*** transaksion xərclər, səlahiyyətlər, iqtisadi inkişaf, informasiya
***Keywords***: transaction costs, powers, economic development, information
***Ключевые слова:*** трансакционные издержки, полномочия, экономическое развитие, информация

Bu məqalədə əsas məqsəd inkişaf etməkdə olan iqtisadi sistemdə bazar münasibətləri şəraitində transaksion xərclərin mahiyyət və xarakteristikasının, səlahiyyətlərin bölgüsü və informasiya təminatını həyata keçirmək üçün tələb olunan transaksion xərclərin yaranmasının, eləcə də iqtisadi fəaliyyətin informasiya təminatı və transaksion xərclərin qarşılıqlı əlaqəli araşdırılmasıdır.

Transaksion xərclərin minimumlaşdırılması iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsinin mühüm istiqamətidir. Odur ki, bazar münasibətlərinin təşəkkülü şəraitində transaksion xərclərin formalaşması ətraflı araşdırılmalı, onların azaldılması imkanları aşkar edilməlidir.

Azad bazar təsərrüfatlı bazar mühiti şəraitində sahibkarlığın inkişafı və səmərəliliyi istehsal-satış proseslərindəki məsrəflərin səviyyəsindən, məhsulun maya dəyərindən, istehlakçıların sayından, sövdələşmələrin bağlanılmasına təsir edən amillərin xarakterindən və başqa bu kimi səbəblərdən asılıdır ki, bu aslılıq öz növbəsində transaksion xərclərin dinamikasına təsir edən çoxsaylı və müxtəlif təsirlərə malik amillərin qarşılıqlı əlaqədə xarakteristikasını tələb edir (15).

İqtisadiyyatın inkişafının əsası olan istehsal-satış prosesini həyata keçirmək və lazımi iqtisadi gəliri formalaşdırmaq, potensial imkanlardan maksimum istifadə edilərək yüksək effektli iqtisadi nəticələrə nail olmaq üçün xeyli miqdarda transaksion xərclər çəkilir. Bu təsnifat baxımından transaksion xərclər iki qrupa ayrılır:

1. Səlahiyyətlərin bölgüsünə çəkilən transaksion xərclər;
2. İnformasiyanın əldə olunmasına çəkilən transaksion xərclər.

İqtisadi resurslar üzərində mülkiyyət və söz haqqı səlahiyyət sahibləri arasında qanunamüvafiq tərzdə müqavilə, razılaşma və sövdələşmələrə uyğun şəkildə bölünür. Bu bölgünün hansı müddəalar əsasında tənzimlənməsi və sahibkarlıq mühitininin inkişafina əlverişli şərait yaratması aktuallıq kəsb edir.

Sosial bazar münasibətləri xüsusi sahibkarlıq və özəlləşmə mexanizmi ilə müxtəlif mülkiyyət formalarının optimal inkişafını əldə etməyə imkan verərək, səlahiyyətlərin reallaşması dəyərini, yəni transaksion xərcləri müəyyən etməyə imkan verir.

"Transaksiya xərci" terminini iqtisad elminə gətirən ingilis iqtisadçısı Ronald Kouz olmuşdur.

Səlahiyyətlərin bölgüsü transaksion xərclərin sıfra bərabər olduğu və sahibkarlıq

hüquqları ixtisaslaşmış şəkildə müəyyənləşdirildiyi halda, istehsalın strukturu sahibkar hüquqlarının bölgüsündəki dəyişikliklərə baxmayaraq gəlir effektivliyindən uzaqlaşır, istehsalın strukturu isə dəyişməz qalır.

Ümumi anlamda sahibkarlıq hüququnun və səlahiyyətlərinin ilkin bölgüsü istehsalın strukturuna təsir etmir, sadəcə sahibkarın səlahiyyəti çərçivəsində effektiv idarəetmənin və transaksion xərclərin azalmasının mümkünlüyünü sərgiləyir.

Sahibkarlıq və səlahiyyətlərin bölgüsü sistemində, transaksion xərclər – mülkiyyət hüququnun qorunması və mübadilə edilməsi ilə bağlı olan xərclər kimi qəbul edilir.

Müasir şəraitdə təşkilatlar özünü idarə sistemi formalaşdıraraq rəhbərlik etmək və bu zaman yaranan bütün problemləri səlahiyyətlərin bölgüsü vasitəsilə effektiv şəkildə həll edə bilər.

Müqavilə əsasında fəaliyyət göstərən təsərrüfat subyektləri, tipik olaraq tərəflərin müştərək şəkildə öz üzərlərinə götürdükləri araşdırma-inkişaf və ya digər texnoloji sahələrdə əməkdaşlıq müqavilələri, müəyyən bir məhsulun istehsalında və ya satışının inkişaf etdirilməsində tərəflərin hər birinin müəyyən bir sahədə ixtisaslaşmanı qəbul etdiyi müştərək istehsal müqavilələri, fərqli tərəflərin müəyyən bir struktur layihəsini götürmək məqsədilə bir araya gələrək yaratdıqları konsorsiumlarının əsas məqsədi bu tərəflər arasında olan səlahiyyətləri bölüşdürərək yaranacaq transaksion xərcləri minimuma endirməkdir. Səlahiyyətlərin bu cür bölgüsü xərc elementləri daha çox olan iqtisadi fəaliyyət sahələrində xüsusilə neft, qaz və mədənçıxarma kimi faydalı qazıntıların çıxarılması və satışı ilə əlaqəli, müştərək nəzarət edilən və idarə olunan varlıqlara dair müqavilələri, müştərək marketinq müqavilələri, digər mənbə və daxili kapitalın sayəsində yaranan xidmət və bacarıqların pay bölgüsünə dair müqavilələri əhatə edir (1).

Səlahiyyətin bölüşdürülməsi ilə təsərrüfat subyektlərinin üzərlərinə düşən xərclərin azaldılaraq, transaksion xərclərin sıfıra bərabər olması üçün aşağıdakı şərtləri yerinə yetirmək vacibdir.

- Tərəflərin müqaviləyə birlikdə nəzarətinin mövcudluğunun qiymətləndirilməsi: əgər səlahiyyətlərin bölgüsü tərəflərin hamısına və ya bir hissəsinə, müqavilənin gələcək gəlirlərinə əhəmiyyətli dərəcədə təsir edən fəaliyyətləri birlikdə idarə etmə hüququ verirsə tərəflərin müqaviləyə birlikdə nəzarəti mövcuddur.
- Müştərək nəzarətin mövcudluğunun qiymətləndirilməsi: müştərək nəzarətin mövcudluğu - müqavilə üzərində birgə nəzarətə malik olan tərəflərdən hər hansı birinin razılığı olmadan sazişin digər tərəflərinin hamısının və ya bir hissəsinin təkbaşına qərar verməsinin qarşısı alındığı halda mövcuddur. Müqaviləyə birlikdə nəzarət edən tərəflər müqavilə ilə bağlı fəaliyyətlərə dair qərarları yekdilliklə qəbul edirsə, müştərək nəzarət vardır (4).

İqtisadi nəzəriyyələr və yanaşmalar baxımından transaksion xərclər nəzəriyyəsində informasiya təminatı xərcləri bir sıra mənalar kəsb edərək aşağıdakı kimi izah olunmuşdur.

Bazar və bazar münasibətləri çərçivəsində yaranan transaksiya xərclərinə istehlakçıların tələbatının və davranışının öyrənilməsi, tələbatın formalaşdırılması və satışın həvəsləndirilməsi funksiyasını yerinə yetirən xərclərində aiddir. Bundan əlavə, transaksiya xərclərinə mübadilə prosesinin həyata keçməsi, tələblə təklifin daha məhsuldar olmasını təmin etmək məqsədilə mübadilə prosesinin iştirakçıları arasında informasiya axınlarını təşkil etməlidir. Bunun üçün istehsalçı müəssisələr marketinq informasiya axını sistemini təşkil etməlidirlər.

Ümumiyyətlə, informasiya ilə əlaqədar bütün xərclər transaksion xərclərin tərkibinə aiddir. Transaksion xərclərin böyük hissəsi informasiyanın əldə olunmasına, əlaqələrin yaradılmasına yönəldilir. Odur ki, bir sıra hallarda, informasiya xərclərinin transaksion xərclərdən dəfələrlə çox olması müşahidə olunur.

İnformasiya xərclərinə hər hansı əqddə tərəfdaşlar arasında mümkün opportunist vəziyyətdən asılılıqda baxmaq olar. Qeyd edək ki, opportunizm tam olmayan və assimetrik informasiya şəraitində məqsədyönlü rasional fəaliyyətin xüsusi formasıdır (4).

İctimai seçim nəzəriyyəsi transaksion xərclərin meydana gəlməsini fərdlərin və ictimaiyyətin rifahı arasındakı münasibətləri müşayiət edən problemlərlə əlaqələndirir. Mübadilə səlahiyyətinin bölgüsündə ilkin şərt resursların səmərəliliyinin artırılması imkanları ilə bağlıdır.

Səlahiyyətlərin mübadiləsində (istehsalçıların münasibəti müstəvisində) razılıq nöqtəsinin sürüşməsi halı danışıqlar prossesində tərəflərdən hər birinin xərcləri digər tərəf üzərinə qoyması cəhdini əks etdirir.

Problem mübadilə iştirakçılarının sayının artması ilə kəskinləşir. İnformasiya xərcləri sıfra yaxınlaşdıqca Kouz teoreminin reallaşması şansı iştirakçıların sayına müvafiq olaraq azalır. Burada əsas diqqət mübadilə iştirakçılarının sayı ilə kollektiv fəaliyyətin baş verməsi ehtimalı arasındakı qeyri mütənasibliyə yönəlir. Belə olan halda səlahiyyətlərin mübadiləsi razılaşma xərclərindən asılı olaraq dəyişir. Həmin xərclər nə qədər çox olursa səlahiyətlərin mübadiləsində iştirakçıların sayı bir o qədər artır. Belə olan təqdirdə mübadilə iştirakçılarının sayı ilə transakion xərclərin birbaşa asılılığı müşahidə olunmur. Əqd iştirakçılarının potensial subyektlərinin gözlənilən əhatə dairəsi səlahiyyətlərin mübadiləsi zamanı qərar qəbulunda qarşılıqlı asılılığa təsir edən amil spesifik aktiv kimi ortaya çıxır. Spesifik aktivlər konkret kontraktın yerinə yetirilməsində xüsusi dəyərə malik aktivlər sayılır. Belə aktivləri artıq qeyd edildiyi kimi satmaq çətin olur və ya ona alternativ əvəzedici tapmaq mümkün olmur. Opportunist şəraitdə spesifik aktiv stimul rolunu oynayır. Fərz edək ki, əqdin reallaşmasında hər iki tərəf maraqlıdır. Kontragentin şantaj və monipulyasiya edilməsi ilə spesifik aktiv əldə edilir. Beləliklə, transaksion xərclər aşağıdakı iki halda yüksək olur:

1. İştirakçıların sayca məhdudluğu şəraitdə alqı-satqı əməliyyatları iştirakçısının əvəzi tapılmadıqda;

2. Alqı-satqı prosesində iştirak edənlərin sayı çoxaldıqda.




Şəkil 1. Transaksion xərclərin mübadilə iştirakçılarının sayından asılılığı

İştirakçılar spesifik aktivə malik olduqda, CA intervalında (C nöqtəsində mübadilə iştirakçıları 2-yə barabərdir) transakion xərclər tərəflərin opportunist davranışından asılı olaraq yüksəkdir. B nöqtəsindən sonsuzluğadək transkasion xərclər monoton olaraq artır. Yalnız AB intervalında transaksion xərclər nisbətən aşağıdır. X nöqtəsində transaksion xərclər minimuma çatır.

İnformasiya sistemi satışın həcminin və mənfəətin artırılması məqsədilə istehlakçılara təsir göstərilməsi və ya müəssisənin özü və məhsulu (işi, xidməti) haqqında infomasiyanın verilməsi vasitələrinin məcmusudur ki, istehsalçılar və istehlakçılarla əlaqənin yaradılması ilə yanaşı digər bazar subyektləri, o cümlədən, vasitəçilərlə və rəqiblərlə də kommunikasiyanın yaradılmasını nəzərdə tutur (5).

Satışın həvəsləndirilməsinə çəkilən transaksiya xərcləri - məhsulun minimum vaxt ərzində reallaşdırılması üçün qısamüddətli stimullaşdırma tədbirlərini həyata keçirməyə sərf olunan xərclər aiddir.

İctimaiyyətlə əlaqəni formalaşdırmaq üçün çəkilən transaksiya xərcləri - təsərrüffat subyektinə və onun istehsal etdiyi məhsula (işə, xidmətə) müsbət münasibət formalaşdırmaq məqsədilə özləri haqqında sosial imicin formalaşdırılması haqqında haqqı ödənilmədən məlumatların yayılmasıdır.

## Ədəbiyyat

1. Abbasov Ə.M., Bağırov M.M. və b. İzahlı terminlər lügəti. II cild. Bakı, Nurlan, 2005, 546 s.
2. Abbasov Q.Ə. Məhsul istehsalına məsrəflərin uçotu. Maliyyə və uçot, N9-20, 1998
3. Abbasov İ.M. Xarici ölkələrdə iqtisadi təhlilin xüsusiyyətləri. Bakı, 1996, 116 s.
4. Ağayev A. Maliyyə terminləri lüğəti. Bakı, 2005, 421 s.
5. Axundov Ş. Marketinqin əsasları. Bakı, 2001, 572 s.
6. Cozef E. Stiglits. Qloballaşma və onun doğurduğu narazılıqlar. Bakı, 2004, 317 s.
7. Бабарыкин С.В. Возникновение и развитие теории учета затрат в США и Великобритании. Бух.учет, №3, 1997
8. Бернастайн Л.А. Анализ финансовой отчетности. Москва, Финансы и статистика, 1996
9. Бляхман Л. Основы функционального и антикризисного менеджмента. М. Экономика 1999, 380 с.
10. Большой экономический словарь. Москва, Институт Новой Экономики. 1998, 864 с.
11. Капелюшинков Р.И. Категория трансакционных издержек // Как это делается: финансовые, социальные и информационные технологии. Сборник статей института коммерческой инженерии. Москва, ИКИ, 1994
12. Ronald Coase H. (1937). “The Nature of the Firm” Economica, N.S., 4(16), pp.386-405. “The Problem of Social Cost” of Law and Economics, (1960). pp.1-44
13. Williamson, Oliver E. (1981). “The Economics of Organization: The Transaction Cost Approach”, “The American Journal of Sociology”, Cilt 87(3), say.577 say.548
14. Arnold C. Harberger. Project Evolution for Next Decade. Economic development instate. October, 1992
15. Alhian A., Demsetz H. Production information Cost and Economic Organization. American Economic Review. 1972-LXII. N5, pp. 777, 795

16. Jensen M.C., Meckling W.H. Theory of the Firm: Managerial Behavior. Agency Costs and Ownership Structure. II. Journal of Financial Economics. 1976, V3, N4, pp. 305-360

17.http://www.wirtschaftslexikon24.com/d/informationskosten/informationskosten.htm

18. http://library.unec.edu.az/images/muhazireler/muhasibat.doc

19. http://www.sjsu.edu/faculty/watkins/coase.htm

20. http://lexicon.ft.com/Term?term=transaction-cost-analysis

## SEPARATION OF DUTIES: TRANSACTION COSTS AND INFORMATIONAL SUPPORT

**R.A.Alizadeh**

### SUMMARY

This paper deals with the transaction costs in the emerging market economy in the context of the separation of duties and informational support. Comparative analysis, statistical, economical, constructive, monographic and other scientific methods are used.

## РАЗДЕЛЕНИЕ ОБЯЗАННОСТЕЙ: ТРАНСАКЦИОННЫЕ ИЗДЕРЖКИ И ИНФОРМАЦИОННОЕ ОБЕСПЕЧЕНИЕ

**Р.А.Ализаде**

### РЕЗЮМЕ

Статья посвящена трансакционным издержкам в зарождающейся рыночной экономике с точки зрения разделения обязанностей и информационного обеспечения. Использованы сравнительный анализ, статистическо-экономический, конструктивный, монографический и другие научные методы.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# YENİ QƏBUL EDİLMİŞ "IFRS 16-İCARƏ" STANDARTI VƏ ONUN UÇOTDA ƏKS ETDİRİLMƏSİNİN BƏZİ MÜHÜM MƏSƏLƏLƏRİ

**E.S.Abdullayev**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakı, İstiqlaliyyət küçəsi 6
e-mail: elvin06@bk.ru

***Açar sözlər:*** icarə, icarəçi, icarəyə verən, aktivdən istifadə hüququ, icarə öhdəliyi, diskont, icarə müddəti, amortizasiya, ilkin dəyər metodu

***Keywords:*** lease, lessee, lessor, right-of-use asset, leasing liability, discount, lease time, amortization, method of initial assessment

***Ключевые слова:*** аренда, арендатор, арендодатель, право пользования активом, обязательство по аренде, дисконт, срок аренды, амортизация, метод первичной оценки

Müəssisələrin maliyyə hesabatları xarici isitifadəçilər üçün onun maliyyə vəziyyəti haqqında məlumatlarının əsas mənbəyi hesab olunur. Maliyyə dünyasının sürətli inkişafı yeni standartların qəbul olunmasına və ya köklü şəkildə dəyişilməsinə səbəb olur ki, bu da öz növbəsində maliyyə hesabatlarının dinamikasına əhəmiyyətli dərəcədə təsir göstərir. Məhz yenilənmiş standartlardan biri də IFRS 16–"İcarə" standartıdır. Bu dəyişiklik eyni adlı "İcarələr üzrə" Kommersiyya Təşkilatları üçün 14 saylı Milli Mühasibat Uçotu standartının da dəyişilməsini zəruri edir. IFRS 16 standartı 2016-cı il yanvar ayında nəşr edilmiş və 01.01.2019-cu ildən etibarən tətbiq olunması nəzərdə tutulur. Qeyd edilən standartın meydana gəlməsi Beynəlxalq Maliyyə Hesabatları Şurası (IFRS) və Amerika Maliyyə Hesabatları Şurasının (US GAAP) birgə fəaliyyətinin nəticisədir. Əməkdaşlığın əsas məqasədi əməliyyat və maliyyə icarəsi arasında fərqləri aradan qaldırmaqdan ibarət idi. Çünki əvvəlki standartda aktiv və öhdəlik sadəcə maliyyə icarəsi zamanı icarəçinin balansında əks etdirilirdi.

Əməliyyat icarəsi zamanı isə aktiv fiziki olaraq icarəçi tərəfindən istifadə edilməsinə baxmayaraq, aktiv icarəyə verənin balansında əks olunur və amortizasiya edilirdi. Bu problemin həll edilməsi hər iki Şura uçün aktual məsələlərdən biri hesab olunurdu. Məhz bu fərqliliyin və çatışmamazlığın aradan qaldırılması yeni standartın işlənilməsi və ərsəyə gəlməsi ilə nəticələndi. Nəticədə yeni IFRS 16-İcarə standartı qəbul edildi. Yeni standartın tələbinə əsasən artıq icarəçi hər iki halda, həm maliyyə icarəsi və həm də əməliyyat icarəsi zamanı aktivi özünün balansında əks etdirməli olacaqdır. Bunun nəticəsində icarəçinin maliyyə hesabatlarında uzunmüddətli aktivlərin və uzunmüddətli öhdəliklərin və eyni zamanda amortizasiya xərclərinin həcmi əhəmiyyətli dərəcədə artacaqdır. Belə artım mühasibat və maliyyə uçotunun sturktur və tərkibində də köklü dəyişikliyə səbəb olacaqdır. Məhz qeyd edilənləri nəzərə alaraq, biz bu məqalədə yeni standartın tələblərinə əsasən icarənin həm icarəçidə, həm də icarəyə verəndə uçotunun aparılmasının bəzi mühüm məsələlərinə diqqət yetirəcəyik.

**İcarəçi (*Lessee*)** - Aktivi icarəyə götürən şəxsdir (hüquqi və ya fiziki şəxs),

**İcarəyə verən (*Lessor*) -** Aktivi icarəyə verən şəxsdir (hüquqi və ya fiziki şəxs).

## 1. İcarənin icarəçidə uçotunun xüsusiyyətləri

**İcarə (*Lease*)** - Müyyən dövr ərzində ödəmə qarşılığında aktivdən istifadə hüququnun icarəyə verəndən icarəçiyə ötürülməsini təmin edən müqavilədir. İcarə zamanı əsas məsələlərdən biri aktiv üzərində nəzarət hüququnun (*right to control*) tam şəkildə icarəyə verəndən icarəçiyə ötürülməsidir. Nəzarətin tam şəkildə ötürülməsi üçün aşağıda qeyd edilən şərtlərin olması çox mühimdir.

- Aktiv müəyyənləşdirilmiş (*identified*) olmalıdır. Yəni aktiv başqa aktivlərdən asılı olmalı deyil.

- İcarəçinin aktiv ilə bağlı tam şəkildə əhəmiyyətli iqtisadi fayda (*substantially all of the economic benefits*) əldə etmək hüququ olmalıdır.

- İcarəçinin aktivdən birbaşa istifadə etmək hüququ (*right to direct the use*) olmalıdır. Birbaşa istifadə etmək hüququ dedikdə aktivdən icarə müddəti ərzində necə və hansı məqsədlər üçün istifadə etmək hüququ icarəçinin səlahiyyətlərində olması nəzərdə tutulur.

Əgər icarəyə verən icarə müddəti ərzində aktiv üzərində hər hansı dəyişiklik etmək və ya ondan iqtisadi fayda əldə etmək səlahiyyəti varsa, bu zaman icarəçinin aktivdən tam şəkildə iqtisadi mənfəət əldə etmək hüququ məhdudlaşdırılır. Nəticədə icarəçi həmin aktiv üzərində birbaşa nəzarət hüququ olmadığı və ondan tam əhəmiyyətli şəkildə iqtisadi fayda əldə edə bilmədiyi üçün aktivi özünün balansda əks etdirə bilmir. Nəzarətin daha rahat anlaşılması üçün aşağıdakı nümunəyə fikir verək.

### *Nümunə 1*

İkitərəfli müqaviləyə əsasən, A Aviaşirkəti özünün təyyarələrindən bir neçəsini başqa B aviaşirkətinə icarəyə vermişdir. İcarə müqaviləsinə əsasən B aviaşirkəti həftənin üç günü həmin təyarələrdən istifadə etməklə uçuşları həyata keçirəcəkdir. Qalan günləri isə təyyarələr icarəyə verən tərəfindən istifadə olunacaqdır. Belə olan halda standartın tələbinə əsasən icarəçi təyyarələrdən tam şəkildə iqtisadi mənfəət edə bilmədiyi üçün həmin təyyarələr icarəçinin balansında aktiv kimi tanınmayacaqdır. Buna səbəb icarəyə verənin həmin təyyarələrdən başqa günlərdə istifadə edib mənfəət əldə etmək səlahiyətinin olmasıdır.

Bu standart IFRS 15 “Müştərilərlə müqavilələr üzrə gəlirlər ”standartını tətbiq edən şirkətlər üçün keçərli olacaq və aşağıda qeyd edilən sahələr istisna olmaqla bütün növ icarələrə şamil ediləcəkdir:

- faydalı qazıntı, neft, təbii qaz və digər bərpa olunmayan təbii ehtiyatların kəşfiyyatı və ya istifadəsi ilə bağlı icarə müqavilələri;
- kinofilmlər, video yazılar, tamaşalar, əlyazmalar, patentlər və müəllif hüquqları kimi obyektlər üzrə lisenziya razılaşmaları;
- bioloji aktivlər üzrə icarələr;
- dəyəri 5000 dollardan aşağı olan aktivlər üzrə icarə;
- icarə müddəti 12 aydan aşağı olan aktivlər üzrə icarə.

İcarə müddəti 12 aydan aşağı və dəyəri 5000 dollardan kiçik olan aktivlər isə balansda tanınmayacaq və həmin aktivlərə görə odənilən icarə haqqı məbləği mənfəət və zərər haqqında hesabatda birbaşa xərc kimi tanınacaqdır. Belə aktivlərə takomputerlər, telefonlar, tablet və.s aid edilir.

IFRS 16-İcarə standartı müddəti 12 aydan artıq və dəyəri 5000 dollardan yüksək olan aktivlərə şamil olunur. Qeyd dilən aktivlər maliyyə vəziyyəti haqqında hesabatın uzunmüddətli aktivlər bölməsində **“Aktivdən istifadə hüququ”** (*Right-of-use asset*) və

öhdəliklər isə uzunmüddətli icarə öhdəlikləri bölməsində **"İcarə öhdəliyi"** (*Lease liability*) adı altında əks olunacaqdır.

**"Aktivdən istifadə hüququ" (***Right-of-use asset*) - icarə müddətində əsas aktivdən (*underlying asset*) istifadə etmək üçün icarəçinin hüququnu təmsil edən aktivdir. **"Aktivdən istifadə hüququ "**nun ilkin maya dəyərinə aşağıdakı xərclər daxil edilir:

- diskontlaşdırılmış icarə öhdəliyi məbləği;
- icarədən öncə ixtiyari ödəniş;
- birbaşa xərclər;
- aktivin icarə müddətinin sonunda sökülməsi və ya bərpa xərcləri.

**İcarə öhdəliyi** minimal icarə ödənişlərinin diskontlaşmış dəyəri ilə ölçülür və uçota alınır.

Minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyərinin hesablanmasında istifadə edilən diskont dərəcəsi icarə ödənişlərinin məbləğlərində öz əksini tapmış faiz dərəcəsidir. Əgər bu faiz dərəcəsinin müəyyən edilməsi mümkün deyilsə, o zaman icarəçinin borc kapitalı üzrə artan faiz dərəcəsi istifadə olunmalıdır. Diskontlaşma dəyəri aşağıdakı düsturun köməyi ilə hesablanır.

$$\text{Diskontlaşma dəyəri} = \frac{\text{Cari icarə dəyəri}}{(1+r)^n}$$

Burada:

Cari icarə dəyəri - İllik icarə ödəməsi,

R - illik diskont faiz,

N isə illərin sayıdır.

İcarə öhdəliyi hər il diskont faizi hesablamaları ilə artır və icarə odəməsi şəkilində azalır. Diskont faizi xərci məbləği mənfəət və zərər haqqında hesabatda ayrıca xərc maddəsi kimi əks etdirilir.

İcarə əməliyyatı aşağıda qeyd edilən ikili yazılış şəklində müxabirləşərək mühasibat uçotunda əks olunur:

Debet - Aktivdən istifadə hüququ,

Kredit - İcarə öhdəliyi.

Aktiv sonrakı dövrlərdə isə normalda "Torpaq, tikili və avadanlıqlar üzrə" 7 №-li Milli Mühasibat Uçotu Standartına standartın tələbinə əsasən əsas vəsait kimi ilkin dəyər metodu (ilkin dəyər çıxılsın yığılmış amortizasiya, çıxılsın yığılmış qiymətləndirmə zərərləri) ilə uçota alınır.

İcarədə olan aktivlərin amortizasiya siyasəti müəssisənin malik olduğu digər aktivlərin amortizasiya siyasətindən fərqlənməli deyil və amortizasiya kimi tanınan məbləğlər "Torpaq, tikili və avadanlıqlar üzrə" 7 №-li Milli Mühasibat Uçotu Standartına müvafiq olaraq hesablanmalıdır. Əgər icarə müddətinin sonunadək icarəçi tərəfindən mülkiyyət hüququnun əldə ediləcəyinə dair əsaslı əminlik yoxdursa, aktiv icarə müddəti və faydalı istifadə müddətindən daha qısa olan müddət ərzində tamamilə amortizasiya edilməlidir. İcarədə olan aktivin amortizasiya edilən məbləği icarəçi tərəfindən mülkiyyətdə olan aktiv üçün qəbul edilmiş amortizasiya siyasətinə uyğun olaraq sistematik şəkildə istifadə edilməsi gözlənilən müddət ərzində hər dövr üzrə bölüşdürülür. Əgər icarə müddətinin sonunadək icarəçi tərəfindən mülkiyyət hüququnun əldə ediləcəyinə dair əsaslı əminlik mövcuddursa, gözlənilən istifadə müddəti aktivin faydalı istifadə müddəti kimi hesab edilir. Əks təqdirdə, aktiv icarə müddəti və faydalı istifadə müddətindən daha qısa olan müddət ərzində amortizasiya edilir.

Eyni zamanda aktivin qiymətdən düşdüb-düşmədiyini müəyyənləşdirmək üçün, müəssisə “Aktivlərin qiymətdən düşməsi üzrə” 24 №-li Milli Mühasibat Uçotu Standartını tətbiq etməlidir. Bundan başqa, alternativ üsul kimi aktiv “İnvestisisiya mülkiyyəti” şəklində “Daşınmaz Əmlaka investisiyalar üzrə kommersiya təşkilatları 27 №-li Milli mühasibat uçotu standartı tələbinə uyğun olaraq ədalətli dəyər ilə də ölçülə bilər və uçotda əks etdirilə bilər. İlkin tanınmadan sonra, ədalətli dəyər metodunu seçən müəssisə ona məxsus icarədə olan investisiya məqsədli daşınmaz əmlak obyektlərini, ədalətli dəyərlə qiymətləndirilir. İcarə şərtinə uyğun olaraq icarəçi tərəfindən saxlanılan əmlak investisiya məqsədli daşınmaz əmlak kimi təsnifləşdirildiyi halda, ədalətli dəyər metodu tətbiq edilməlidir. İnvestisiya məqsədli daşınmaz əmlakın ədalətli dəyərində dəyişikliklərdən yaranan qazanc və ya zərər yarandığı dövrün mənfəət və zərər haqqında hesabatında tanınmalıdır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, yeni standartın tələbinə əsasən icarəçi tərəfindən icarə əməliyyatlarının muhasibat uçotunda əks etdirilməsi üçün aşağıdakı nümunəyə diqqət yetirək.

***Nümunə 2***

İcarəçi istifadə müddəti 10 il və icarə müddəti 5 il olan binanı icarəyə götürmüşdür. İcarə xərci hər ilin əvvəlində ödənilmək şərti ilə 50 000 manat təşkil edir. İcarə ilə bağlı birdəfəlik xərclər 20 000 manatdır.İcarə üzrə illik diskont faizi 5%-dir. İcarə əməliyyatlarını uçotda əks etdirmək tələb olunur. Bu məsələnin həlli üçün aşağıdakılara diqqət yetirək.

İlk öncə diskontlaşdırılmış icarə öhdəliyi məbləğini tapmaq lazımdır. Qeyd edilən icarə öhdəliyi aşağıdakı şəkildə yuxarıda qeyd edilən düsturun köməyi ilə hesablanır:

$50\ 000/1.05$ 47 619 manat
$50\ 000/1.05^2$ 45 351 manat
$50\ 000/1.05^3$ 43 192 manat
$50\ 000/1.05^4$ 41 135 manat
Cəmi 177 297 manat

Aktiv və öhdəlik ilkin olaraq aşağıdakı cədvəldəki kimi balansda əks olunacaqdır.

(manatla)

| **Hesabın adı** | **Debet** | **Kredit** |
|---|---|---|
| Aktivdən istifadə hüququ: | | |
| İlkin ödəniş | 50 000 | |
| Diskontlaşmış öhdəlik məbləği | 177 297 | |
| Birdəfəlik xərc | 20 000 | |
| İcarə öhdəliyi | | 177 297 |
| Pul vəsaiti (50000+20000) | | 70 000 |
| **Cəmi** | **247 297** | **247 297** |

Diskont faiz xərcinin 5% olduğunu nəzərə alsaq, ilin sonuna cəmi öhdəlik məbləği 186 162 manat olacaqdır. Hesablama aşağıdakı kimi aparılacaqdır:

$$((177\ 297*5\%)+177\ 297 = 186\ 162 \text{ manat.}$$

Qeyd edilən cəmi öhdəliyin 50 000 manat olan hissəsi növbəti ilin əvvəlində ödəni-

ləcəyi üçün qısamüddətli, 136 162 manatı isə növbəti illərdə ödəniləcəyi üçün uzunmüddətli öhdəlik kimi balansda əks etdiriləcəkdir.

Standartın tələbinə əsasən aktiv amortizasiya edilməli və amortizasiya xərci illər üzrə proposional şəkildə bölüşdürülməlidir. Ona görə də aktivdən istifadə hüququ 5 il olduğu üçün, amortizasiya da düz xətt metodu ilə məhz 5 illik hesablanacaq və illər üzrə xərclərə daxil ediləcəkdir.

Amortizasiya xərci bu cür hesablanacaqdır. 247 297 /5 =49 459.4 manat.

Hər il bir qayda olaraq 49 459.4 manat xərclərə daxil ediləcəkdir. Nəticədə ilin sonuna aktivin balans dəyəri 197 837.6 azn(247297-49459.4) olacaqdır.

## 2. İcarəyə verəndə icarənin uçotu

Standartın tələbinə əsasən icarəyəverəndə icarə məsələsi isə əvvləki qaydada "İcarələr üzrə" Kommersiyya Təşkilatları üçün 14 saylı Milli Mühasibat Uçotu standartnın tələbinə uyğun olaraq aparılacaqdır. Belə ki, maliyyə icarəsi zamanı aktiv ilə bağlı bütün əhəmiyyətli risk və öhdəliklər icarəçiyə keçəcəkdir. Maliyyə icarəsi zamanı icarəyə verən aktivi özünün balansından məxaric edəcək və həmin aktiv icarəçinin balansına keçəcəkdir. Bu zaman amortiasiya xərcləri icarəçi tərəfindən hesablanacaq və xərclərə daxil ediləcəkdir. İcarəyə verən subyektlər maliyyə icarəsində olan aktivləri özünün balans hesabatlarında icarə obyektinə qoyulmuş xalis investisiya dəyərinə bərabər məbləğdə debitor borcları kimi təqdim etməlidirlər. Maliyyə icarəsi zamanı, icarə ödənişləri üzrə debitor borcları icarəyə verən subyekt tərəfindən investisiyanın əsas məbləği və maliyyə gəlirinin ödənilməsi kimi qəbul edilir. İcarə dövrü ilə əlaqəli icarə ödənişləri, xidmət xərcləri istisna olmaqla, həm icarə investisiyasının əsas məbləğini, həm də əldə olunmamış maliyyə gəlirini azaltmaq üçün icarəyə qoyulmuş ümumi investisiyadan çıxılır. İcarəyə verən subyektin icarədə olan bütün ümumi investisiyasının hesablanmasında istifadə olunan hesablanmış zəmanətsiz son qalıq dəyəri mütəmadi olaraq nəzərdən keçirilməlidir. Əgər hesablanmış zəmanətsiz son qalıq dəyərində azalma varsa, bu zaman icarə dövrü üzrə gəlirin paylaşdırılmasına yenidən baxılmalı və toplanmış məbləğlərdə hər hansı azalma dərhal uçotda tanınmalıdır. Maliyyə icarəsi üzrə satış üçün nəzərdə tutulan "Satış üçün nəzərdə tutulmuş uzunmüddətli aktivlərin üçotu və dayandırılmış əməliyyatlar üzrə" 23 №-li Milli Mühasibat Uçotu Standartına uyğun olaraq təsnifatlandırılan (və ya satış üçün nəzərdə tutulmuş kimi təsnif edilən silinmə qrupuna daxil edilmiş) aktiv həmin standarta uyğun olaraq uçota alınmalıdır.

Əməliyyat icarəsi zamanı isə aktiv ilə bağlı əhəmiyyətli risk və öhdəliklər icarəçiyə keçmir. Nəticədə aktiv icarəyə verənin balansında saxlanılır. İcarəyə verən sadəcə olaraq balansda debitor borcu əks etdirir. İcarədən daxil olmaları isə mənfəət və zərər haqqında hesabatda icarə gəliri kimi ayrıca olaraq qeyd edilməlidir. Əməliyyat icarəsindən əldə edilən icarə gəliri icarə müddəti ərzində düz xətt üsulu ilə gəlir kimi tanınmalıdır. Əgər hər hansı digər sistematik üsul icarədə olan aktivdən əldə edilən səmərənin azalmasını təmin edən zaman sxemini daha aydın şəkildə təqdim etmək imkanını verərsə, onda həmin digər üsul istifadə olunmalıdır. İcarəyə verən subyekt tərəfindən əməliyyat icarəsi üzrə müqavilənin razılaşdırılması və hazırlanması ilə bağlı çəkilən ilkin birbaşa məsrəflər icarəyə verilən aktivin balans dəyərinə əlavə edilməli və icarə müddəti ərzində icarə gəliri tanındığı eyni üsulla xərc kimi tanınmalıdır.

Amortizasiya edilən icarəyə verilmiş aktivlər üçün amortizasiya siyasəti icarəyə verən subyektin analoji aktivlər üzrə amortizasiya siyasətinə uyğun olmalıdır. Amortizasiya

“Torpaq, tikili və avadanlıqlar üzrə” 7 №-li Milli Mühasibat Uçotu Standartıa uyğun olaraq hesablanmalıdır. İcarəyə verilmiş aktivin dəyərdən düşməsini müəyyən etmək üçün müəssisələr “Aktivlərin qiymətdən düşməsi üzrə” 24 №-li Milli Mühasibat Uçotu Standartını tətbiq etməlidirlər. İcarəyə verəndə əməliyyat icarəsi ilə bağlı aşağıdakı nümunəyə diqqət yetirək.

### *Nümunə 3*

Alfa şirkəti istifadə müddəti 10 il olan avadanlığı beta şirkətinə 3 illik əməliyyat icarəsinə verir. İllik icarə ödəməsi 3600 manatdır. Eyni zamanda Alfa şirkəti həmin avadanlığın təmiri və baxım xərclərini də öz üzərinə götürmüşdür.

Bu halda Alfa şirkəti həmin avadanlığı özünün balansından məxaric etməyəcəkdir. Aktiv 10 il müddətində Alfa şirkəti tərəfindən amortizasiya ediləcək və İllik 3600 manat məbləğində icarədən mədaxil olmanı isə icarə gəliri kimi mənfəət və zərər hesabatında əks etdirəcəkdir.

## Nəticə

Məqalədə yeni standartın tələblərinə əsasən icarənin həm icarəçidə və həm də icarəyə verəndə uçotunun aparılması ilə bağlı bəzi mühim məsələlərə toxunulmuşdur və onun əhəmiyyətindən bəhs edilmişdir. Lakin onu da qeyd etmək istərdim ki, qeyd edilən yeni standartın müsbət tərəfləri olduğu kimi bəzi mənfi tərəfləri və uyğunsuzluqaları da mövcuddur. Belə ki, yeni standartın tətbiqi zamanı balansda əsas vəsaitlərin həcminin artması inventar kartların sayının artmasına və eyni zamanda əsas vəsait dövriyyəsinin yüksəlməsinə səbəb olacaqdır. Nəticədə amortizasiya xərclərinin də həcmi artacaqdır ki, bu da öz növbəsində müəssisənin mənfəətinə də əhəmiyyətli şəkildə təsir edəcəkdir. Mənfəətin azalması isə müəssisənin maliyyə göstəricilərinə və maliyyə əmsallarına ciddi şəkildə təsir göstərəcəkdir.

Yeni standartın tətbiqi ilə əlaqədar müəssisələr bəzi önhazırlıqlarını da etməli olacaqlar. Yəni bütün mövcud olan icarə müqavilələrinə yenidən baxılmalı və onların inventarizasiyaları aparılmalıdır. Məqalədə qeyd etdiyimiz kimi artıq bütün icarədə olan aktivlər və öhədliklər balansda əks olunacaqdır. Bunla əlaqadar olaraq da milli hesablar planına da yeni “Aktivdən istifadə hüququ” adlı hesabın əlavə edilməsi zərurəti olacaqdır. Çünki hal hazırda Milli Hesablar planında eyni adlı hesab mövcud deyildir. Eyni zamanda aktiv və öhəliklərin həcminin artması yeni kompyuter proqramların işlənməsinə və tətbiq olunmasına gətirib çıxardacaqdır.

Yeni standartın uyğunsuzluğu isə aktivin əməliyyat icarəsi zamanı həm icarəçi və həm də icarəyə verən tərəfindən balansda əks etdirilməsindən ibarətdir. Çünki aktivin həm icarəçinin və həm də icarəyə verəninin balansında əks etdirilməsi amortizasiya xərclərinin hər iki şəxsin maliyyə hesabatlarında xərc kimi uçota alınacaqdır. Fikrimizcə, bu düzgün olmazdı. Ona görə də təklif edirik ki, aktiv yalnız icarəçinin balansında əks edilsin və amortizasiya xərcləri məhz icarəçinin maliyyə hesabatlarında əks etdirilisin. İnanırıq ki, Beynəlxalq maliyyə hesabatları Şurası (IFRS) və Amerika malyyə hesabatları Şurası (US GAAP) gələcəkdə bu uyğunsuzluğun aradan qaldırılması üçün lazımi tədbirlər görəcəkdir.

## Ədəbiyyat

1. Wiley IFRS 2017 Interpretation and Application of IFRS Standards. PKF International Ltd., 2017, 700 p.
2. ACCA DipIFR Diploma in International Reporting. BPP Learning, London, 2017, 567 p.
3. Диплом по международной финансовой отчетности - Материал для подготовки к экзамену PWC. Москва, 2016, 320 с.
4. A guide to IFRS 16. Deloite, London, June 2016, 500 p.
5. Supporting materials for IFRS 16. London, 450 p.
6. Kommersiya təşkilatları üçün milli mühasibat uçotunun konseptual əsasları. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. Bakı, 2009, 600 s.
7. Beynəlxalq Maliyyə Hesabatları Standartları (MBHS). Praktik vəsait, Bakı, 2007, 283 s.

## NEWLY ADOPTED IFRS 16 LEASES STANDARD AND SOME IMPORTANT QUESTIONS OF ITS REFLECTION IN ACCOUNTING

**E.S.Abdullayev**

**SUMMARY**

The importance of recently adopted IFRS 16 Leases standard is stressed in this paper. Based on a practical example, the moments of the correct reflection of assets and obligations according to the requirements of the new standard are noted. Some possible negative and positive moments of application of new standard are also discussed.

## НОВОПРИНЯТЫЙ СТАНДАРТ «IFRS 16-АРЕНДА» И НЕКОТОРЫЕ ВАЖНЫЕ ВОПРОСЫ ЕГО ОТРАЖЕНИЯ В УЧЕТЕ

**Э.С.Абдуллаев**

**РЕЗЮМЕ**

В статье отмечается важность недавно принятого стандарта IFRS 16–Аренда. На основе практического примера выделяются моменты правильного отражения активов и обязательств согласно требованиям нового стандарта. Также обсуждаются некоторые возможные негативные и позитивные моменты применения нового стандарта.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ STİMULLAŞDIRILMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

**R.M.Quluyev**
Azərbaycan Dövlət Iqtisad Universiteti
Bakı, İstiqlaliyyət küçəsi 6
email: rovshan950@gmail.com

***Açar sözlər:*** neft sektoru, qeyri-neft sektoru, investisiya, iqtisadi artım
***Keywords:*** oil sector, non-oil sector, investment, economic growth
***Ключевые слова:*** нефтяной сектор, ненефтяной сектор, инвестиции, экономический рост

Qeyri-neft sektorunun inkişafı çağdaş dünyamızda olduqca vacib məsələlərdəndir. Azərbaycan tarixən neft və qaz ölkəsi olmuşdur, və hal-hazırda neft və qaz ixrac edən ölkə kimi dünya arenasında layiqli yerdə təmsil olunur. Lakin yalnız bir sahə üzrə məhsul ixracı, xüsusən də həmin məhsul tükənən təbii sərvət olarsa, ölkənin gələcək davamlı inkişafını sual altına qoya bilər. Çünki dünyada baş verən hadisələr çevikdir, dəyişkəndir. Ölkəmiz üçün səciyyəvi xüsusiyyət ondan ibarətdir ki, neft və qaz sektoru inkişaf etdiyi halda, dayanıqlı iqtisadi inkişaf üçün digər sənaye sahələrinin və qeyri-neft sektorunun inkişafı da vacib məsələlərdəndir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə neft və qaz ixracından əldə olunan valyuta ehtiyyatları digər sənaye sahələrinin inkişafına sərf edilməli, iqtisadiyyat şaxələndirilməli və beləliklə, dayanıqlı iqtisadi inkişaf təmin olunmalıdır. Neft və qaz sektorundan başqa digər sahələrdən ölkəyə daxil olan xarici valyutanın miqdarını artırmaq üçün ixrac imkanlarını nəzərdən keçirmək məqsədəuyğundur. Yerli məhsul istehsalını stimullaşdırmaq, inkişaf üçün əlverişli mühit yaratmaq, sahibkarlıq fəaliyyətini dəstəkləmək, ixracı təşviq etməklə digər sahələrin inkişaf etməsinə nail olmaq olar.

Ölkə iqtisadiyyatının müxtəlif sahələrinə yönələn investisiyaların qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi ilə sahibkarlıq fəaliyyəti üçün münbit şəraitin yaradılması cənab İlham Əliyevin iqtisadi siyasətinin əsasını təşkil edir. Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması istiqamətində həyata keçirilən sistemli tədbirlər əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə, eləcə də ölkənin məşğulluq strategiyasının səmərəliliyinə imkan verir (1, 2).

Bunlar onu deməyə əsas verir ki, açılan yeni-yeni istehsal təyinatlı müəssisələrdə minlərlə insan, minlərlə vətəndaş işlə təmin olunacaq. Xüsusilə istehsal müəssisələrinin regionlarda istismara verilməsi region əhalisinin digər bölgələrə üz tutmasının qarşısını alacaq və kənd təsərrüfatına dəstək verməklə əhalinin məşğulluq imkanlarını genişləndirəcək. Azərbaycan öz iqtisadiyyatını təkcə neft və qaz amili üzərində qurmayaraq, əldə edilən gəlirlərdən qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində də ciddi işlər həyata keçirir.

Ölkənin ixrac imkanlarını genişləndirmək vacibdir. Kənd təsərrüfatı, aqrar sahə xüsusi diqqət mərkəzi altında olmalıdır. Burada sahibkarlıq fəaliyyətinin stimullaşdırılması

üçün əlrişli iqtisadi mühit yaradılmalıdır, hüquqi baza təkmilləşdirilməlidir. Kənd təsərrüfatına investisiya qoyuluşları təşviq edilməlidir. İndi toxum və bir sıra əkin məhsullarına gömrük-idxal rüsumları qismən tətbiq edilir və ya tam azad olmuşdur. Təsərrüfatçılıqla məşğül olan subyektlərə hektardan istifadəyə görə gübrə və texnika üçün yanacaq dövlət tərəfindən təmin edilir. İplik və parça istehsalı müəssisələrini pambıq məmulatları ilə təzhiz etmək üçün kənd təsərrüfatının pambıqçılıq sahələri inkişaf etdirilir. Təsərrüfat işləri ilə məşğul olan fərdi sahibkarlar, sahibkarlıq subyektləri dövlət tərəfindən güzəştli və uzun müddətli kredirlərlə təmin edilir. Əkin-biçin və digər işlərin həyata keçirilməsi üçün müxtəlif çeşidli kənd təsərrüfatı texnikaları ilə yüksək səviyyədə təmin edilir, aqroservislər yaradılır. Bu isə kənd təsərrüfatında və aqrar sektorda çalışan fərdi sahibkarları əmin edirki, onların əkdiyi məhsulların alıcıları mövcuddur, sifarişçiləri var.

Azərbaycan öz qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi istiqamətində ciddi işlər həyata keçirir. Bu ilin 6 ayı ərzində ixrac 36 faiz , qeyri-neft ixracı 27 faiz artmışdır. Kənd təsərrüfatı ixracı 40 faizdən çox artmışdır. Altı ay ərzində təbii ki, bunlar valyuta ehtiyatlarının artmasına da səbəb olmuşdur. Düşünülmüş iqtisadi siyasət nəticəsində əlavə olaraq 3 milyard dollar əlavə valyuta daxil olmuşdur. Azərbaycana 6 ay ərzində 5 milyard dollar həcmində investisiya qoyuluşu həyata keçirilib. Davos İqtisadi Forumu ölkə iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 37-ci yerə layiq görüb. Bu MDB məkanında birinci göstəricidir. Makroiqisadi sabitlik təmin edilmişdir. Manatın məzənnəsi sabitdir. Dövlət xətti ilə ölkə iqtisadiyyatına sərmayə qoyulur. Qırxa yaxın aqropark yaradılır. Yaxın 1-2 il ərzində bu aqroparklarda yaradılan məhsul xarici bazarlara ixrac olunacaq, daxili ərzaq təhlükəsizliyini təmin edəcək (1, 2).

Ölkə iqtisadiyyatının şaxələndirilməsinin əsas addımlarından biri də idxal olunan məhsullara daxili istehsal hesabına tələbatı təmin etməkdir. Bu nöqteyi nəzərdən sənaye parkları və sənaye məhəllələrinin yaradılması olduqca aktualdır. Burada istehsal olunan məhsullar həm daxili bazarlarda daxili tələbatı ödəyəcək, idxaldan asılılığı azldacaq , həm də xarici bazarlarda məhsul satışını artıracaq. Beləliklə xaricidən daxil olan valyutanın artmasına səbəb olacaq ki, bununlada ölkə büdcəsi kifayət qədər vəsaitlə təmin olunacaq. Əlavə istehsal potensialını artırmaq imkanlarını nəzərdən keçirə biləcək.

Azərbaycanda neftdən əldə olunan gəlirlər hesabına infrastrukturun modernləşdirilməsi, qeyri-neft iqtisadiyyatına sərmayə yatırılması, ümumi daxili məhsulun həcmindən artıq strateji valyuta ehtiyatlarının yaradılması, biznes mühitinin daha da yaxşılaşması və ölkəmizin beynəlxalq tranzit imkanlarının çoxalması nəticə etibarilə iqtisadi inkişafa təkan vermişdir. 2014-cü ildən etibarən isə beynəlxalq iqtisadi sistemdə baş verən proseslərin yekunu olaraq neftin qiymətinin kəskin ucuzlaşması, eyni zamanda, Azərbaycanın ticarət tərəfdaşları olan ölkələrdə böhran nəticəsində iqtisadi artımın dinamikasının azalması nəticə etibarilə respublikamızda iqtisadi inkişafa dair yeni yanaşmaların ortaya qoyulmasını zəruri edib. Bu zaman qarşıya qoyulan əsas vəzifə qeyri-neft sektorundakı mövcud potensialın hərəkətə gətirilməsi, bu sahədə dinamik inkişafın təmin edilməsi üçün yeni iqtisadi islahatların həyata keçirilməsi olub. Xatırladaq ki, 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən başlayaraq bu istiqamətdə yeni islahatların həyata keçirilməsinə start verildi. Qeyri-neft istehsalının stimullaşdırılması, sahibkarlıq fəaliyyətinə daha münbit şəraitin yaradılması, o cümlədən kənd təsərrüfatında ölkəmizə valyuta gətirə biləcək sahələrin inkşafı üçün təxirəsalınmaz addımlar atıldı. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar, Milli Məclisin, Nazirlər Kabinetinin qəbul etdiyi müvafiq qanun və qərarlar yeni iqtisadi islahatların hüquqi bazasını təşkil etdi. Reallıq göstərir ki,

aparılan iqtisadi islahatlar nəticəsində son illər sözügedən sahədə mühüm nailiyyətlər əldə olunub, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, rəqabətqabiliyyətli malların istehsalı genişlənib (1, 2).

Bu gün qarşıda duran mühüm vəzifələrdən biri də ixracın həm məhsul istehsalı baxımından çeşidinin, həm də coğrafiyasının genişləndirilməsidir. Bu məqsədlə ixracın təşviq edilməsi, o cümlədən geri ödəmə dəstəyinin verilməsi, ”Made in Azerbaijan” brendinin xarici bazarlarda tanıdılması, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınması istiqamətində işlər görülür. Ölkədə uzunmüddətli sosial-iqtisadi imkişafda davamlığı təmin etmək üçün, iqtisadiyyatın şaxələndirilməsi, digər qeyri-neft sektoru sahələrinin inkişafına dəstək verilməsi, yerli və əcnəbi iş adamlarına sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün münbit şəraitin yaradılması, ixracın təşviqi və milli məhsulların ölkə xaricinə, dünya bazarlarına çıxışını dəstəkləmək olduqca vacibdir.

Aparılan iqtisadi islahatlar, həyata keçirilən sənayeləşmə siyasəti, qeyri-neft sektoruna verilən dövlət dəstəyi nəticəsiz qalmır. Bu, Dövlət Statistika Komitəsinin açıqladığı son rəqəmlərdən də aydın görünür. Belə ki, bu ilin 5 ayı ərzində ölkə üzrə 25 milyard 338,7 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Hesabat dövründə iqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyər istehsalı 2,3 faiz artıb və ÜDM-də onun xüsusi çəkisi 58,9 faizə yüksəlib.

Statistika Komitəsinin hesabatında həmçinin bildirilir ki, göstərilən müddətdə əlavə dəyərin 44,1 faizi sənaye, 10,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 8,3 faizi tikinti, 7,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,3 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 2,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 14,5 faizi digər sahələrdə istehsal edilib. Bu dövrdə məhsula və idxala xalis vergilər ÜDM-in 7,1 faizi həcmində olub. Əhalinin hər nəfərinə 2610,3 manat ÜDM düşüb. Sənayenin qeyri-neft sektorunda 3,9 faiz artım müşahidə olunub. Hesabata görə, cari ilin yanvar-may aylarında ölkə üzrə əsas kapitala 5 milyard 671,7 milyon manat vəsait yönəldilib. Bu dövrdə qeyri-neft sektorunun inkişafına sərf edilən vəsaitin həcmi də kifayət qədər yüksək, 338,8 milyon manat olmuşdur (1, 3).

Dünyada neft və qaz kimi enerji daşıyıcılarının qiymətlərində baş verən volatillik ölkəmiz üçün qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsini, iqtisadiyyatın diversifikasiyasını diktə edir. Çünki iqtisadi inkişafın dayanıqlılığı üçün iqtisadi şaxələndirmə, ixrac məhsullarının artırılması mühüm əhəmiyyət kəsb edir.

İqtisadiyyatın qeyri-neft sektoru kimi aqrar sahənin inkişafı diqqət mərkəzində saxlanılmalıdır. Son zamanlar baramaçılıq, tütünçülyün, fındıq təsərrüfatlarının inkişafına diqqət artırılıb. Ötən il fındıq istehsalı 34.3 min ton olub ki, 55.1 min hektar bağ sahələrində məhsuldarlıq orta hesabla hər hektar üçün 1 ton olmuşdur. Bununla yanaşı ötən il yaş baranma istehsalı 70.7 ton, xam ipək istehsalı 8.3 ton olmuşdur. Tütünçülükdə də inkişaf meylləri özünü göstərir. Belə ki, 2016-cı ildə 3.6 min ton tütün tədarük olunmuşdur (1, 2).

Qeyri-neft sektorunun inkişafının mühüm tərkib hissələrindən olan aqrar sektorun ölkmizdə inkişafı diqqət mərkəzində saxlanılır. Aqrar sahədə məhsuldarlığın yüksəldilməsinin əsaslarından olan kənd təsərrüfatı ilə sənaye müəssisələri qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Hal-hazırda regionlarda kənd təsərrüfatı məhsullarını saxlamaq üçün müxtəlif fəsillərdə məhsul istehlakını təmin etmək məqsədilə böyük soyuducular, saxlama anbarları tikilib istifadəyə verilmişdir. Azərbaycanın bölgələri müxtəlif bitki növləri ilə zəngin oldu-

ğu üçün, əhalinin tələbatını təmin etmək məqsədilə, eləcə də məhsullarım müxtəlif mövsümlərdə xarici bazarlara çıxarılması üçün soyuducular, kənd təsərrüfatı məhsullarının saxlanma anbarları mühüm əhəmiyyət kəsb edir. Gələcəkdə belə obyektlərin sayının artırılması nəzərdə tutulur. Bununla yanaşı aqrar sənaye kompleksləri regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Aqrar sahə ilə sənaye müəssisələrinin fəaliyyəti qarşılıqlı formada təmin edilir. Ölkəmizdə pambıq məhsullarının əkib becərilməsinə, yetişdirilməsinə xüsusi diqqət yetirilir. Əvvəlki "ağ qızıl"ın şöhrəti geri qayıdacaq, pambıqçılıq sürətli inkişaf edəcəkdir. Bu sahədə kənd təsərrüfatında çalışan sahibkarlara güzəştli şərtlərlə, uzunmüddətli kreditlər verilir. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kifayət qədər güzətli kreditlər verilib və bu iş indi də uğurla davam etdirilir. Yetişmiş pambıq məhsulları mövsüm ərzində qəbul məntəqələri tərəfindən müəyyən olunmuş məbləğ müqabilində təhvil alınır. Lakin əvvəllər yetişmiş pambıq təhvil məntəqələrinin azlığı və ya münasib qiymət təklifi olmaması səbəbindən pambığın əkin-biçini ya sahibkarlarda stimul yaratmırdı, ya da sahələrdə qalırdı. Beləcə məhsul məhv olurdu. İndi bu məsələlər öz həllini tapmışdır, sahibkarlar üçün daha əlverişli şərait yaradılmışdır. Eləcə də sitrus meyvəçiliyinin inkişafına da diqqət artırılmışdır. Keçmiş SSRİ-nin süqutundan sonra kənd təsərrüfatında da tənəzzül başladı. Lakin sonradan bu sahələrə qayğı və diqqət nəticəsində məhsul həcmi artmağa başladı. İndi müxtəlif bitki növlərinin yetişdirilməsi üçün istixanaların yaradılması fərdi sahibkarlar tərəfindən həvəslə və maraqla icra edilir. Burada istənilən mövsümdə pomidor, xiyar, kələm, brokoli, gül kələm, çiyələk və s bitkilərin yetişdirilməsi təmin edilir. Bu məhsulların satışı həm daxili bazarlarda , həm də xarici bazarlarda təmin edilir. Dövlət bu sahədə kifayət qədər dəstək göstərir. Belə ki, bu tip məhsulların xarici bazarlara çıxışı üçün şərait yaradır, vergi-gömrük güzəştləri tətbiq edir, məhsul ixracını təşviq edir ki, "Made in Azerbaijan" brendi altında məhsulları beynəlxalq bazarlara çıxarsın. Əlbəttə, belə fəaliyyətlər ölkədə qeyri-neft sektorunun inkişafını sürətləndirir, iqtisadiyyatın şaxələndirilməsi prosesini intensivləşdirir.

| **Total fresh fruits** | 232 795 | 142 033 | 187 359 | 112 273 | 176222 | 152561 | 220 358 | 207 735 | 173 239 | 173 312 | 156 601 | 191 953 | 172 981 | 220 088 | 214 350 | 243 435 |
| **Fresh fruits to EU** | 5716 | 27663 | 2139 | 10783 | 3813 | 24840 | 1635 | 10147 | 3676 | 22112 | 3819 | 35985 | 7891 | 66662 | 9136 | 69665 |
| **Share of EU in fresh fruits** | 2,46% | 19,5% | 1,14% | 9,6% | 2,16% | 16,3% | 0,74% | 4,9% | 2,12% | 12,76% | 2,44% | 18,7% | 4,56% | 30,3% | 4,26% | 28,6% |

*Agricultural exports of Azerbaijan and share of EU and fresh fruits exports*

*This table is created by the authors based on the data of State Statistics Committee of Azerbaijan - https://www.stat.gov.az/source/trade/?lang=en*

# AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ Aİ-YƏ İXRACI: Aİ-NİN ÜMUMİ KƏND TƏSƏRRÜFATI SİYASƏTİNDƏKİ MANEƏLƏRİN ARADAN QALDIRILMASI

**A.Y.Rzayev, T.S.Süleymanov**

## SUMMARY

Məqalədə Azərbaycanın Avropa İttifaqı ilə ticarət əməkdaşlığı təhlil olunmuş, aqrar-ərzaq sektorunda Azərbaycan ilə Aİ arasında ticari əlaqələrin genişləndirilməsi yolları təklif edilmişdir. Məqalə aşağıdaki əsas hissələrə ayrılıb:

- Azərbaycan ilə Aİ arasında ticari əlaqələrin indiki strukturu;
- Azərbaycanın kənd təsərrüfatı məhsullarının Aİ-yə ixracının təkamülü;
- Azərbaycanın Aİ-yə kənd təsərrüfatı məhsullarının ixracının perspektivləri.

# ЭКСПОРТ АЗЕРБАЙДЖАНСКОЙ СЕЛЬХОЗПРОДУКЦИИ В ЕС: ПРЕОДОЛЕНИЕ ПРЕПЯТСТВИЙ В ОБЩЕЙ СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПОЛИТИКЕ ЕС

**А.Я.Рзаев, Т.С.Сулейманов**

## РЕЗЮМЕ

В статье проведен анализ торгового сотрудничества Азербайджана с Европейским Союзом и предложены пути расширения связей между Азербайджаном и ЕС в сфере агропродовольствия. Статья разделена на следующие основные части:

- существующая структура торговых связей между Азербайджаном и ЕС;
- эволюция экспорта сельскохозяйственной продукции Азербайджана в ЕС;
- перспективы экспорта сельскохозяйственной продукции Азербайджана в ЕС.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# İNVESTİSİYA FƏALİYYƏTİNİN NƏZƏRİ ASPEKTLƏRİ: MAHİYYƏTİ, TƏSNİFATI VƏ KATEQORİYALARI

**E.C.Balakişiyev**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: elvin.balakiwiyev1988@gmail.com

***Açar sözlər:*** investisiya , maliyyə, iqtisadi fəaliyyət, investor, biznes plan
***Keywords:*** investment, finances, economic activity, investor, business plan
***Ключевые слова:*** инвестиции, финансы, экономическая деятельность, инвестор, бизнес-план

İnvestisiya fəaliyyətinin nəzəri aspektlərinin kompleks tədqiqatı üçün onun məzmununu dəqiqliklə aydınlaşdırmaq, həll olunan məsələləri konkretləşdirmək və kateqoriya yanaşması əsasında əsas anlayışları müəyyən etmək lazımdır.

Problemin mürəkkəbliyini nəzərə alaraq, ilk növbədə iqtisadi ədəbiyyatda müxtəlif formada izah olunan *investisiya* anlayışının tərifini vermək vacibdir. İqtisadi nöqteyi-nəzərdən, *investisiya* adətən perspektivdə mənfəət əldə olunmasına yönəlmiş xərclərin kəmiyyət baxımından qiyməti kimi ifadə olunur. Bir sıra hallarda *investisiya*, öz kapitalını artırmağa imkan yaradan yatırılmış bütün vəsaitlərin sistemi kimi ifadə olunur və eyni zamanda *investisiya* adı altında gəlir əldə etmək və ya başqa son nəticəyə nail olmaq məqsədilə investora məxsus olan hər cür əmlak başa düşülür [1].

Praktik fəaliyyətdə investisiyalar *real*, yəni istehsal-kommersiya müəssisəsinin əsas və dövriyyə vəsaitlərinin inkişafına yatırılmış vəsaitlər və *maliyyə*, yəni maliyyə aktivlərinin inkişafının uzun perspektivlərinə yatırılmış vəsaitlər ola bilər.

Maliyyə ilə müqayisədə investisiyanın spesifik xüsusiyyəti prosesin geridönməzliyidir, yəni əgər müəyyən səbəbdən investor investisiya layihəsinə qarşı öz fikrini dəyişirsə və qoyulan sərmayənin qaytarılmasını istəyirsə, bunu dərhal etmək praktiki cəhətdən qeyri-mümkündür. Bir sözlə, investisiya layihəsinin hazırlanmasının və tətbiqinin vacibliyinə dair qəbul olunmuş qərarlar, layihə ilə əlaqədar olan bütün hallarda qabaqcadan ətraflı düşünülməlidir. Qərar qəbul etməzdən qabaq hər şey kəmiyyətcə qiymətləndirilməlidir.

İnvestisiya fəaliyyətinin iqtisadi fəaliyyətin əsas forması olduğunu nəzərə alaraq, aşağıdakı sxem üzrə investisiya fəaliyyətinin idarə olunma səviyyəsini nəzərdən keçirmək lazımdır (Cədvəl 1).

Cədvəl 1
İnvestisiya fəaliyyətinin idarə olunması

| **İnvestisiya fəaliyyəti** | | |
|---|---|---|
| İerarxiklik | Qəbul üsulları | Metodlar |
| Sahələr | İnvestisiya kapitalı | İnvestisiya sistemi |
| Müəssisələr | İnvestisiya resursları | İnvestisiyalar |

İstənilən dövlətin iqtisadi siyasətinin səmərəliliyi, investisiya qoyuluşları ilə müəyyənləşdirilir. İnvestisiya prosedurları ölkənin investisiya siyasəti vasitəsi ilə həyata keçirilir və tənzimlənir. İnvestisiya siyasəti, yatırılmış investisiyalar bazasında investisiya prosedurlarının nəticəsi ilə müəyyən edilən investisiya resursunun yaradılmasına və tətbiqinə görə nəzərdə tutulmuşdur [2].

Təbiidir ki, investisiya prosesinin əsas komponenti investisiyalardır, belə ki, onların yaradılması və tətbiqi iqtisadi artımı, onun keyfiyyətini və intensivliyini təmin edir.

Müasir ədəbiyyatda investisiyadan, iqtisadi kateqoriya kimi, nisbətən son vaxtlarda istifadə etməyə başlamışlar, bunun əvəzində isə, kapital qoyuluşu, yığım kimi anlayışlardan istifadə olunurdu.

İnvestisiya fəaliyyəti problemləri A.Smit, D.Rikardo, C.Keyns, P.Samuelson, C.Klark, R.Harrod, Q.Habler, S.Fişer, R.Dornbuş, U.Şarp, C.Beyli və digər klassiklərin əsərlərində öz əksini tapmışdır [3; 4; 5; 6; 7; 8; 9; 10].

*İnvestisiya* kateqoriyası ilə yanaşı, nəzəri planda investisiya fəaliyyəti, investisiya prosesi, investor, investisiya riski, investisiya layihəsi və bir sıra digər kateqoriyaları qeyd etməyin mümkün olduğunu nəzərə alaraq, bu analyışları müəyyənləşdirmək lazımdır.

*İnvestisiya fəaliyyətinin* ən geniş yayılmış tərifi, gəlir əldə edilməsi və müəyyən iqtisadi səmərəliliyə nail olunması məqsədi ilə investisiya qoyulması və real hərəkətlərin həyata keçirilməsi şəklində ifadə olunur.

*İnvestisiya prosesi,* investisiya resurslarının yaradılması, cəlb olunması, yatırılması, ödənilməsi və onların tətbiqindən mənfəət əldə edilməsi prosesi kimi təyin olunur.

*İnvestor* – uzunmüddətlilik və ya qısamüddətlilik əsasında investisiya layihəsinə öz vəsaitlərini, onların mənfəətlə qaytarılması məqsədi ilə qoyan fiziki və ya hüquqi şəxs kimi ifadə olunur.

*İnvestisiya riskinə,* investisiyaların və onlardan gələn mənfəətin itirilməsi ehtimalı kimi tərif vermək olar (riskə münasibətinə görə, investorlar çox zaman üç qrupa bölünür: riskə münasibətdə neytral, riskə meylli olmayan, riskə meylli).

*İnvestisiya layihəsi* iki növ sənədlərdən:

- kapital qoyuluşlarına dair faktların təsdiq edilməsi, kapital qoyuluşlarının iqtisadi məqsədəuyğunluqlarının, həcminin və tətbiq müddətinin əsaslandırılması üzrə sənədlərdən (o cümlədən, ölkə qanunvericiliyi əsasında hazırlanmış və müəyyən edilmiş qaydada standartlarla təsdiq edilmiş zəruri layihə-smeta sənədlərindən);
- biznes-plandan ibarət olan sənədlər sistemi kimi ifadə olunur.

İnvestisiya fəaliyyətinin nəzəri istiqamətlərində təsnifat üsulu mühüm yer tutur, belə ki, kommersiya fəaliyyətində investisiyalar müxtəlif formada həyata keçir. Əsas təsnifat meyarlarına:

- yatırım subyektləri üzrə (faktiki);
- maliyyə;
- intellektual;
- yatırım üsulu üzrə (birbaşa; dolayı);
- yatırım müddəti üzrə (qısamüddətli; ortamüddətli; uzunmüddətli);
- investorun mülkiyyətinin növünə görə (dövlət; özəl; birgə; kollektiv; xarici);
- risk dərəcəsinə görə (az riskli; risksiz; yüksək dərəcədə riskli);
- ərazi əlamətinə görə (xarici; daxili);

- yatırımın mərhələliliyi (ilkin; ekstensiv; reinvestisiyalar; brutto investisiyalar) üzrə təsnifatları aid etmək olar.

İnvestisiya fəaliyyətinin təsnifatını aşağıdakı əlamətlərə görə də aparmaq olar, məsələn, firmaların rəhbərlərinin nöqteyi-nəzərinə görə, investisiya layihələri aşağıda formada göstərilə bilər.

Onlardan bəzilərinə daha yaxından nəzər salaq, məsələn, layihələrdən birinin qəbulu digər layihənin qəbulunda göstərilmirsə, belə investisiya layihəsində əlaqə növü müstəqil hesab olunur. Əgər iki və daha çox investisiya layihəsi komplekt şəklində mövcud ola bilmirsə, belə layihələr alternativ və ya qəbul edilə bilməyən layihələr adlanır. Pul hərəkətinin növləri haqqında danışsaq, əgər axın eyni vaxtda və ya bir sıra ardıcıl baza müddətləri və pul vəsaitlərinin sonrakı axınları ərzində yerinə yetirilən başlanğıc investisiyalardan ibarətdirsə, ordinar axın adlanır. Əgər pul vəsaitləri, onların getdiyi istiqamətlərlə birləşirsə, axın qeyri-ordinar hesab olunur.

Praktikada, adətən investisiya xarakterli idarəetmə qərarının üç komponentini: ardıcıllığın seçilməsini; layihənin alqoritmini; investisiya tədbirlərinin işlənib hazırlanmasını qeyd edirlər.

İqtisadi məzmununa görə, *regional investisiyalar* – perspektivdə gəlir əldə edilməsinə hesablanaraq, istehlakdan şüurlu surətdə çıxarılıb istehsalın genişlənməsinə və yaxud modernəşdirilməsinə qoyulan regionun resurslarının bir hissəsidir.

Bu səbəbdən, *regional investisiya siyasəti* – regionda əsaslı vəsaitlərin sadə və genişlənmiş təkrar istehsalı şərtlərinin təmin olunması üzrə iqtisadi amillərin (agentlərin) fəaliyyətinin kompleksidir. İnvestisiya siyasətinin məzmunu, istehsal və qeyri-istehsal sahələrinin əsas fondlarının təkrar istehsalının, onların artımının və təkmilləşdirilməsinin təmin olunmasından ibarətdir. Eyni zamanda, regional investisiya siyasətinə verilən digər təriflər də vardır. O cümlədən:

- o, regionların sabit sosial-iqtisadi inkişafının təmin olunması məqsədi ilə investisiya prosesinin idarə olunması və motivləri üzrə tədbirlərin məcmusunu ifadə edir;
- regionların iqtisadiyyatının dirçəldilməsi, strukturdakı deformasiyaların aradan qaldırıl-qaldırılması, regionun vahid iqtisadi məkana inteqrasiyasını nəzərə almaqla əlverişli bazar mühitinin yaradılması məqsədi ilə investisiyaların cəlb edilməsi üzrə təşkilati və iqtisadi tədbirlərin məcmusudur;
- regionun əhalisinin və investorların mənafeyi naminə investisiya resurslarının cəlb edilməsinə və onların daha rasional tətbiqi istiqamətlərinin aşkar edilməsinə imkan yaradan, regionlarda həyata keçirilən tədbirlər sistemidir.

Hər bir regionda investisiya siyasəti, regionun iqtisadi və sosial siyasəti, istehsal potensialının həcmi, yerləşdiyi yeri, təbii-iqlim şəraiti və s. ilə şərtlənən özünəməxsus xüsusiyyətlərə malikdir.

Regional investisiya siyasətinin təsnifatı aşağıdakı formadadır:

- hüquqi statusu (formalaşdırılan dövlət investisiya siyasəti, vergilər, qiymətlər, mənfəətlər, tarif sistemi, avadanlığın amortizasiyası müddətləri və üsulları, əsas fondların uçotu metodları və s. bu kimi investisiya prosesinin əsas elementlərini tənzimləyən bitkin hüquqi bazanın olmasını ifadə edir);
- reqlamentləşdirilməyən dövlət investisiya siyasəti, dövlət kapital qoyuluşlarının nisbətən az payı ilə, özəl kapitalın böyük həcmi ilə xarakterizə olunur;
- tənzimləmə növünə görə:
- liberal tənzimləməyə, investisiya proseslərinin dövlət tənzimləməsinin iqtisadi vasitələri,

investorların inkişaf etmiş şaquli sistemi, habelə investisiyaların müxtəlif mənbələri və inkişaf etmiş maliyyə infrastrukturu aiddir;
- mərkəzləşdirilmiş tənzimləmədə birbaşa idarəetmə vasitələri istifadə olunur; bu halda investisiya mənbələri müxtəlif dövlət strukturları tərəfindən resursların tənzimlənməsi vasitəsi ilə formalaşdırılır, uzunmüddətli proqnozlaşdırma mərkəzləşdirilmiş qaydada həyata keçirilir;
- qarışıq tənzimləmə investisiya fəaliyyətinin həyata keçirilməsinin liberal və mərkəzləşdirilmiş formalarının elementlərini özündə birləşdirir [11].

Habelə qeyd etmək lazımdır ki, əsaslandırılmış regional investisiya siyasətinin təşəkkül tapmasının əsas prinsiplərinə:
- səmərəliliyi (regionun iqtisadiyyatına yönəldilmiş investisiyalar, hər bir konkret layihənin məqsədləri və onun yerinə yetirilmə müddəti ilə məhdudlaşan şəraitdə kifayət qədər gəlir gətirməlidir);
- mütənasibliyi (bu, regionların və onlardakı sahələrin tarazlaşdırılmış inkişafını təmin edir;
- məqsədyönlülüyü, ümummilli əhəmiyyətliliyi aid etmək olar.

Təsnifat yanaşmasının təhlili göstərdi ki, investisiya fəaliyyəti, iqtisadiyyatın həm makrosəviyyəsində, həm də mikrosəviyyəsində sabit inkişafın əsasıdır, belə ki, investisiyaların qoyuluşu iqtisadiyyatın real sektorunun canlanması üçün obyektiv zəmin yaradır və böhran vəziyyətlərinin aradan qaldırılmasına səbəb olur. İnvestisiya resurslarının çatışmamazlığı çərçivəsində, onların iqtisadiyyatın ayrı-ayrı sahələrində qeyri-bərabər təmərküzləşməsi, investisiya mexanizminin və onun vasitələrinin yaradılmasının aktuallığını artırır.

*İnvestisiya mexanizmi* haqqında danışarkən, onu investisiyaların forma və metodlarının, mənbələrinin, makrosəviyydə və mikrosəviyyədə həm daxili, həm də xarici bazarlara yönələn mövcud istehsalın genişləndirilməsi məqsədi ilə təkrar istehsal prosesinə təsir üsullarının və vasitələrinin məcmusu kimi təsəvvür etmək olar [12].

İnvestisiya mexanizminin yaradılmasının bazası, investisiya vasitələridir – yığımın istehsal vasitəsinə çevrilməsi vasitəsi olan əməliyyatlardır.

Qeyd etmək lazımdır ki, intensiv iqtisadi inkişafın əsasında, təkcə investisiyalar deyil, həm də innovasiyalar dayanır. Bir sözlə, investisiya prosesləri innovasiya prosesləri ilə məcmu halında, bir-birini tamamlayaraq reallaşır. İqtisadi ədəbiyyatda *innovasiya prosesləri* adı altında, elmi ideyaların yeni məhsullara və texnologiyalara çevrilməsi və yaxud daha müasir məhsullar və ya xidmətlər əldə etməkdən ötrü, bilavasitə istehsalata tətbiq olunmaqla, onların tərkib hissəsinə çevrilməsi sisteminin məcmusu başa düşülür. Buna görə də, innovasiya proseslərinin inkişafının investisiya instrumentini, investisiya metodlarının və üsullarının, mənbələrinin, (idarəetmənin bütün səviyyələrində təkrar istehsal proseslərinin intensivləşdirilməsi naminə) innovasiya proseslərinin mexanizmləri və təsir vasitələri ilə qarşılıqlı təsirdə olan məcmusu kimi başa düşmək olar.

Praktikada ayrı-ayrı sahələrdə innovasiya proseslərinə investisiya təsirləri, inkişafı xeyli sürətləndirən faktorlardır. Bu səbəbdən, investisiya mexanizmi, xalq təsərrüfatı sahələrinin innovativ iqtisadi inkişafının əsas komponenti olmalıdır [12].

Qərb ölkələrində maliyyə investisiyaları üstünlük təşkil edə bilər, ona görə ki, çox firmaların maddi bazası yenilənmişdir, maliyyə aktivlərinə yatırımlar isə kifayət qədər cəlbedicidir və tez bir zamanda gəlir gətirir. Tamamilə dəyişmiş (başqa formaya çevrilmiş) iqtisadiyyatda isə real investisiyalar mühüm əhəmiyyət kəsb edir, belə ki, onlar əsas kapi-

tala vəsaitlərin qoyuluşu ilə müşayiət olunur və beləliklə, iqtisadi artımın maliyyələşdirilməsi üçün zəruri olan mexanizmin fəaliyyətini təmin edir.

### Ədəbiyyat


1. Зайцева Н.И., Жук Ю.Н. Управление инвестициями. Брест: БрГУ, 2014, 268 с.
2. Беломестнова В.Г. Управление инвестиционными процессами. Улан-Удэ: ВСГТУ. 2005, 172 с.
3. Гераскин М.И., Кузнецова О.А. Инвестиционный менеджмент: модели и методы. Самара: СГАУ. 2007, 74 с.
4. Фабоцци Ф. Управление инвестициями. Пер. с англ. М.: ИНФРА-М. 2000, 932 с.
5. Антология экономической классики. В 2-х т., - М.: ЭКОНОВ, Ключ. 1993
6. Кейнс Дж.М. Общая теория занятости, процента и денег. М.: 1978, с.179
7. Кругман П.Р., Обстфельд М. Международная экономика: теория и практика. Пер. с англ. М.: МГУ, ЮНИТИ. 1997, 799 с.
8. Макконнелл К., Брю С. Экономикс. Пер. с англ. 1992
9. Доунс Дж. и др. Финансово-инвестиционный словарь. М.: ИНФРА-М. 1998
10. Шарп У., Александер Г., Бэйли Дж. Инвестиции. Пер. с англ. М.: ИНФРА-М. 1997, 1024 с.
11. Sabiroğlu N. Qloballaşma və xarici investisiyalar. Bakı: Azərbaycan. 2006, 289 s.
12. Войку И.П. Инвестиционной механизм развития инновационных процессов в с/х. // Псков: ПГУ, 2012


## THEORETICAL ASPECTS OF INVESTMENT ACTIVITY: ESSENCE, CLASSIFICATION AND CATEGORIES

**E.J.Balakishiyev**

### SUMMARY

This article deals with the problems of improvement of the regional management of investment activities. A pretty complicated task, because it requires a scientific approach to solve many socio-economic problems. The Republic of Azerbaijan has adopted an economic program The Road Map aimed at solving the corresponding problems. Therefore, this issue is especially important for our country.

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ: СУЩНОСТЬ, КЛАССИФИКАЦИЯ И КАТЕГОРИИ

**Э.Дж.Балакишиев**

### РЕЗЮМЕ

В статье рассматриваются проблемы совершенствования регионального управления инвестиционной деятельностью. Это является довольно сложной задачей, ибо для ее решения требуется научный подход к решению многих социально-экономических проблем. В Азербайджанской Республике принята экономическая программа под названием «Дорожная карта» для решения соответствующих проблем. Поэтому этот вопрос имеет особо важное значение для нашей страны.

2018 - № 48

# DEVELOPMENT TRENDS OF ECONOMIC RELATIONS BETWEEN AZERBAIJAN AND POLAND

**T.M.Allahmanli**
Odlar Yurdu University
13 Koroghlu Rahimov St., Baku
e-mail: bbueconomics2016@yahoo.com

***Açar sözlər:*** Azərbaycan, Polşa, iqtisadi münasibətlər, dayanıqlı inkişaf
***Key words:*** Azerbaijan, Poland, economic relations, sustainable development
***Ключевые слова:*** Азербайджан, Польша, экономические отношения, устойчивое развитие

Today, one of the factors that concern people in making decisions, in terms of how well we balance social, economic and environmental needs, is sustainable development. To guarantee a better future for next generations, we should research each part of sustainable development.

Since the Brundtland Report, sustainable development was in the back plan. The main issue has been taken forward to UN conference in Rio de Janeiro in 1992.

In September 2015, The United Nations General Assembly accepted the 2030 Agenda for Sustainable Development, which is a set of 17 Sustainable Development Goals. The goals are considered to be implemented in every country from the year 2016 to 2030.

Sustainable development is the most pressing challenges in the modern world. OECD countries implemented reform for the problem of scientific elaboration of sustainable development. Sustainable development strategy embraces social, economic and environmental spheres. The European Union and the European Theoretical considerations proposed the ideas about sustainable development. For instance, World Bank gave definition to sustainable development in1987, like this: “Development that meets the needs of the present without compromising the ability of future generations to meet their own needs.” (1)

OECD countries have executed and enhanced projects to sustainable development program. Sustainable development encompasses 3 trends: 1. economic, 2. social, 3. environmental.

These trends are divided into different areas.

In the economic area: services, fair distribution, quality of life, agricultural and industrial growth, use of labour;

in the social sphere: fairness, participation, cultural protection;

in the environmental sphere: natural resources, clean air and water.

The success of sustainable development indicators are grouped in accordance with levels: national (EU member states), regional (NUTS1, NUTS2) and local (LAU1).

In Poland, scientific and theoretical studies of the society focus upon different trends of sustainable development and its realization (Professor Jerzy Sleszynski, Professor Ryszard Piasecki, Andrzej Kassenberg, Karina Kostrzewa, Sebastian Gil and others).

The principle aim is to stimulate social and economic life in Poland. EU projects, stimulating social and economic life is a main goal standing in the center of attention. These areas are based on the sustainable development in Poland, such as, ensuring economic growth, applying for efficiency of the using of energy, environmental protection, cultural heritage and intangible cultural monuments, protection and transmission for the future.

EU considered 2 trends of sustainable trends:

1. Lisbon strategy (opening new job places and development of advanced technologies);

2. Getting absorbed from EU funds for lead with successfully sustainable development and providing competitiveness in Poland.

Sustainable development program launched by the EU is very important for Azerbaijan, which is located at the crossroads of Europe and the East. It is crucial to study comparitively the trends of sustainable development (economic, social, environmental) in Poland and Azerbaijan. The role of non-renewable and renewable resources in sustainable development is very important for Azerbaijan.

There are diverse trends of sustainable development strategy. However, there weren't a lot of emprical and practical investigations to sustainable development.

Stimulating social and eonomic welfare was set as a goal in "Millennium Development Goals". The goals of sustainable development for Azerbaijan are "Eradicate extreme poverty and hunger, achieve universal primary education, promote gender equality, improve maternal health, ensure environmental sustainability, develop a global partnership for development included to goals". (2)

The main purpose of this research is to determine characteristic features of sustainable development (different and similar) for Poland and Azerbaijan, which requires a great deal of efforts. Government should raise awareness and support of the concept of sustainable development and develop advanced techonologies and innovation for it in wider society for future generations.

In economics, there are various hypotheses of sustainable development. One of them is called Simon Kuznets curve. The environmental Kuznets curve is hypothesized about environmental quality and economic development. Kuznets curve says us that various environmental degradation indicators go to get worse until average income reaches a certain point over the course of development. In addition, environmental indicators (water and air pollution) display the inverted U-shaped curve. According to Kuznets curve, ecological footprint didn't fall with increasing income.

In the vast majority of developed countries, ratio of energy per real GDP has fallen, whereas total energy is rising. Particularly, emission of greenhouse gases is higher in industrialised countries. At the same time, the state of ecosystem as freshwater provision and regulation, fishery and soil fertility are going on decline in developed countries. Kuznets curve has created environmental health problems.

Philip Lawn is a senior lecturer in ecological economics at Flinders University. In the book entitled "Ecological Economics Climate Change", he explained that the climate change dilemma is much larger problem and will be successfully resolved if directed with-in the context of sustainable development goal. Furthermore, author also stressed in the book "Resolving the Climate Change Crisis" the reason the climate change crisis is a basic problem. Moreover, he named it as a main reason of humankind's predilection. In this pre-

dilection, he emphasized continuity of GDP growth. Nevertheless, in the solving of problem some goals enumerate: to improve human well-being, to safe atmosphere and achievement of desirable climate change.

There are other scholars who investigated sustainable development in Poland. Jerzy Sleszynski and Sebastian Gil have written the book “An Index of Sustainable Economic Welfare for Poland”. These authors have calculated the index of sustainable economic welfare for Poland. They mentioned categories of the index of sustainable economic welfare (long-term environmental damage, ozone layer depletion, losses caused by commuting and road accidents). They were investigated in these trends.

Other authors, Karina Kostrzewa and Ryszard Piasecki, have investigated the “Approaches to Sustainable Development in Poland”. They researched the sustainable development and its consequences in Poland. In this context, there are a lot of programs and researches in Azerbaijan. UNDP has a reform program for Azerbaijan’s sustainable development. UNDP initiated a human development program, innovative employment scale, diversification of the non-oil economy, improvement of sustainable energy, land degradation and deforestation, protection of marine biodiversity of the Caspian Sea. (3)

Azerbaijan government has launched a project named “State Program on Poverty Reduction and Sustainable Development in the Republic of Azerbaijan for 2008-2015” and indicators of Millennium Development Goals for Azerbaijan which covered social development, economic growth and protection of environment.

Sustainable development is a factor of impact, which combines its 3 dimensions and is a continuation of Millennium Development Goals. It gives special experience and resources to unemployment and helps to improve human life welfare, creates partnership with private sector, supports Azerbaijan for the upgrade of environmental managment and decreases the climate change effects.

According to aforesaid, sustainable development is one of the actual issues in the world. World countries are studying sustainable development. Sustainable development has 17 aims which the most countries need for implementation and development.

Despite the facts that these targets are intended for the future of the countries, there are some delays in the implementation of the project.

We can see factors which are the same problems for both countries. There are megatrends which started after world wars:

**1.** Demographic changes and growing welfare problems – there are irresistible growth in demographics with the increasing problems of the problems in families and early divorces;

**2.** Global economic changes and worries – changing and decreasing resources and the problem of the world's resources;

**3.** Climate change and finiteness of resources - with the increasing focus on security issues arising from the failure of the economy and it's motto to protect the ozone layer;

**4.** Technological breakthroughs - the suppression of the human factor in the creation of the technology age.

## Data

Data for sustainable development came from the UN Commission on Sustainable Development, statistical websites and others. Sustainable development and its long and short terms are from World Bank. GDP, population, unemployment data come from

World Bank and Eurostat's page. Sustainable development indicators for Poland are from Poland Statistical Committee. Millenium Development Goals have taken from World Bank, Azerbaijan Statistical Committee. Sustainable development and its indicators are from UN Development Program page.

## References

**1.** www.worldbank.org
**2.** www.undp.org
**3.** www.UNDP.org
**4.** Gil S., Sleszynski J. Index of Sustainable Economic Welfare for Poland. Sustainable Development, Volume 11, Number 2, 2003
**5.** Kiuila O., Sleszynski J. Expected effects of the ecological tax reform for the Polish economy. Ecological Economics, Vol. 46, No. 1, 2003
**6.** Kostrzewa K., Piasecki R. Approaches To Sustainable Development in Poland, 2009/2 no 352
**7.** Bell S., Morse S. Sustainability indicators. Measuring the immeasurable, Earthscan, London, 2000
**8.** Lawn Ph. Sustainable development indicators in ecological economics. Edward-Elgar, Cheltenham, 2007
**9.** http://www.az.undp.org/content/azerbaijan/en/home/post-2015/
**10.** http://www.caspianinfo.com/wp-content/uploads/2013/05/Azerbaijan-Alternative-and-Renewable-Energy
**11.** Lawn P.A. "A theoretical foundation to support the Index of Sustainable Economic Welfare (ISEW), Genuine Progress Indicator (GPI), and other related indexes". Ecological Economics, 2003
**12.** Blewit J. Understanding Sustainable Development (Second ed.). Routledge, 2015.

## AZƏRBAYCAN-POLŞA QARŞILIQLI İQTİSADİ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF MEYLLƏRİ

**T.M.Allahmanlı**

## XÜLASƏ

Azərbaycan və Polşa arasındakı əlaqələr qədim tatixə malikdir. İki ölkə arasında genişlənən iqtisadi əlaqələr gələcəkdə daha çox uğurların olmasına zəmin yaradır. Azərbaycanın Polşa ilə münasibətlərinin güclənməsi həm də Azərbaycanın Avropa İttifaqına inteqrasiyasının sürətlənməsi deməkdir.

# ТЕНДЕНЦИИ РАЗВИТИЯ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ПОЛЬШЕЙ

**Т.М.Аллахманлы**

## РЕЗЮМЕ

Отношения между Азербайджаном и Польшей имеют давнюю историю. Развивающиеся экономические отношения между двумя странами прокладывают путь ко многим успехам в будущем. Помимо этого, укрепление отношений с Польшей означает для Азербайджана ускорение интеграции в Европейский Союз.

# H Ü Q U Q

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# L A W

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# HÜQUQİ ŞƏXSLƏRİN CİNAYƏT MƏSULİYYƏTİ HAQQINDA QANUNVERİCİLİYİN FORMALAŞMASI MƏSƏLƏLƏRİ

**G.Z.Məmmədli**
Odlar Yurdu Universtiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: gunduz.mammadli@gmail.com

***Açar sözlər:*** hüquqi şəxsin cinayət məsuliyyəti, cinayətin subyekti, cinayət tərkibi
***Keywords:*** criminal liability of a legal person, perpetrator, elements of crime
***Ключевые слова:*** уголовная ответственность юридического лица, субъект преступления, состав преступления

Azərbaycan Respublikasının cinayət hüququ xeyli müddət (yaxın vaxtlara kimi) təqsirkarın şəxsi məsuliyyəti kimi klassik prinsipi müəyyənləşdirdiyinə görə hüquqi şəxslərin cinayət məsuliyyəti ideyasını qəbul etməmişdir ki, bu prinsipi kontinental Avropa ölkələrinin demək olar ki, hamısının cinayət məcəllələri tanıyır. Bu prinsipə görə yalnız cinayət qanunu ilə qadağan edilmiş cinayət əməlini (hərəkət və ya hərəkətsizliyi) qəsdən və ya ehtiyatsızlıq üzündən törətmiş anlaqlı və müəyyən yaş həddinə çatmış fiziki şəxs həm cinayətin, həm də cinayət məsuliyyətinin subyekti ola bilər. Cinayətin və cinayət məsuliyyətinin mümkün subyektlərinin fiziki şəxslə məhdudlaşdırılması o deməkdir ki, hüquqi şəxslər, yəni idarə, müəssisə və təşkilatlar nə cinayətin, nə də cinayət məsuliyyətinin subyekti ola bilərlər. Yaddan çıxarmamalıyıq ki, hüquqi şəxslərin cinayət məsuliyyəti nəzəri planda cinayət hüquq elmində (doktrinasında) ən mübahisəli və diskussiya doğuran məsələlərdən biridir. Azərbacan Respublikasının cinayət hüququ hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlər tətbiq olunmasını nəzərdə tutmaqla həmin məsələni qanunvericilik səviyyəsində həll etmişdir. Nəzərə almaq lazımdır ki, hüquqi şəxslərin cinayət məsuliyyəti bütün ölkələrdə cinayət hüququ sahəsində ən mürəkkəb məsələlərdən biri hesab olunur [1, s.209]. Belə mürəkkəb məsələnin həll olunması üçün hələ keçən yüzilliyin 70-ci illərində bir sıra Avropa ölkəsində qanunvericilik fəaliyyəti həyata keçirildi ki, bunun nəticəsində Avropa Şurasının Cinayətkarlıq Problemləri Komitəsinin hüquqi şəxslərin cinayət məsuliyyətinin subyekti kimi tanınmasına dair verdiyi tövsiyyə reallaşdı. Bu gün bazar iqtisadiyyatına malik dövlətlərin cinayət hüququnda hüquqi şəxslərin cinayət məsuliyyəti məsələsi həll olunmuşdur. Həmin məsələ eyni zamanda bazar iqtisadiyyatı yolu ilə inkişaf edən Azərbaycan Respublikasının cinayət hüququnda da öz cinayət-hüquqi normativ həllini tapmışdır. Odur ki, Azərbaycan Respublikasının hazırda qüvvədə olan mövcud cinayət qanunvericiliyinə görə hüquqi şəxslər cinayət məsuliyyətinin subyekti kimi tanınır.

Qeyd etməliyik ki, cinayət hüququ üzrə mütəxəssis alimlərdən bəziləri "cinayətin subyekti" və "cinayət məsuliyyətinin subyekti" kimi iki anlayışı bir-birindən fərqləndirərək, onların arasında hədd qoyurlar. Həmin anlayışlar arasında hədd qoyulması ideyasının tərəfdarları belə hesab edirlər ki, ictimai təhlükəli əməl sayılan cinayət iradəvi təqsirli davranış aktı (hərəkət və ya hərəkətsizlik) olduğundan, belə davranışın subyekti yalnız fiziki şəxslərdir; cinayət məsuliyyətini isə onlarla yanaşı hüquqi şəxslər də daşıyır [1, s.204].

Odur ki, həmin alimlərə görə cinayətin subyekti yalnız fiziki şəxs – insan kateqoriyasına aid edilən şəxs ola bilər. Onlar hətta fiziki şəxsi istənilən cinayətin subyektini xarakterizə edən əsas (məcburi) əlamətlərdən biri hesab edirlər ki, fiziki şəxsin anlaqlı olması və onun cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatması digər əsas (məcburi) əlamətlərdir [2, s.121]. Cinayətin subyektinin yalnız fiziki şəxs (insan) olması səbəbindən nə müəssisələr, nə təşkilatlar, nə idarələr, nə də firmalar və s. heç bir halda cinayətin subyekti kimi tanına və cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Məsələyə bu cür yanaşan müəlliflər öz mövqeyini belə bir arqumentlə əsaslandırırlar ki, hüquqi şəxslərin etdikləri hərəkətlər cinayət məsuliyyətinin subyektiv şərtindən, yəni əməlin nəticəsinə psixi münasibət kimi şərtdən məhrumdur; əgər hüquqi şəxsin nümayəndələri (işçiləri) cinayət törədərlərsə, hüquqi şəxslər yox, məhz hüquqi şəxsin adından hərəkət edən nümayəndələr cinayət məsuliyyətinə cəlb olunmalıdırlar [3, s.106].

Zənnimizcə, barəsində elmi polemika açdığımız və danışdığımız məsələyə dair əgər biz, belə yanaşma nümayiş etdirsək, yanılmarıq ki, "cinayətin subyekti" və "cinayət məsuliyyətinin subyekti" eynimənalı anlayışlar olmadığına görə onlar arasında hədd qoyulmalıdır. Məsələ burasındadır ki, bir-birinə olduqca yaxın olan həmin anlayışlar demək olar ki, bütün parametrləri ilə, məzmunca üst-üstə düşür. Nəzərdən qaçırmaq olmaz ki, cinayət tərkibinin məcburi və zəruri elementlərindən biri olan cinayət subyektini müəyyən etmədən cinayət məsuliyyətinə cəlb olunmaq məsələsini həll etmək qeyri-mümkündür. Digər tərəfdən cinayətin subyekti dedikdə qəsdən və ya ehtiyatsızlıqdan törədilmiş əmələ görə cinayət məsuliyyəti daşımaq qabiliyyətinə malik olan şəxs başa düşülür ki, həmin məsuliyyət cinayət qanunu ilə müəyyən edilir [4, s.108]. Odur ki, cinayətin subyekti barədə danışanda cinayət məsuliyyətinin subyekti anlaşılır. Cinayət məsuliyyətinin subyekti də həmçinin öz növbəsində cinayətin subyektidir. Deyilənlərə həm də bunu əlavə etmək istərdik ki, cinayətin subyektinin mövcud olmaması nəinki cinayət əməlinin törədilməməsi, həmçinin cinayət məsuliyyətinə cəlb olunmanın qeyri-mümkünlüyü deməkdir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının cinayət qanunu olan Cinayət Məcəlləsi "cinayətin subyekti" anlayışından istifadə etməyərək özünün 4-cü fəslində "cinayət məsuliyyətinə cəlb edilməli şəxslər" kimi onu əvəz edən termin işlədir. Qanunvericinin məsələyə bu cür yanaşması onu göstərir ki, "cinayətin subyekti" və "cinayət məsuliyyətinin subyekti" mənaca bir bərabərdə tanınan anlayışlar deyildir.

O ki qaldı həm cinayətin, həm də cinayət məsuliyyətinin subyekti olan şəxslərin mümkün dairəsinə, qeyd etmək lazımdır ki, belə şəxslərin dairəsini təkcə fiziki şəxslərlə məhdudlaşdırmayaraq onu daha geniş mənada başa düşmək lazımdır. Belə ki, fiziki şəxslərlə yanaşı hüquqi şəxslər də xarici və beynəlxalq (dünya) təcrübəsi nəzərə alınmaqla həm cinayətin, həm də cinayət məsuliyyətinin subyekti kimi tanınır. Əgər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlər tətbiq olunmasını nəzərdə tutursa, əvvəla bu, o deməkdir ki, hüquqi şəxslər cinayət məsuliyyətinin subyekti ola bilər. Digər tərəfdən bu, Azərbaycan Respublikasının cinayət hüququnun qanunvericilik səviyyəsində hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyənləşdirməsini ifadə edir ki, belə yanaşma qeyd etdiyimiz kimi, həm xarici, həm də beynəlxalq təcrübəyə uyğundur. Xatırlatmaq istərdik ki, hüquqi şəxslərin cinayət məsuliyyəti hələ XVII əsrdən başlayaraq Avropada kifayət dərəcədə geniş səviyyədə tətbiq olunmuşdur.

Azərbaycan Respublikasının cinayət hüququnun hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyənləşdirməsini zərurətə çevirən amillərə gəldikdə, qeyd etmək vacibdir ki, qanunvericinin hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyən etməsinin praktiki əsasları müxtəlifdir. Məhz həmin əsaslar hüquqi şəxslərin cinayət məsuliyyəti daşıması istiqamətində qanunvericilik fəaliyyətinin həyata keçirilməsinə səbəb olmuşdur ki, onlar necə deyərlər, qanunvericini hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyənləşdirməyə yönələn hərəkətə keçməyə məcbur etmişdir.

Hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyənləşdirilməsini zərurətə çevirən birinci əsas bundan ibarətdir ki, iqtisadi fəaliyyət subyekti olan hüquqi şəxslər təsərrüfat fəaliyyətini həyata keçirərkən cinayət xarakterli hüquq pozuntularına yol verərək həm iqtisadiyyata, həm də ətraf mühitə (ekologiyaya) böyük ziyan vururlar. Aydın bir həqiqətdir ki, bu zaman, yəni iqtisadi-təsərrüfat və ekoloji cinayətlər törədilən hallarda ayrı-ayrı fiziki şəxslərin təqsirini müəyyənləşdirmək (sübut etmək) mümkün olmur və ya ayrı-ayrı fiziki şəxslərdən vurulmuş ziyanın əvəzinin ödənilməsini tələb etmək (vurulmuş zərərin əvəzini almaq) real görünmür. Təbii ki, bu kimi hallarda cinayət məsuliyyətinin ayrı-ayrı fiziki şəxslər deyil, hüququn kollektiv subyekti sayılan hüquqi şəxslər daşımalıdır. Heç də sirr deyil ki, öz iqtisadi-təsərrüfat fəaliyyətini həyata keçirən zaman hüquqi şəxslər (müəssisələr) həm ayrı-ayrı şəxslərə, həm də bütövlükdə cəmiyyətə xeyli zərər vururlar. Özü də iqtisadi-təsərrüfat fəaliyyətinn həyata keçirilməsi prosesində hüquqi şəxslərin ayrı-ayrı şəxslərə və bütövlükdə cəmiyyətə ziyan yetirən cinayət hüquq pozuntularının sayı günü-gündən artır ki, bunu xüsusi olaraq sübut etməyi lazım bilmirik.

İkinci, ictimai tələbatı təmin etmək məqsədilə mal istehsal edən, xidmətlər göstərən və ya iş görən təsərrüfat subyekti kimi tanınan hüquqi şəxslər bəzən qanunsuz fəaliyyətlə məşğul olurlar. Qanunsuz fəaliyyətlə məşğul olmağa görə hüquqi şəxslərə cinayət-hüquqi xarakterli tədbirlər, məsələn, hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, cərimə, hüquqi şəxsi ləğv etmə və digər cinayət-hüquqi sanksiyalar tətbiq olunmasını zəruri edir ki, onların vasitəsilə sonralar yol verə biləcək hüquq pozuntularının qarşısını almaq mümkün ola bilsin. Əlbəttə, cinayət-hüquqi sanksiyalar tətbiq edilməklə hüquqi şəxslər cəzalandırılanda onların bir daha qanunsuz fəaliyyətlə məşğul olmalarının qarşısı alınır və aradan qaldırılır. Odur ki, hüquqi şəxslərin üzərinə hüquqi məsuliyyətin ən ağır və kəskin növü olan cinayət məsuliyyəti qoyulmamalıdır.

Üçüncü, hüquqi şəxslər tərəfindən yeni hüquq pozuntuları törədilməsinin qarşısını almaqdan ötrü ayrı-ayrı şəxslərə sanksiyalar tətbiq olunması şübhəsiz, kifayət dərəcədə effektiv olmur. Məhz bu səbəbdən qanunvericilik səviyyəsində hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyən edilir.

Dördüncü, hüquqi şəxslər adətən, mürəkkəb idarəetmə strukturuna malik olurlar ki, bu da öz növbəsində törədilmiş cinayət əməlinə görə cavab verməli və məsuliyyət daşımalı olan konkret şəxsin müəyyənləşdirilməsinə imkan vermir və ya onu çətinləşdirir. Odur ki, belə halda hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyənləşdirmək ən düzgün və ağlabatan yanaşmadır.

Sadaladığımız bu kimi hallar hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyənləşdirməyin praktiki əsasları olub, cinayət hüququnun mürəkkəb məsələlərindən birinin, yəni hüquqi şəxslərin cinayət məsuliyyəti probleminin qanunvericilik səviyyəsində müsbət həll edilməsinə gətirib çıxarmışdır. Vaxtilə, əvvəllər hüquqi şəxslərin üzərinə cinayət məsuliyyəti qoymaq ideyasına mənfi baxan qanunverici (Azərbaycan Respublikasının Milli

Məclisi) məhz sadaladığımız əsasları nəzərə alaraq hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyən etmişdir ki, onlar Avropa Şurasının üzvü olan ölkələrin Nazirlər Komitəsinin 20 dekabr 1988-ci il tarixində qəbul edilmiş 88 (18) nömrəli Tövsiyyəsində – təsərrüfat fəaliyyətini həyata keçirən zaman yol verilən hüquq pozuntularına görə hüquqi şəxslərin (müəssisələrin) məsuliyyətinə dair sənəddə göstərilir. Həmçinin bu Tövsiyyəyə şərh (Kommentariya) verilməsi haqqında Memorandum qəbul olunmuşdur ki, həmin sənədlərdə (Tövsiyyədə və Memorandumda) hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyən olunmasının praktiki əsasları qeyd edilir [1, s.198].

O ki qaldı hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında qanunvericiliyə, qeyd etmək lazımdır ki, 17 mart 2012-ci il tarixli qanunla Azərbaycan Respublikasının CM-nə hüquqi şəxslərə cinayət-hüquqi tədbirlər tətbiq edilməsi haqqında ayrıca fəsil (15-2-ci fəsil) əlavə edilənə kimi hüquqi şəxslərin cinayət məsuliyyətinə dair qanunvericiliyin mövcudluğundan sözsüz, söhbət belə gedə bilməzdi. CM-ə xüsusi olaraq 15-2-ci fəsil əlavə edildikdə isə Azərbaycan Respublikasında hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında qanunvericilik formalaşdı ki, həmin fəsil özündə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlər tətbiq olunmasına aid müxtəlif maddələri (99-4-cü 99-9-cu maddələri) birləşdirir. Odur ki, hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında qanunvericilik dedikdə cinayət hüququnun yeganə mənbəyi olan CM-in 15-2-ci fəsli başa düşülür. Deməli, hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında qanunvericilik yeganə cinayət qanunu sayılan CM-in 15-2-ci fəsli ilə əhatə olunur. Həmin fəslə daxil olan normalar hər şeydən əvvəl, hüquqi şəxslərə cinayət hüquqi tədbirlər tətbiq olunmasının əsaslarını və şərtlərini müəyyən edir (99-4-cü maddə). Burada (99-4-cü maddədə) müəyyən edilir ki, əgər hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün hüquqi şəxsi təmsil etmək, hüquqi şəxsin adından qərarlar qəbul etmək, hüquqi şəxsin fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxslər və s. tərəfindən cinayətlər törədilərsə, belə halda hüquqi şəxsə cinayət-hüquqi tədbirlər tətbiq olunur. Burada həmçinin göstərilir ki, CM-in hansı maddələri ilə nəzərdə tutulmuş cinayət əməllərinin törədilməsinə görə hüquqi şəxslərə cinayət hüquqi-tədbirlər tətbiq edilir.

CM-in 99-5-ci maddəsi hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlərin növlərinin müəyyənləşdirilməsinə həsr olunmuşdur. Burada hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlər sadalanır ki, cərimə, xüsusi müsadirə, hüquqi şəxsi nüəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və hüquqi şəxsi ləğv etmə belə tədbirlər sırasına aiddir. CM-in 99-5-ci maddəsində həm də göstərilir ki, hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirlərin növü və həddi müəyyən olunarkən hansı hallar nəzərə alınır.

CM-in 15-2-ci fəslinə daxil olan ayrı-ayrı maddələr hüquqi şəxslərə cinayət-hüquqi tədbir kimi tətbiq edilən sanksiyaların cərimənin (99-6-cı maddə), hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmənin (99-7-ci maddə) və hüquqi şəxsi ləğv etmənin (99-8-ci maddə) cinayət-hüquqi xüsusiyyətlərini (cinayət-hüquqi aspektlərini) müəyyənləşdirir. CM-in 15-2-ci fəslinin 99-9-cu maddəsi isə belə bir məsələnin cinayət-hüquqi tənzimlənməsinə həsr olunmuşdur ki, hansı halda hüquqi şəxs cinayət-hüquqi tədbirlərin tətbiqindən azad edilə bilər.

Beləliklə, hüquqi şəxslərə cinayət hüquqi tədbirlərin tətbiq olunması ilə bağlı məsələlərin cinayət-hüquqi tənzimlənməsi və həlli hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında qanunvericiliklə həyata keçirilir ki, CM-in 15-2-ci fəsli ilə əhatə olunan həmin qanunvericilik həm hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiq olunmasının əsaslarını

və şərtlərini, həm hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlərin növlərini, həm də bu növlərin cinayət-hüquqi xarakteristikasını müəyyənləşdirir. Məhz həmin fəsildə xaricən ifadə olunan və öz rəsmi əksini tapan cinayət hüquq normalarının məcmusu hüquqi şəxslərin cinayət məsuliyyəti institutu adlanır ki, kifayət sayda olan belə normaların vasitəsi ilə hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və onlara cinayət-hüquqi xarakterli tədbirlərin tətbiq olunması ilə bağlı məsələlərin hüquqi həlli və nizama salınması həyata keçirilir.

### Ədəbiyyat

1. Naumov A.V. Rusiya cinayət hüququ. Ümumi hissə. Mühazirə kursu (rus dilindən tərcümə edəni H.S.Qurbanov), Bakı: "Qanun" nəşriyyatı, 1998, 640 s.
2. Современные проблемы и стратегия борьбы с преступностью / Под ред. В.Н.Бурлакова и Б.В.Волженкина. М., 2005, 592 с.
3. Уголовное право. Часть общая и особенная / Под ред. И.Ветрова и Ю.И.Ляпунова. М., 2008, 752 с.
4. Уголовное право. Общая и особенная части. Учебник / Под ред. В.Ю.Малаховой. М.: «Эксмо», 2011, 752 с.
5. Уголовное право. Часть общая и особенная / Под ред. Л.Д.Гаухмана, Л.М.Колодкина, С.В.Максимова. М., 1999, 784 с.

## PROBLEMS OF FORMATION OF LEGISLATION CONCERNING CRIMINAL CHARGES AGAINST CORPORATE BODIES

**G.Z.Mamedli**

### SUMMARY

This article is dedicated to the criminal charges against corporate bodies, one of the most complicated and controversial problems in criminal law, which causes a lot of discussions among experts. The core of the problem is that the most of European criminal codes don't assign any criminal liability to the institution of corporate bodies and follow classical principles of personal responsibility and guilt: only individuals can be subject to criminal charges.

## ВОПРОСЫ ФОРМИРОВАНИЯ ЗАКОНОДАТЕЛЬСТВА ОБ УГОЛОВНОЙ ОТВЕТСТВЕННОСТИ ЮРИДИЧЕСКИХ ЛИЦ

**Г.З.Маммедли**

### РЕЗЮМЕ

Статья посвящена уголовной ответственности юридического лица, одной из самых сложных и противоречивых проблем уголовного права, вызывающей много дискуссий среди экспертов. Сущность этой проблемы состоит в том, что в уголовных кодексах большинства европейских стран за институтом юридического лица не признают уголовной ответственности, а руководствуются классическим принципом личной ответственности за вину: субъектом уголовной ответственности могут быть лишь отдельные (физические) лица.

# P E D A Q O G İ K A

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# P E D A G O G Y

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# YANACAĞIN ENERJİSİ. YANACAĞIN XÜSUSİ YANMA İSTİLİYİ MÖVZUSUNUN AZƏRBAYCANIN YANACAQ EHTİYATLARI İLƏ ƏLAQƏLİ TƏDRİSİ

**V.A.Hacıyev**
Azərbaycan Tibb Universiteti
Bakı, S.Vurğun küçəsi 167
e-mail: veli1943@mail.ru

***Açar sözlər:*** yanma istiliyi, xüsusi yanma istiliyi, yanacaq
***Keywords:*** combustion temperature, special combustion temperature, fuel
***Ключевые слова:*** температура горения, специальная температура горения, топливо

Bu məqalədə məqsədimiz şagirdlərə yanacaq yanarkən enerji ayrılmasının mexanizmini öyrətmək, Azərbaycanda təbii yanacaq ehtiyatları haqqında məlumat vermək, qocaman neftçi Xoşbəxt Yusifzadənin və başqalarının timsalında qaz, neft, daş kömür, benzin, odun və s. istehsalı üzrə peşələrə maraq və meylin yaradılmasıdır.

Şagirdlərə bildirirəm ki, cisimlərin qızması üçün enerji lazımdır. Enerji ən çox yanacaqdan, o cümlədən odunu, kömürü, benzini və s. yandırmaqla alınır. Enerjinin nəyin hesabına ayrılmasını belə izah edirəm. Məlumdur ki, molekullar atomlardan təşkil olunmuşdur. Məsələn, su molekulu bir oksigen və iki hidrogen atomundan ibarətdir. Hər bir molekulu atomlara ayırmaq olar. Molekulun belə bölünməsi kimyəvi ayrılma reaksiyası adlanır. Molekulları atomlara ayırmaq üçün atomların cazibə qüvvəsinə üstün gəlmək, iş görmək lazımdır. Təcrübələr göstərir ki, atomlar birləşib molekul əmələ gətirən zaman enerji ayrılır. Atomların birləşərək molekul əmələ gətirməsi kimyəvi birləşmə reaksiyası adlanır. Yanacaqlardan istifadə edilməsi atomların molekullar şəklində birləşdikdə enerji ayrılması hadisəsinə əsaslanır. Adi yanacağın (kömür, neft, benzin və s.) tərkibində karbon vardır. Yanacağın yanması zamanı həmin karbon atomları havada olan oksigen atomları ilə birləşir. Hər bir karbon atomu iki oksigen atomu ilə birləşir. Bu zaman əmələ gələn molekul karbon qazının molekuludur. Beləliklə, karbon qazının molekulu əmələ gələrək, istilik ayrılır.

Azərbaycanda kömür, torf, odun, neft, yanar şist, təbii qaz və s. kimi müxtəlif növ yanacaqlar mövcuddur. Son 20 ildə ölkənin quru hissəsində Muradxanlı, Mollakənd, Kəmaləddin və s. kimi neft yataqları aşkar edilmişdir. 1998-ci ildə Azərbaycanda 11,4 milyon ton neft çıxarılmışdır. Zəngin neft-qaz ehtiyatlarına malik olan “Azəri”, “Günəşli”, “Şahdəniz”, “Qarabağ” kimi yataqlar istifadəyə verilmişdir. Onlardan ən məşhuru 250 milyon ton neft və bir milyard $m^3$ qaz ehtiyatı olan “Azəri” yatağıdır. Kontrakt üzrə ilk neft 7 noyabr 1997 ci il tarixində “Çıraq” yatağında çıxarılmış, 179 km uzunluqda sualtı boru ilə Səngəçal terminalına ötürülməyə başlamışdır. Yanacaqdan istifadə edərkən həmin yanacaq yandırılan zaman nə qədər istilik miqdarı verəcəyini bilmək lazımdır. Məsələn, mühəndis müxtəlif mühərriklərin layihəsini hazırlayarkən yandırılan yanacağın nə qədər istilik miqdarı verə biləcəyini bilməlidir. Bunun üçün eyni kütləli müxtəlif növ yanacaq yanarkən onların ayıra biləcəyi istilik miqdarını təcrübi yolla tapmaq lazımdır. Bu baxımdan, müxtəlif növ (daş, kömür, neft, benzin, quru odun və s.) yanacaqların hər birinin

1 kq-nın yanması zamanı ayrılan istilik miqdarını xarakterizə edən yanacağın xüsusi yanma istiliyi adlanan kəmiyyəti tapmaq lazımdır. Təbiətdə müxtəlif yanacaq növü mövcuddur: odun, torf, daş kömür, neft, təbii qaz, spirt, benzin, dizel yanacağı barıt və s.

Kütləsi 1 kq olan yanacaq tam yanarkən nə qədər istilik miqdarı ayrıldığını göstərən fiziki kəmiyyət yanacağın xüsusi yanma istiliyi adlanır.

Yanacağın xüsusi yanma istiliyi *q* hərfi ilə işarə olunur, onun vahidi $\frac{c}{kg}$-dır. Yanacağın xüsusi yanma istiliyini təcrübədə təyin edirlər. Bəzi yanacaq növlərinin təcrübədən təyin edilmiş xüsusi yanma istiliyi Cədvəl 1-də verilir.

Cədvəl 1. Bəzi yanacaq növlərinin xüsusi yanma istiliyi

| Yanacaq | q, $\frac{mc}{kg}$ | Yanacaq | q, $\frac{mc}{kg}$ | Yanacaq | q, $\frac{mc}{kg}$ |
|---|---|---|---|---|---|
| Barıt | 3.8 | Spirt | 28 | Kerosin | 41 |
| Quru odun | 11 | Daş kömür | 29 | Dizel yanacağı | 43 |
| Torf | 14 | Ağac Kömür | 31 | Benzin | 44 |
| Şist (yanar süxur) | 15 | Məişət qazı | 32 | Propan | 48 |
| Metanol | 23 | Mazut | 40 | Hidrogen | 120 |

Cədvəldən göründüyü kimi, torfun xüsusi yanma istiliyi 1,4 x 10 $^7\frac{c}{kg}$ a bərabərdir. Bu o deməkdir ki, kütləsi 1 kq olan torf tam yandıqda 1,4 x 10 $^7$ $\frac{c}{kg}$ enerji ayrılır.

İstənilən *m* kütləli yanacaq tam yanarkən ayrılan *Q* istilik miqdarını hesablamaq üçün *q* xüsusi yanma istiliyini yanmış yanacaqağın kütləsinə vurmaq lazımdır. Yəni *Q*= *qm* düsturuna əsasən yanacaq yanarkən ayrılan istilik miqdarını hesablayırlar. Sonra yanacaq yanarkən ayrılan istilik miqdarının yanan yanacağın kütləsinin və yanacağın xüsusi yanma istiliyinin hesablanmasına aid nümunələr verirəm.

1.Məsələ. Həcmi 2 l olan kerosinin tam yanması zamanı ayrılan istilik miqdarını tapın. ( $S_{kerosin} = 800\ \frac{kq}{m^3}$ )

Verilir: $S_k = 800\frac{kq}{m^3}$

$q_k$=4,1 x 10 $^7$ q, $\frac{c}{kg}$

V=2 l =0, 002 $m^3$

Həlli: Q= $q_k$m= $q_k$ $S_k$ V

Hesablama: Q=4,1 x 10 $^7$, $\frac{c}{kg}$ 0, 02 $m^3$ x 800 $\frac{kq}{m^3}$ = 66 C

2. Məsələ: Kütləsi nə qədər olan kerosin yandırmaq lazımdır ki, ondan ayrılan istilik miqdarı 20,5 x $10^7$ C olsun (q $_{kerosin}$ = 4,1 x $10^7$ q, $\frac{c}{kg}$ -dır)?

Verilir: Q= 20,5 x $10^7$C

$q_{k=}$4,1 x $10^7 \frac{c}{kg}$

m=?

Həlli: Q=qm buradan m = $\frac{Q}{q}$

Hesablama: q= $\frac{20.5*10^7 C}{4,1x10^7 \frac{c}{kg}}$ = $\frac{205kg}{41}$ = 5 kg

3. Məsələ. Kütləsi 75 kg olan hansı yanacaq yanarkən 2175 MC istilik miqdarı ayrılar?

Verilir: m= 75 kg

Q= 2175 MC=217,5 x $10^7 C$

Q=?

Həlli:

Q=qm buradan q= $\frac{Q}{m}$

Hesablama: q= $\frac{217.5*10^7 C}{75kg}$ =29 $\frac{MC}{kg}$

Q= 29 $\frac{MC}{kg}$ Cədvəl 1-də daş kömürün xüsusi yanma istiliyinə bərabər olduğu üçün, yanan yanacaq daş kömürdür.

Sonra Cədvəl 1-də kütlələri eyni və 1 kq olan ayrı-ayrı yanacaqların xüsusi yanma istiliyinin, məsələn, quru odunun 1,1 x $10^7 \frac{c}{kg}$, dizel yanacağının 4,3 x $10^7 \frac{c}{kg}$, benzinin 4,4 x $10^7 \frac{c}{kg}$ və s. müxtəlif olmalarını müqayisə edirik. Kütlələri eyni, yəni 1 kq olan yanacaqların yanma istiliyini müxtəlif olmasını onların atomları arasındakı cazibə qüvvələrinin müxtəlif olması ilə əlaqələndirirəm.

Şagirdlərə bildirirəm ki, hazırda Azərbaycanda təbii qazdan istifadənin geniş imkanları vardır. Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkənin ucqar rayon və kəndlərinə qaz xətlərinin çəkilməsi davam edir. Ona görə təbii qazdan yanacaq kimi mənzillərdə və bəzi istehsal sahələrində istifadə olunur.

Eyni zamanda Azərbaycanda neftdən və onun məhsullarından istifadə etməyədə böyük ehtiyacımız vardır. Məlum olduğu kimi, Respublikamızda neft istehsalı çox yüksək səviyyədədir. Ona görə də nefdtən özümüz istifadə etməklə digər ölkələrə də müqavilə əsasında neft ixrac edirik. Bu baxımdan, ölkəmizdə neft istehsalını həmişə artırmağa çalı-

şırıq.

Azərbaycanda təbii qaz və neft istehsalı və emalı üçün yüksək səviyyəli mütəxəssilərimiz vardır. Bunlardan ən məşhuru qocaman Xoşbəxt Yusifzadədir. İndi onun həyat və yaradıcılığı, əmək fəaliyyəti ilə sizi tanış edirəm.

**Xoşbəxt Bağı oğlu Yusifzadə**

2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Dövlət neft şirkətinin geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidentidir. X.B.Yusifzadənin rəhbərliyi və bilavasitə iştirakı ilə bir sıra yeni üsulların və mütərəqqi metodların istehsalatda tədbiqi nəticəsində Xəzər dənizində 20 neft və Qaz-kondensat yatağı kəşf olunmuşdur. Bunlardan Xəzərin Azərbaycan sektorunda "Bahar", "Səngəçal-dəniz", "Duvannı-dəniz", "Xəzər-Zirə-dəniz", "Günəşli", "Çıraq", "Azəri", "Kəpəz", " Şahdəniz", Xəzərin Rusiya sektorunda "İnçxe-dəniz", Qazaxıstan sektorunda "Bakuşeçnaya" və Türkmənistan sektorunda "Lam", "Qubkin", "Livanou" "Barinov" və s. yataqları göstərmək olar.

Xoşbəxt Yusifzadə 1930-cu ilin yanvarın 14-də Bakının Pirşağı kəndində anadan olmuşdur. 1947-ci ildə orta məktəbi bitirmiş və M.Əzizbəyov adına Azərbaycan sənaye instutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) geoloji-kəşfiyyat fakultəsinə daxil olmuşdur. İnstitutu 1952-ci ildə (Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı üzrə bitirərək "Dağ mühəndisi-geoloq" ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə elə həmin il SSRİ sənayesi Nazirliyinin Bakıdakı "Dövlət xüsusi neftlahiyə" kontorunda başlamış, lakin az sonra o vaxt təzə təşkil olunmuş "Dənizneft" Birliyində işə qəbul edilmiş, burada böyük mühəndis və bölmə rəisi vəzifəsində çalışmışdır.

1992-1994-cü ilərdə "Azneft", "Dövlət komitəsinin birinci vitse-prezidenti, ARDNŞ prezidentinin müavinin müşaviri, 1994-2004-cü illərdə ARDNŞ-nin geologiya, geofizika və yataqların işlənməsi üzrə vitse-prezidenti vəzifəsində çalışmışdır. 2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Dövlət şirkətinin geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidentidir.

2005-ci ildə "Professor" adına layiq görülmüşdür.

2007-ci ilin aprel ayında Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Yusifzadə bir sıra yüksək Dövlət mükafatlarına və fəxri adlara layiq görülmüşdür.

2000-ci ildə o, Müstəqil Azərbaycanın "İstiqlal" ordeni, 2004-cü ildə "Əsrin müqaviləsinin" 10 illiyi münasibətilə Şöhrət ordeni, 2010-cu ildə isə "Şərəf" ordeni ilə təltif olunmuşdur.

2015-ci ildə Azəbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif olunmuşdur.

Beləliklə, şagirdlər görkəmli neftçi Xoşbəxt Yusifzadənin həyatı, əmək fəaliyyəti neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi sahəsində nailiyyətləri, elmi əsərləri, mükafatları ilə qismən tanış olur, müstəqil dövlətimizin zəngin təbii yanacaq ehtiyyatlarına malik olması haqqında məlumat alır, dövlətimizin əmək adamlarının işinin qiymətləndirilməsindən qürur duyurlar. Bu da şagirdlərdə neftçi peşəsinə maraq və meylin yaranmasına güclü təsir göstərir.

Sonra şagirdlərə ev tapşırığı kimi Azərbaycanda neft-qaz istehsalı və istifadəsində fizikanın rolu haqqında referatlar yazılmasını tapşırıram.

Alınan bilik və bacarıqları yoxlamaq məqsədilə şagirdlərə aşağıdakı sualları verib, evdə bu suallara yazılı cavab hazırlamalarını tapşırıram.

1. Respublikamızda təbii halda hansı növ yanacaqlar vardır?
2. Molekullar atomlara parçalamaq üçün atomlar arasındakı hansı qüvvəni yox etmək üçün iş görmək lazımdır?
3. Molekulların atomlara parçalanmasında hansı kimyəvi reaksiya baş verir?
4. Atomların birləşərək molekullar əmələ gətirməsi hansı kimyəvi raksiya baş verir?
5. Yanacaq yanarkən enerji ayrılması hansı hadisəyə əsaslanır.
6. Adi yanacaqlar kömür, neft, benzin, və s. tərkibində hansı atomlar vardır ki, o yanma prosesində havanın oksigeni ilə birləşdikdə karbon qazı molekulları əmələ gətirir.
7. Mənzillərdə isitmə sistemində hansı növ yanacaqlardan istifadə olunur?
8. Qaz xətləri hələlik çəkilməyən uçqar rayonlarda və kəndlərdə isitmə sistemində və mətbəxdə hansı növ yanacaqlardan istifadə olunur?
9. Daş kömür yanan zaman yanacağın tərkibində olan hansı atomlar havanın oksigeni ilə birləşərək molekul əmələ gətirdikdə istilik ayrılır?
10. Yanacağın xüsusi yanma istiliyi nəyə deyilir və hansı hərflə işarə olunur?
11. Yanacağın xüsusi yanma istiliyinin vahidi nədir?
12. Kütləsi 1 kg olan yanacaq tam yanarkən nə qədər istilik miqdarının ayrıldığını göstərən kəmiyyət nədir?
13. İstənilən m kütləli yanacaq tam yanarkən ayrılan Q istilik miqdarını hesablamaq üçün hansı düsturdan istifadə olunur? (q - yanacağın xüsusi yanma istiliyidir)
14. Yanacağın xüsusi yanma istiliyi nədən asılıdır?
15. Benzindən texnikada hansı məqsədlə istifadə olunur?
16. Nə üçün kütlələri eyni olan müxtəlif yanacaqlar yanan zaman ayrılan istilik miqdarı müxtəlif olur?
17. Xüsusi yanma istiliyi $4.6*10^{7}\frac{c}{kg}$ və həcmi 5 litr olan benzin yandıqda nə qədər istilik miqdarı ayrılar?
18. Kütləsi nə qədər olan quru odun tam yandıqda 50000 KC enerji ayrılar?
19. Hansı yanacaq növü: quru odun yoxsa daş kömür, eyni şəraitdə tam yandıqda daha çox istilik miqdarı ayrılar?
20. Həcmi 2 l olan kerosin yandıqda nə qədər istilik miqdarı ayrılar?
21. Kütləsi 15 kg olan ağac kömürü tam yandıqda nə qədər istilik miqdarı ayrılar?
22. Kütləsi 40 kg olan dizel yanacağı tam yandıqda nə qədər istilik miqdarı ayrılar?
23. Xüsusi yanma istiliyi q=32 $\frac{MC}{kg}$ olan 50 kg məişət qazı tam yandıqda nə qədər istilik miqdarı ayrılar?
24. 4 t mazut yandıqda nə qədər istilik miqdarı ayrılar? (mazutun sıxlığı 890 $\frac{MC}{kg} - dir.,$)
25. Hazırda məişət və texnikada hansı yanacaq növlərindən istifadə olunur?

Göstərilən sualların məzmunundan aydın olur ki, onu həll etmək üçün şagirdlər müxtəlif çevirmələr aparmalı, sıxlıq və yanacağın xüsusi yanma istiliyini cədvəllərindən istifadə etməli olacaqlar. Bu da onların müstəqil təhliletmə, araşdırma, axtarıb tapma və axtarıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə imkan yaradır.

**Ədəbiyyat**


1. M.İ.Murquzov və b. 8-ci sinif üçün fizika dərsliyi. Bakı, 2015
2. Ə.Ə.Ağayev. "Təlim prosesi və müasirlik". Bakı, "Adiloğlu", 2006
3. A.O.Mehrabov, Ə.M.Abbasov və b. "Pedaqoji texnologiyalar." Bakı, 2006
4. Z.İ.Qaralov. "Fizika qanunlarının tədrisi." Bakı, Elm, 1981
5. A.B.Pyorişkin, N.A.Rodina. "Fizika". 8-ci sinif üçün dərslik. Bakı, 1993
6. A.M.Çernobitov, Y.V. Savelova. "Fizika". 7-8-ci siniflər üçün dərslik. Bakı, 1967
7. A.B.Pyorişkin, N.A.Rodina. "Fizika". 7-ci sinif üçün dərslik. Bakı, "Maarif", 1979


## FUEL ENERGY. TEACHING THE SUBJECT OF SPECIAL COMBUSTION TEMPERATURE OF FUELS IN THE CONTEXT OF FUEL RESOURCES OF AZERBAIJAN

**V.A.Hajiyev**

**SUMMARY**

This article aims to explain the mechanism of heat release to students, to inform them about natural fuel resources of Azerbaijan and, by the example of veteran oilman Hoshbaht Yusifzadeh and others, to get them interested in professions related to the production of gas, oil, coal, gasoline, wood, etc.

## ЭНЕРГИЯ ТОПЛИВА. ПРЕПОДАВАНИЕ ТЕМЫ СПЕЦИАЛЬНОЙ ТЕМПЕРАТУРЫ ГОРЕНИЯ ТОПЛИВА В КОНТЕКСТЕ ЗАПАСОВ ТОПЛИВА В АЗЕРБАЙДЖАНЕ

**В.А.Гаджиев**

**РЕЗЮМЕ**

Целью статьи является объяснить учащимся механизм выделения теплоты, проинформировать их о запасах природного топлива в Азербайджане и, на примере ветерана-нефтяника Хошбахта Юсифзаде и других, привить им интерес и склонность к профессиям, связанным с производством газа, нефти, угля, бензина, дров и т.д.

2018 - № 48

# A.S.MAKARENKONUN PEDAQOJİ İRSİ VƏ "AZƏRBAYCAN MƏKTƏBİ" JURNALI

**E.N.Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Ü.Hacıbəyov küçəsi 34
e-mail: azarbaycan.maktabijurnali.24@mail.ru

***Açar sözlər:*** təhsil sistemi, təhsilin demokratikləşdirilməsi, pedaqoji irs
***Key words:*** education system, democratization of education, pedagogical heritage
***Ключевые слова:*** система образования, демократизация образования, педагогическое наследие

Məqalədə A.S.Makarenkonun pedaqoji irsinin təbliğində "Azərbaycan məktəbi"nin rolundan bəhs edilir. Makarenkonun əsərlərinin ölkəmizdə yayılmasında Azərbaycan pedaqoq-alimləri Ə.Seyidov, M.Muradxanov, H.Əhmədovun fəaliyyəti tədqiqat obyekti kimi götürülmüşdür. Prof. M.Muradxanovun bu sahədəki fəaliyyəti daha məhsuldar olmuşdur.

Qloballaşan dünyada təhsilin demokratikləşdirilməsi humanizmin əsas tələblərindən biri kimi çıxış edir. Bu baxımdan müasir təhsil sistemində A.S.Makarenkonun pedaqoji fəaliyyətinin əsasını təşkil edən prinsiplərin öyrənilməsinə və yaradıcılıqla tətbiqinə indi də ehtiyac duyulmaqdadır. Çünki Makarenkonun pedaqoji sistemi, hər şeydən əvvəl, öz əsasında təhsil alanlara qarşı humanist yanaşmaya malikdir. Makarenkonun pedaqoji taktlarında tələbkarlıqla şəxsiyyətə hörmət ayrılmaz proses kimi təsbit edilmişdir. Böyük pedaqoqun əhəmiyyət verdiyi tərbiyə məsələləri bu gün də pedaqoji fikrin aktual problemlərindən sayıldığından, onun pedaqoji irsindən əsas ideyaları götürüb, inkişaf etdirmək müasir pedaqogika elminin məşğul olduğu problemlər sırasında qalmaqdadır. Çünki pedaqogikanın nəzəri problemlərinin işlənməsində A.S.Makarenkonun təhsilə cəmiyyətin və dövlətin maraqlarına əsaslanan zəruri komponent kimi baxması hazırda da müəyyən təsirə malikdir. Aydındır ki, Makarenkonun pedaqoji irsinin əsasını, ilk növbədə, kollektiv üçün tərbiyə prinsipi təşkil edirdi. Onun pedaqoji sisteminin əsas tələbi kollektivdə, kollektiv vasitəsilə, kollektiv üçün tərbiyə prinsipidir. Burada "paralel təsir" prinsipi mühüm yer tutur. Bu prinsipə görə, kollektiv üzvünə şəxsən təsir etməkdən başqa bir də kollektiv vasitəsilə təsir edilməlidir (10).

Azərbaycanda yeni pedaqoji fikir və konsepsiyaların irəli sürülməsində qabaqcıl dünya pedaqoqlarına əsaslanaraq, onlardan öyrənmək, onu istiqamətverici mənbə kimi dəyərləndirmək məsələsi də mühüm əhəmiyyət kəsb edir. İnkar olunmaz faktdır ki, Azərbaycanda pedaqoji fikrin inkişafına klassik rus pedaqoqları, o cümlədən A.S.Makarenkonun pedaqoji ideyalarının müsbət təsiri az olmamışdır.

O da vurğulanmalıdır ki, böyük pedaqoqun ideyaları Azərbaycan pedaqogika elminə ilk növbədə və ilk dəfə "Azərbaycan məktəbi" jurnalı vasitəsilə gətirilmişdir.

Qeyd etmək lazımdır ki, müxtəlif illərdə Azərbaycanın pedaqoq-alimləri M.Muradxanov, Ə.Seyidov, T.Əfəndiyev, Y.Talıbov, H.Əhmədov, X.Fətəliyev, S.Axun-

dov və başqaqları A.S.Makarenkonun irsini araşdıraraq, ona ayrıca kitab, kitabça və monoqrafiya həsr etmiş, pedaqoji elmin formalaşmasında onun mövqeyini müəyyənləşdirmişlər (10).

Azərbaycan pedaqoji fikrində A.S.Makarenkonun ideyalarının təbliği və onların təcrübədə tətbiqi pedaqoji nəzəriyyə və praktikasının daha da inkişaf etdirilməsinə, onun cəmiyyət həyatında artan tələbata uyğun qurulmasına yardımçı olmuş vəyenə dəmüasir pedaqogika elmində yerini tutmaqdadır. Böyük pedaqoqun unikal təcrübə ideyasından, metodlarından yeni tələblərin tətbiqində səmərəli toxum kimi istifadə etmək lazım gəlir. V.A.Suxomlinski deyirdi ki, "Mən min dəfə əminəm ki, bizim məktəbdə canlı və yaradıcı nə varsa hamısı A.S.Makarenkonun övladıdır".

Məhz, bu yanaşmaların nəticəsidir ki, Azərbaycan pedaqoji fikrinin formalaşmasında əvəzsiz rolu olan "Azərbaycan məktəbi" jurnalında A.S.Makarenkonun pedaqoji irsinin təbliğinə tez-tez müraciət olunmuş və bu barədə onlarca məqalə yazılmışdır.

Sovet pedaqogikası tarixində A.S.Makarenkonun xüsusi yeri vardır. Bununla yanaşı onun pedaqoji irsi dünyanın ən inkişaf etmiş ölkələrində öyrənilmiş və təbliğ olunmuşdur. Yazıçı-pedaqoqun irsinin öyrənilməsinə onun öz vətənində 1940-cı ildən başlanmışdır. O illərdə "Правда" və "Учительская газета"nın səhifələrində Makarenko haqqında yazılan məqalələr öz əks-sədasını elə həmin il Azərbaycanda "Müəllim" qəzetində tapmışdır (3 avqust 1940-cı il). Yenilikci pedaqoqun əsərləri ilə Azərbaycan oxucuları M.Muradxanovun "Makarenkonun pedaqoji sistemində uşağa inam" adlı böyük məqaləsindən sonra tanış olmuşdur. Bu xəbər azərbaycanlılar üçün daha önəmli idi. Çünki hələ 1929-cu ildə Bakı fəhlələrinin nümayəndə heyəti Xarkovda olanda Makarenkonun işlədiyi kommunada olmuşdular. Makarenko və onun kommunarları isə Bakıda üç gün qalmış, neftçilərlə görüşmüşlər. Böyük pedaqoqbu günləri ömrünün "ən yaxşı saatları" hesab etmişdir.

Bütün bunlar haqqında "Azərbaycan məktəbi"ndəgeniş məlumat verən akademik H.Əhmədov yazır: "Azərbaycan müəllimlərinin və ümumittifaq maarif işçilərinin Makarenkonun irsi ilə daha dərindən tanış edilməsi işində Azərbaycan SSR Maarif Nazirliyinin orqanı olan "Müəllimə kömək" adlı elmi-pedaqoji və metodik jurnalın (indiki "Azərbaycan məktəbi") böyük rolu olmuşdur. "Müəllimə kömək" jurnalı A.S.Makarenkonun pedaqoji irsinə həsr edilmiş bir sıra məqalələr, o cümlədən professor V.V.Komarovskinin "A.S.Makarenkonun pedaqoji sistemində əmək tərbiyəsi", M.Muradxanovun "A.S.Makarenkonun pedaqoji sistemində uşaq kollektivi" məqalələrini dərc etmiş,bununla da Makarenkonun pedaqoji irsininin yayılmasındailk addımlar atılmışdır. 1940-cı ildə "Valideynlər üçün mühazirələr" seriyasından Makarenkonun "Kimyaçı", "Pedaqoji təcrübənin bəzi nəticələri" adlı mühazirələridə tərcümə edilərək jurnalda nəşr olunmuşdu" (2).

Bir tərəfdən Makarenkonun pedaqoji baxışları haqqında nəzəri məqalələrin nəşr edilməsi, digər tərəfdən onun əsərlərinin Azərbaycan dilinə tərcümə edilməsi pedaqoji irsin respublikamızda geniş tətbiq olunması üçün əlverişli şərait yaratmışdır (18).

"Azərbaycan məktəbi"nin sələfi olan "Müəllimə kömək" jurnalı tutduğu yolu davam etdirmiş, 1940-cı ilin 11-12 birləşmiş nömrəsinin 42-117-ci səhifələri A.S.Makarenkoya həsr olunmuşdur. Burada prof. B.B.Komarovskinin "A.S.Makarenkonun yaradıcılıq yolu", "Əmək tərbiyəsi", Ə.Tağıyevin "A.S.Makarenko və fiziki tərbiyə" məqalələrini, həmçinin Makarenkonunun "Məktəbdə və ailədə uşağın tərbiyə edilməsi", "Mənim təcrü-

bəmin bəzi pedaqoji nəticələri” adlı yazılarınıda dərc etmişdir.“Makarenkonun 4 əsəri: “Pedaqoji poema”, “Qala başında bayraqlar”, “ Otuzuncu ilin martı” və “Atamanlar üçün kitab” onu pedaqogikanın ən böyük nəzəriyyəçiləri sırasına qaldırmışdır” (6) .

Böyük Vətən müharibəsi başlayanda “Müəllimə kömək” öz işini dayandırsa da,onun işini 1943-cü ildəndavam etdirən“Azərbaycan məktəbi” yenidən Makarenkonu xatırlamış, jurnalın 1944-cü ilin 2-3-cü nömrələrində onun ideyalarının təbliğ edən yazılar dərc etmişdir.

Azərbaycanda Makarenkonun irsini oxuculara təqdim edilməsində Ə.Seyidov, M.Muradxanov, V.V.Komarovski, Ə.Tağıyev, H.Əhmədov və başqa nüfuzlu alimlər daha çox fəallıq göstərirdilər və onların səyi iləsovet məktəbinin ilk inkişaf mərhələsində Makarenko irsi Azərbaycan müəllimləri üçün nəzəri xəzinə, həyat təcrübəsi oldu,tərbiyə nəzəriyyəsinin yeni çalarlarını ortaya qoydu.

Qeyd etmək lazımdır ki, M.Muradxanovun A.S.Makarenkonun pedaqoji irsinin araşdırılması ilə bağlı tədqiqatlarında bu məsələlər ötən əsrin 50-ci illər məktəbinin tələbləri mövqeyindən işıqlandırılırdı. Bu məqalələrdə pedaqogikanın metodoloji mahiyyəti məktəb təcrübəsi üçün əhəmiyyətli şəkildə əsaslandırılırdı.

Onu da qeyd etmək lazımdır ki, “Azərbaycan məktəbi” jurnalı redaksiyanın təşəbbüsü ilə tanınmış tənqidçi ədəbiyyatşünas Məmməd Arif Makarenkonunun “Pedaqoji poema”sını tərcümə edib, hissə-hissə çap etdirmişdir.“Pedaqoji poema” kitab şəklində təqdim olunana qədər poemanın ayrı-ayrı hissələri oxucuların arzusu ilə “Azərbaycan məktəbi” jurnalının 1951-ci il 7, 8 və 9-cu, 1952-ci ildə 2, 4 və 6-cı nömrələrində işıq üzü görmüşdür. Söz yox ki, bunun respublikada pedaqoji fikrin kök salmasına, inkişafına müsbət təsiri olmuşdur. Bundan sonra “Pedaqoji poema”nın 1953-cü il və 1960-cı il nəşrləri də xeyli təkmilləşdirilmişdir.O da faktdır ki, bu işlərdə prof. M.Muradxanovun zəhməti əvəzolunmazdır. Azərbaycanda A.S.Makarenkonun qızğın təbliğatçısı olan M.Muradxanovonun zəngin və çoxcəhətli irsini dərindən mənimsəyərək1965-ci ildə “A.S.Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri” adlı kitabını çap etdirmişdir.

A.S.Makarenkonun “Seçilmiş pedaqoji əsərləri” də Azərbaycan dilində “Azərbaycan məktəbi” jurnalı tərəfindən 1950-ci ildə “Müəllim kitabxanası” seriyasından buraxılmışdır. Bu kitabda A.S.Makarenkonun əvvəllər nəşr edilmiş “Tərbiyə işləri haqqında” kitabına daxil edilmiş 29 məqalə, mühazirə və çıxış salınmışdır. 1983-cü ildənyenidən nəşr edilən “Seçilmiş pedaqoji əsərlər”inin müqəddiməsini on ilə yaxın “Azərbaycan məktəbi”nin baş redaktoru işləyən, Makarenko irsinə yaxından bələd olan prof. Ə.Ağayev yazmışdır.

Böyük pedaqoqa həsr olunmuş məqalələr Azərbaycan müəllimlərini pedaqogikanın bir sıra nəzəri və praktiki məsələləri ilə silahlandırmış, məktəb təcrübəsinə tətbiq edilərək gənclərin tərbiyəsində faydalıvəsait olmuşdur. “Azərbaycan məktəbi”nin bu məsələyə ardıcıl fikir verməsi nəticəsində A.S.Makarenkonun pedaqoji irsinə ölkəmizdə maraq daha daartmış, peda-qoqlarımız və müəllimlərimiz bu irsdən Azərbaycan pedaqoji fikrinin forma-laşması istiqamətindəetibarlı mənbə kimi istifadə etmiş və bu münasibətdə yeni pedaqoqlar nəslinin yetişməsinə öz təsirini göstərmişdir. Bu sahədə ilk müvəffəqiyyətli addım atmaqisə professor Mərdan Muradxanovanəsib olmuşdur.

Qeyd etmək lazımdır ki, A.S. Makarenkonun əsərlərinin Azərbaycan dilində ötən əsrin 40-cı illərində tərcümə edilməsinə heç də gecikmə halı kimi baxılmamalıdır. Maka-

renkonun pedaqoji irsinin öyrənilməsinə dair "Правда" qəzetində dərc olunan "İstifadəsiz irs" ("Правда", 17 mart 1940-cı il) adlı məqalə bu işin başlanğıcı olmuşdur. Makarenkonun əsərlərinin dünya xalqlarının dilinə tərcümə edilməsinə də keçən əsrin ortalarından başlanmışdır.

A.S.Makarenkonun ədəbi və pedaqoji irsinin öyrənilməsi və tətbiqi işinə müharibədən sonra maraq artmış və "Azərbaycan məktəbi"ndə bu məsələ yenidən gündəmə gətirilmişdir. Bu baxımdan prof. Ə.Seyidovun "A.S.Makarenko novator pedaqoqdur" məqaləsi həm genişliyi, həm məzmun dolğunluğu, həm də elmiliyi ilə fərqlənir. Məqalədə ona da toxunulur ki, Makarenkonunun konsepsiyası çox böyük çətinliklərlə qarşılaşmışdı. Hətta Ukrayna Maarif Nazirliyi onun haqqında çıxarılan qərarda yazmışdı ki, "Təklif edilən tərbiyə sistemi sovet sistemi deyildir". Halbuki1928-1935-ci illərdə Makarenkonun kommunası nümunəvi bir tərbiyə sistemi kimi qəbul edilirdi. Məqalə müəllifi Makarenkonun yaradıcılığını səciyyələndirən əsas cəhətləri də göstərməyə çalışmışdır. O şəxsiyyət və cəmiyyət problemini, sosial, bütöv bir şəxsiyyət yetişdirmək ideyasını vurğulayırdı. O yazırdı ki, "Makarenko özünün pedaqoji sistemində əsas diqqəti kollektivin təşkilinə vermişdir". Onun pedaqoji sisteminin əsas təlimi kollektiv vasitəsilə və kollektiv üçün tərbiyə prinsiplərindən ibarətdir. Uğurlu kollektivin yaradılması tərəfdarı olan Makarenkonun çox tələbkar səslənən aşağıdakı sözləri yada salınırdı: " İnsan gələcəyində sevindirici bir şey görmürsə, dünyada yaşaya bilməz. İnsan həyatının həqiqi təhrik yolu sabahkı sevincidir" (1).

Böyük pedaqoq yazırdı ki, "əməyə məhəbbət yaranmır, onu tərbiyə etmək lazımdır". Bu müddəaları əsas götürərək Ə.Seyidov deyirdi: "Təlim-tərbiyə işlərimizin elə bir sahəsi yoxdur ki, Makarenko ona toxunmamış olsun". Sonra əlavə olaraq, "Azərbaycan məktəbi" oxucularına tövsiyə edirdi ki, Makarenkonu dərindən və hərtərəfli öyrənsinlər. Çünki onun qiymətli fikir və nəticələrini dərindən və düzgün mənimsəyərək, yaradıcılıqla həyata keçirmək həvəsi məktəblərimizdə təlim-tərbiyə keyfiyyətini yüksəltməyəyol açır (1).

"Azərbaycan məktəbi"nin əlavəsi olan "Politexnik təlim" məcmuəsində "A.S. Makarenkonun iş praktikası və fəaliyyətində əmək tərbiyəsi" adlı məqaləsində prof. Ə.Seyidov gənc nəslin əməyi və əmək tərbiyəsi məsələsi haqqında Russo, Pestalossi, Uşinski və başqa klassiklərin nəzəriyyələrini təhlil etdikdən sonra Makarenkonunun fikirləri üzərinə gəlir və qeyd edir ki, Makarenko tərbiyə işində əməyi əsas amillərdən biri hesab edir. Makarenko təcrübədə sübut etdi ki, burada mühüm və zəruri olan uğur yalnız fiziki cəhət deyil, başlıca olaraq insanın mənəvi inkişafına əməyin göstərdiyi təsirdir" (7).

Məqalədə bir də ona diqqət verilir ki, uşağın ailədəki əmək fəaliyyətinə və hazırlığına ciddi fikir verilməlidir. Əməyin pedaqoji əhəmiyyəti Makarenkonu hər şeydən artıq maraqlandırırdı. Müəllifə görə, "Əməyin tərbiyəedici xarakterini əsas götürərək, böyük pedaqoq onun bütün növlərini eyni dərəcədə qiymət-ləndirirdi" (7).

Məqalədə o da vurğulanaır ki, Makarenko əmək tərbiyəsində yaradıcılığa xüsusi əhəmiyyət verir və o qənaətə gəlir ki, Makarenkoya görə hər cür formada tətbiq olunursa-olunsun əməyin təsərrüfat cəhəti deyil, təlim-tərbiyəyə təsiri ön plana çəkilməlidir. Böyük pedaqoq uşağın məhsuldar əməyinin məktəbin təlim-tərbiyə vəzifələrinə tabe etmək zərurətinə dərindən inanırdı. Məqalədə o da tövsiyə edilirdi ki, Makarenkonun əmək tərbi-yəsi məsələlərinə dair fikirlərini təhlil edəndə onun yaşadığı və işlədiyi mühit nəzərdən qa-

çırılmamalıdır (7).

Akademik H.Əhmədov prof. Ə.Seyidovu A.S.Makarenkonun novatorluğunu böyük ehtirasla təbliğ edən ilk Azərbaycan pedaqoqlarından biri kimi səciyyələndirirdi.

Azərbaycan pedaqoji fikir tədqiqatçılarından akademik Hüseyn Əhmədovun A.S.Makarenkonun 80 və 100 illiyi münasibətilə yazdığı və "Azərbaycan məktəbi"ndə çap etdirdiyi məqalələr (1968, №3 və 1988 №3) A.S.Makarenko irsinə olan diqqətin ifadəsi kimi qiymətləndirilməlidir. H.Əhmədov yazırdı: "A.S.Makarenkonun öz təravətini saxlayan zəngin və qiymətli pedaqoji irsi Azərbaycan məktəb və pedaqogikasının tarixinin tükənməz mənbələrindən biri olmuş və olaraq qalır". Həmçinin onu da qeyd edirdi ki, Bakının Xəzər rayonundakı internat məktəbinə A.S.Makarenkonun adı verilməsi də böyük pedaqoqa olan hörmət və ehtiramının əlamətidir.

A.S.Makarenkonun pedaqoji irsinin dərin mənası, böyük məziyyəti və həyatiliyi orasındadır ki, o artıq təcrübədə sınaqdan çıxmış və qəbul olunmuşdur.Bu da təbiidir. Çünki pedaqoqların bir neçə nəslinin əməyinə, məktəb və pedaqogika elmi sahəsində qazanılmış nə varsa, hamısına qayğı ilə yanaşılmış və ondan yeri gəldikcə təcrübədə istifadə edilmişdir (9).

Akademik M.Muradxanov uzun illər A.S.Makarenkonun təbliği işində "Azərbaycan məktəbi" ilə yaxından əməkdaşlıq etmişdir. Bu jurnalda onun "A.S.Makarenkonun pedaqoji irsində perspektiv xətlər sistemi və ondan istifadə etmək yolları" (1953, №2), "A.S.Makarenkonun intizam tərbiyəsi rejiminin rolu haqqında" (1954, №4), "A.S.Makarenkonun tərbiyə müəssisələrində əmək tərbiyəsi" (1958, №3), "A.S.Makarenko uşaq oyunları haqqında" (1962, №6) və s. kimi iri həcmli məqalələri bu gün də öz aktuallığını itirməmişdir. Müasirləri M.Muradxanovu Azərbaycanın Makarenkosu adlandırmaqda da məhz bu faktlara əsaslanırdılar.

M.Muradxanov A.S.Makarenkonun əsərlərinin Azərbaycan dilinə tərcüməsi işlərinisonralar da davam etdirmişvə bu qənaətə gəlmişdir ki, Makarenkonun pedaqoji irsi müvəffəqiyyətlə tətbiq olunaraq ona tarixin malı olan bir təcrübə kimi baxılmalıdır (11).

"Azərbaycan məktəbi"ndə A.S.Makarenkonunailə tərbiyəsinə dair yazılarına da yer verilmişdir. Böyük pedaqoq Makarenkoya görə, ailə tərbiyəsinin başlıca şərti onun bütövlüyü, valideyinlərin bir-birləri və övladları ilə qarşılıqlı məhəbbət və hörmət əsasında münasibətlərinin qurulmasından ibarətdir. A.S.Makarenkonun"Ailə və uşağın tərbiyəsi" məqaləsi də "Azərbaycan məktəbi"ndə (1944, №2,3) çap olunmuşdur. Bu məqalə "Общественница" məcmuəsi redaksiyası tərəfindən çağırılmış valideyinlər yığıncağında A.S.Ma-karenkonun 1938-ci il iyunun 22-də söylədiyi məruzədən (ixtisarla) götürülmüşdür.

Makarenkonun pedaqoji sistemində "uşaq kollektivi" adlı çox geniş (səh. 80-100) məqaləsində ("Müəllimə kömək", 1940, № 11-12) Muradxanov Makarenkonun tərbiyə sisteminin məzmununu təşkil edən koloniyanın işindən bəhs etmişdir. Onun koloniyası kollektivin timsalıdır. Makarenkonun sistemində tədrisdən başqa, əmək də böyük yer tuturdu. Məktəbdə bu qaydalara riayət olunması ön plana çəkilirdi. Məqalə müəllifi öz fikrini tamamlayaraq yazırdı: "Məqaləyə yekun vuraraq onu da qeyd etməliyik ki, məktəbdə uşaq kollektivinin təşkili və canlı fəaliyyəti başlıca olaraq pedaqoqlar kollektivindən asılıdır. O biri tərəfdən müəllim şagird üçün əsas nümunə olduğu kimi müəllim kollektivi də uşaq kollektivi üçün nümunədir. Ona görə müəllim kollektivində in-tizam, həmrəylik, vahidlik və möhkəm yoldaşlıq əlaqəsi həmrəy, möhkəm və intizamlı

uşaq kollektivi yaratmaq üçün əsas şərtdir".

A.S.Makarenkonun yubileyləri Azərbaycanda həmişə təntənəli qeyd olunmuşdur. Yubiley günlərində "Azərbaycan məktəbi" daha çox fəallıq göstərirdi. 1963-cü ildə A.S.Makarenkonun 75 illiyi qeyd olunanda "Azərbaycan məktəbi"ndə Ş.Ağayevin "A.S.Makarenkonun psixoloji görüşləri", Q.Əfəndiyevin "A.S.Makarenkonun yaxın köməkçiləri", M.Muradxanovun "A.S.Makarenkonun pedaqogikanın metodoloji əsasları haqqında" məqalələri dərc olunmuşdur (17).

A.S.Makarenkonun 100 illiyi günlərində "Azərbaycan məktəbi"ndə müxtəlif aspektdən çox sanballı məqalələr dərc olunmuşdu. Jurnalın 1988-ci il 3-cü nömrəsində Ə.Ağayevin "Makarenkonun pedaqoji ideyalarından yenidənqurma şəraitində məktəblərdə istifadə edilməsi imkanları", 4-cü nömrəsində S.Axundovun "Makarenko və fərdi yanaşma", 5-ci nömrəsində N.Oksanın "Pedaqoji poema"nın qəhrəmanları Böyük Vətən müharibəsi cəbhələrində" məqalələri dərc olunmuşdu (15). Bütün bunlar Makarenko irsinə olan maraq və tələbatdan irəli gəlirdi.

"Zəngin və qiymətli pedaqoji irs" adlı məqaləsində dos. M.İsmixanov göstərirdi ki, Makarenkonun işləyib hazırladığı və tətbiq etdiyi əmək tərbiyəsi sistemi və metodikası xüsusən aktuallığı və əhəmiyyətini həmişə saxlayacaqdır, bu qiymətli pedaqoji irsi dərindən öyrənmək, ondan yeni şəraitə uyğun yaradıcılıqla istifadə etmək lazımdır (16).

İftixarla demək olar ki, Makarenkonun əsərləri Azərbaycan dilinə müvəfəqiyyətlə tərcümə olunmuş, onların şərh olunmasına ardıcıl fikir verilmişdir. Onun zəngin irsinə aid çoxlu tədqiqat əsərləri yazılmışdır. Böyük pedaqoqun təlim-tərbiyə sahəsində qazandığı təcrübə və fikirlərinin 30-40-cı illərdə onun yeni pedaqoji problemləri necə həll etdiyinədair çoxlu misallar vardır. Onun nəzəriyyəsi müasir məktəblərdə də uğurla tətbiq oluna bilər. Unudulmamalıdır ki, müasir məktəbdə A.S.Makarenkonun ideyalarından istifadə olunarkən onun konkret və hazır təcrübələrindən deyil, təcrübədən doğan ideyaların və onun tətbiqi metodlarına istinad edilməsi daha məqsədəuyğun olardı. Onun ideyalarından yaradıcılıqla istifadə etmək pedaqoji nəzəriyyə və praktikanın inkişaf etdirilməsinə, cəmiyyətin artan tələbatına uyğun pedaqoji fikrin formalaşmasina müsbət təsir göstərə bilər. Beləliklə, ötən əsrin ortalarında yaranan qiymətli pedaqoji fikirlər bu gün üçün də öz əhəmiyyətini itirməyərək gələcək nəslin tərbiyəsi üçün gərəkli olan təcrübəni öyrənməyə, ondan bəhrələnməyə çağırır.

Məqaləni "Azərbaycan məktəbi"ndə dərc olunmuş "Alimin yolu" adlı yazıdan gətirilən sitatla qurtarmaq istəyirik: "A.S.Makarenkonun fəaliyyəti dünya miqyasında əhəmiyyətə malik çox böyük iş idi. Pedaqoqlarımızın bir çox nəsilləri Makarenkonun əsərlərindən, onun gözəl əməllərindən pedaqoji qida almış və almaqdadır" (15).

## Ədəbiyyat

1. Seyidov Ə. Makarenko novator-pedaqoqdur // Azərbaycan məktəbi, 1949, №2

2. Əhmədov H. A.S.Makarenko və Azərbaycan // Azərbaycan məktəbi, 1968, №3, səh.53-59

3. Makarenko A.S. Pedaqoji poema (II cild). Bakı, 1953

4. Muradxanov M. A.S.Makarenko uşaqların ailə tərbiyəsi haqqında. Bakı, 1953

5. Muradxanov M. Makarenkonun pedaqoji sistemində uşaq kollektivi // Müəllimə kömək, 1940, №11-12

6. Komarovski B.B. A.S.Makarenkonun yaradıcılıq yolu // Müəllimə kömək, 1940, №11-12

7. Seyidov Ə. A.S.Makarenkonun iş praktikası və fəaliyyətində əmək tərbiyəsi // Politexnik təlim, 1959, №1

8. Tağıyev Ə. A.S.Makarenko və fiziki tərbiyə // Müəllimə kömək, 1940, №11-12

9. Rüstəmov F. A.S.Makarenkonun pedaqoji irsinin yayılması // Azərbaycan məktəbi, Bakı, 2013, №3, səh.16-20

10. Rüstəmov F. Azərbaycan pedaqogikaşünaslığı. Bakı: Elm və təhsil, 2016, 888 səh.

11. Rüstəmov F. A.S.Makarenkonun pedaqoji irsinin görkəmli araşdırıcısı professor M.Muradxanov // Novator pedaqoq (A.S.Makarenko – 125). Bakı, ADPU, 2013, səh. 16-25

12. Ağayev Ə. Pedaqoji fikrimiz, dünənimiz, bu günümüz. Bakı, Elm, 2000

13. Ağayev Ə. Pedaqoji irsimizi dərindən öyrənək // Azərbaycan müəllimi, 16 iyun 1978

14. Azərbaycan məktəbi, 1988, №3,4,5

15. Əliyev M. Alimin yolu // Azərbaycan məktəbi, 1970, №6

16. İsmixanov M. Zəngin və qiymətli pedaqoji irs. Əmək və politexnik təlim, 1988, №1, səh. 9-45

17. Azərbaycan məktəbi, 1963, №12

18. Talıbov Y., Əlizadə Ə. A.S.Makarenko və Azərbaycan məktəbi // "Azərbaycan məktəbi" jurnalı, 1966, №3, səh.70-76

## PEDAGOGICAL HERITAGE OF A.S.MAKARENKO AND "AZERBAIJAN MEKTEBI" JOURNAL

**E.N.Mammadova**

### SUMMARY

The role of "Azerbaijan mektebi" journal in disseminating pedagogical ideas of A.S.Makarenko in Azerbaijan is studied in this work. The activities of Azerbaijani pedagogues A.Seyidov, M.Muradkhanov, G.Ahmedov, etc. are taken as an object of study.

## ПЕДАГОГИЧЕСКОЕ НАСЛЕДИЕ А.С.МАКАРЕНКО И ЖУРНАЛ «АЗЕРБАЙДЖАН МЕКТЕБИ»

**Э.Н.Мамедова**

### РЕЗЮМЕ

В статье исследуется роль журнала «Азербайджан мектеби» в распространении педагогических идей А.С.Макаренко в Азербайджане. В качестве объекта исследования взята деятельность азербайджанских педагогов-ученых А.Сеидова, М.Мурадханова, Г.Ахмедова и др.

# T A R İ X

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# H I S T O R Y

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# BP VƏ TƏRƏFDAŞLARININ "ƏSRİN MÜQAVİLƏSİNİN"NİN HAZIRLANMASINDA İŞTİRAKI

**İ.H.Əlizadə**
AMEA Gəncə bölməsi
Gəncə, Heydər Əliyev prospekti 153
e-mail: aliyegence@mail.ru

***Açar sözlər:*** Heydər Əliyev, Xəzər nefti, neft strategiyası, Əsrin müqaviləsi, konsorsium
***Keywords:*** Heydar Aliyev, Caspian oil, oil strategy, Contract of the Century, consortium
***Ключевые слова:*** Гейдар Алиев, каспийская нефть, нефтяная стратегия, Контракт века, консорциум

1994-cü il fevral ayının 22-25-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri Con Meycorun dəvətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Londona səfər etdi. Səfər çərçivəsində Heydər Əliyev Böyük Britaniya sənayeçiləri konfederasiyasındakı çıxışında qeyd etdi ki, "…bu gün mən "Britiş Petroleum" şirkətinin prezidenti ilə görüşərkən o dedi ki, bir neçə ildir "BP" şirkəti "Statoil" ilə birlikdə Azərbaycanda çalışır. Lakin mən ona xatırlatdım ki, "Britiş Petroleum" bir neçə il yox, hələ əsrin əvvəllərində, təxminən 90 il bundan qabaq Azərbaycana gəlmiş və Bakıda neft istehsalında iştirak etmişdir. Ötən əsrin əvvəllərində, yəni 1920-ci ilə qədər İngiltərə biznesmenləri Azərbaycanda geniş fəaliyyət göstərmiş, çox işlər görmüşlər. Şübhəsiz ki, onlar Azərbaycan neftinin çıxarılmasında iştirak etməklə böyük mənfəət də götürmüşlər. Amma həmin proses 1920-ci ildə kəsilmiş, sonrakı dövrdə əlaqələr olmamışdır. Bu gün isə məmnuniyyət hissi ilə qeyd etmək olar ki, həmin əlaqələr bərpa olunur və onların daha da genişləndirilməsi üçün addımlar atırıq" (1, s.205-206).

"BP" şirkətinin tarixi və onun Azərbaycandakı fəaliyyəti haqqında ətraflı bilgiyə malik olan prezident Heydər Əliyev bu şirkətlə münasibətləri həmişə diqqətdə saxlayır, dünya neft sənayesində və təmsil etdiyi dövlətdə böyük nüfuz sahibi olan belə şirkətlə əlaqələrin təkcə iqtisadi deyil, həm də böyük siyasi çəkisi olduğunu yaxşı bilirdi.

SSRİ-nin çökməsi ərəfəsində, XX əsrin 80-ci illərinin axırları və 1990-1991-ci illərdə yenidən Azərbaycanın neft sənayesinə maraq göstərən xarici neft şirkətlərinin, o cümlədən "Britiş Petroleum"un Azərbaycana bu dəfəki gəlişinin səbəbkarı isə digər Böyük Britaniya şirkəti "Remko" olmuşdur. Belə ki, 1989-cu ilin may ayında Bakıya gələn Şotlandiyanın "Remko" neft şirkətinin idarə heyətinin sədri Stefen Remp burada məhşur Bakı neftçisi, "Xəzərdənizneft" İstehsalat Birliyinin baş direktoru Qurban Abbasovla və digər neft mütəxəssisləri ilə tanış olur. Q.Abbasov S.Rempdən Qərb investorlarının Azərbaycanın təbii ehtiyatlarının işlənməsinə cəlb olunmasına köməklik göstərilməsini xahiş edir. Böyük Britaniyaya qayıdan S.Remp Bakıda topladığı materiallarla "Britiş Petroleum" şirkətinin rəhbərlərini məlumatlandırır. Xəzərin Azərbaycan sektorunun böyük neft ehtiyatlarına malik olması haqqında məlumatlar "Britiş Petroleum" şirkətinin marağına səbəb olur və beləliklə, hələ Sovet Azərbaycanının o vaxtki rəhbərləri ilə S.Rempin danışıqları başlayır. Azərbaycan rəsmiləri tərəfindən S.Rempə Xəzərin neft ehtiyatlarının işlənməsi üzrə əməkdaşlığa hazır ola biləcək şirkətlə-

rin bu işə cəlb olunması təklif edilir. Beləliklə, 1990-cı ildən başlayaraq, Azərbaycan hökuməti ilə "Britiş Petroleum", "Statoil", "AMOKO" və "Yunokal" şirkətlərinin nümayəndələri arasında danışıqlar başlayır (5, s.68).

Lakin Ermənistanda yaşayan azərbaycanlıların öz ata-baba torpaqlarından deportasiya olunması ilə qaçqınların Azərbaycana olan axını nəticəsində Qarabağ hadisələrinin alovlanması, respublikada yaranmış gərgin ictimai-siyasi vəziyyət bu danışıqları arxa plana keçirdi. Hadisələr özünün kuliminasiya nöqtəsinə 1990-cı ilin yanvar ayında çatdı və qanlı 20 yanvar hadisələri ilə yekunlaşdı.

1990-cı ilin yanvar hadisəsindən sonra Azərbaycan xalqı qarşısında bütün etimadı itirmiş SSRİ hökuməti Azərbaycan hökumətinin təklifi ilə SSRİ Neft və Qaz Sənayesi Nazirliyi və Azərbaycan SSR Nazirlər Sovetinin 18 yanvar 1991-ci il tarixli 25/25 nömrəli birgə qərarı əsasında "Azəri" neft yatağının işlənməsi üçün dünyanın tanınmış neft-qaz şirkətləri arasında tender keçirilməsi haqqında qərar qəbul etdi. O illərdə Azərbaycan hələ müstəqillik əldə etmədiyi səbəbindən bu sahədəki bütün işlər SSRİ Nazirlər Sovetinin nəzarəti altında aparılırdı. 1991-ci ilin iyun ayında Böyük Britaniyanın "BP",ABŞ-ın "AMOKO" və "Yunokal" şirkətləri arasında keçirilən tenderin qalibi SSRİ Nazirlər Sovetinin qərarı ilə "AMOKO" şirkəti elan edildi.Bundan sonra "AMOKO"-nun rəhbərliyi ilə konsorsium yaradıldı və bu konsorsiuma sonradan "BP/Statoil" şirkətlər alyansı ilə yanaşı "Yunokal","McDermott" və "Remko" kimi şirkətlər də daxil oldu. Konsorsiuma daxil olan şirkətlər arasında pay bölgüsü məsələsi hələ tam həll edilməsə də, ilkin razılaşmalara görə mənfəət neftinin 85 faizi Azərbaycana, 15 faiz isə konsorsium iştirakçılarına çatmalı idi."AMOKO" şirkəti Podratçılar arasında ümumi payın 45 faizinə malik olmaqla konsorsiumda həlledici səs və liderlik mövqeyinə nail oldu (5, s.146).

Lakin ermənilərin törətdiyi Xocalı qətliamından sonra Azərbaycanda yaranmış hakimiyyət böhranı bu danışıqları yenə də gündəmdən kənarda qoydu.

Əsasən 1991-ci ildə hazırlanmış sənədlər əsasında 1992-ci ilin 7 sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti ilə "BP/Statoil"şirkətlər alyansı arasında "Dostluq", sonralar isə "Çıraq" adlandırılan yatağın tədqiqi və "Şahdəniz" yatağının işlənilməsinə müstəsna hüquqlar verən müqavilə imzalandı.Payların 50/50-yə faizlə bölünməsi müqavilə ilə razılaşdırıldı. Bundan başqa, "BP/Statoil" alyansı bu yataqların işlənilməsinə verilən müstəsna hüquqlara görə Azərbaycan hökumətinə 30 mln.dollar bonus ödəməyi üzərinə götürdü.Şirkətlər arasındakı pay bölgüsü isə 2/3-hissə "BP"-yə və 1/3-ə hissə isə "Statoil"-a verilməsi nisbətində razılaşdırıldı. 1993-cü ilin martında bu yataqların öyrənilməsi və birgə işlənməsi üzrə yenə həmin şirkətlər alyansı ilə müqavilələr imzalandı. 1993-cü ilin oktyabrında bağlanan müqaviləyə görə isə ABŞ-ın "Pennzoil" şirkətinə "Günəşli" yatağının işlənməsində iştirak etmək hüququ verildi (5, s.148).

Qeyd etmək lazımdır ki, bu vaxt Əbülfəz Elçibəy hökuməti Türkiyənin TPAO şirkətinə də konsorsiumda yer ayrılmasını təmin etsə də, Fransanın "Total", Rusiyanın "LUKoil"və İran şirkətinin konsorsiumda pay alması haqqında müraciətini qəbul etmədi (5, s.69).

1993-cü ilin may ayında bu şirkətlər "Azəri", "Çıraq" və "Günəşli" yataqlarında aparılacaq işlərin vahid proqramı haqqında memorandum imzaladılar. 5 iyun 1993-cü il tarixində isə Azərbaycan Dövlət Neft Şirkətinin Direktorlar şurası "Şahdəniz" yatağı da daxil olmaqla 4 yataqda aparılacaq işlərin birləşdirilməsi haqqında bəyannamə qəbul etdi. Aparılmış danışıqların yekunlarına görə bu yataqlar üzrə mənfəət neftindən olan ümumi payın 70 faizi ARDNŞ-ə verilir, 30 faizi isə digər podratçı iştirakçılar arasında bölüşdürü-

lürdü.

Azərbaycan Dövlət Neft Şirkətinə verilməsi nəzərdə tutulmuş bu payın iqtisadiyyatı tamamilə dağılmış və müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmış bir dövlətin qarşısında hansı məsuliyyətlər yaratdığının fərqində belə olmayan AXC hökuməti nəyin bahasına olursa-olsun xarici neft şirkətləri ilə danışıqları tezliklə yekunlaşdıraraq müqavilə bağlanmasını həyata keçirmək istəyirdi.Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti 1993-cü il iyun ayının 21-də xarici neft şirkətləri ilə bu müqavilənin imzalanmasını planlaşdırmışdı. Lakin cəbhə hakimiyyətinin zəif siyasi iradəsi, hasilatın pay bölgüsü sazişini hazırlayarkən geosiyasi amillərin nəzərə alınmaması kimi bir çox xarici və daxili amillər 4 iyun hadisəsi ilə nəticələndi. Qeyd etmək lazımdır ki,AXC hakimiyyəti dövründə imzalanmağa hazır hesab edilən bu müqavilə ARDNŞ-nin maliyyə məsləhətçisi olan "Morqan-Qrinfild" bankı tərəfindən çoxlu səhvlərə yol verildiyi üçün natamam müqavilə kimi qiymətləndirildi (5, s.70). Bu səhvlərin yenidən işlənməsinə tələb olunan vaxt limiti isə 4 iyun hadisəsi ilə əlaqədar artıq başa çatmşdı. Lakin neft müqavilələrinin imzalanmağa hazırlanmasına olan tələblər təkcə bu sazişin Azərbaycan xalqının və dövlətinin mənafeyinə uyğunlaşdırılmasının təmin edilməsindən ibarət deyildi. Xarici neft şirkətlərinin mənafeyini də nəzərə almaqla demək lazımdır ki, Azərbaycanda belə bir sazişin imzalanmasını mümkün edən və etməyən həm müsbət, həm də mənfi amilllər var idi. Mənfi amillər arasında isə aşağıdakılar xüsusi narahatlıq doğururdu:

1. İndiyə qədər mövcud olmuş hökumətlərin siyasi və iqtisadi məqsədlərinin müxtəlifliyi, hökumətlər kimi siyasi və iqtisadi istiqamətlərin də tez-tez dəyişməsi;

2. Ölkədə qeyri-sabit, son dərəcə gərgin ictimai-siyasi vəziyyətin olması.Müxtəlif siyasi qruplaşmaların, o cümlədən silahlı dəstələrin hakimiyyət uğrunda mübarizəsi, vətəndaş müharibəsi təhlükəsinin yaranması, xarici dövlətlərin təsiri,həm də dəstəyi ilə ölkəni parçalamaq istəyən seperatçı qüvvələrin fəaliyyəti;

3. Ölkənin ərazi bütövlüynün təcavüzə məruz qalması,ərazisinin 20 faizə qədərinin işğal edilməsi, 7,6 mln. əhalisi olan bir ölkədə 1,2 milyon qaçqın və məcburi köçkünün olması;

4. Azərbaycanın beynəlxalq hüquq normalarına və bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmış qanunvericilik bazasının olmaması;

5. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün Şimali Qafqaz regionundakı qeyri stabillik baxımından etibarlı olmayan,texniki vəziyyətinə görə istifadəyə yararsız, Xəzər regionuna xarici şirkətlərin daxil olmasının əleyhinə olan Rusiyanın nəzarəti altındakı Bakı-Qroznı-Tixoretsk-Novorossiysk neft kəmərindən başqa digər kommunikasiyaların olmaması.

Belə bir şəraitdə ciddi işlərdən,o cümlədən beynəlxalq müqavilələrdən və xarici investisiyalardan danışmaq qeyri-ciddi söhbət idi. Bu neqativ amillərin aradan qaldırılmasına on illiklər tələb olunsa da Heydər Əliyev bu işlərin tarixən çox qısa müddətdə həyata keçirilməsinə nail oldu.

Azərbaycanın müstəqilliyini itirilməsi təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda xalqın tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtmış Heydər Əliyevin dövlət quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər tezliklə öz müsbət nəticələrini göstərməyə başladı. Azərbaycanın dövlət strukturlarının həyati fəaliyyəti nəinki bərpa edildi, ölkənin güc nazirliklərinin ciddi səyiləri nəticəsində respublika ərazisində özbaşınalığın, cinayətkarlığın, separatizmin qarşısının alınması təmin olundu.

Heydər Əliyev yaxşı bilirdi ki, "BP", "Statoil", "AMOKO" kimi nəhəng neft-qaz şirkətləri ilə birgə iş qurmaq təkcə ölkəyə xarici valyuta ilə gəlir gətirmək və beynəlxalq iqtisadi əməkdaşlıq deyil, həm də siyasi divident əldə etmək məsələsidir. Ona görə də neft kontraktlarının imzalanmasına nail olmaq Azərbaycan kimi yenicə müstəqillik əldə etmiş bir dövlət üçün həm onun müstəqilliyinin qorunmasının qarantı, həm də iqtisadiyyatının yenidən, müasir tələblər səviyyəsində qurulması demək idi. Lakin neft müqavilələrinin imzalanması nə qədər vacib olsa da Heydər Əliyev xarici neft şirkətlərilə birgə Xəzərin təbii ehtiyatlarından istifadə edilməsi ilə bağlı əvvəlki hakimiyyətlər zamanında hazırlanmış sənədlərin layihəsi ilə tanış olandan sonra belə qərara gəldi ki, bu layihələr nəinki Azərbaycan xalqının və dövlətinin mənafeyinə uyğun deyil, həm də Rusiya və İran kimi qonşu dövlətlərin konsorsiumdan kənarda saxlanması və digər geosiyasi problemlərin nəzərə alınmaması səbəbindən onların həyata keçirilməsinin mümkünlüyü də böyük risk altındadır. Fransanın "Total", Rusiya hökumətini təmsil edən "LUKoyl" şirkətlərinin və İran hökumətinin konsorsiumda iştirak etməklə bağlı təkidli müraciətlərinə əhəmiyyət verməyən AXC hakimiyyətinin yeritdiyi birmənalı qərbpərəst siyasət tezliklə öz acı nəticəsini 1993-cü ilin 4 iyun qiyamı ilə göstərdi. Dağlıq Qarabağ problemi isə Azərbaycanın yeni rayonlarının işğal edilməsi ilə növbəti mərhələyə qədəm qoydu.

Azərbaycanın neft-qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması məsələsi bir ideya kimi XX əsrin 80-ci illərinin sonlarından başlayaraq mövcud olsa da bu əfsanənin reallığa çevirməsini təmin etmək o vaxtki səriştəsiz respublika hökumətlərinin bacaracağı bir iş deyildi. Tarix göstərdi ki, belə qlobal bir layihəni yalnız Heydər Əliyev kimi təcrübəli, qətiyyətli və tədbirli bir dövlət adamı həyata keçirə bilərdi.

Yaranmış vəziyyət Azərbaycanın yeni neft strategiyasının hazırlanmasını tələb edirdi. Belə bir strategiya Heydər Əliyev tərəfindən hazırlandı və bu strategiyanın birinci mərhələsi olaraq əvvəlki hakimiyyətlər tərəfindən hazırlanmış neft-qaz müqavilələrinin Azərbaycan dövlətinin və xalqının mənafeyi baxımından yenidən işlənməsinə start verildi.

Azərbaycanın düşdüyü dərin siyasi böhran dövründə neft müqaviləsinin hazırlanması ilə əlaqədar Heydər Əliyevin bir-birinin ardınca həyata keçirdiyi tədbirlər onun bir daha Azərbaycan üçün əvəzolunmaz və dünya şəviyyəli bir lider olduğunu sübut etdi. Nə qədər riskli addım olsa da, 1993-cü il iyun ayının 24-də Azərbaycan Respublikası parlamentinin sədri kimi Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyev Xəzərin karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə işlənməsi və dünya bazarlarına çıxarılması ilə bağlı aparılan danışıqların dayandırıldığını elan etdi. Belə addım xarici neft şirkətlərinin ciddi narahatçılığına səbəb olsa da tarix bu qərarı Azərbaycan xalqının və dövlətinin mənafeyinin təmin edilməsi baxımından vaxtında qəbul edilmiş zəruri addım kimi dəyərləndirdi.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyev 1993-cü il iyul ayının 2-də Bəyanatla müraciət edərək, Azərbaycanın demokratiya, siyasi plüralizm və azad iqtisadiyyatın yaradılması yolu ilə davam edəcəyini, ayrı-ayrı xarici şirkətlərlə imzalanması nəzərdə tutulmuş bütün müqavilələrlə bağlı götürülmüş öhdəliklərin sivilizasiya normaları çərçivəsində ardıcıl yerinə yetiriləcəyini, ölkəmizin daxili ictimai-siyasi vəziyyəti sabitləşdikcə həmin məsələlərlə daha fəal məşğul olmağa imkan yaranacağını bildirdi.

Ölkədə hakimiyyətin dəyişməsi, yaranmış yeni ictimai-siyasi vəziyyət xarici neft şirkətlərinin rəhbərlərində və bu şirkətlərin təmsil olunduğu dövlətlərdə də ciddi narahatlıq yaratmışdı. Neft müqavilələrinin imzalanmasının təxirə salınması ilə bağlı xarici neft şir-

kətlərində yaranmış narahatlığı və gərginliyi aradan qaldırmaq üçün Heydər Əliyev 17 avqust 1993-cü ildə aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüş keçirdi və neft kontraktları ilə bağlı Azərbaycan hökumətinin rəsmi mövqeyini bir daha açıqladı. H.Əliyev qeyd etdi ki,” təəssüf ki, son dövrlərdə Azərbaycan neft sənayesi səriştəsiz rəhbərlərin əlinə keçib və bu işlərdə dərin məsuliyyəti duya bilməyən həmin adamların fəaliyyəti nəticəsində bəzi müqavilələrin hazırlanmasında səhvlərə yol verilib. Məhz buna görə də iyun ayının 24-də xarici şirkətlərlə demək olar ki, bağlanmaq ərəfəsində olan müqavilələrin müvəqqəti olaraq dayandırılması qərarını qəbul etdik. Bu heç də o demək deyil ki, biz bu şirkətlərlə müqavilə bağlamaqdan imtina edirik,yaxud bu şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsinin qarşısını alırıq.Yox. Sadəcə olaraq,biz bu məsələləri daha dərindən araşdırmaq istəyirik.” (2, s.84)

Görüşdə iştirak edən xarici neft şirkətlərinin rəhbərlərinin və onların təmsil etdiyi dövlətlərin səfirlərinin simasında Heydər Əliyev dünya siyasətini müəyyən edən bu dövlətlərin başçılarına həm də belə bir mesajı verdi ki, Azərbaycan dövlətinin başında duran şəxs böyük dövlət idarəçilik qabiliyyətinə, təcrübəsinə və qətiyyətinə, doğma xalqının və dövlətinin mənafeyi naminə hər cür mübarizəyə, hətta bu yolda canından keçməyə belə hazır olan əsl dövlət adamıdır.

Bu fikirlərlə Heydər Əliyev ABŞ, Böyük Britaniya, Fransa və Rusiya kimi ölkələrin hakimiyyət dairələrinə çatdırdı ki, Azərbaycan neftindən bəhrələnmək istəyən şirkətlərin təmsil etdiyi bu dövlətlər eyni zamanda Azərbaycanın məruz qaldığı təcavüzə seyirçi nəzərlərlə baxmamalıdırlar. Azərbaycan üçün yaradılmış süni Dağlıq Qarabağ problemi və bunun nəticəsində Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini itirmək təhlükəsi vəziyyətinin yaranması hər cür iqtisadi əməkdaşlığın reallaşmasını mümkünsüz edəcəkdir.

Beləliklə, Heydər Əliyevin təklifi ilə son üç ildə aparılmış danışıqlar nəticəsində hazırlanmış müqavilələrin ekspertizası və Azərbaycan xalqının və dövlətinin mənafeyinə uyğunlaşdırılması prosesinə start verildi. ARDNŞ bu işləri aparmaq üçün ilk mərhələdə ABŞ, Kanada və digər Qərb ölkələrindən bitərəf ekspertlər dəvət etdi. Sonra danışıqlar Londonda davam etdirildi. Danışıqların yekunu olaraq hazırlanmış layihə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi qane etmədi (3, s.227).

ARDNŞ Heydər Əliyevin tapşırığı ilə respublikanın neftçi alimləri,neft sənayesində çalışan təcrübəli mütəxəssisləri ilə birgə Azərbaycanın bu danışıqlarda mövqeyini dəqiqliklə müəyyənləşdirdi. Təqdim olunmuş son təklif Heydər Əliyev tərəfindən təkrar araşdırıldıqdan sonra bəyənildi və hazırlanmış layihənin ilkin variantı 5 fevral 1994-cü il tarixdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərləri, neftçi mütəxəssislərlə keçirdiyi görüşdə müzakirəyə çıxarıldı. Bu görüşdə Heydər Əliyev bir daha 1993-cü ilin iyun ayında müqavilənin imzalanmasının dayandırılması haqqında qərar verməsinin səbəblərini açıqladı və hətta xarici neft şirkətlərinin bu qərardan narazı qaldıqlarını da bildirdi. “AMOKO” şirkətinin prezidenti Robert Blantonun bu müqavilənin imzalanmasının gecikməsindən narahat olduğunu açıq şəkildə qeyd etdi (2, s.352).

Müqavilə layihəsinin hazırlanması işləri əvvəlcə Bakıda, daha sonra isə neft şirkətləri rəhbərlərinin xahişi ilə İstanbulda davam etdirildi və 1994-cü ilin iyul ayında başa çatdırıldı. 21 iyul 1994-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin danışıqlar aparan nümayəndə heyəti Qərb neft şirkətləri konsorsiumunun dəvəti ilə müqavilə layihəsini hazırlamaq üçün Hyustona (ABŞ) toplaşdılar. 45 günlük gərgin işdən sonra müqavilənin layihəsi hazır oldu. Lakin bununla hazırlıq işlərini tamamlanmış hesab etmək

mümkün deyildi. Çünki xarici neft şirkərlərini narahat edən başqa vacib problemlər də var idi. Azərbaycanın beynəlxalq hüquq normalarına və bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmış mükəmməl qanunvericilik bazasının olmaması ilə bağlı Azərbaycan dövlətinin qoyulacaq investisiyalara görə məsuliyyətinin təmin olunması və öhdəliklərinin icrası baxımından yaranan problemlər Sazişin imzalanmağa hazır olduğunu deməyə imkan vermirdi. Müstəqilliyin elan edildiyi vaxtdan bəri hələ yeni parlament seçkiləri keçirə bilməyən, köhnə sistemin məhv olduğu, yeni sistemin təşəkkül tapmadığı bir ölkədə, istehsal həcminin, inflyasiya tempinin və sosial proqramların dözülməz səviyyədə olduğu bir şəraitdə isə dövlətin bu işlərin görülməsinə nə imkanı, nə də vaxtı var idi. Problemin həllinin başqa bir həlli yolu tapılmalı idi. Azərbaycan hökumətinin və həmin dövrdə danışıqlar aparılan “ BP” və digər tərəfdaş neft şirkətlərinin birgə səyləri ilə belə bir yol tapıldı. Qərara alındı ki, yerin təkinin sahibi və yer təkindən istifadə edən xarici şirkətlər arasında saziş forması “prodakşn-şerinq” tipli saziş olsun. Yəni strateji cəhətdən mühüm olan sazişlər Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya ediləcək və sazişin qüvvədə olacağı bütün müddət ərzində sabit və dəyişməz olan prosedurla Azərbaycan Respublikasının Qanunu şəklində parlamentdə qəbul ediləcəkdir (4, s.467, s.468). Problemin bu qaydada həlli Azərbaycan dövlətini, ”BP” və tərəfdaşlarını qane etdiyindən, yenidən hazırlanmış Saziş layihəsinin imzalanmaya hazırlanması işi sürətləndirildi. 14 sentyabr 1994-cü il tarixdə “Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barədə”Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev fərman imzaladı (6, s.1).

16 sentyabr 1994-cü il tarixdə neft müqaviləsinin imzalanmağa hazırlanması ilə əlaqədar keçirilən brifinqdə Heydər Əliyev qeyd etdi ki, “...uzun illər, üç ildən artıq aparılan iş, mən hesab edirəm ki, müsbət nəticə vermişdir... Çalışmalıyıq ki, bu sərvətlərdən Azərbaycan xalqının bu günü və gələcəyi üçün maksimum mənfəət götürək. Mən bu prinsipləri həmişə əsas tutmuşam,bu gün də əsas tuturam. Həmin prinsiplər baxımından, şübhəsiz ki, bütün istəklərimiz,arzularımız bu layihədə əks olunmayıb. Biz bu layihədən bundan artıq məfəət götürmək istəyirik. Ancaq bilirsiniz, müştərək iş görmək belədir ki, hər iki tərəf öz mənfəətini götürməyə çalışır və götürməlidir. Əgər qarşılıqlı mənfəət prinsipi olmasa, şübhəsiz ki, saziş də, müqavilə də ola bilməz.” (2, s.228)

Heydər Əliyevin bu fikirləri müstəqilliyini və ərazi bütövlüyünü itirmək təhlükəsi iləüz-üzə qalmış o vaxtki zəif Azərbaycanın siyasi, iqtisadi durumuna uyğun səsləndirilmiş müdrik fikirlər idi. Məqsəd isə maksimum az itkilərlə Azərbaycan üçün həyati əhəmiyyətli belə böyük bir müqaviləni imzalamaq və onun qısa müddətdə həyata keçirilməsini təmin etməkdən ibarət idi. Azərbaycanı qısa müddətdə dirçəltməyin, müstəqilliyini, dövlətçiliyini möhkəmləndirməyin, dağılmış iqtisadiyyatını bərpa və inkişaf etdirməyin yegənə yolu isə yalnız “Əsrin müqaviləsi”nin bağlanmasına nail olmaqdan, ölkədə stabillik yaratmaq və tədricən iqtisadi inkişafı təmin etməkdən keçirdi.

Nəhayət, bir illik gərgin zəhmətdən sonra 20 sentyabr 1994-cü il tarixdə Bakıda “Gülüstan”sarayında “Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş”in imzalanması mərasimi keçirildi.

31 maddə və 12 əlavədən ibarət olan bu sazişi ARDNŞ (20%), Böyük Britaniyanın “BP” (17,12675), “Remko” (2,0825%), ABŞ-ın “AMOKO” (1,7010%), “Pennzoil” (9,8175%), ”Yunokal” (9,520%) və “McDERMOTT” (2,450%), Norveçin “Statoil”, Səu-

diyyə Ərəbistanı və ABŞ-ın birgə şirkəti "Delta-Hess" və Türkiyənin "TPAO" şirkətlərinin prezidentləri və bu şirkətlərin təmsil olunduğu dövlətlərin rəsmi şəxsləri imzaladı (8, s.12).

"Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş"in tələbləri çərçivəsində aparılmış iştirak paylarının alqı-satqısından, "BP" və "AMOKO" şirkətlərinin birləşməsindən sonra isə "Əsrin müqaviləsi"ndə konsorsium iştirakçılarının tərkibi və pay faizləri aşağıdakı kimi oldu: "BP" - 35,8%, ARDNŞ - 11,6%, "Şevron" - 11,3, "İNPEKS" - 11%, "Statoil" - 8,6%, "Ekson Mobil" - 8%, "TPAO" - 6,8%", İTOÇU - 4,3%, "ONGC Videş Limited" Delta-Hess" – 2,7%.

"Əsrin müqaviləsi"nin şərtlərinə görə, "Azəri" və "Çıraq" yataqlarından bütövlükdə, "Günəşli" yatağının isə suyun dərinliyi 200 metrdən çox olan hissəsindən 511 milyon ton neft çıxarılacaqdır. Müqavilə 30 il müddətinə nəzərdə tutulmuşdur.Bu müqaviləni həyata keçirmək üçün sərmayə qoyuluşunun 80 faizini "BP" və tərəfdaşları təmin edəcəkdir. Tələb olunan sərmayənin həcmi müqavilə imzalanan günə olan qiymətlərlə 7,4 milyard dollar qiymətləndirilmişdir. Çıxarılan neftin 253 milyon tonu Azərbaycana çatacaqdır.

Bu rəqəmləri Heydər Əliyev 16 sentyabr 1994-cü il tarixdə "Əsrin müqaviləsi"nin imzalanmağa hazırlanması ilə bağlı keçirdiyi brifinqdə də səsləndirdi və qeyd etdi ki, "dolların bugünkü məzənnəsini nəzərə alsaq, onda görərik ki, bu müqavilənin həyata keçirilməsindən Azərbaycan 34 milyard dollar mənfəət götürəcəkdir. Şübhəsiz ki, 30 il müddətində dolların da məzənnəsi dəyişəcəkdir.Bu halda müəyyən nisbətdə bu rəqəmlər də dəyişə bilər." (7, s.1)

Zaman Heydər Əliyevin bu fikirləri söyləyərkən nə qədər uzaqgörən olduğunu göstərdi. Qeyd etmək lazımdır ki, 2016-cı il də daxil olmaqla təkcə "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri","Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş"-in icrası müddətində Azərbaycanın Neft Fonduna bu illər ərzində 130 milyard dollar vəsait daxil olmuşdur. Bu illərdə podratçı şirkətlərin Azərbaycana ödədiyi mənfəət vergisi 15 milyard dollara yaxındır. Azərbaycan Dövlət Neft Şirkətinin törəmə şirkəti olan AÇG-nin isə bu müddətdə gəliri 6 mlrd. dollar təşkil etmişdir.Kontrakt sahəsində texnoloji ehtiyaclar üzrə işlənməmiş 42 mlrd. kubmetrə yaxın qaz çatdırılma məntəqəsində Azərbaycan hökumətinə təhvil verilmişdir. Sazişin şərtlərinə görə müqavilənin qüvvədə olduğu 2024-cü ilə qədər isə quyulardan neftlə bərabər hasil ediləcək təxminən 55 milyard kubmetr səmt qazının Azərbaycana verilməsi nəzərdə tutulmuşdur.

Beləliklə, "BP" və tərəfdaşlarının iştirakı, onların təmsil etdikləri Böyük Britaniya və ABŞ kimi dövlətlərin dəstəyi və Heydər Əliyevin dərin məntiqə, böyük siyasi iradə və təcrübəsinə əsaslanan müdrik daxili və xarici siyasəti sayəsində"Əsrin müqaviləsi"nin imzalanmasının reallaşması təmin edildi.

2017-ci il sentyabr ayının 14-də Bakıda "Azəri","Çıraq", "Günəşli" yataqları üzrə yeni Saziş imzalanması mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "BP" və tərəfdaşları haqqında dediyi: "Bu gün mən xüsusilə bizim əsas tərəfdaşımız BP şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. Bizimlə BP arasında əməkdaşlığın 23 illik tarixi var. Yəni BP bizim bütün əsas layihələrimizdə əsas tərəfdaş və investor kimi fəaliyyət göstərir. Həm "Azəri", "Çıraq", "Günəşli"də, həm də Bakı-Tbilisi-

Ceyhan layihəsində, ”Şahdəniz” layihəsində, ”Cənub Qaz Dəhlizi” layihəsində. Bizim aramızda - SOCAR ilə BP arasında yaranmış çox gözəl işgüzar münasibətlər və qarşılıqlı etimad bugünkü mərasimi mümkün etmişdir” (9, s.2). Belə fikirlər bir daha bu konsorsiumun Azərbaycandakı işinə yüksək qiymət verildiyini və bu əməkaşlığın hələ uzun müddət uğurlu fəaliyyətinə əminliyi göstərdi.

## Ədəbiyyat

1. Heydər Əliyev. Müstəqillik yollarında. Bakı, 1997, Kitab 1, 312 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Kitab 1, 612 s.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Kitab 2, 604 s.
4. Heydər Əliyev. Azərbaycan nefti dünya siyasətində. Kitab 4, 478 s.
5. Ильхам Алиев. «Каспийская нефть Азербайджана». Москва, 2003, 316 с.
6. “Azərbaycan” qəzeti, 15 fevral 1994
7. “Azərbaycan” qəzeti, 17 sentyabr 1994
8. Hasilatın pay bölgüsü haqqında Saziş. S.12
9. ”Xalq qəzeti”, 15 sentyabr 2017

## PARTICIPATION OF BP AND STAKEHOLDERS IN THE PREPARATION OF THE “CONTRACT OF THE CENTURY”

**I.H.Alizadeh**

## SUMMARY

This work is dedicated to the history of signing the Contract of the Century aimed at the development of oil fields in Azerbaijan. The invaluable role of Heydar Aliyev in the realization of this crucial contract is stressed.

## УЧАСТИЕ КОМПАНИИ “BP” И ЕЕ ПАРТНЕРОВ В ПОДГОТОВКЕ «КОНТРАКТА ВЕКА»

**И.Г.Ализаде**

## РЕЗЮМЕ

Статья посвящена истории подписания «Контракта века» по освоению нефтяных месторождений Азербайджана. Особо отмечается неоценимая роль Гейдара Алиева в подписании этого судьбоносного для страны документа.

# SİYASƏTŞÜNASLIQ BÖLMƏSİ

# SECTION OF POLITICAL SCIENCE

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ MDB İLƏ MÜNASİBƏTLƏRİN GEOSİYASİ ƏHƏMİYYƏTİ

**B.E.Nəbiyev**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Z.Xəlilov küçəsi 23
e-mail: bextiyar030@hotmail.com

***Açar sözlər***: xarici siyasət, MDB, geosiyasət
***Key words:*** foreign policy, CIS, geopolitics
***Ключевые слова:*** внешняя политика, СНГ, геополитика

Ümummilli Lider Heydər Əliyev ölkənin xüsusiyyətlərini, geosiyasi mövqeyini və milli maraqlarını nəzərə alaraq, respublikanın inkişafı üçün strategiya müəyyən etmiş və ölkənin xarici siyasi kursu da buna müvafiq olaraq inkişaf etmişdir. Sosial-siyasi həyatın sabitləşdirilməsi, iqtisadiyyatın bərpası və inkişafı, dünyanın bütün ölkələri ilə qarşılıqlı münasibətlər qurmaq siyasəti yaxşı düşünülmüş, hərtərəfli əsaslandırılmış strateji konseptual yanaşmanın bariz bir nümunəsi idi. Bu möhtəşəm fəaliyyət nəticəsində müstəqil Azərbaycan Respublikası hazırda milli maraqlara cavab verən davamlı və dayanıqlı dinamik inkişaf xəttinə malik olan dövlətdir. Ölkə bazar münasibətləri istiqamətində, yeni sosial-iqtisadi sistemin formalaşmasında əhəmiyyətli irəliləyişlər əldə etmişdir. Mövcud inkişaf strategiyası siyasi və sosial-iqtisadi problemlərin həlli üçün imkanları genişləndirmiş, bu da beynəlxalq miqyasda ölkənin fəaliyyəti üçün əhəmiyyətli dərəcədə zəmin təmin edilməsinə xidmət etmişdir.

İqtisadi potensialını reallaşdırdıqdan sonra Azərbaycan beynəlxalq aləmdə fəaliyyətini genişləndirdi, ikili standartlar əsasında yanaşma tərzini qətiyyətlə rədd edərək, əslində regionun ən mühüm dövləti olduğunu sübut etdi. Bu, xüsusilə Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı özünü göstərdi.

Azərbaycanın xarici siyasətində MDB ilə münasibətlər xüsusi yer tutur. Azərbaycanın müstəqillik qazanmasından sonra regional inteqrasiya proseslərində iştirakının təmin edilməsi məqsədi ilə keçmiş SSRİ məkanı ölkələri ilə əlaqələrin lazımi səviyyədə saxlanılması olduqca mühüm idi. Bunun yollarından biri də MDB ilə olan münasibətlər idi. Azərbaycan-MDB münasibətləri regional əhəmiyyəti ilə səciyyələnir. Azərbaycan 21 dekabr 1991-ci il tarixli MDB-yə qoşulmaq haqqında qərarı 1993-cü ilin sentyabrında ratifikasiya etmiş və MDB-nin tam hüquqlu üzvü olmuşdur. Ümummilli Lider Heydər Əliyev bildirirdi ki, Azərbaycanın MDB-yə daxil olması respublika iqtisadiyyatının inkişaf etməsi üçün yaxşı şərait yaradacaq və bu imkanlardan səmərəli istifadə ediləcəkdir. Bununla belə, Ümummilli Lider Heydər Əliyev bildirirdi ki, Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır." (11). Bununla Ümummilli Lider Heydər Əliyev əslində diplomatik dillə Rusiyadakı müəyyən dairələrə də mesaj göndərirdi ki, MDB-də yeni velikorusçuluq üçün istifadə edilməsinə yol verilməyəcəkdir. Həmçinin digər xarici siyasət tərəfdaşlarımıza bəyan edilirdi ki, ölkəmizin MDB-yə daxil olması heç də digər qurumlar, xüsusilə Qərb ilə münasibətlərin

qarşısını ala biləcək amil hesab edilməməlidir. Ümummilli Lider Heydər Əliyev həmçinin MDB-nin imkanlarından istifadə edərək Ermənistan kimi təcavüzkar dövlətin təbliğ edilməsinə, eləcə də onun maraqlarının himayə olunmasına qarşı çıxmışdır. 17 dekabr 1999-cu ildə Ümummilli lider Heydər Əliyev Rusiyanın səfiri Aleksandr Bloxini qəbul edərkən aşağıdakıları söyləmişdi: "Mən təəccüb edirəm ki, son vaxtlar Rusiya mətbuatında MDB ölkələri arasında, Cənubi Qafqazda Rusiyanın ən başlıca müttəfiqi Ermənistan olduğu təbliğ edilir. Bu, sizin öz işinizdir. Əgər Ermənistanda bütün rus məktəbləri bağlanıbsa, hamının ancaq erməni dilində təhsil alması haqqında qanun qəbul edilibsə və o, sizin əsas strateji və ən yaxşı müttəfiqinizdirsə, nə deyirəm, qoy belə də olsun. İndi Azərbaycan naməlum səbəblərə görə bu kateqoriyaya daxil deyildir. Amma bir baxın, Azərbaycanda nə qədər adam rus məktəblərində oxuyur, özü də onların əksəriyyəti azərbaycanlıdır. Ali məktəblərimizdə rus bölməsi saxlanmışdır. Bu cür çox misallar çəkmək olar." (2, 28)

Azərbaycanın MDB-yə qoşulmaqda əsas məqsədinin Rusiya ilə munasibətlərin normallaşdırılması idi. Çünki 1992-1998-ci illərdə Rusiyanın MDB məkanında yürütdüyü siyasət, gürcü-abxaz, gürcü-osetin, Dnestryanı münaqişələri, Krımda separatçılıq hərəkatı və s. məsələlərdə nümayiş etdirdiyi mövqe, bir tərəfdən Azərbaycan, Gürcüstan, Ukrayna, Moldovanın Rusiya ilə münasibətlərinə, MDB çərçivəsində inteqrasiya meyillərinə mənfi təsir göstərir, o biri tərəfdən bu dövlətlərin özünümüdafiə instinktlərini gücləndirərək, onları birləşməyə və birgə müqavimət göstərməyə istiqamətləndirirdi (4, 638). Rusiyanın xarici siyasətində önəmli məqamlardan biri də postsovet məkanını nəzarət altında saxlamaq üçün inteqrativ qurumun yaradılması idi. Rusiya keçmiş Sovet Respublikalarının MDB çərçivəsində birləşməsini təmin edərək maraqlarını reallaşdırmaq istəyirdi. Bir sıra Rusiyalı müəlliflər qeyd edirlər ki, Rusiya üçün MDB-nin bir alternativi yoxdur (9).

Həmin dovrdə Azərbaycanın beynəlxalq və regional təhlukəsizlik siyasətinin formalaşdırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ munaqişəsinin həlli, olkənin milli, hərbi, ərazi və geosiyasi təhlukəsizliyinin təmin edilməsi ilk novbədə Rusiyadan, onun rəhbərliyi altında fəaliyyət gostərən Mustəqil Dovlətlər Birliyi ilə qarşılıqlı əlaqələrdən kecirdi. Odur ki, postsovet regionunda yaşanan iqtisadi, siyasi, hərbi, təhlukəsizlik və s. proseslərin icində olmaq; kecmişdə Azərbaycanla bir məkanda və sistemdə yaşamış olkələrlə yaranmış gərgin dovlətlərarası munasibətləri yumşaltmaq və tərəfdaşlıq əlaqələri qurmaq; Rusiyanın Ermənistana intensiv hərbi-texniki yardımını dayandırmaq və onun Cənubi Qafqaz olkələrinin hərbi təhlukəsizlik məsələlərinə yanaşmasında muəyyən tarazlığa nail olmaq; MDB və Cənubi Qafqazdakı hərbi-geostrateji munasibətlərdə Azərbaycanın xeyrinə olmayan mənfi prosesləri aradan qaldırmaq və s. məqsədlə 1993-cu ilin sentyabrında Prezident Heydər Əliyev Mustəqil Dovlətlər Birliyinə və Rusiyanın yaratdığı regional təhlukəsizlik sisteminə – Kollektiv Təhlukəsizlik Muqaviləsi Təşkilatına (KTMT) qoşulmaq haqqında qərar qəbul etdi (3, 447-448). Ümummilli Lider Heydər Əliyev Azərbaycanın gələcək inkişafını, onun milli maraqlarını nəzərə alaraq Mustəqil Dovlətlər Birliyinə daxil olmağı da vacib saymışdır.

Doğrudur, o dovrdə "MDB-yə daxil olmaq bizi Turkməncay muqaviləsinə surukləyə bilər" deyən naşı siyasətcilər Rusiya ilə əlaqələrin yaradılması əleyhinə çıxırdılar. Keçmiş sovetlər ittifaqının siyasi elitasında nüfuzlu mövqe tutmuş Heydər Əliyev bu mulahizələri ciddi qəbul etməyərək bildirmişdir ki, Azərbaycanda kommunist ideologiyası, kommunist rejimi bir daha bərpa olmayacaqdır. Xalq Ümummilli Liderin döv-

lətcilik mudrikliyinə inanır və onun bu siyasi uzaqgorənliyini dəstəkləyirdi. İnanırdı ki, Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan MDB-nin mustəqil siyasət yeridən bərabər hüquqlu üzvü olmaqla yanaşı, "özünün əbədi seçdiyi demokratik yolla gedəcək, beynəlxalq demokratiya normalarına riayət edəcəkdir, başqa bir dovlətin tabeliyinə duşməyəcək, öz mustəqilliyini daim qoruyacaqdır." O dövrün reallıqlarını düzgün qiymətləndirən, milli inkişaf perspektivlərini dərindən ölçüb-bicən Ümummilli Lider hesab edirdi ki, qonşu dovlətlərlə itirilmiş əlaqələrin bərpa olunmasına çalışmaq lazımdır (7, 28).

Azərbaycan Prezidenti Heydər Əliyev 1997-ci ilin martında Dövlət Başçıları Şurasının iclasında iştirak etmiş və bir milyard ABŞ dolları məbləğində silah-sursatın Rusiya tərəfindən əvəzsiz olaraq Ermənistana verilməsini iştirakçıların diqqətinə çatdırmışdır. Heydər Əliyev Yaltada 1998-ci il 9 avqust tarixində MDB-nin icraçı katibi Boris Berezovski ilə görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məqsədilə göstərdiyi səylər üçün ona təşəkkür etmişdir. Prezident Heydər Əliyev Qədim İpək Yolunun bərpası ilə əlaqədar Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramı çərçivəsində Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafının MDB üzvü olan ölkələrə də çox böyük fayda gətirəcəyinə əminliyini bəyan etmişdir. Heydər Əliyev MDB iştirakçısı olan ölkələrin Dövlət Başçıları Şurasının 2 aprel 1999-cu il tarixli Moskva iclasında yenidən bəyanatla çıxış etmişdir. O, 1994-cü ilin may ayında atəşkəs haqqında əldə olunmuş razılaşmaya baxmayaraq, indiyədək münaqişəyə son qoyulmadığını bildirmişdir. Heydər Əliyev 1997-ci ilin əvvəlində Rusiyadan Ermənistana qanunsuz, gizli surətdə dəyəri bir milyard ABŞ dolları məbləğində silah, tank, operativ-taktiki və zenit-raket kompleksləri və digər texnika göndərilməsi faktlarından narahatlığını yenidən ifadə etmişdir. Rusiya silahının və hərbi texnikasının Ermənistana göndərilməsini, bu ölkə ərazisində hərbi bazaların yerləşdirilməsini MDB ölkələrinin kollektiv təhlükəsizliyi haqqında müqavilənin kobud şəkildə pozulmasına səbəb olduğunu bildirmişdir. Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünə MDB-nin bir təşkilat olaraq siyasi qiymət vermədiyini əsas gətirən Azərbaycan Respublikası 1999-cu ildə kollektiv təhlükəsizlik haqqında müqavilədən çıxmışdır.

Azərbaycan üçün milli maraqların təmin edilməsi prioritetdir. İlham Əliyevin prezidentliyi dovrundə də Azərbaycan MDB cərcivəsində inteqrasiyanın respublikaların mustəqilliyini məhdudlaşdıra biləcək şəkildə getməsinə mane olmuş, mane ola bilmədiyi proseslərdən isə kənarda qalmışdır. Azərbaycan umumilikdə MDB-nin sahəvi əməkdaşlıq orqanlarından yalnız 30-da, digər orqanların isə 11-də iştirak edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də dəfələrlə öz çıxışlarında MDB-nin xarici siyasətimizdəki yerini qeyd edtmişdir. 2014-cü il 10 oktyabr tarixində Azərbaycan Prezidenti İlham Əliyev Minskdə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib və orada çıxışında vurğulayıb ki, Azərbaycan özünün MDB-də iştirakına böyük əhəmiyyət verir. Hesab edirik ki, bizim təşkilat çərçivəsində qarşılıqlı fəaliyyət, əlaqələndirmə, bir-birimizin problemlərimizi daha yaxşı anlamaq, habelə digər mühüm məsələləri həll etmək işində çox uğurlar qazanılıb. Biz həm də MDB-nin üzvü olan ölkələrin əksəriyyəti ilə ikitərəfli formatda çox fəal qarşılıqlı əlaqə saxlayırıq. Hesab edirəm ki, ikitərəfli əlaqələr bizim təşkilat çərçivəsində münasibətləri daha da möhkəmləndirir və biz bundan sonra da ikitərəfli əməkdaşlıq potensialını artırmağa çalışacağıq (1).

Azərbaycan MDB-nin bir çox qurumları ilə sıx əməkdaşlıq edir. Azərbaycan Respublikası Milli Məclisinin sıx əməkdaşlıq etdiyi beynəlxalq qurumlardan biri də MDB

dövlətlərinin Parlamentlərarası Assambleyasıdır. Bu qurum çərçivəsində MDB ölkələri qanunlarının uzlaşdırılmasına kömək üçün qəbul olunan model qanunların hazırlanmasında Azərbaycan parlamentinin nümayəndələri fəal iştirak edir (5, 93). Parlament diplomatiyasının inkişafı ötən 25 il ərzində MDB PAA icra etdiyi daha bir mühüm missiyadır. Onun xüsusi missiyası vardır - qarşılıqlı anlaşmanın, dostluq əlaqələrinin qurulması. Bu beynəlxalq qeyri-sabitlik, beynəlxalq terrorizm təhlükəsinin qalması, eləcə də dünya valyuta və əmtəə bazarlarında qeyri-sabitlik şəraitdə xüsusilə vacibdir (6, 33).

MDB ilə münasibətlərdə enerji amili də öz rolunu oynamışdır. MDB məkanında elektroenergetika sahəsində əməkdaşlığın əsası 14 fevral 1992-ci il tarixli "MDB-də elektroenergetika sahəsində dövlətlərarası münasibətlərin koordinasiya edilməsi haqqında Saziş"lə qoyulub. Saziş MDB-yə daxil olan 11 müstəqil dövlətin hökumət başçıları, o cümlədən Azərbaycan Respublikası tərəfindən imzalanıb. Bu Sazişə əsasən MDB-yə üzv dövlətlərin elektroenergetika sahəsində əməkdaşlığının genişləndirilməsi və birgə fəaliyyətlərinin koordinasiya edilməsi məqsədilə Elektroenergetika Şurası yaradılıb. Təşkilatın nizamnaməsi təsdiq edilib. Keçən müddət ərzində MDB EEŞ-in 50 iclası keçirilib. Təşkilatda ölkəmizi üzv olaraq Energetika Nazirliyi və "Azərenerji" ASC təmsil edir və "Azərenerji" ASC tərəfindən üzvlük haqqı ödənilir. 13-14 mart 2014-cü il tarixində Moskva şəhərində MDB EEŞ-in "Ətraf mühit üzrə işçi qrupu ilə "Enerji effektivlik və bərpa olunan energetika üzrə seksiya"sının birgə iclasında Energetika Nazirliyinin iştirakı təmin edilib. 25 aprel 2014-cü il tarixində MDB Elektroenergetika Şurasının Bakı şəhərində 45-ci toplantısı keçirilib. 24 oktyabr 2014-cü il tarixində MDB Elektroenergetika Şurasının Rusiya Federasiyasının Soçi şəhərində keçirilən 46-cı iclasında energetika naziri Natiq Əliyev iştirak edib. 09-12 iyun 2016-cı il MDB Elektroenergetika Şurasının Tacikistanın Düşənbə şəhərində keçirilən 49-cu iclasında Energetika Nazirliyinin nümayəndəsinin iştirakı təmin edilib. 20-23 oktyabr 2016-cı il tarixində Rusiya Federasiyasının Ufa şəhərində Rusiya Energetika Forumu çərçivəsində keçirilən MDB Elektroenergetika Şurasının 50-ci yubiley iclasına Energetika Nazirliyinin nümayəndəsi də qatılıb. 04 noyabr 2017-ci il tarixində MDB Elektroenergetika Şurasının Özbəkistanın Daşkənd şəhərində keçirilən 51-ci iclasında energetika nazirinin müavini Natiq Abbasov iştirak edib (11).

Ümumiyyətlə, Azərbaycan MDB daxilində iqtisadi inteqrasiya proseslərinin gücləndirilməsində maraqlıdır. MDB ölkələri arasında iqtisadi əməkdaşlığın əsas istiqamətləri təşkilatın Nizamnaməsində öz əksini tapmışdır. Bura bazar münasibətləri və əmtəələrin, xidmətlərin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkəti əsasında ümumi iqtisadi məkanın formalaşdırılması, sosial siyasətin əlaqələndirilməsi, iqtisadi islahatların həyata keçirilməsi ilə əlaqədar olaraq yaranan sosial gərginliyin azaldılması üçün birgə sosial proqramların işlənib hazırlanması, nəqliyyat və rabitənin, enerji sistemlərinin inkişaf etdirilməsi, kredit-maliyyə siyasətinin əlaqələndirilməsi, sərmayələrin həvəsləndirilməsi və qarşılıqlı müdafiəsi, ticarət-iqtisadi əlaqələrinin inkişafına, sənaye məhsullarının və əmtəələrin standartlaşdırılması və sertifikatlaşdırılmasına yardım göstərilməsi və s. daxildir (8, 88).

Azərbaycan Respublikası tərəfindən bütün MDB ölkələri (Ermənistandan başqa) ilə azad ticarət rejimi yaradılmış, sərbəst sərmayə üçün hüquqi baza tərtib olunmuşdur. Azərbaycan MDB-nin 2020-ci ilə qədər dövr üçün İqtisadi inkişaf strategiyasının həyata keçirilməsində iştirak edir, Tədbirlər Planına uyğun olaraq hər ilin yekunu barədə müvafiq hesabat MDB-nin İcraiyyə Komitəsinə təqdim edilir. Ölkənin ticarət siyasəti barədə icmal-

lar mütəmadi olaraq hazırlanır, son icmal 2017-ci ildə hazırlanaraq, MDB-nin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Beləliklə, Azərbaycan-MDB münasibətlərinin inkişafını nəzərdən keçirdikdən sonra görmək olar ki, bu təşkilat ilə ölkəmizin münasibətlərinin geosiyasi əhəmiyyətləri olduqca böyükdür. Çünki Azərbaycan üçün post-sovet məkanı ilə münasibətlərin qorunması və inkişafı zəruridir. Bu həm də Ermənistanın qeyd edilən coğrafi arealda birtərəfli üstünlüyünə mane olmaqdadır.

## Ədəbiyyat

1. Azərbaycan Prezidenti İlham Əliyev Minskdə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib: Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı *(10 oktyabr 2014-cü il).* "Xalq qəzeti", 2014, 12 oktyabr, № 220, s.1-3
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2008, 504 s.
3. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlukəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi LTD, 2016, 700 s.
4. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, 631 s.
5. Qasımova H. Xarici əlaqələr hüququ. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2008, 480 s.
6. Qladey D. Parlamentarizm və dövlət quruculuğu: MDB PAA iştirakçı-ölkələrin təcrübəsi // "MDB PAA iştirakçısı olan dövlətlərdə demokratik islahatlar: Azərbaycan Respublikasının təcrübəsi" Seminar materialları toplusu. Lerik, 18 aprel 2017-ci il, Bakı, s.32-39
7. Məmmədov E. "Müasir dovrdə Azərbaycan və Rusiya əlaqələri". Bakı, "Yazıçı" nəşriyyatı, 2014, 184 s.
8. Şahmuradov A. MDB-də iqtisadi inteqrasiya və təhlükəsizlik məsələləri haqqında. "Bakı Universitetinin xəbərləri", №2, humanitar elmlər seriyası, 2013, s.87-97
9. Никитина Ю. От интеграции к регионализму: эволюция теорий регионального межгосударственного сотрудничества // Вестник МГИМО — Университет, 2010, № 6 (15), М. с.134-139
10. http://lib.aliyevheritage.org/az/8089440.html
11. http://minenergy.gov.az/upload/files/beynekxalq_teshkilatlar/MDB_ELEKTROENERGET%C4%B0KA_SHURA.pdf

## GEOPOLITICAL IMPORTANCE OF RELATIONS WITH THE CIS FOR THE FOREIGN POLICY OF AZERBAIJAN

**B.E.Nabiyev**

### SUMMARY

This article deals with the geopolitical importance of relations with the CIS for Azerbaijan's foreign policy. The author notes that the relations with the CIS have a special place in the foreign policy of Azerbaijan. In the first years after Azerbaijan reaffirmed its independence, country's main goal in joining the CIS was to normalize its relationship with Russia. Using the CIS, National Leader Heydar Aliyev opposed the propaganda of

the aggressive state of Armenia and protected the interests of Azerbaijan. The President of the Republic of Azerbaijan Ilham Aliyev also repeatedly noted the place of the CIS in Azerbaijan's foreign policy.

## ГЕОПОЛИТИЧЕСКОЕ ЗНАЧЕНИЕ ОТНОШЕНИЙ С СНГ ДЛЯ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА

**Б.Э.Набиев**

## РЕЗЮМЕ

В статье рассматривается геополитическое значение отношений с СНГ для внешней политики Азербайджана. Автор отмечает, что отношения со странами СНГ занимают особое место во внешней политике Азербайджана. В первые годы после восстановления независимости, основной целью вхождения Азербайджана в СНГ была нормализация отношений с Россией. Используя возможности СНГ, Общенациональный Лидер Гейдар Алиев выступал против пропаганды агрессивного государства Армении и защищал интересы Азербайджана. Президент Азербайджанской Республики Ильхам Алиев также неоднократно отмечал в своих выступлениях о значимости СНГ для внешней политики Азербайджана.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# XƏZƏR REGİONU ÖLKƏLƏRİ ARASINDA TÜRKİYƏNİN XARİCİ İQTİSADİ SİYASƏTİNİN SABİTLƏŞDİRİCİ AMİLLƏRİ

**H.S.Karademir**
Bakı Slavyan Universiteti
Bakı, S.Rüstəm küçəsi 33
e-mail: karademir.hasan @bk.ru

***Açar sözlər:*** Xəzər regionu, Cənubi Qafqaz, iqtisadi siyasət, Türkiyə, təbii ehtiyatlar, neft hasilatı
***Keywords:*** Caspian region, Southern Caucasus, economic policy, Turkey, natural resources, oil production
***Ключевые слова:*** Каспийский регион, Южный Кавказ, экономическая политика, Турция, природные ресурсы, добыча нефти

1991-ci ilin sonunda Sovet İttifaqı dağıldıqdan və Azərbaycan, Türkmənistan, Qırğızıstan, Özbəkistan və Qazaxıstan müstəqillik əldə etdikdən sonra Xəzər regionunda həm iqtisadi vəziyyət, həm də qarşılıqlı beynəlxalq əlaqələr əhəmiyyətli dərəcədə dəyişdi. Səciyyəvi haldır ki, Türkiyə və Amerika diplomatiyasının biznes dairələrində bu dövrdən başlayaraq Cənubi Qafqazın, daha doğrusu, Qazaxıstan, Azərbaycan və Türkmənistan kimi Xəzəryanı dövlətlərin ən kəskin və ağrılı problemlərinə diqqət kəskin şəkildə artır. 1990-cı ilin ortalarından başlayaraq Türkiyə və Amerikanın aparıcı şirkətləri buradakı əsasən enerji ilə bağlı olan geniş və çoxşaxəli fəaliyyətlərini tədricən genişləndirirlər. Bu şirkətlər Xəzər regionu ölkələrinin təbii ehtiyatlarının öyrənilməsində və onlara diqqətin artırılmasında müəyyən dərəcədə rol oynayırlar. Belə işlər xüsusilə Azərbaycanda aktiv həyata keçirilir. Gündəmdə ilk növbədə Xəzər şelfinin məsələsi olmuşdur. Bu məsələ Amerika Birləşmiş Ştatları üçün o qədər vacib və aktual idi ki, onlar bəzi Xəzəryanı zonalarını öz həyati ehtiyaclarının sahəsi elan etmişdilər.

XXI əsrin əvvəllərində ABŞ Rusiya və Xəzər dənizi hövzəsində neft və qaz hasil edən ayrı-ayrı ölkələr arasında münaqişəni qızışdırmaqla strateji məqsədlərə nail olmağa çalışırdı. Başqa sözlə, ABŞ öz ərazisindən Çin sərhədinə, Himalaya qədər NATO-nun müəyyən təsirini yaymaq məqsədini güdürdü. Eyni zamanda burada ana xətt təbii qaz və neftin yalnız Rusiya ərazisi vasitəsilə nəql edilməsini təşkil edirdi. Yeri gəlmişkən, bu dövrdə dünyanın ən böyük neft maqnatları olan “Mobil”, “Şevron” və “Shell” “Bakı-Ceyhan” marşrutu layihəsinin maliyyələşdirilməsini davam etdirilirdi.

Bunu müşahidə etmək çətin deyil ki, Cənubi Qafqazda Amerikanın iddialı planları kifayət qədər geniş yayılmışdı. Bundan başqa, onlar açıq-aydın iki məqsəd güdürdü: bir tərəfdən, Amerika Birləşmiş Ştatlarında bu strateji planlar onların siyasi və iqtisadi mövqelərinin daha geniş yayılmasına yönəlmişdi. Axı Amerika Birləşmiş Ştatları Xəzər regionunda Türkiyənin iqtisadi maraqları ilə hesablaşmaya bilməzdi. Digər tərəfdən, ABŞ siyasəti eyni zamanda Xəzər hövzəsində Rusiyanın mövqeyini zəiflətməyə yönəldilmişdi. Bundan başqa, əsrlərin qovşağında Xəzər regionunda neft və qaz hasilatı prosesində əhəmiyyətli rolun Türkiyəyə də məxsus olduğunu ABŞ-da əslində yaxşı bilirdilər. Çünki Türkiyə NATO-nun yeganə müsəlman ölkəsi və daha vacibi onun türk üzvü idi. Göstərilən marşrutun hərbi baxımdan təmin edilməsi məhz Türkiyəyə həvalə edilə bilərdi.

Bunu da xatırlatmaq lazımdır ki, 1992-ci ilin əvvəllərində Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəl belə bir fikir səsləndirmişdi ki, Sovet İttifaqının tamamilə dağılması səbəbindən Böyük Çin səddindən Adriatik dənizinədək uzanan böyük əhəmiyyətə malik türk dünyasının yenidən yaradılması üçün parlaq perspektivlər açılmışdır.

Və görünür ki, Dəmirəl Adriatikanın adını əbəs yerə çəkməmişdi; 1999-cu ildə Yuqoslaviyaya qarşı Türkiyənin NATO-nun fəaliyyətini dəstəkləməsi o illərdə, üstəlik, ərəb-türk münasibətlərinin möhkəmləndiyi bir vaxtda, sözün əsl mənasında həyəcan siqnalı yaratmışdı.

Həmin məsələ ilə əlaqədar başqa bir bəyanatı türkdilli respublikaların MDB ilə Rabitə Naziri Abdulhaluk Çey verdi. O, "Böyük Osman imperiyası"nın faktiki reabilitasiyası flaqmanı altında öz ölkəsində "Türk birliyi"nin yaradılması uğrunda çıxış etdi. Bu bəyanat çox müzakirələrə, daha doğrusu Rusiya Xarici İşlər Nazirliyinin mənfi reaksiyasına səbəb oldu. XİN Türkiyənin Rabitə Nazirinin çıxışını sərt tənqid etdi. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin adından informasiya və mətbuat üzrə şöbənin xüsusi hesabatı yayıldı. Həmin hesabatda qeyd edilirdi, ki Abdulhaluk Çey aydın şəkildə Rusiya haqqında yanlış bəyanatlar vermişdir. Bundan başqa, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi belə hesab etmişdi ki, belə bəyanatları Türkiyə-Rusiya münasibətlərinin səviyyəsinə uyğun dostcasına adlandırmaq olmaz.

Həmin sənəddə Rusiya Xarici İşlər Nazirliyinin yüksək nümayəndələrinin adından aşağıdakılar vurğulanmışdı: "... MDB-nin türkdilli respublikaları ilə Türkiyə rabitə naziri Abdulhaluk Çey tərəfindən etnik zəmində xüsusi cəmiyyətin yaradılması haqqında ideyası heç bir şəkildə Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrində səmərəli və səmimi anlaşma və əməkdaşlığın möhkəmləndirilməsinə yardım ola bilməz". Rusiya Xarici İşlər Nazirliyi belə bir mesajla əlaqədar bunları söylədi: "Biz ümid edirik ki, belə bir mənfi düşüncə tərzi Türkiyə dövlət liderlərinin real mövqeyini əks etdirmir" [2].

Lakin, Rusiya Xarici İşlər Nazirliyinin belə reaksiyası, gələcəkdə məlum olduğu kimi, əbəs yerə idi. Bunu etiraf etmək nə qədər kədərli olsa da, Türkiyədə əsas hadisələr fərqli bir ssenari üzrə inkişaf etməyə başladı. Sadə dillə desək, o zaman Rusiyanın ümüdləri boşa çıxdı. 2000-ci il yanvarın sonunda Abdulhaluk Çey ilk dəfə öz hakimiyyəti dövründə "Türk Birliyi" adlı cəmiyyətin yaradılması üçün olduqca konkret və aydın təkliflər təqdim etmək qərarına gəldi. Nazir rəsmi olaraq açıqladı ki, Birliyin bütün türkdilli respublikaları ilk öncə öz iqtisadi qanunvericiliyini dəyişməlidir. Onun sözlərinə görə, həmin qanunvericilik uzun illər Rusiyanın köhnəlmiş norma və standartlarına əsaslandırılmışdır.

Sonra Abdulhaluk Çey xüsusi arbitraj komitəsinin yaradılması təklifini irəli sürdü. Onun fərziyyələrinə əsasən, həmin strategiyaların əsas funksiyasına xarici investisiyaların qısa müddətdə cəlb edilməsi ilə bağlı ən vacib strategiyanın inkişafı daxildir [3]. Bu strategiya əsasən müsəlman əhalinin üstünlük təşkil etdiyi Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistan kimi ölkələr, o cümlədən Cənubi Qafqaz regionu ilə bağlıdır. XXI əsrin əvvəllərindən Ankara belə bir siyasi kursun köməyi ilə ciddi və bütün məsuliyyəti ilə qoyulmuş məqsədin iqtisadi tərəfinin həyata keçirilməsini öhdəsinə götürdü.

Qeyd etmək lazımdır ki, türkdilli respublikaların əksəriyyəti arasında Ankara Azərbaycan Respublikasına daha çox diqqət yetirirdi. Azərbaycan-Türkiyə əlaqələri 1992-ci lin sonu-1993-cü ilin əvvəlində xüsusilə güclənmişdi. Məhz bu tarixi dövrdə gənc

Respublikanın Prezidenti Xalq Cəbhəsinin lideri pan-türkçü Elçibəy seçildi. O, dərhal açıq-aşkar Böyük Azərbaycan Respublikasının yaradılması şüarını irəli sürdü.

Səciyyəvi haldır ki, bu bəyanat Elçibəy tərəfindən ABŞ diplomatiyası, anti-İran isteriyasının kəşfiyyat və geniş təbliğat şəbəkəsi, xüsusilə, iqtisadi sahədə Türkiyə və Azərbaycanda onsuz da qeyri-sağlam mövcud olan vəziyyəti kəskinləşdirməkdə davam edərkən irəli sürülmüşdü. ABŞ açıq-aşkar və, həmçinin, əsassız olaraq İran paytaxtını beynəlxalq terrorizmə və islam fundamentalizminə dəstəkdə, İranın iqtisadi blokadasında gücləndirməkdə ittiham edirdi.

Lakin, Əbülfəz Elçibəy öz siyasi xəttini yeritməkdə davam edirdi. O, yeddi il Naxçıvanda keçmiş prezident qismində "ev həbsi"ndə olan zaman Ankarada bir tərəfdən "türk qardaşlarını Dağlıq Qarabağı ermənilərin təcavüzündən, digər tərəfdən – Cənubi Azərbaycanın İranın işğalından azad edilməsində Bakıya yardımçı olmağa çağırırdı". Elçibəy "türklərin böyük əksəriyyətini təşkil edən vahid dövlətin yaradılmasında təbii hüquq" haqqında danışmaqdan yorulmurdu. Onun ideyasına əsasən, həmin "dövlətin" tərkibinə yaxın gələcəkdə bir sıra ölkələr – Türkiyə, Şimali Azərbaycan və Cənubi Azərbaycan daxil edilməli idi.

Elçibəyin fikrincə, qırx milyon Azərbaycan türkləri və yetmiş milyon anadolu türkləri tezliklə yüz on milyonluq dövlət yaratmaq üçün birləşməlidirlər. Bu, güclü regional dövləti olmalı və bütün dünya onun fikirlərini nəzərə almalı idi [4].

Yeni minilliyin əvvəlində Azərbaycan Respublikasının keçmiş prezidentinin siyasi doktrinası daha çox ultra-millətçi partiya olan Milli Hərəkat Partiyası tərəfindən dəstəklənməyə başlayır. Həmin partiya cari tarixi dövrdə Türkiyəni hazırda idarə edən hakim koalisiyaya daxil idi. Onun rəhbərliyi ölkənin qismən siyasi və iqtisadi potensialını bərpa etmək və türk ultramillətçilərin 2003-cü ilin sonunda Heydər Əliyevin siyasi karyerası tam başa çatdıqdan sonra Əbülfəz Elçibəyi Azərbaycanın gələcək prezidenti görmək arzusunu dünyaya nümayiş etdirmək üçün onu Türkiyəyə dəvət etmişdi [1].

Lakin, etiraf etmək lazımdır ki, Türkiyə tərəfindən nümayiş etdirilən belə bir aktivlik yalnız Azərbaycanla bağlı mövcud olan siyasi əlaqələrlə məhdud deyildi. Söhbət daha çox Türkiyə vasitəsilə Azərbaycan və Cənubi Qafqazın digər respublikaları ilə iqtisadi balansı yaratmaqdan gedirdi. Məhz 1992-ci ildən başlayaraq, müntəzəm və sistemli şəkildə konfranslar və müxtəlif türkdilli ölkələrin – Azərbaycan, Qazaxıstan və Orta Asiya dövlətlərinin rəhbərlərinin zirvə toplantısı keçirilir. Hesabla altıncı olan bir sıra türk dövlət başçılarının sonuncu sammiti 2000-ci il aprelin əvvəlində Bakıda keçirilmişdi.

Həmin sammitin nəticələrinə əsasən "Bakı Bəyannaməsi" qəbul edilmişdi. Burada daha sürətli inkişafın, ikitərəfli və eyni zamanda çoxtərəfli əməkdaşlığın təkmilləşdirilməsi və dərinləşməsinin, mövcud hüquqi hökumət beynəlxalq təşkilatlar çərçivəsində bir sıra türkdilli ölkələrin eyni zamanda qarşılıqlı əlaqələrinin ən əsas prinsipləri əks olunurdu.

Sözügedən bəyannamədə məşhur İpək Yolunun bərpasının, eləcə də bütün Cənubi Qafqaz regionunun təbii ehtiyatlarının hasilatında təkmilləşdirmənin əhəmiyyəti və aktuallığı vurğulanmışdı. İlk növbədə bu bəyannamədə söhbət qaz və neft tədarükü, onların ən səmərəli nəqliyyatı, "Avrasiya dəhlizi"nin fəaliyyətindən gedirdi.

Bu tarixi sammitdə, eləcə də, Türkiyənin paytaxtında daimi fəaliyyət göstərən milli orqanların, xüsusilə türk xalqları ölkələrin katibliyini qurmaq barədə qərar qəbul edilmişdi. Onların əsas vəzifəsinə müxtəlif görüşlərin, sənədləşmənin hazırlanması və s. daxil idi. Xüsusilə, 2001-ci ildə aprelin əvvəlində İstanbulda əsas siyasi və iqtisadi məsələlərin müzakirə olunacağı sonrakı görüşlər barədə qarşılıqlı razılıq əldə edilmişdi. O vaxtdan bə-

ri Türkiyənin iqtisadi platforması həm ABŞ, həm də Cənubi Qafqaz ölkələri tərəfindən fikir ayrılıqları və ziddiyyətlərinin çarpaz alovu altında qalmışdı.

Azərbaycan neftinə gəldikdə isə onun Abşeron yarımadasında mövcud olması qədim zamanlardan məlum olub. Dini mərasimlər zamanı Zərdüşt məbədlərində neftdən istifadə olunurdu. Təsadüfi deyil ki, Bakıda 1900-cü ildə tikilmiş dünyada ilk tanker “Zərdüşt” adlanırdı. XX əsrin əvvəllərində Nobel firması, “Shell” və rus iş adamlarının fəal iştirakı ilə Bakı neft hasilatına görə o zaman məşhur olan “Standard Oil”i ötərək, dünyada birinci yeri tutmuşdu.

XX əsrin üç rübü ərzində İran neftini ixtisaslaşdırılmış “İran-İngilis neft şirkəti” hasil edirdi. Həmin şirkət XXI əsrdə geniş ictimaiyyətə “British Petroleum” adı altında tanınmışdır. Demək olar ki, bu şirkət, əlbəttə, dünya iqtisadi məkanında ən nüfuzlu və hətta aqressiv neft korporasiyalarından biri sayılır, uzun müddət müstəmləkə təcrübəsinə malikdir. Eyni zamanda bir neçə Xəzəryanı respublikaların iqtisadi və siyasi müstəqillik əldə edən zaman bəzi aparıcı Britaniya və Amerika neft və qaz inhisarı nəinki sahilboyu zonaları, eyni zamanda Xəzər dənizi, Türkmənistan, Azərbaycan və Qazaxıstanın dərinliklərini mənimsəməyə başladılar.

XXI əsrin ilk illərində ABŞ və Böyük Britaniya uzunmüddətli məqsədi təxminən Rusiya Federasiyasını qəti surətdə, Xəzər yarımadasındakı limanlar da daxil olmaqla, Qara dəniz sahilində Novorossiyskdən Tuapseyədək onun əsas nəqliyyat limanından ayırmaq idi. Qərb və Avropa dövlətlərinin təsiri Həştərxandan Mahaçkalaya kimi yayılmalı idi. Bununla belə, ABŞ və İngiltərə Rusiyanı iqtisadi cəhətdən geriyə, az qala XVI əsrə, IV İvanın hakimiyyəti dövründəki ərazi sərhədlərinə atmaq arzusunda idilər.

Amma belə alındı ki, Amerika Birləşmiş Ştatlarının bu iqtisadi siyasətini həyata keçirmək yalnız Böyük Britaniya ilə ittifaqda olduğu üçün faktiki olaraq mümkün olmadı. O, NATO-nun sadiq müttəfiqi Türkiyəni fəal surətdə öz bayrağı altına çağırdı. Bundan başqa, həmin dövrdə bu uzunmüddətli siyasətin həyata keçirilməsi asan deyildi. Məhz 1991-ci ilin aprelindən başlayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gərginləşməsinin yeni mərhələsi başladı. Həmin ildə “Amoco”nun rəhbərlik etdiyi aparıcı neft və qaz korporasiyalarının nümayəndə heyəti Bakıya gəldi. Sonra onların rəqiblərinin bəzi nümayəndələri – “Pennzoyl” və “Yunokal” şirkətləri – Azərbaycan paytaxtında oldu. Bu şirkətlərin birgə görüşlərində əsasən birbaşa şelfdə yerləşən Azəri yatağına qoyulan əmanət hüququnun əsaslandırılmasını əsas tutan inhisar güzəştlərdən əldə olunan ölçülər haqqında danışıldı.

Qeyd etmək maraqlıdır ki, ABŞ Konqresinin Ermənistanla münaqişəyə görə Azərbaycana qarşı sanksiyaların tətbiqi barədə 907 saylı qətnaməni qəbul etməyi bir çox Amerika neft şirkətlərini Azərbaycanın hakim dairələri ilə işgüzar görüşlər və danışıqları zamanı heç nədən çəkindirmirdi.

Lakin bu ziddiyyətlərdə və fərqliliklərdə ABŞ o faktı nəzərə almırdı ki, onların iqtisadi tərəfdaşı – Türkiyə bir çox məlum səbəblərə görə Azərbaycanın mövqeyini həmişə müdafiə edirdi. Bu, Cənubi Qafqazda təkcə iqtisadi maraqlarla deyil, həm də mənəvi tərəflə bağlı idi.

Bundan bir az sonra 1992-ci ilin sentyabrında Böyük Britaniyanın Baş naziri xanım Marqaret Tetçer Azərbaycan paytaxtında gəldi. O, Bakıda Azərbaycan rəhbərliyinə “British Petroleum” korporasiyasının müdiriyyəti adından otuz milyon dollar məbləğində çeki təqdim etdi.

Amerika Birləşmiş Ştatlarından olan bəzi rəqiblər maliyyəni bölüşdürməyin vacib olduğunu başa düşürdülər. 1994-cü ilin sentyabrında Bakıda təntənəli mərasimdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin təqdimatı oldu. Bu şirkətin əsas səhmdarları Britaniya və Amerika neft şirkətləri idi. Şirkətlərin rəhbərliyi növbəti on beş il ərzində üç böyük dəniz yatağının istismarına $7,5 milyard sərmayə qoymağı öz öhdələrinə götürdülər.

Avropa və Qərb şirkətlərinin nümayəndələri hesab edirdilər ki, bu şelfin ərazisində böyük neft ehtiyatları var. O vaxtdən bu şirkətlərin konsorsiumu Xəzər dənizində qaz və xüsusilə neft yataqlarının gələcək istismarında mühüm rol oynayır. Ekspertlər deyirdilər ki, bu şelfdə ən azı iyirmi milyard ton neft əldə edə biləcəklər.

O vaxtdan bəri şirkətlərin konsorsiumu Türkiyə ilə birlikdə daha israrla Cənubi Qafqazda iqtisadi liderliyə can atmağa başladı. Bu, 1995-ci ilin sentyabr əvvəlində dünya şöhrətli siyasi alim Zbignev Bjezinskinin Azərbaycan rəhbərliyi ilə Bakıda keçirilən “Tam məxfi” adlı görüşü zamanı daha aydın hiss edilirdi. O, öz növbəsində, nəinki “AMOKO” korporasiyasının əsas məsləhətçilərindən biri kimi, həm də Bill Klintonun gizli nümayəndəsi qismində çıxış edirdi. Təsadüfi deyil ki, həmin illərdə ABŞ Konqresi, Dövlət Departamenti və Ağ Ev rəsmi olaraq bütün dünyaya bəyan etmişdilər ki, Cənubi Qafqaz və onunla birlikdə bütün Xəzər regionu mahiyyətcə “ABŞ-ın əsas strateji maraqları zonası”na daxildir. Yeri gəlmişkən, ABŞ-ın aparıcı iqtisadçıları bu respublikaların rəhbərlərini öz müttəfiqləri hesab edirdilər.

Obyektivliyə gəlincə, bir neçə Avropa hökumətləri və Qərb dövlətləri 1999-cu ilin aprelində Gürcüstan, Özbəkistan və Azərbaycanın MDB Kollektiv Təhlükəsizlik Müqaviləsindən çıxmaq barədə 15 may 1992-ci ildə Daşkənddə imzalanmış qərarını ciddi surətdə müzakirə etməyə başladı. Qeyd etmək lazımdır ki, GUÖAM formal texniki-iqtisadi birliyinin, yəni Ukrayna, Gürcüstan, Azərbaycan, Özbəkistan və Moldova arasında əməkdaşlıq haqqında Sazişin kəskin intensivləşməsi də bunu göstərdi (yeri gəlmişkən, abreviatura əlifba sırası olmadan ABŞ hərbi bazasının yerləşdiyi adanın adını xatırladırdı, lakin Özbəkistan GUAM-a qatıldıqdan sonra bu oxşarlıq itdi).

Qeyd edək ki, bu ilk Sazişdə sırf iqtisadi məsələlər qoyulmuşdu, müvafiq məqsədlər izlənilirdi. Onların arasında Qara dəniz və Poti limanı vasitəsilə Azərbaycan neftinin nəqlinin əsas yollarının müəyyənləşdirilməsini qeyd etmək olar. Bu yollar Rusiya ərazisindən yan keçməklə Moldova və Ukrayna neft boru kəmərlərinin vasitəsilə Mərkəzi Avropaya getməli idi. Amma qısa müddətdə NATO ilə məhdud hərbi əməkdaşlığa hazır olduğunu bildirdikdən sonra birlik getdikcə NATOyönlü xarakter daşımağa başlayır. Bu da NATO-nun Vaşinqtonda 1999-cu il aprelində keçirilən ildönümü sessiyasında respublikaların prezidentlərinin iştirakı ilə sübut edilir.

1999-cu ilin dekabrında Azərbaycan regional xarakter daşıyacaq Bakı Məlumat Mərkəzinin yaradılması layihəsini rəsmi şəkildə NATO rəhbərliyinə təqdim etdi. Ehtimal olunurdu ki, açılış 2000-ci ilin sentyabrında NATO Baş katibinin Bakıya səfərinə həsr olunacaq [5]. Gürcüstan isə artıq 2005-ci ildə NATO-ya daxil olmaq istəyini bildirmişdi.

Amma bu irəli sürülən təklifə gözlənilmədən Türkiyə də müdaxilə etdi. Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyev “Şərq” yerli xəbər agentliyinə verdiyi müsahibəsində qeyd etmişdi ki, Bakı rəsmən Tbilisi və Ankara ilə hərbi paktın yaradılması ideyasını tam şəkildə dəstəkləyir. Onun rəhbərlik etdiyi Xarici İşlər Nazirliyi belə hesab edir ki, Azərbaycan, Türkiyə və Gürcüstan, yəni ilk növbədə türklər və Cənubi Qafqaz respublikaları arasında strateji və iqtisadi ittifaq həmişə qarşılıq-

lı faydalı ticarət əlaqələrinin daha da möhkəmləndirilməsinə, eləcə də regionda sabitlik və təhlükəsizliyə yönəlmişdir.

V.Quliyev həm də onu qeyd etmişdi ki, Cənubi Qafqazda yeni hərbi doktrinanın formalaşdırılması ideyasının kökündə Gürcüstan, Azərbaycan və Türkiyə liderləri tərəfindən xüsusi "Sabitlik Paktı"nın yenidən yaradılması barədə irəli sürülən təkliflər durur. 2000-ci ilə qədər bu ideya tam həyata keçmədi, çünki Dəmirəlin, Heydər Əliyevin və Şevardnadzenin mühüm və aktual təşəbbüsləri, hətta Ankara, Bakı və Tbilisinin hərbi blok yaratmaq arzusuna işarə edilmədən xəyali "regional pərdə" kimi təqdim edildi, hansı ki, Ermənistan, Rusiya və İrana qarşı yönəldilə bilərdi.

Bu layihənin həyata keçirilməsi təqdirdə Ermənistan öz təhlükəsizliyini təmin etmək məqsədi ilə iqtisadi cəhətdən faydasız olan "bloksuz" siyasətdən imtina etməli idi. O da istisna edilmirdi ki, Gürcüstan, Türkiyə və Azərbaycan arasında hərbi paktın yaradılması haqqında strateji ideyanın potensial həyata keçirilməsinin əsas nəticəsi (Mərkəzi Asiya ərazisində gələcəkdə yayılması perspektivi ilə) Yerevan, Moskva və Tehranın iştirakı ilə bu regionda yeni ticarət yollarının açılışı ola bilərdi.

1999-cu il noyabrın sonunda İstanbulda ABŞ-ın birbaşa nəzarəti altında ATƏT-in üzv-dövlətlərinin hökumət başçılarının görüşlərində ixrac boru kəməri (MEP) ilə bağlı müqavilələrin xüsusi paketi qəbul edilmişdir. Əvvəlcədən qeyd etmək lazımdır ki, on beş illik tarixə kimi olan dövrdə sonralar "Əsrin müqaviləsi" adlanan bu müqavilə hələ də müvafiq qaydada hazır deyildi.

1999-cu il dekabrın əvvəlində Gürcüstan, Azərbaycan, Türkiyə və Türkmənistan prezidentləri, bu gün aşkar olduğu kimi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi üçün daha çox iqtisadi qeyri-sabit, faydasız və çox siyasiləşdirilmiş müqavilə imzaladı. Fikir maraqlı, zəngin idi – dünya bazarına Xəzər neftinin nəqli. Lakin məsələnin mahiyyəti ondan ibarət idi ki, bu layihə daha çox iqtisadi cəhətdən sərfəli və, əlbəttə, məqsədyönlü olan Bakı-Novorossiysk neft kəmərinin əleyhinə yönəlmişdi. Bu layihə ən azı Rusiyanı enerji resursları çox zəngin olan Xəzər regionundan qismən sıxışdırılması məqsədini güdürdü. Çünki təsadüfi deyil ki, ABŞ prezidenti Bill Klinton bu layihəni "XX əsrin sonunda mühüm nailiyyət" adlandırmışdı. Bununla Xəzər neftini Rusiyadan yan keçməklə nəql etmək öhdəliyi təsdiq edildi.

Burada, əvvəllərdə olduğu kimi, Türkiyənin iqtisadi platformasına yenə də digər ölkələrdəki fərqlər və ziddiyyətlər müdaxilə etdi. Söhbət imzalanmanın layihənin eyni zamanda siyasi mərhələsini tamamlamasından gedir. ABŞ özünün məsuliyyətini onda hiss edir ki, İraqa qarşı embarqo nəticəsində dost ölkə Türkiyənin büdcəsinə İran və İraq neftinin tranziti üçün heç bir gəlir daxil olmamışdır. Çünki bu neft yalnız Ceyhan limanından göndərilirdi. Bütün illər "Səhrada fırtına" hərbi əməliyyatının ardından Türkiyə ona dəymiş zərərin kompensasiyasını Amerika Birləşmiş Ştatlarından səbirlə gözləyir.

Layihənin iqtisadi mənadan daha çox siyasi əhəmiyyət daşıdığını İstambul görüşlərinin iştirakçılarının söylədiyi fikirlər sübut edir. Belə ki, Azərbaycan Prezidenti Heydər Əliyev "Azəri-Çıraq-Günəşli" yataqları üzrə 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə başlayan respublikanın yeni neft strategiyasının davamı kimi əsas ixrac boru kəməri ilə bağlı müqavilələrin imzalanmasını yüksək qiymətləndirmişdi. Burada qeyd etmək lazımdır ki, əsas ixrac boru kəməri ilə bağlı müqavilələrin imzalanmasını ABŞ-ın Enerji naziri Bill Riçardson "çox əhəmiyyətli xarici siyasətlə bağlı qələbə" kimi qeyd etmişdi. Onun sözlərinə görə, bu "Amerikanın milli maraqlarını irəli aparan strateji

sazişdir".

Onu da qeyd etmək lazımdır ki, Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadzenin seçki proqramında respublika ərazisindən "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Supsa" boru kəmərləri, Trans-Xəzər qaz kəmərinin çəkilişi "Avrasiya məkanında" mühüm strateji irəliləyiş kimi hesab olunurdu.

Bu fikir bir çox iqtisadi məqsədlər güdürdü. Onların ən mühümlərini qeyd edək:

1) Mövcud Bakı-Novorossiysk boru kəməri ilə Azərbaycan neftinin nəqlindən yaranan iqtisadi gəlirlərdən Rusiyanı məhrum etmək;

2) Həmçinin Novorossiyskə Qazaxıstan neftinin nəqli ilə bağlı Xəzər Boru Kəməri Konsorsiumda həmin planların pozulması;

3) Rusiyanın Cənubi Qafqaz və Mərkəzi Asiya ilə əlaqələrin və münasibətlərin kəskin zəifləməsi;

4) Rusiyanın Şimali Qafqazda mövqeyinin zəifləməsini maksimal surətdə təmin etmək. Ehtimal olunurdu ki, əks təzahür qısa müddətdə bir çox xoşagəlməz və hətta bəzi iqtisadçılar, ekspertlərin rəyinə görə Cənubi Qafqazda partlayıcı vəziyyət yaratmağa qadirdir. Bundan başqa, münaqişə Şimali Qafqazda, Krasnodar, Stavropol, Rostov və Həştərxan bölgələrində yarana bilərdi.

Hadisələrin bu ssenari ilə inkişafı ona görə mümkün olmuşdur ki, son on beş il ərzində, yəni bu günə qədər, Xəzər neft zonası ilə bağlı Rusiyanın xarici siyasəti aydın və ardıcıl olmamışdır. Azərbaycanın Moskva üçün geosiyasi və iqtisadi cəhətdən əhəmiyyətli olduğuna baxmayaraq, Rusiya bütün MDB ölkələrindən əvvəl Azərbaycan ərazisindən öz qoşunlarını geri çağırdı. Amma Rusiya Federasiyasının qoşunları təəssüf ki, Gürcüstan və Ermənistanda hələ də durur. Lakin, qeyd edək ki, Rusiya Federasiyasının bu gün Ermənistanla hərbi-siyasi əməkdaşlıq istisna olmaqla, Azərbaycana heç bir təzyiq vasitəsi qalmayıb.

Rusiya Xəzər dənizinin statusu haqqında məsələdə də Azərbaycan və digər Xəzəryanı ölkələrə təsir etmək qabiliyyətini itirmişdi, lakin buna baxmayaraq o, 1920-ci ildən 1940-cı ilədək keçmiş Sovet İttifaqı və İran arasında Xəzərin statusunun müəyyənləşdirilməsi haqqında bağlanan müqavilələr əsasında bu məsələ ilə bağlı Aşqabad və Tehranın dəstəyini almışdı. Lakin, milli sahədə Xəzər sektorunun bölünməsini tanıyaraq, Rusiya üçün öz maraqlarını qorumaq uğursuz oldu. Moskvada 1998-ci ilin iyulunda Qazaxıstan və Rusiya prezidentləri Xəzərin şimal hissəsinin bölünməsi haqqında saziş imzaladılar. Saziş imzalandıqdan sonra, Türkmənistan bu sektor üzrə Xəzər dənizinin bölünməsi ilə razılaşdı, hansını ki, Amerika buna Azərbaycanın köməyi ilə nail olmaq istəmişdi.

XXI əsrin ilk onilliyində Xəzər regionunda Rusiyanın təsirinin zəifləməsinə Xəzərin ayrı-ayrı neft zonasına bölünməsi məsələsində Rusiya Federasiyası Xarici İşlər Nazirliyi və Rusiya neft şirkətlərinin ziddiyyətli mövqeyi də xidmət etmişdir. Məsələn, Rusiya Xarici İşlər Nazirliyi belə bölünməyə etiraz edən zaman, "LUKOYL" və Mərkəzi Yanacaq Kompaniyası Rusiyanın mövqeyini nəzərə almadan Xəzər dənizinin Azərbaycan sektorunda Bakıda neft hasilatı ilə bağlı müqavilə imzalamışdı. Qeyd etmək lazımdır ki, Amerika neft şirkətləri Vaşinqton administrasiyasının qanun şəklində təsdiq etmədiyi layihələrdə iştirak etmirlər.

**Ədəbiyyat**

1. Гаджизаде А. Тюркский мир консолидируется. Независимая газета, 11 апреля 2000 г.
2. Независимая газета, 21 января 2000 г.
3. Независимая газета, 2 февраля 2000 г.
4. Независимая газета, 8 апреля 2000 г.
5. Романов П. В Баку будет открыт информационный центр НАТО. Независимая газета, 22 февраля 2000 г.

## STABILIZATION FACTORS OF TURKISH FOREIGN ECONOMIC POLICY AMONG THE COUNTRIES OF THE CASPIAN REGION

**H.S.Karademir**

**SUMMARY**

At the turn of the 21st Century, many specialists in the field of geography and geopolitics (especially those in the West) have persistently and purposefully been suggesting to consider the Caspian region and the western section of Central Asia as an integral part of the Middle East. This geographical area also includes some parts of the Persian Gulf. This is explained by oil wealth, whose proven reserves off the coast of Russia range from 1 to 1.5 billion tons, in Azerbaijan - more than 4 billion, in Kazakhstan - 1 billion, and in Turkmenistan - more than 2.6 billion tons. In this article, we are talking about the economic and political relations of Turkey with the Caspian region states, in particular, with Azerbaijan. The role of the Azerbaijani-Turkish strategic relations in this region is stressed.

## СТАБИЛИЗАЦИОННЫЕ ФАКТОРЫ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ ТУРЦИИ СРЕДИ СТРАН КАСПИЙСКОГО РЕГИОНА

**Г.С.Карадемир**

**РЕЗЮМЕ**

На рубеже XX-XXI столетий многие специалисты в области географии и геополитики (особенно западных стран) настойчиво и целенаправленно предлагали рассматривать Каспийский регион и западную часть Центральной Азии как важнейшую составную часть Ближнего и Среднего Востока. В эту географическую зону входят также и некоторые зоны Персидского залива. Это объясняется нефтяными богатствами, разведанные запасы которых у побережья России составляют от 1 до полутора миллиардов тонн, Азербайджана – более 4 млрд., Казахстана - 1 млрд., Туркмении - более 2,6 миллиарда тонн. В настоящей статье речь идет об экономико-политических отношениях Турции с государствами Каспийского региона, в частности, с Азербайджаном. Особо подчеркивается роль азербайджано-турецких стратегических отношений в данном регионе.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# TERRORÇULUQLA BEYNƏLXALQ MÜBARİZƏNİN HÜQUQİ-NORMATİV ƏSASLARI

**R.K.Babayev**
AMEA Fəlsəfə İnstitutu
Bakı, H.Cavid prostekti 115
e-mail: rbabayev@pashaconstruction

***Açar sözlər:*** terror, terrorçuluqla mübarizə, milli təhlükəsizlik
***Keywords:*** terror, struggle against terrorism, national security
***Ключевые слова:*** террор, борьба с терроризмом, национальная безопасность

Uzun tarixi keçmişə malik olmaqla birlikdə, 1960-cı illərin Soyuq Muharibə mühitində beynəlxalq münasibətlərin dəyişməz mövzularından birinə çevrilən terrorçuluq, XXI əsrin əvvəlindən etibarən yeni bir mərhələyə daxil olaraq, qlobal problemə çevrildi. Yaşadımız dövrdə inkişaf tempi və forma etibarilə yenilənən terrorçuluq anlayışı beynəlxalq sülh və təhlükəsizliyə ən böyük təhdidlərdən birinə çevrilmişdir. Son dövrlərdə dövlət və qeyri-dövlət təşkilatlarının, siyasi və ictimai obyektlərin terrorçuluq aktlarının hədəfi olması bunun əyani sübutudur.

Terrorçuluğun nə beynəlxalq hüquqda, nə də beynəlxalq hüququn əsas subyekti olan milli dövlətlər tərəfindən ümumi qəbul edilmiş vahid tərifi yoxdur. Hətta eyni dövlətin müxtəlif qurum və təşkilatlarının terrorçuluq ilə bağlı verdikləri təriflər müəyyən müddət sonra dəyişdirilmişdir. Terrorçuluğa ən əhatəli təriflərdən biri İslam Konfransı Təşkilatı tərəfindən verilmişdir. Bu tərifə görə, "terrorçuluq, motiv və səbəblərə baxmadan, xalqa qarşı terror aktı törətmək və ya onu zərər verməklə təhdid etmək, yaxud vətəndaşların həyatı, şərəfi, azadlığı, təhlükəsizliyi və hüquqlarını təhlükəyə atmaq, və ya ekologiyaya ziyan vurmaq, kommunal xidmətlərin göstərilməsinə mane olmaq, və yaxud dövlət və şəxsi mülkiyyətə ziyan vurmaq, və ya onları işğal etmək, və ya onları qeyri-qanuni müsadirə etmək, və ya bir milli sərvəti və ya beynəlxalq xidməti təhlükəyə atmaq, ya da müstəqil dövlətlərin stabilliyini, ərazi bütövlüyünü, siyasi birliyini və ya suverenliyini təhdid etmək məqsədilə fərdi və ya qrup şəklində cinayət planını həyata keçirmək üçün törədilən hər cür şiddət aktı törətmək və ya şiddət aktı törətməklə təhdid etməkdir" [7, s.10].

Müstəqil Dövlətlər Birliyi isə terrorçuluğa belə tərif vermişdir: "Terrorçuluq, ictimai stabilliyə ziyan vuran, səlahiyyətli orqanlar tərəfindən qərarların alınmasına təsir etmək və yaxud xalqı terrorun təsiri altına almaq məqsədilə işlənən və cinayət məcəlləsinə görə cəzalandırılan hüquqa zidd fəaliyyətdir".

Terrorçuluğun universal tərifinin verilməsinin vacib olduğu ilə bağlı siyasətçilər qədər bu sahənin mütəxəssisləri arasında da fikir ayrılığı mövcuddur. Terrorun hər şeydən əvvəl universal bir tərifinin verilməsinin vacib olduğunu qeyd edən mütəxəssislərdən biri olan Wardlaw, terrorun qarşısının alınması ilə bağlı ən böyük problemin məhz onun tərifinin verilməsi olduğunu önə sürür [6, s.19]. Eyni fikirdə olan digər mütəxəssislər də bütün dövlətlərin qəbul edəcəyi bir tərifin qəbul edilməsi durumunda terrorçuluqla mübarizədə bir çox maneənin aradan qalxacağına inanırlar.

Əksinə, terrorçuluğun tərifinin olmamasının daha düzgün olduğunu müdafiə edən fikirlər də mövcuddur. Bu fikirləri paylaşan mütəxəssislər beynəlxalq terrorçuluğun nə olduğunu əks etdirən vahid tərifin ortaya qoyulmasının mümkün olmadığını və əslində buna ehtiyac olmadığını qeyd edirlər. Vaxt itkisinə səbəb olan belə bir addımın əvəzinə, uşaqlara qarşı törədilən cinayətlər, hava nəqliyyatı vasitələrini qaçırma və s. kimi cinayətlərin qarşısının alınması və cəzalandırılmasının daha səmərəli olacağını qeyd edirlər.

Terrorçuluğu izah etmək üçün hökmək "şiddət" anlayışını izah etmək lazımdır, çünki bu iki anlayışı arasında güclü əlaqə mövcuddur. Şiddət, konkret olaraq əsas əxlaq normalarına qarşı çıxmaq və ya onlardan məqsədyönlü şəkildə sui istifadə etməkdir. Oxşar şəkildə, terrorçuluq da, fərdlərin öz siyasi fikirlərini, sosial-mədəni dəyərlərini və normalarını şiddət yoluyla cəmiyyətə zorla qəbul etdirmək mənasına gəlir [10, s.36].

Terrorçuluq məsələsini tədqiq edərkən, diqqət edilməsi lazım gələn əsas cəhətlərdən biri də, terror ilə terrorçuluq arasındakı fərqlilikdir. Terrorçuluq anlayışı terror metodlarından siyasi məqsədlə təşkilatlı, sistemli və müntəzəm şəkildə istifadə edilməsini əsas alan bir strategiya olaraq terror anlayışından ayrılır. Terror termini dəhşət və qorxunu ifadə etdiyi halda, terrorçuluq, bu anlayışa müntəzəmliklik və siyasi məzmun qatır [2, s.34]. Terrorçuluq günahsız insanları öldürməklə yanaşı, geniş xalq kütlələrini qorxuya düşürməklə və ya məqsədyönlü şəkildə təsir altına almaqla siyasi və ictimai mövqe qazanmaq əldə etmək üçün marjinal qruplar yaxud fərdlər tərəfindən şiddətə söykənən təhdidlər və planlı fəaliyyətdir [5, s.1-3].

Müasir dövrdə törədilən terror aktları müxtəlif məqsədlər, hədəflər, ideologiyalara xidmət edir, həmçinin çox fərqli coğrafiyalarda meydana gəlir. Bu baxımdan terrorun təsnifatı məsələsi ilə bağlı mütəxəssislərin mövqeyi fərqlilik göstərməkdə və hamılıqla qəbul edilən bir tipologiyanın qəbul edilməsi mümkün olmamışdır. Buna baxmayaraq, yenə də terrorçuluğu müəyyən kriteriyalara görə aşağıdakı kimi təsnifatlandırmaq mümkündür:

1. Daxili terrorçuluq – bir dövlətin siyasi sərhədləri daxilində qalan və xarici ünsürlərin, əlaqələrin və ya iştirakın olmadığı sistemli şiddət aktlarıdır. Ancaq ölkə daxili terrorçuluğa xalis şəkildə rast gəlmək mümkün deyil. Belə bir vəziyyət ancaq nəzəri olaraq qeyd edilə bilər [12, s.34].

2. Beynəlxalq terrorçuluq – bu anlayış, 1960-cı illərdən bəri artan şiddət hərəkətlərinin dövlətlərarası səviyyəyə yüksəlməsi nəticəsində, beynəlxalq münasibətlər sistemində öz yerini almışdır. Bu terrorçuluq növü, "məzmun və ortaya çıxan nəticələri etibarilə beynəlxalq xarakter daşıyır". Əcnəbilərə və onlara məxsus obyektlərə yönələn terrorçuluq da beynəlxalq miqyaslıdır. Dövlətlərin ikitərəfli və qarşılıqlı münasibətlərinə neqativ təsir etməkdə və aradan qaldırılması uzun illər alan konfliktlər doğurmaqdadır.

3. Transmilli terrorçuluq – hər hansı bir şəkildə dövlətin müdaxiləsi olmadan, dövlət xarici aktorlar tərəfindən reallaşan terror aktlarını ifadə edir. Bu çərçivədə transmilli terrorçuluğu, beynəlxalq terrorçuluqdan fərqləndirən əsas cəhət, terror təşkilatları tərəfindən həyata keçirilən aktların hər hansı bir dövlət tərəfindən tərtib və idarə edilməməsi ya da nəzərət edilməməsidir.

4. Dövlət terroru – demokratik olmayan rejimlərdə daha çox istifadə edilən bir vasitədir. Demokratik ölkələrdə isə dövlət öz daxili siyasətində heç vaxt terrorçuluqdan bir vasitə olaraq istifadə etmir.

5. Dövlət dəstəkli terrorçuluq – dövlətlərin daxili siyasətdə olduğu kimi, xarici siyasətdə də terrordan bir vasitə olaraq istifadə etdiklərini sübut edən bir çox örnək mövcuddur ki, buna da "dövlət dəstəkli terrorçuluq" deyilir. Dövlətlərin xarici siyasətdə terrorçuluğa verdiyi dəstək, evletin dıs politikasında kullanmak için terörizme verdiği destek, aşağı səviyyəli yardımlar formasında ola bildiyi kimi, həmçinin "sponsorluq" səviyyəsində də ola bilər. Dövlətlər, atəş gücü yüksək silahlar, maliyyə yardımı, istihbarat və təlim üçün şərait yaratdığı zaman terrorçuluq daha təhlükəli və dağıdıcı xarakter alır. Dövlət sponsorlu terrorçuluq ciddi təhlükəsizlik problemləri yaradır. Xüsusilə, etnik əsaslı terrorçuluğun mövcud olduğu ölkələrdə xarici dövlətlərin sponsorluğu terror fəaliyyətlərinin təsir gücünü xeyli artırır. Maraqlı cəhət bundan ibarətdir ki, demokratik dövlərlərin də, müxtəlif səbəblərlə terrorçuluğa hətta sponsorluq səviyyəsində dəstək verdiyinə dair bir çox nümunə vardır.

6. Etno-terrorçuluq - əsas etibarilə, bir etnik qrupa mənsub fərdlərin terrorçuluq təşkilatlarında və ya terror aktlarında iştirak etdikləri terrorçuluq növüdür. Etnik xarakterli terror aktlarına bəzən "millətçi" terrorçuluq da deyilir. Lakin etniklik ilə millətçilik eyni məna kəsb edən iki anlayış deyil. Etnik mənşəyə dayanan terrorçu fəaliyyətlər daha çox özünü haqlı tələbi və ya bu tələbi əldə etmək üçün silahlı mübarizədən başqa yol və metodun qalmadığına inanan ya da elə olduğu qəbul edilən vəziyyətlərdə özünü göstərir.

7. Kiber (internet) terrorçuluq – Kiber terrorçuluğu ənənəvi terror fəaliyyətlərindən kompyuter və kompyuter sistemlərindən istifadə edərək törədilməsi kimi izah etmək mümkündür. Kiber terrorçuluq, faydalandığı vasitələr baxımından qabaqcıl texnologiya və biliklərdən istifadə edərək ənənəvi terrorçuluğun yeni formada davam etməsidir.

2001-ci ildə Brüsseldə toplanan Avropa İttifaqına daxil olan dövlət başçıları, BMT-nin nəzarətində, İttifaqa daxil ölkələr, üzvlüyə namizəd dövlətlər və ABŞ, Rusya Federasiyası, ərəb və müsəlman ölkələr və terrorçuluğa qarşı mübarizəyə qoşulmaq istəyən bütün müttəfiqlərin də iştirak edə biləcəyi geniş anti-terror koalisiyası yaratmaq istədiklərini bəyan ettilər [8].

Terrorçuluğa qarşı mübarizə ilə bağlı Avropa İttifaqı iki əsas qərar qəbul etmişdir. Bunlardan birincisi, bütün təhlükəsizlik orqanlarının əməkdaşlığını təkmilləşdirmək; ikincisi, ittifaqa üzv ölkələrdə qüvvədə olacaq tək həbs qətimkan tədbirinin tətbiq edilməsidir [11].

Bundan başqa Avropa miqyasında qüvvədə olan həbs qətimkan qərarı Avropadakı təhlükəsizlik orqanlarının bir-birləri ilə bilavasitə əlaqə qurmasını asanlaşdırmış və məhbusların qısa müddətdə qaytarılmasını təmin etmişdir. İttifaqın məsələ ilə bağlı qəbul etdiyi bəyanatda xüsusi prosedurаların tətbiq edildiyi hallarda bütün demokratik haqlar və insan hüquqlarının diqqət mərkəzində olacaqağ xüsusi qeyd edilmişdir [8].

Terrorçuluğa qarşı mübarizədə geniş əhatəli konvensiya layihəsi 9 dekabr 1994-cü ildə qəbul edilən 49/60 saylı BMT Baş Assambleyasi qərarına edilən əlavədə yer alan "Beynəlxalq Terrorçuluğa Qarşı Alınması Vacib Tədbirlər" adlı bəyanat ilə bildirisi ile başlamışdır [4]. BMT, təşkilata üzv dövlətlərin iştirakı ilə, terrorçuluğun qarşısının alınması məqsədilə, geniş miqyaslı hüquqi tənzimləmənin həyata keçirilməsi məqsədilə bir sıra bəyanatlar yayır. Bu bəyanatlar müəyyən qədər öz nəticəsini verir. Belə ki, 1997-ci ildə "Terrorist bombalamaların qarşısının alınması haqqında" Konvensiya, həmçinin, 1999-cu ildə "Terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması haqqında" Konvensiya imzalanmışdır. Lakin əvvəlki dövrlərdə olduğu kimi, spesfik terror aktlarının qarşısının alınması məqsədilə imzalanan belə konvensiyalardan başqa, daha geniş miqyaslı və

bütün dövlətləri bağlayıcı bir konvensiyanın imzalanması hələlik mümkün olmamışdır. Bunun səbəbi, dövlətlərin terrorçuluqla mübarizədə həmfikir olduqları halda, hansı təşkilatların terror təşkilatı olduğu, kimin terrorçu olduğu, hansı aktların terror aktı olduğu kimi məsələlərdə ciddi fikir ayrılığı içində olmalarıdır. Dövlətlər arasında bu məsələ ilə bağlı əsas fikir ayrılıqları aşağıdakılardır:

- Terrorçuluğun hüquqi tərifi;
- Terrorçuluq ilə müstəmləkə əleyhdarlığı və milli azadlıq hərəkatları arasındakı əlaqə;
- Dövlətlərin silahlı qüvvətlərinin fəaliyyətləri.

ABŞ-da 22 dekabr 1987-ci il tarixli qanuna görə, “Terror fəaliyyəti, silahlı insident və qarşıdurmada yer almayan fərdlərin fiziki sağlamlığına ciddi zərər yetirən və ölümlərinə səbəb olma riskinə qarşı həddindən artıq laqeydlik nümayiş etdirərək şüurlu və fərq qoymadan bir şiddət aktını tərtib etmək, dəstəkləmək və yaxud bu aktın törədilməsində rol almaq deməkdir”.

Böyük Britaniyada, 1976-cı və 1984-cü illərdə qəbul edilən qanunlarda yer alan tərifə görə, terrorçuluq, ”siyasi məqsədlərlə şiddət tətbiq etmək və xalqa yaxud xalqın müəyyən hissəsini qorxutmaq məqsədilə, hər hansı şiddət fəaliyyətini əhatə edir”. Buradakı şiddət termini, sadəcə fiziki şiddəti deyil, həmçinin digər şiddət formalarını da əhatə edir.

Almaniya qanunvericiliyi “cinayət və girov götürmə kimi müxtəlif cinayətləri törətmək məqsədilə gibi muhtelif suçlar isleme amacıyla təşkilatlanma” cinayəti üçün ağırlaşdırılmış cəzalar nəzərdə tutur. Belə təşkilatlanmaları “terrorçu” olaraq xarakterizə edən qanunvericilik, əslində, Qızıl Ordu Fraksiyası ilə mübarizə məqsədi daşıyırdı və terrorçuluğun əhatəli tərifini verməkdən çox uzaqdır.

Yuxarıda istər beynəlxalq təşkilatlar, istərsə də dövlətlər səviyyəsində terrorçuluğa verilən tərifləri nəzərdən keçirərkən, görürük ki, terrorçuluğun dörd əsas komponenti mövcuddur [1, s.7-9]. Bunlar:

1. Zərər çəkən. Terrordan zərər çəkənlər deyiləndə, bu fəaliyyətdən birbaşa zərər çəkənlər nəzərdə tutulur. Əsasən, zərər çəkənlər ilə hədəf kütlə bir-birindən fərqlənir. Zərər çəkənlər hədəf kütləyə mesajın çatdırılması üçün seçilmiş vasitədir. Zərər çəkənlər əsasən, mülki əhali kütləsidir.

2. Motiv. Geniş mənada terrorçuluğun motivi “siyasi”dir. Bu motiv fəlsəfi, ideoloji, dini, etnik, hərbi və s. bütün aspektləri əhatə edir.

3. Qəsd. Terror cinayətini, digər cinayətlərdən ən fərqləndirən cəhətdir. Siyasi motivlə terror aktının şüurlu surətdə və istəyərək törədilməsidir.

4. Metod. Terrorun başlıca metodu şiddət və güc tətbiq etmək və ya bunlardan istifadə etməklə təhdid etməkdir. Lakin bu metodlardan istifadə edilməsi və ya istifadə etməklə təhdid edilməsi ilə politik məqsədlərə çatmaq istənilir. 30.

Terrorun müəyyənləşdirilməsində ən böyük maneələrdən biri də öz müqəddəratını təyin etmə hüququndan istifadə etdiyini irəli sürən milli qurtuluş hərəkatlarının mövqeyinin müəyyən edilməsindəki çətinlikdir. Terrorçuluq məsələsi ilə bağlı yuxarıda qeyd edilən qərarlar nəzərdən keçirilən zaman bunların terroru qınaq obyektinə çevirməklə yanaşı, bir çoxunun milli qurtuluş hərəkatlarını terrorçuluqdan fərqləndirməyə çalışdığı diqqəti cəlb edir [9, s.104-105].

Terrorçuluğa hamının qəbul edəcəyi ümumi bir tərifin verilməsinə mane olan başqa bir problem dövlət qurumlarının terrorla bağlantılarıdır. Dövlətlər, rəqabət etdikləri

başqa dövlətləri zəiflətmək məqsədilə, müəyyən hallarda terrorçuluğa dəstək verirlər. Bu, dövlətlərin terrorçuluğa qarşı praktikada birgə mövqe nümayiş etdirmələrinə mane olur.

Terrorizmin beynəlxalq ölçüləri ilə ələ alınması və qadağan edilməsinə dair göstərilən səylər İkinci Dünya müharibəsindən əvvəlki illərə təsadüf edir. 1937-ci il tarixli "Terrorçuluğun qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya, Millətlər Cəmiyyətinin mövcud olduğu dövrdə imzalanmış, sadəcə bir dövlət tərəfindən ratfikasiya edilmişdir. Bu sahədəki ilk konvensiyanın bağlandığı 1937-ci ildən bu yana, terrorçuluqa beynəlxalq miqyasda qəbul edilmiş vahid tərif verilməmiş, bu əksiklik bütün dövlətlərin qəbul edəcəyi vahid terrorla mübarizə konvensiyanın hazırlanmasına mane olmuş, bu boşluq spesifik terror aktları üçün nəzərdə tutulmuş konvensiyalarla doldurulmağa çalışılmışdır. Bu gün beynəlxalq terrorçuluğun qarşısının alınması məqsədilə ondan çox müqavilə və protokol imzalanmışdır.

Bu müqavilələrdən başqa, "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya 10 yanvar 2000-ci il tarixdə, "Nüvə silahı terrorunun qarşısının alınması haqqında" beynəlxalq Konvensiya 14 sentyabr 2005-ci ildə qəbul edilmiş və dövlətlərin ratfikasiya etmələrindən sonra qüvvəyə minmişdir.

BMT Təhlükəsizlik Şurasının 1373 saylı qətnaməsi ilə bütün dövlətlərə tərəfdaş olma və müddəalarını qüvvəyə qoyma məcburiyyəti gətirilən sənədlər aşağıdakılardır:

1. "Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında" Konvensiya (1963);
2. "Hava gəmilərinin qanunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında" 16 dekabr 1970-ci il tarixli Konvensiya;
3. "Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlər əleyhinə mübarizə haqqında" Konvensiya (1971);
4. "Beynəlxalq mülki aviasiyaya xidmət göstərən aeroportlarda qanunsuz zorakılıq hərəkətləri əleyhinə mübarizə haqqında" Protokol (1988);
5. Beynəlxalq səviyyədə müdafiə olunan şəxslər, o cümlədən diplomatik agentlər əleyhinə cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya (1973);
6. "Adamların girov götürülməsinə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiya (1979);
7. Nüvə materialının fiziki mühafizəsi haqqında" Konvensiya (1980);
8. "Dəniz gəmiçiliyinin təhlükəsizliyinə qarşı yönəldilmiş qanunsuz hərəkətlərlə mübarizə haqqında" Konvensiya (1988);
9. "Plastik partlayıcıların təsbit edilməsi məqsədilə işarələnməsi haqqında" Konvensiya (1991);
10. "Terror bombalamalarının əleyhinə" Beynəlxalq Konvensiya (1998);
11. "Terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya (1999).

Terrorçuluq əleyhinə qəbul edilmiş konvensiyalar ümumi cəhətləri nəzərə alınaraq qiymətləndirildiyi vaxt, görürük ki, çox əhəmiyyətli məsələləri əhatə etməklə yanaşı, terrorçuluq anlayışına bütöv şəkildə yanaşılmır. Həmçinin, bu konvensiyalarda aparılan sektoral bölgü keçmişdə baş vermiş cinayətləri əsas almış və gələcəkdə törədiləcək terror aktlarının bütün növlərini əhatə etmir.

Bu konvensiyaların nəzərə çarpan başqa bir əksik cəhəti, hökmlərin qətilikdən uzaq olması və maddələrin şərhə açıq olmasıdır. Məsələn, "Bombalamalar Konvensiyası-

na görə, "bütün tərəf dövlətlər, lazım olduğu ölçüdə" və "bu cinayətlərin ağırlıq dərəcəsini diqqətə alaraq, müvafiq şəkildə cəzalandırılmalarını təmin etmək" məcburiyyətindədir. Bu konvensiyalardan "Terrorun maliyyələşdirilməsi ilə mübarizə haqqında" Konvensiya məsələyə daha təfərrüatlı yanaşmışdır.

Konvensiyaların zəif cəhətlərindən biri də, dövlətlərin terrorçuluq fəaliyyətlərini əhatə etməməsi, dövlət dəstəkli terror aktlarına qarşı beynəlxalq səviyyədə lazımi hüquqi qiymət verməməsidir.

## Ədəbiyyat

1. Bal İ. Terör nedir? Neden terörist olunur? Terörizm: terör, terörizm ve küresel terörle mücadelede ulusal ve bölgesel deneyimler. Ankara, USAK nəşriyyatı, 2006

2. Caşın M.H. Uluslararası terörizm. Ankara, Nobel nəşriyyatı, 2008

3. Çitlioğlu E. Gri tehdit terörizm. Ankara, Ümit nəşriyyatı, 2006

4. Деятельность организации обединенных наций в области борьбы с терро-ризмом. http://www.un.org

5. Enders W. ve Sandler T. Economıc Consequences of Terrorısm ın Developed and Developıng Countrıes: An Overvıew. School of International Relations University of Southern California Von Kleinsmid Center 330. Los Angeles, CA 90089-0043, USA, 2003

6. Grant W. Political Terrorism: Theory, Tactics and Countermeasures. Cambridge University Press, 1982

7. Kaya İ. Terörle mücadele ve uluslararası hukuk. Ankara, USAK nəşriyyatı, 2005

8. Кольчев А. Со злом бороться сообща. Европейский союз призвал все страны сплотиться в борьбе с терроризмом, http://www.delrus.cec.eu.int

9. Laqueur W. Terörizmin yorumlanması. Red: C. Güzel, Ankara, Ayraç nəşriyyatı, 2002, ss.95-141

10. Micheal S. Terrorism a Socio-Economic and Political Phenomenonwith Special Reference to Pakistan. Journal of Management and Social Sciences, No.3/1, 2007, pp. 35-46

11. Proposal for a Council Framework Decision on the European Arrest Warrant and the Surrender Procedures between the Member States, www.europa.eu.int

12. Tasdemir F. Uluslararası terörizme karşı devletlerin kuvvete başvurma yetkisi. Ankara, USAK nəşriyyatı, 2006

## LEGAL AND NORMATIVE FRAMEWORK OF INTERNATIONAL STRUGGLE AGAINST TERRORISM

**R.K.Babayev**

## SUMMARY

This work deals with some matters concerning the struggle against terrorism. The concept of terrorism has a long history and has become a global problem since the beginning of the 21st Century. It is noted that to fight more effectively against this evil, the concept of terrorism in national legislations has to be brought into conformity with the basic principles of international law.

# ПРАВОВЫЕ И НОРМАТИВНЫЕ ОСНОВЫ МЕЖДУНАРОДНОЙ БОРЬБЫ ПРОТИВ ТЕРРОРИЗМА

**Р.К.Бабаев**

## РЕЗЮМЕ

В статье рассматриваются некоторые вопросы борьбы с терроризмом. Отмечается, что концепция терроризма, имеющая долгую историю, с начала XXI века приобрела глобальный характер. Так же отмечается, что для эффективной борьбы с этим злом необходимо, чтобы понятие терроризма в национальных законодательствах соответствовало основным принципам международного права.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ STRESS PROBLEMİ

**S.Q.Həsənova**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
Bakı, Lermontov küçəsi 74
e-mail: zsevinc@ymail.com

***Açar sözlər:*** dövlət idarəçiliyi, idarəçilikdə stress, professional stress
***Keywords:*** state management, managerial stress, professional stress
***Ключевые слова:*** государственное управление, управленческий стресс, профессиональный стресс

Hal-hazırki dövrdə dövlət idarəçiliyi yalnız o vaxt işləyər ki, orda əməkdaşlıq ruhu hökm sürsün, rəhbər vəzifələri dəqiq müəyyənləşdirsin, hər bir dövlət qulluqçusu isə öz iş yerində uğurunun qeydinə qalsın.

İnsanlar bütün ömür mərhələlərində stresslə qarşılaşır və onun mənfi təsiri altında yaşamalı olur. Fəal iqtisadiyyat dövründə bir çox şəxslər ömrünün üçdə bir hissəsini iş şəraitində keçirməli olur. Tədqiqatlar göstərmişdir ki, gün ərzində yığılan stress insan sağlamlığına, onun şəxsiyyətliliyinə, ətrafdakı insanlarla münasibətinə öz mənfi təsirini göstərir. Dövlət idarəetməsi bütövlükdə dövlətlə insanlar arasında siyasi-hüquqi və sosial fəaliyyət və münasibətlər sahəsidir. Çünki dövlət idarəçiliyi insanlarla və onların sosial mənafeyi ilə bağlıdır. Dövlət idarəçiliyi anlayışı özündə siyasi və hüquqi əlamətləri olan hadisə və prosesləri xarakterizə edir. Nəhayət, dövlət özündə yalnız siyasi hakimiyyəti deyil, həm də müasir cəmiyyətin təşkilinin ən yüksək formasını cəmləşdirir.

Müasir cəmiyyətdə dövlət hakimiyyəti orqanı milyonlarla insanın müxtəlif həyat fəaliyyətinin təşkiledici və idarəedici mərkəzidir. Dövlət idarəçiliyinin əsaslarının öyrənilməsi və onun idarə olunan əhali kütləsinin fəaliyyətinə tətbiqi dövlət işi ilə məşğul olanların müvəffəqiyyətli fəaliyyətinin əsas şərtidir.

Dövlət idarəçiliyi dedikdə dövlətin öz hakimiyyət qüvvəsinə əsaslanaraq, insanların ictimai həyat fəaliyyətinə onu qaydaya salmaq, qoruyub saxlamaq və ya yenidən qurmaq məqsədilə praktiki, təşkiledici təsiri nəzərdə tutulur.

"Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun" - Ulu öndər, Ümummilli lider Heydər Əlirza oğlu Əliyev.

Dövlətin yaranması, təşəkkülü üçün şəxsiyyət çox önəmli məsələdir. Şəxsiyyətlər böyük xidmətlərinə görə tarixdə yaşayırlar. Heydər Əliyev rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyini düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarıb.

Təbiətin ona bəxş etdiyi bir çox nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlidcədən müəyyən edə bilir, milli tariximiz üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyini nümayiş etdirib, tam qətiyyətlə hərəkət etməyi bacarırdı. Sarsılmaz məntiq üzərində qurulan, qeyri-adi dərəcədə böyük təsir gücünə malik məruzə və nitqləri Heydər Əliyevin fəlsəfi psixoloji və siyasi dünyagörüşündəki dərinliyin və genişliyin açıq

ifadəsidir.

Böyük alman filosofu Fridrix Nitşe deyib: “Tarix tarixi şəxsiyyətləri yox, şəxsiyyətlər tarixi yaradır”.

Cəmiyyətin yeni dövlət idarəçilik strukturunun təşəkkülü mərhələsində idarəetmə əsasında stress problemi xüsusi əhəmiyyət kəsb edir. İdarəetmə fəaliyyətinin çətinliyi, rəhbərin hazirdakı dövrün iqtisadiyyatına xas olan müxtəlif növ dəyişikliklərə psixoloji cəhətdən hazır olması əsas komponentlərindəndir. İdarəetmə subyekti olan hər bir rəhbər şəxsiyyət rəhbərlik etdiyi müəssisənin yüksək səmərəlilik göstəricilərinə nail olmağına yönəldilmiş müddəaları dürüst ifadə edərək, psixoloji cəhətdən dərk etməli, idarəetmədə sağlam düşüncəyə və real idarəçilik münasibətlərinə əsaslanan idarəetmə sisteminə keçməlidir.

Müasir rəhbərdə yeniliklərə və dəyişikliklərə adaptasiya olmaq, işdə stress halının qarşısını almaq bacarığı birinci yeri tutmalıdır.

Idarəetmə sistemi elə şərtləri təmin etməlidir ki, bu halda hər bir dövlət qulluqçusu özünün ən əsas vəzifəsini əmək məhsuldarlığının artırılması üçün real imkanlarının fəal sürətdə təşkil edilməsində görsün. Bununla bərabər idarəetmə sistemi özünütənzim və özünütəkmilləşdirmə qabiliyyətlərinə malik olaraq, yüksək səmərəli təşkilatçılıq formalarının və idarəetmə metodlarının, yeni texnologiyaların geniş tətbiq olunmasına yönəlməlidir [3, s.175].

Rəhbərlərdən daha yüksək səviyyəli professionallıq tələb olunur. Məlumdur ki, idarəçilikdə nailiyyət əldə etmək üçün rəhbərə yalnız baza biliklərinə və təcrübəyə malik olması kifayət deyildir, ona görədə o daima özünün stress hallarına hazır olmalı və stresslə mübarizə aparmaq bacarığına malik olmalıdır.

Ölkənin müəssisə və təşkilatlarında tamamilə yeni, reallıqla ayaqlaşan, müxtəlif çətin situasiyalardan çıxmaq bacarığına malik olan, düzgün riskə gedən, yaradıcılığından istifadə edən və stress vəziyyətlərindən məharətlə çıxmağı bacaran rəhbərlər bu gün olduqca lazımdır.

“Yaxşı rəhbərlər öz səhvlərindən öyrənir” – XX əsr yazıçısı, marketinq qurusu Cefri Foks özünün “Necə böyük rəhbər olmalı” kitabında yazmışdır. “Yaxşi rəhbər adamlarda entuziazm yaradır. O, tabeçiliyində olanların vəzifəsini yüksəldir, onları mükafatlandırır və tərifləyir. Yaxşı rəhbər adamları özlərinə inanmağa vadar edir, onlarda hər kəs kimi olmadıqlarına, xüsusi seçilmiş olmalarına inam oyadır.” Ən əsası yaxşı rahbər əməkdaşlarına özlərini yaxşı hiss etməkdə kömək edir [2, s.13].

Hər hansı bir dövlət qurumunun idarə olunması ən əvvəl onun missiyasına uyğun olan məqsədin seçilməsindən başlayır. Seçilmiş məqsəd idarə olunan obyektin missiyasına nə qədər uyğun olarsa, o zaman idarəetmə bir o qədər asan təşkil oluna bilər və daha uğurlu nəticələr verib, stress vəziyyətlərindən uzaqlaşdırar [6, s.87].

İyirminci əsrin əvvəllərində idarəetmə nəzəriyyəsinin müxtəlif konsepsiyaları meydana çıxmışdı. F.Teylorun “Elmi İdarəetməsi”, M.Veberin “İdeal bürokratiya”sı və s. Teylor istismaredici və üzücü sisteminə qarşı insan amilinin idarə olunmasının yeni metodlarını axtarıb tapmağa cəhd göstərmişdir. Fransada elmi idarəetməni geniş yaymaq üçün “Teylor sisteminin fəlsəfəsi” adlı kitabın müəllifi Le Şatalye bu barədə çoxlu fikirlər irəli sürmüşdür. Rusiyada idarəetmə elminin əsaslarını qoyanlardan biri K.Adametski olmuşdur. İyirminci əsrin 20-30-cu illərində “insan münasibətləri” adlanan yeni bir nəzəriyyə meydana çıxır, bu da daha zərif üsullarla əməyi yüksəltmək işinə yönəlir. Sonra-lar L.Lant “Konfliktsiz rəhbər”, V.Q.Polokov “İdarəetmə dünyasında insan” və s. araşdır-

maları aparmışlar.

Stress problemi, onun iş fəaliyyətinə təsiri və rəhbərin professional fəaliyyət zamanı işçinin bacarıq və adaptasiya şərtləri haqqında keçmiş dövrlərdə kifayət qədər araşdırmalar aparılıb. Bununla belə bu gün yenə də idarəçilikdə stress problemi öz aktuallığını itirmir. Bu gün yeni tipli dövlət idarəçiliyində stress problemi daha da aktuallaşmışdır. İdarəçilik qərarlarının işlənib hazırlanması və qəbul edilməsi - stressin şəxsi mənbələrini özündə cəmləşdirən kifayət qədər stressli prosesdir. Temperament və xarakterin bəzi şəxsi xüsusiyyətləri idarəçilik qərarları qəbul edərkən əlavə olaraq həm rəhbər, həm də tabeçiliyində olanlar üçün stressə səbəb olur. Məsələn, temperamentin rigidlik və impulsivlik kimi xüsusiyyətləri qəbul edilən qərarın sürət və keyfiyyətinə mənfi istiqamətdə təsir edir. İmpulsiv qərar əsaslanmamış şəkildə erkən qəbul edilir, rigid qərar isə təxirə salınır, rəhbər yalnız bir variant üzərində düşünür və yekun qərar verə bilmir. Xarakterin destruktiv xüsusiyyətləri çox zaman yüksək təşviş, konformluq, eqosentriklik şəklində özünü büruzə verir. Yüksək təşviş: rəhbər daim səbəbsiz şəkildə həyəcanlanır. Bununla əlaqədar olaraq qərar qəbulunu ləngidir. Bu, əlbəttə ki, həm rəhbər, həm də tabeçiliyində olanlar üçün stressə səbəb olur. Konform davranış ona görə təhlükəlidir ki, rəhbər kollektivə tabe olaraq düşünülməmiş, keyfiyyətsiz qərar qəbul edə bilər. Digər sözlərlə, qəbul edilən qərara o, öz şəxsi töhfəsini vermir, yalnız rəhbərin çox zaman dərk və analiz etmədən qəbul etdiyi və öz adından təqdim etdiyi digər insanların fikirləri yer alır. «Mən də hər kəs kimi düşünürəm, hər kəs necə hesab edirsə mən də elə hesab edirəm» — konform qərara nümunədir. Eqosentrik qərar özünün sərt birtərəfliliyilə fərqlənir: «iki fikir vardır - mənim fikrim və yanlış fikir». Belə qərarlar həmçinin əməkdaşlar üçün də potensial stress amili hesab edilirlər [6, s.65-75].

Dövlət idarəetməsi subyektiv xarakter daşıdığından onun formalaşması və inkişafı üçün insan təfəkkürünün məhsulu olan informasiya, bilik, təşkilatı və normativ resurslar, ideyalar, ekspert qiymətləndirmələri, dövlət qulluqçularının və dövlət idarəetməsində iştirak edənlərin fəaliyyəti kimi elementlər zərurət təşkil edir [7, s.122-128]. Bunlarla yanaşı nəzərə alınmalıdır ki, dövlət idarəçiliyi sistemində idarəetmə fəaliyyətinin zəruri olan daxili qanunauyğunluqları cəmləşir. Bu qanunauyğunluqlar idarəetmə məsələlərində və qərar qəbulunda çox mühüm əhəmiyyət kəsb edir. Unutmamalıyıq ki, dövlət idarəçisi insandır və o, təfəkkürünün mənbəyindən istifadə edir. İnsan təfəkkürünü isə tormozlaşdıran amillərdən biridə stress faktorudur.

Xarici ölkə psixoloqlarının tədqiqatlarında stress vəziyyətinin idarəetmə üslubuna təsiri haqqında kifayət qədər araşdirmalar aparılır, onların daha səmərəli olması ilə bağlı nəticələrə gəlinir [8, s.28]. Bu özünü, xüsusilə, dövlət idarəçiliyində fəaliyyətin idarə olunması üslubu ilə bağlı tədqiqatlarda daha kəskin şəkildə göstərir. Dövlət idarəetmə üslubunun psixoloji təhlili kifayət qədər mürəkkəb olmaqla fərqli baxımdan yanaşılan, araşdırılan problemlərdəndir. İdarəetmə üslubu idarəedənin və tabeçilikdə olanların müəyyən davamlı ünsiyyəti, daxili həmrəyliyi şəraitində idarəetmə funksiyasının səmərəliliyini təmin edən fəaliyyət formasıdır. Dövlət idarəçiliyi üslubunun daxili vəhdəti və onun tamlığı digər komponentləri də müəyyənləşdirməklə fəaliyyətin səmərəliliyini yüksəldir, məqsədin reallaşmasına şərait yaradır. Stress vəziyyəti isə idarəetmənin səviyyəsini aşağı salır, onun bütövlüyünü pozur.

Dövlət idarəçiliyi cəmiyyətin ideoloji, siyasi quruluşuna, iqtisadi bazisinə, eləcə də sosial-psixoloji qanunauyğunluqlarına əsaslanmalıdır. Stress vəziyyətinin dövlət idarəçilik üslubuna və idarəetmə prinsiplərinə təsir göstərməsi qaçılmazdır.

Dövlət idarəçiliyində fərdi və ictimai uğur bir-birinin əksi kimi görünsə də,əslində bir-birini tamamlayır. Fərdi uğur çox yüksək bir nöqtəyə çatarsa ictimai uğura çevrilir. Başqalarıyla yarışmadan, mütəmadi olaraq işini daha yaxşı görərək özündən yüksəyə qalxan bir dövlət qulluqçusu bir gün çalışdığı məkanda ən yaxşılar arasında daxil olduğunu görəcək. Uğurun təbii inkişafı əvvəlcə daxilimizdə, sonra işimizdə, ən axırda kütlə səviyyəsində olur. Mərhələlərdən birini ötürmək işin quruluşunda çatışmazlığa səbəb olur. Işində iddialı olmaq güclü bir uğur katalizatorudur. Qulluqçunun imkanları və ya bacarığı haqqında özü-özünə danışıb qiymət verməkdənsə, meydana çıxıb və nəyə layiq olduğunu göstərməlidir. Məğlub və ya qalib gəlməsindən asılı olmayaraq, nəyə qadir olduğunu göstərməlidir. Uğurun təbiəti bir üstünlük fəaliyyəti tələb edir. Bu üstünlük fəaliyyətinin iki tərəfi vardır: dünənki vəziyyətindən daha yaxşı olmaq və bir işi başqalarından daha yaxşı etmək.

Doğulduğu ilk gündən istənilən insanın daxilində onun özü ilə birlikdə elə nəhəng, gizli, sirli bir qüvvə də dünyaya gəlir ki, sonradan bu qüvvə bütün həyatı boyu onun fəaliyyətinə nəzarət edir, onun bütün davranışvə düşüncəsinin istiqamətini müəyyənləşdirir. İnsan fəaliyyətlə məşğul olduqda bu qüvvə ona sevinc və səadət, stress nəticəsində fəaliyyətdən qaldıqda isə iztirab, işgəncə və məyusluq gətirir. Həmin gözəgörünməz, sirli daxili qüvvə-insanın tələbatlarıdır. Liderlər məhz insanın tələbatlar deyilən həmin bu “zəif nöqtələri”ni görməyi və onlarla manipulyasiya etməyi məharətlə bacarırlar.

İdarəçilikdə stress neçə onilliklərin probleminə çevrilib. Ilk dəfə stress problemini iyirminci əsrin 30-cu illərində həkim Qans Selye araşdıraraq, belə bir fikir irəli sürmüşdür ki, “stress halı orqanizmin bütün qıcıqlayıcılara olan adaptasiya üsuludur. Stress insanın təbii davranış reaksiyasıdır və yaranan çətinliklə mübarizə aparmağa təkan verir. Hətta stress kiçik dozalarda xeyirli də ola bilər.” Amma tədqiqatlar göstərir ki, dövlət idarəçiliyində stressin az dozada olması haqqında söhbət belə gedə bilməz.

Stress ingilis sözü olub insanın psixi halətində baş verən gərginlik və sıxıntını bildirir. Yəni insanın gündəlik fəaliyyətində, xüsusi şəraitdə rastlaşdığı çətin və mürəkkəb amillərin yaratdığı psixi gərginliyə stress deyilir. Stress orqanizmin daha çox gözlənilməz halda, birdən-birə, qeyri-adi ekstremal və çətin təsirlərə məruz qalması ilə əlaqədar olaraq baş verir və müxtəlif təzahürlərə malik olur [1, s.168].

Bir tərəfdən idarəçilikdə stress rəhbərin öhdəsindən gələcəyi işinin effektivliyinə, digər tərəfdən rəhbərin şəxsi keyfiyyətlərinə, subyektiv vəziyyətinə, fiziki və psixoloji sağlamlığına, həmçinin idarəçiliyin müvəffəqiyyətlə icra olunmasına bütövlükdə təsir edir.

Müasir dövrdə idarəçilik istiqamətlənmiş məqsədyönlü fəaliyyətdir. Müasir tələblər idarəçilikdə yüksək keyfiyyətlərə və bacarıqlara malik olan işçi şəxsiyyətləri tələb edir və onların üzərinə ağır yük qoyulur. Bu yükü idarəçilikdə rəhbər işçi daşıyır.

Hər bir professsional fəaliyyət özü ilə stress faktorları daşıyır. Sadəcə fəaliyyətdən asılı olaraq stress özünün kəmiyyət və keyfiyyətinə görə dəyişilir. Stressin həmçinin fiziki, sosial və təşkilatı faktorlarını nəzərdən keçirmək olar. Fiziki faktorlara müəssisədə səliqəsizlik, səs-küy, işıqlandırma,temperatur, şərait və s., sosial faktorlara isə işçilərlə konflikt, rəhbər və işçi arasındakı münasibətlər, başqa təşkilatlarla əlaqə və s., aid etmək olar. Təşkilatı faktorlara planlaşdırılmamış iş saatı, yüksək iş intensivliyi, təcili qərar qəbul etmək, karyera imlkanlarının qalxması və s., daxildir [5, s.93-95].

Çətin iş şəraitində buraxılacaq səhvlərin sayı artır, səhv nəticələr, işin dəqiqliyinin azalması, psixi prosseslərin fəaliyyətinin zəifləməsi, iradi nəzarətin aşağı düşməsi halları

meydana çıxır. Moskva Dövlət Universitetinin professoru A.B.Leonova qeyd edirdi ki, bu hallar meydana çıxdıqda rəhbər işçidə üzərinə düşən işin çoxluğundan yorğunluq və halsızlıq, monotonluq zamanı darıxma, yuxululuq, emosional gərginlik zamanı isə həyacan, əsəbilik və qorxu yaranır.

A.B.Leonavanın sözləri ilə desək, müasir idarəetmədə stress "kədərli zərurətə" çevrilir. Kadr potensialının qorunması, şəxsi sağlamlıq və bütövlükdə sağlam təşkilatın yaranması idarə edənin özündə yaranan stressi idarəetməsi qabiliyyəti ilə bağlıdır [4, s.75-85].

Dövlət idarəçiliyində rəhbərdən tələb olunan peşəkar təhlil etmək bacarığı, siyasi və sosial erudisiya, işə yaradıcı yanaşma, ünsiyyətçilik, obyektivlik, düzgünlük, ləyaqətlilik və s. yüksək keyfiyyətlər sirf stress faktoru ilə zəifləyir. Cəmiyyətə şərəf və ləyaqətlə xidmət etmək, ədalətli və təmiz vicdanlı olmaq, prinsipiallıq, məsuliyyət hissi və digər yüksək mənəvi keyfiyyətlər rəhbərin peşəkarlığının mühüm şərtlərindəndir.

**Ədəbiyyat**

1. Bayramov Ə.S., Əlizadə Ə. Psixologiya. Bakı, 2002, s.168
2. Foks C. Necə böyük rəhbər olmalı. Qanun nəşriyyatı, 2015, s.13
3. Сеидов С. Психология менеджмента. Баку, 2000, с.175
4. Леонова А.Б. Комплексная стратегия анализа професесионального стресса: от диагностики к профилактике и коррекции // Психологический журн. 2004. Т. 25. 2. с.75-85
5. Дементий Л.И., Корнев К.И. Копинг-поведение руководителей в условиях профессиональных стрессовых ситуаций // Психология совладающего поведения: материалы Междунар. науч-практ. конф. / отв. ред. Е.А.Сергиенко, Т.Л.Крюкова. Кострома, 2007, с.93-95
6. Горбунова М.,А, Горшкова Л.А. Основы теории управления. Учеб.пособие. Н.Новгород, 1998, с.65-75/87
7. Розанова В.А. Психология управления. Ч. 1-2. М., 1999, с.122-128
8. Work stress and cardiovascular disease: a life course perspective Loer Broks, A.Bosma, H.Peter, A.Angerer, p.28

## PROBLEM OF STRESS IN STATE MANAGEMENT

**S.G.Hasanova**

**SUMMARY**

This article deals with the stressogen factors in administrative activity. These factors may include physical working conditions, social and organizational factors. Management activities imply, as a rule, the management structure and the interaction with the subordinates such that every element in this structure is interrelated harmonically with the others within the same structure. If a fault occurs in this harmonic system, then this leads to a "systemic breakdown", called a stress.

# ПРОБЛЕМА СТРЕССА В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ

**С.Г.Гасанова**

## РЕЗЮМЕ

В статье речь идет о стрессогенных факторах в управленческой деятельности. К таким факторам могут быть отнесены физические условия труда, социальные и организационные факторы. В управленческой деятельности, как правило, подразумевается выстраивание структуры управления и взаимодействия с подчиненными такой, в рамках которой каждый элемент функционирует взаимосвязанно и гармонично со всеми другими элементами. Если в гармоничной системе появляется сбой, то это приводит к «системной поломке», называемой стрессом.

# D İ L Ç İ L İ K

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# L I N G U I S T I C S

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2018 - № 48

# İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ "GÖY" VƏ "YAŞIL" RƏNG ADLARI İLƏ FORMALAŞAN FRAZEOLOGİZMLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ

**A.M.Şabanova**
Bakı Slavyan Universiteti
Bakı, S.Rüstəm küçəsi 33
e-mail: aysel.shabanova.02@gmail.com

***Açar sözlər:*** frazeologizm, göy və yaşıl rəng, semantik çalar, mədəniyyət
***Key words:*** phraseologism, blue and green colour, semantic shade, culture
***Ключевые слова:*** фразеологизм, синий и зеленый цвет, семантический оттенок, культура

Müxtəlifsistemli dillərdə eyni kateqoriyadan olan elementlərin təhlili onlar arasında fərqli və oxşar xüsusiyyələrin araşdırılmasını ön plana çəkir. Rəng adları ilə formalaşan frazeologizmlər dünya dillərinin əksəriyyətində mövcud olduğu üçün, onları dil universaliləri sırasına daxil etsək yanılmarıq. Rəng adları ilə formalaşan frazeologizmlər dildə bu və ya digər anlayışı daha təsirli və obrazlı ifadə etmək üçün istifadə olunan vahidlərdir. Bu birləşmələrdə yalnız hər hansı bir anlayış deyil, xalqın mədəniyyəti, tarixi, sosial həyatı, adət-ənənələri və s. öz əksini tapır. Koloristik frazeologizmləri daha dərindən anlamaq üçün onların tərkibində olan rəng adlarının bu və ya digər mədəniyyətdə ifadə etdiyi mənalardan xəbərdar olmaq lazımdır.

Bütün rəng adları günəş spektrindəki rənglərə münasibətinə görə xromatik (boyalı) və axromatik (neytral, boyasız) olmaqla iki qrupa ayrılır. Xromatik rənglərə bənövşəyi rəngdən qırmızı rəngə qədər spektrin bütün rəngləri və onların çalarları, axromatik rənglərə isə ağ, qara və boz rənglər aiddir. Rənglərin insan həyatında özünəməxsus yeri vardır. Bir çox hallarda rənglər insanın əhval-ruhiyyəsinə, davranışına, emosiyalarına təsir göstərir. "Rənglər insanın özünüifadə vasitəsidir" desək, yanılmarıq. Belə ki, insanlar gündəlik həyatlarının müxtəlif sahələrində - geyimində, seçdiyi əşyalarda, çəkdiyi şəkillərdə, ev dekorasiyalarında və s. rənglərdən istifadə edirlər. Rənglər həm də insanlar üçün ünsiyyət vasitəsidir. İşıqforda qırmızı rəng dayanmağı, yaşıl isə hərəkət etməyi, müxtəlif idman oyunlarında idmançıların geyimi onların hansı komandaya məxsus olmasını, futbol oyununda hakimin oyunçulara göstərdiyi kartlarda sarı rəng xəbərdarlığı, qırmızı isə oyunundan kənar edilməni, coğrafi xəritələrdə mavi rəng su hövzələrini, yaşıl meşə zonasını, qəhvəyi isə torpaq landşaftını göstərir. Rənglər canlıların həyat fəaliyyətində də mühüm rol oynayır. Tumurcuqların əlvan rənglər alması həşəratların diqqətini cəlb edir və bununla da bitkilərdə tozlanma prosesi baş verir. Bəzi canlılar, məsələn, arktik dovşanlar fəsildən fəsilə rəngini dəyişir, isti aylarda qəhvəyi, qış aylarında isə ağ rəng alaraq, qardan seçilmir (1). Göründüyü kimi, rənglərə insan həyatının və onu əhatə edən ətraf aləmin bütün sahələrində rast gəlmək mümkündür.

Rəng konsepti bütün xalqlarda mövcuddur və bu rənglər xalqın sosial-mədəni həyatı ilə sıx bağlıdır. Yəni, hər bir xalqın bu və ya digər rəngə münasibəti, onun mənalandırılması və rəmzləndirməsi spesifik və özünəməxsus xüsusiyyətləri ilə seçilir. Məhz bu səbəbdən bu və ya digər rəng müxtəlif dillərdə fərqli işlənmə tezliyinə malikdir. Hələ

qədim zamanlardan hər bir xalqın daha çox işlətdiyi, özünəməxsus, çox sevdiyi rənglər olmuşdur. Bu rənglər həmin xalqın xarakterini, sosial həyatını, təbiətini, temperamentini özündə əks etdirirdi. Qədim yunan şairi Homerin " İlliada " və " Odisseya " əsərlərinə nəzər saldıqda, o dövrdə yunanların üç əsas rəngdən - ağ, qara, qırmızı istifadə etdiyini görərik. İngilis antropoloqu V.Turner məqalələrinin birində qeyd etmişdir ki, Afrika tayfalarından biri olan idembularda da yalnız ağ, qara və qırmızı rənglər mövcuddur. Onlar göy, bənövşəyi və digər nisbətən tünd rəngləri qara, bütün açıq rəngləri ağ, narıncı, sarı və digər əlvan rəngləri qırmızı adlandırlar (2, s.44). Rənglərin ifadə etdiyi mənalar ayrı-ayrı leksemlərdə, frazeologizmlərdə və başqa vasitələrdə reallaşır və onlar istənilən xalqın dünyasının dil mənzərəsinə üzvi şəkildə daxil olurlar (3, s.124). Rənglər bu və ya digər xüsusiyyətlərinə görə müxtəlif alimlərin diqqət mərkəzində olmuşdur. Rus mədəniyyətşünası A.V.Serov qeyd edirdi ki, "Rənglərin dində, incəsənətdə, dəbdə dəyişməsi bəşəriyyətin özünü ifadə etməsinə imkan yaradır. Beləliklə, rəng praktik olaraq həmişə, hər yerdə və hər şeydə ifadə edir. Amma o, kəmiyyətin və formaların deyil, ancaq keyfiyyətlərin ifadəsidir. Keyfiyyət dedikdə biz, rəngsiz təsəvvür və ifadə edilməyən intellektimizin keyfiyyətini nəzərdə tuturuq" (4, s.147). İngilis dilçiləri B.Berlin və P.Key müxtəlif dil ailələrinə məxsus olan 20 dil üzərində təcrübə apararaq müəyyənləşdirmişlər ki, bu və ya digər dildə olan rəng adlarının sayı və işlənmə tezliyi həmin dil daşıyıcılarının yaşadıqları ölkənin iqtisadi və mədəni inkişafından, eləcə də digər ekstralinqvistik amillərdən asılır (5). Burdan da belə bir nəticəyə gəlmək olar ki, eyni rəng müxtəlif mədəniyyətlərdə və müxtəlif xalqlarda fərqli məna ifadə edə bilər. Ümumiyyətlə, rənglərlə bağlı bu və ya digər prizmadan bir sıra tədqiqatlar aparılmışdır. Elm sahəsində də rəng adlarının tədqiqi alimlərin diqqət mərkəzində olan məsələlərdəndir. Rəng adlarının tədqiqinə dair bir sıra yanaşmalar mövcuddur. Bunlardan daha geniş yayılanları - antropoloji, psixoloji və linqvokulturoloji yanaşmalardır. Müəllif bu məqalədə Azərbaycan və ingilis dillərində “göy” və “yaşıl” rəng adları və burəng adları ilə formalaşan frazeologizmlərin linqvokulturoloji xüsusiyyətlərini araşdırmağı qarşımıza məqsəd qoymuşdur. Rəng adlarını tədqiq edən alimlər belə nəticəyə gəliblər ki, bu və ya digər xalqın rənglərə münasibəti, rənglərin insan həyatındakı rolu və s. məsələlər dil materialında, daha dəqiq desək, frazeoloji vahidlərdə, atalar sözləri və məsəllərdə, əfsanələrdə, rəvayətlərdə və s. öz əksini tapmışdır.

Frazeoloji ədəbiyyatlara nəzər saldıqda, hər hansı bir dilin frazeoloji sistemində rəng adları ilə formalaşan frazeologizmlərin mühüm yer tutduğunu görərik. Azərbaycan və ingilis dillərinin frazeologiyasında xeyli sayda rəng adları ilə formalaşan frazeologizmlərə rast gəlmək mümkündür. Leksik səviyyədə xalqın milli-mənəvi xüsusiyyətlərinin, milli təfəkkürünün tədqiqi müqayisə olunan dillərdə rəng adları ilə formalaşan frazeologizmlərin araşdırılmasını zəruri edir. İngilis və Azərbaycan dillərində tərkibində rəng adları olan frazeologizmlərin müqayisəli şəkildə tədqiqi nəinki, bu dillərin leksik strukturu, həm də bu xalqların sosial-mədəni həyatı və milli təfəkkürü arasında fərqli və oxşar xüsusiyyətləri müəyyənləşdirməyə imkan verir. Çünki dünyanın hər bir xalqı bu və ya digər rəngə münasibətdə fərqli mövqe tutur, bu rənglərə münasibətdə özünəməxsus mövqeyi ilə seçilir. Bütün bunlar tarixi kateqoriya olduğundan, xalqın təfəkküründə qədim dövrlərdən formalaşaraq sabitləşmiş frazeologizmlərdə bu və ya digər formada öz əksini tapır. Bu məqalədə ingilis və Azərbaycan dillərində “yaşıl” və “göy” rənglərlə formalaşan frazeologizmlər və onların ifadə etdiyi mənaları müqayisəli şəkildə tədqiq et-

mək qarşıya məqsəd qoyulub.

Azərbaycan və ingilis dillərində **yaşıl** rəng təbiətin, təravətin, cavanlığın, yeni həyatın, yeniliyin, canlılığın rəmzi hesab edilir. Azərbaycan etnokulturoloji fikrində yaşıl rəng baharın, yeni ilin başlanğıcını simvolizə edir. Novruz bayramı şənliklərində nağıl qəhrəmanlarının geyimlərində yaşıl rəngə rast gəlinir, süfrələrimizi bəzəyən səməninin də yaşıl rəngdə olması təbiətin oyanmasının işarəsidir. Bəzi türk dillərində "yaşıl sözü" cavan adam mənasında işlənir. Buna uyğun olaraq, ingilis mədəniyyətində Milad bayramı ərəfisində həmişəyaşıl küknar ağacının bəzədilməsi yeni ili, yaşamaq ümidini simvolizə edir. Azərbaycan dilinə nisbətən ingilis dilində yaşıl rənglə formalaşan frazeologizmlər çoxluq təşkil edir:

*As green as grass - çox gənc, təcrübəsiz;*
*green winter - qarsız qış;*
*to have rub of the green - uğur əldə etmək (idman yarışlarında);*
*green wound - sağalmamış, təzə yara.*
*to keep a memory green - həmişəlik yaddaşında saxlamaq*

Müqayisə olunan dillərin hər ikisində yaşıl rəng icazə mənasını da ifadə edir:

*To give smb green light - icazə vermək;*
*yaşıl işıq yandırmaq - to give permission for smt to happen.*

Yaşıl rənglə formalaşan frazeologizmlər heç də həmişə müsbət məna ifadə etmir. Bu rəng paxıllığı, qısqanclığı, xəstəliyi də simvolizə edir. Yaşıl rənglə formalaşan frazeologizmlərdə insana məxsus fiziki və mənəvi xüsusiyyətlər də ifadə olunur:

*green with envy - paxıllıqdan dəliyə dönmüş;*
*green - eyed monster - qısqanclıq;*
*to turn green - solğun görünmək, urəyi bulanmaq;*
*green around the gills - xəstə kimi görünmək;*
*to have green thumb - bağbanlıq bacarığı olmaq;*
*green behind the ears - sadəlöv olmaq;*
*to see green in ones eye - kimisə sadəlövh hesab etmək.*

İngilis dilində yaşıl rəng həm də narkotik maddələri və onun istifadəçilərini simvolizə edir. Məsələn, *green key, green love, green gasoline, green jelly beans - narkotik maddə; green friend, green boy - narkotik maddə istifadəçisi* deməkdir.

**Göy (mavi)** rəng aydın səmanın, dənizin rəngidir. Azərbaycan mədəniyyətində göy (mavi) rəng əbədiyyət, sadiqlik, xoş xəbər və sevincin simvolu hesab edilir. Qədim Türk mifologiyasında göy (mavi) rəng tanrının rəngi hesab edildiyi üçün müqəddəs rəng sayılırdı.

Türkdilli xalqara məxsus "Oğuz Kağan" dastanında Oğuz xanın ordusunun önündə Tanrı tərəfindən göndərilmiş qurdun tüklərinin göy rəngində olması, xana göydən günəş şüası ilə yerə endirilən xanımın gözlərinin göy rəngdə olması qədim türk xalqlarının göy rəngi müqəddəs hesab etmələrinin göstəricisidir. Azərbaycan şifahi xalq ədəbiyyatına nəzər salsaq, orada göy rəngin də ağ rəng kimi əzəmət, igidlik mənasında işləndiyini görərik:

*Göydən gələn göy atlı,*
*Qolları quş qanatlı,*
*Yarıma xəbər apar,*
*Mən piyada, o atlı.*

*Göy atı minən oğlan,*
*Minib tez sürən oğlan,*
*Qayıdıb elə gəlsən,*
*Ollam qismətin, oğlan.* (7)

Əlbəttə, bu misallarda atın göy rəngdə olması simvolik məna daşıyır, göy at öndə gedən, igid, qüdrətli mənasında işlənir. Lakin Azərbaycan etnokulturoloji düşüncəsində göy rəng həm də qəmi, kədəri, matəmi simvolizə edir. Belə ki, "Kitabi - Dədə Qorqud" dastanlarında yas düşdüyü zaman insanlar qara ilə yanaşı ev-eşiklərini göy rəngə boyayar, özləri də göy rəngli libaslar geyinərdilər.

"Baybörənin oğlu Bamsı Beyrək" boyunda əsirlikdən xilas olub, evlərinə gelən Beyrək bacısından soruşur: "Qaralı, göylü otağı Sorar olsam, kölgə kimin?" Bacısı da öz növbəsində cavab verir: "Qaralı, göylü otağı sorar olsan, Ağam Beyrəyindir. Ağam Beyrək gedəli köçərim yox". "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy" da Uruz atasına deyir: "Anam mənim üçün göy geyib qara sarınsın. Nümunələrdən də göründüyü kimi, Azərbaycan xalqının etnokultural düşüncəsində göy rəng həm də matəmi simvolizə edir. Bu fikrə istinadən belə bir fərziyyə irəli sürə bilərik ki, Azərbaycan dilində işlənən "*gününü göy əskiyə bükmək - to make someone's life intolerable"* frazeologizmindəki göy rəng qara rəngin sinonimi kimi işlənib və *"gününü qara etmək"* frazeologizmi ilə eyni məna ifadə edir. Göründüyü kimi, Azərbaycan frazeologiyasında göy rəng semantik baxımdan bəzən ağ rəngə, bəzən isə qara rəngə yaxın mənalarda işlənə bilir.

İngilis etnokultural düşüncəsində mavi (göy) rəng əsilzadəliyi, zadəganlığı simvolizə edir. Ona görə də sayılıb seçilən, aristokrat nəsildən olan insanlar "blue blood" adlanırlar. Lakin İngiltərə və Amerikada göy rəng həm də depressiya, qəm, darıxdırıcılıq kimi anlayışları da simvolizə edir. İngilis dilində bu fikri sübut edən bir sıra frazeologizmlər vardır:

*Blue devils - ruh düşkünlüyü, depressiya;*
*to feel blue - özünü yaxşı hiss etməmək;*
*to be in the blues - uğursuzluğa düçar olmaq;*
*to look blue - xəstə kimi görünmək.*

XIX əsrin sonlarında Amerikanın cənub hissəsində meydana gələn melanxolik musiqi - "Blues" janrı da öz adını məhz buradan götürmüşdür. İnglis mədəniyyətində göy rəng nisbətən neqativ mənalarda (kodub söz, təhqiredici söz , əsəb və s.) işlənə bilər:

*Blue joke - kobud, alçaldıcı zarafat;*
*blue movie - içərisində açıq - saçıq səhnələr göstərilən film;*
*scream blue murder - çığırıb bağırmaq, emosiyaları cilovlamamaq;*
*to make the air blue - qızğın mübahisə etmək;*
*things look blue - işlər pis gedir.*

Ümumiyyətlə, ingilis dilində göy rənglə formalaşan və müxtəlif mənalar ifadə edən frazeologizmlər kəmiyyətcə çoxdur və bu frazeoloji vahidlər müxtəlif semantik çalarları ilə seçilir. Məsələn:

*Once in blue moon - çox nadir hallarda;*
*out of blue - gözlənilmədən, qəflətən;*
*true blue - öz əqidəsinə sadiq;*
*between the devil and the deep blue sea - iki od arasında qalmaq.*

Verdiyimiz nümunələrdən də aydın olur ki, göy (mavi) rənglə formalaşan frazeologizmlər məna baxımından bir-birindən fərqlənir. Beləliklə, İngilis və Azərbaycan dillərində "göy" və "yaşıl" rəng adları ilə formalaşan frazeologizmlər müxtəlif mənalar ifadə edirlər. Bu mənalar xalqın milli-mənəvi xüsusiyyətlərinin, milli təfəkkürünün, mədəniyyətinin inikasıdır.

İstər geneoloji, istərsə də tipoloji baxımdan fərqli qruplara aid olan ingilis və Azərbaycan dillərində koloristik frazeologizmlər müxtəlif mənalar ifadə edir. "Göy" və "yaşıl" rəng adları ilə formalaşan frazeolgizmlər Azərbaycan dilinə nisbətən ingilis dilində çoxluq təşkil edir. Ümumilikdə bu rənglərin simvolikasına nəzər saldıqda hər iki dildə oxşar xüsusiyyətlərə rast gəlmək olur. Belə ki, yaşıl rəng hər iki xalqın mədəniyyətində təbiəti, cavanlığı simvolizə edir. Analoji olaraq, göy rəng də hər iki mədəniyyətdə dənizi, səmanı ifadə edir. Lakin bu oxşarlıqlar iki dil yaxud mədəniyyət arasındakı yaxınlığın göstəricisi hesab etmək düzgün olmazdı. "Göy" və "yaşıl" rənglərin ifadə etdiyi bu mənalar demək olar ki, bütün dünya dillərində eynidir. Lakin, ayrı-ayrı frazeologizmlərin tərkibindəki rəng adlarını araşdırarkən, onların ifadə etdiyi mənanın bu və ya digər dilin mədəniyyəti, inancı yaxud dünyagörüşünün inikası olduğunu görürük. Bu baxımdan ingilis və Azərbaycan dillərindəki koloristik frazeologizmləri təhlili bizə bu iki dil və mədəniyyət arasında xeyli sayda allomorfizm olduğunu göstərir. Lakin bununla belə, müxtəlif dil ailələrinə məxsus bu dillərdə bir-birinə çox oxşar, bəzən də eyni məna ifadə edən frazeologizmlərə də rast gəlmək mümkündür: *yaşıl işıq – green light* (icazə mənasında). Bütün bu deyilənləri ümumiləşdirərək, qeyd etmək olar ki, koloristik frazeologizmlər xalqın mədəni irsinin daşıyıcısı, dünyagörüşünün ifadə vasitəsidir. Ona görə də bu frazeologizmlərin milli səciyyə daşıdığını desək, yəqin ki, yanılmarıq. Lakin bununla belə hətta müxtəlif dil ailələrinə aid olan dillərdə belə oxşar, hətta eyni məna ifadə edən frazeologizmlər vardır.

## Ədəbiyyat

1. The World Book Encyclopedia (A-E). Chigago: A.Scott Fetzer company, 2004, 192 p.
2. Геляева, А.И. Человек в языковой картине мира. Нальчик: Кабардино-Балкарский государственный университет им. Х.М.Бербекова, 2002, 177 с.
3. Талапина М.Б. Ахроматический фрагмент лингвоцветовой картины мира в фразеологических единицах. Санкт-Петербург: Серия «Гуманитарные и общественные науки», 2012, с.176-196
4. Серов Н.В. Цвет культуры: психология, культурология, физиология. Санкт-Петербург: Речь, 2003, 672 с.
5. Berlin B. and Kay P. Basic Colour Terms: Their Universality and Evolution. Los Angeles: University of California Press, 1969, 178 p.

6. B.J.Thomas. Advanced Vocabulary & Idiom (New edition). Edinburg: Pearson Education Limited, 1989, 544 p.
7. Kitabi Dədə Qorqud. //masalli.cls.az/front/files/libraries/2206/books/877191401.pdf

## COMPARATIVE ANALYSIS OF COLOUR (GREEN AND BLUE) TERMED PHRASEOLOGICAL UNITS IN ENGLISH AND AZERBAIJANI LANGUAGES

**A.M.Shabanova**

**SUMMARY**

This paper studies the colour (green and blue) termed phraseologisms in English and Azerbaijani languages. Although English and Azerbaijani belong to different language families, the author tries to uncover some similarities between the phraseological systems of these languages.

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ С ЦВЕТОВЫМ (СИНИМ И ЗЕЛЕНЫМ) КОМПОНЕНТОМ НА АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

**А.М.Шабанова**

**РЕЗЮМЕ**

В статье изучаются фразеологические единицы с цветовым (синим и зеленым) компонентом на английском и азербайджанском языках. Хотя английский и азербайджанский и принадлежат к разным языковым семьям, автор пытается показать некоторое сходство между фразеологическими системами этих языков.

# P S İ X O L O G İ Y A

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# P S Y C H O L O G Y

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2018 - № 48**

# ƏXLAQ VƏ HUMANİST DƏYƏRLƏR

**M.İ.Cabbarlı**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: matanatjabbarli@gmail.com

***Açar sözlər:*** əxlaq, humanizm, milli-mənəvi dəyərlər, ləyaqət, ictimai həyat
***Keywords:*** morality, humanism, national spiritual values, dignity, social life
***Ключевые слова:*** мораль, гуманизм, национальные духовные ценности, достоинство, общественная жизнь

İnsan cəmiyyətində mədəni, əxlaqi, humanist davranış və adətlər qədim və zəngin bir tərəqqi yolu keçmişdir. Belə bir maraqlı sual meydana çıxır: əxlaq nədir və onun humanist dəyərlərlə əlaqəsi necədir?

"Əxlaq" latınca "*moralis*" sözündən olub, mənası adətlərə aid olmaq deməkdir. Əxlaqi qaydalara, prinsiplərə, davranış normalarına bəslənən münasibətlər isə adətən əxlaqi hisslər kimi ifadə olunur" (4, s.17). Əxlaqi hisslər ictimai və şəxsi həyatda insanların qarşılıqlı münasibətlərini ifadə edir. "Həyalı", "ədalətli", "səmimi", "insaflı", "mərhəmətli", "qayğıkeş", "ləyaqətli", "abırlı", "ismətli", "şirindil", "xoşxasiyyət", "alicənab", "sadə", "təvazökar" və bunların əksini təşkil edən bu tip məhfumlar müsbət və mənfi əxlaqi keyfiyyətlər kimi yaranıb və layiq olduğu insanlara şamil edilib. Lakin bunların özünəməxsus fərqli cəhətləri var və bir çox əxlaqi qaydalar dövlət tərəfindən tənzim olunur və rəsmi qanunlar çərçivəsində məcburi surətdə onlara riayət olunması tələb olunur.

Belə ki, ibtidai, quldarlıq, feodalizm, kapitalizm, sosializm quruluşlarında ölkələrin siyasi, iqtisadi, ideoloji, psixoloji tələblərinə uyğun olaraq müxtəlif əxlaqi, mədəni və ya sosial davranışlar, humanist yanaşmalar özünü göstərmişdir. Əxlaq, mədəniyyət, mənəviyyat, davranış normaları hər zaman bugünkü kimi olmamışdır. Bu uzun sürən təkamülün nəticəsidir. Əxlaqi hisslərin, onlara uyğun olaraq adətlərin təkamülündən danışarkən qeyd etməliyik ki, əxlaqi düşüncə inkişafın erkən mərhələlərində, insanın arxaik şüura malik olduğu dövrlə əlaqəlidir. Əxlaqi davranış və adətlərin, humanizmin təkamülü, inkişaf edərək formalaşması, el ağsaqqallarının, müdrik insanların təfəkkür süzgəcindən keçərək bugünə qədər gəlməsi uzun inkişaf dövrünün məhsuludur. Ona görə də ayrı-ayrı formasiyalarda (ibtidai icma quruluşu, quldarlıq quruluşu, feodalizm, kapitalizm və sosializm quruluşları) insanların əxlaqi davranış normaları, adət-ənənələri müxtəlif olmuşdur. Məsələn, ibtidai icma quruluşunda əxlaq normaları, davranış xüsusiyyətləri, insanların bir-birinə münasibətlər sistemi özünəməxsusluğu ilə seçilir. "İbtidai insanların özünəməxsus əxlaqi xüsusiyyətləri olmuşdur. Qədim insan sürülərində, inkişafın erkən mərhələlərində, insanlar nəinki özgə ordulardan olan düşmənləri, həm də öz qruplarından olan ən qoca və xəstə adamları və ov itlərini öldürüb yeyirdilər. Bunun səbəbini soruşanda isə onlar deyirdilər: "İtlər su samurlarını ovlayırlar, qarıları isə yox"" (3, s.16).

Bu sadəlöv fikir ibtidai insanın həyatının ən erkən mərhələsində yaranmış tayfa vəhşiliyinin xarakterini aydınlaşdırır. Bu davranış zaman və məkana hesablanan əxlaq normaları idi və qəbahət də sayılmırdı. Bu cür hadisələr bütün insan birliyinin mövcudluğunu özünütəhlükə qarşısında qoymuş amansız aclıq zəminində baş verirdi. Heyvan səltənətindən yenicə xilas olmuş adamların vəhşilik praktikasını məhz bu müəyyən edirdi. Beləliklə, adamyemə icma quruluşunda əxlaqsızlıq sayılmırdı. Buna ibtidai insanlar adi əxlaq norması kimi baxırdılar. Mühitə heyvani uyğunlaşmanın özünəməxsus qalığı olan adamyeməklik, ümumiyyətlə, əxlaqi tənzimləmə altına düşmürdü. Əmək fəaliyyətinin səmərəliliyi inkişaf etdikcə, sosial münasibətlər, qarşılıqlı yardım möhkəmləndikcə əvvəlcə tayfa daxilində (azacıq inkişaf etmiş bütün ibtidai xalqlarda qohumların "ətindən və qanından" istifadə etmək ən alçaq cinayət kimi qiymətləndirilir), sonra isə başqa tayfalara qarşı münasibətdə vəhşilik tədricən aradan qalxır. Beləliklə, ən qədim adamlarda qan qohumluğu hissləri də tarixi nəticədir, bunlar göydəndüşmə kimi birdən-birə meydana gəlmir, onların öz təkamülü vardır.

İlk formasiya olan ibtidai cəmiyyətdə icma prosesində tədricən adamların qəbiləyə, icmaya, bir-birinə müəyyən münasibətləri, kişilərin qadınlara, qadınların kişilərə, valideynlərin uşaqlara, uşaqların valideynlərə münasibətləri yaranır, böyüyə hörmət kimi ilk bəsit əxlaqi dəyərlər yaranırdı. İbtidai insanların əxlaqi münasibətləri əvvəlcə mücərrədləşmələr şəklində, dərk olunmayaraq, son dərəcədə konkret və hissi xarakter daşıyır. Ayrıca adamın mənlik şüurunun inkişaf etməsi ictimai və fərdi şüurun birgə olması, fərqləndirilməməsi nəticəsi idi. İlk əxlaq qanunları vərdişlər əvvəlcə, görünür, hətta şifahi rəvayətlərdə (miflərdə, nağıllarda, atalar sözlərində, təmsillərdə və s.) deyil, bilavasitə birgə fəaliyyətdə verilirdi. Bunu qəbilə quruluşunun inisiasiyalar (gənclərin yaşlılığa, tayfanın tam hüquqlu üzvlüyünə qəbul olunması məsələləri) kimi koloritli adəti də sübut edir. Qəbula hazırlıq zamanı gənclər ovçuluğun, balıqçılığın əməli vərdişlərinə yiyələnirlər. Bu zaman onların iradəsi möhkəmlənir, fiziki dözümlülüyü tərbiyə olunur. Tayfanın gənc üzvlərinə qənimətin tam bölüşdürülməsi, tayfada təşəkkül tapmış qohumluq və cins-yaş fərqlərinin pozulmaz, öz-özünə aydın olan fərdlər kimi qavranılması öyrədilir. Bu mərasimin özü müəyyən ayin olub, burada qəbul olunanlar öz çəldliyini, qüvvəsini, dözümlülüyünü, səbirliliyini nümayiş etdirirlər. Qəbul olunma zamanı onlar yeni ad alır, tayfanın rəvayətləri, "sirləri" ilə tanış olurlar. Bu rəvayətlərin nəsihətamiz məzmunu fiziki qüvvənin tərifllənməsindən, qarşılıqlı yardımı, böyüklərə itaət etməyi bərqərar etməkdən və s. ibarətdir. Mərasimlər bir növ elə praktik konkret üsullardan biri olur ki, bu üsulların vasitəsilə qəbilə daxilində qan qohumluğu münasibətləri bərqərar olur.

Kollektiv üzvlərinin münasibətlərində, bir qayda olaraq, açıq küsüşmələr, toqquşmalar yox idi – çox qədim adət belə münasibətləri istisna edərək, qəbiləni vahid, yekdil kollektivə çevirirdi. Ona görə də ibtidai insanların şüurunda "özünün" və "özgənin" sözləri həm də əxlaqi məna daşıyır, bütün "özününkülər" yaxşılığı, "özgələr" isə təhlükəli, düşməncəsinə, pis anlayışları təcəssüm etdirir. İbtidai icma quruluşunun əxlaqının xüsusiyyəti də buradan irəli gəlir – bu əxlaq olduqca lokal xarakter daşıyır, başqa adamlara "özgələrə" deyil yalnız qəbilənin, tayfanın üzvlərinə aid olur. Qəbilə mənsubiyyətindən asılı olmayaraq hər bir adamın əxlaqi sərvəti haqqında təsəvvür hələ ibtidai insanın əxlaqi şüuruna müəssər deyildi. Adamların sinfi mübarizəsinin səbəb olduğu bu təsəvvür ilk dəfə quldarlıq sivilizasiyaları mədəniyyətinin zirvələrində meydana gəlir. Həmin adamları artıq sadəcə qan qohumluğu münasibətləri deyil, daha mürəkkəb so-

sial əlaqə birləşdirirdi.

İbtidai icma quruluşunun tədricən iflasa uğraması quldarlıq quruluşunun yaranması və yeni əxlaqi şüurun, münasibətlərin, mədəni davranışın və adətlərin yaranmasına səbəb oldu. Artıq bərqərar olmuş yeni quruluşda yeni davranış nomaları yaranırdı. Artıq varlılar və yoxsullar təbəqəsi formalaşır, bu təbəqələrin davranış qaydaları fərqli xarakter daşıyır. Yas mərasimləri ölmüş insanların dəfnində də bu ayrı-seçkilik özünü göstərirdi. Varlıların qəbri yoxsulların qəbrindən ayrılırdı. Bu da yeni bir əxlaq formasının yaranmasının səbəbi oldu.

Xüsusi mülkiyyətin meydana gəlməsi və əmlak bərabərsizliyi tədricən qəbilə quruluşunu dağıdır, onun əxlaqını taqətdən salır. İmtiyazlılar və qeyri-imtiyazlılar ("nəciblər" və "qeyri-nəciblər") bölünmə tayfa adətlərini ikinci plana çəkir. Varlılar və yoxsullar arasında antoqonizmin əmələ gəlməsi, siniflərin meydana çıxması ilə xüsusi, sinfi mənafeləri idarə edən əxlaq formalaşır. Azlığın çoxluğu əsarət altına alması yeni ictimai qüvvə olan dövlətlə müdafiə olunur. Bu dövlət öz təşkilatlarının köməyi ilə quldarların əxlaqını ümumi ictimai əxlaqa çevirməyə çalışır. Açıq qeyri-bərabərliyə əsaslanan əsarət, şəxsi asılılıq münasibətləri bilavasitə, daha amansız forma olan quldarlıqla təzahür edir. İctimai inkişafın hərəkətverici qüvvəsi qulların və quldarların, yoxsulların və varlıların sinfi mübarizəsi olur. İki əxlaq – istismarçıların və istismar olunanların, "yuxarıların" və "aşağıların" əxlaqları toqquşur. Quldarların mənəviyyatı və məzlumların əxlaqı mənəvi mədəniyyətin ilk iri ziddiyyətinin iki cəhəti kimi təzahür edir. Şəxsiyyətin inkişafının və onun əxlaqi şüurunun yeni şəraiti və stimulları meydana gəlir.

Qəbilə-tayfa adətləri iki üsulla dağılır: ya pozulur, ya da onların məzmunu təhrif olunaraq, sosial bərabərsizlik münasibətlərinə uyğunlaşır. Əxlaqın hissələrinə ayrılmamış vahid ibtidai təfəkkürdən ayrılması prosesi güclənir. Etika - əxlaqi həyat proseslərinin fəlsəfi nəzəri dərk edilməsinin və onların dünyabaxışı cəhətdən doğruldulmasının ilk təşəbbüsü meydana gəlir.

Kölə asılılığı əxlaqın iki qütbündən – quldarlarda və qullarda onun əsas məzmununu müəyyən edən sosial əlaqələrin bu və ya digər sinfin mühitindən məziyyət və nöqsanlar təsəvvürün ən mühüm forması kimi təzahür edir. Artıq qəbilə quruluşunun dağılması dövründə qəbilə əyanlarının eposunda və xalq nağıllarında əxlaqın iki müxtəlif sisteminin ayrılmasını, insanın bir-birinə əks olan iki idealının təşəkkülünü görmək olar. Həm də əyanların allahlar haqqında dini təsəvvürlərində fateh əlamətləri, xalqın aşağı təbəqələrinin dini təsəvvürlərində isə zəhmətkeş, yaradıcı əlamətləri üstünlük təşkil edir.

Tarixi mənbələrdə quldarların əxlaqı haqqında bizə nisbətən az məlumat çatdırılmışdır. Bu da təsadüfi deyildir: quldarlıq elə ictimai qayda tətbiq etmişdi ki, bu qayda yanlız qul sahibləri sinfinin nümayəndələrinin əxlaqi inkişafı üçün imkan yaratsın. Quldarların pərakəndəliliyi, onların tərkibinin müxtəlif dilli olması və etnik müxtəlifliyi də onlar tərəfindən onların mənafeyini əks etdirən vahid əxlaqın hazırlanmasına mane olurdu. Hakim ideologiyada isə qula yanlız "danışan alət" kimi baxılırdı, onun həyatı əşyanın qiymətinə bərabər tutulurdu. Quldarlar, qulu bütün marağı yeməkdən və yatmaqdan ibarət olan müti varlığa çevirməyə çalışırdılar. Quldarlıq insanda alçaldıcı itəatkarlıq, xırda, rəzil ehtiraslar tərbiyə edirdi. Qulda yüksək vətəndaşlıq fəzilətlərinin, mərdliyin, qoçaqlığın, ehtiramın olmasına hətta quldarlara salam vermələri, nəvaziş göstərmələrini, ləyaqətin və s. olması ağaya meydan oxumaq, ona hörmət etməmək kimi qiymətləndirilirdi.

Quldarlar eyni zamanda quldarların qəbilə əxlaqını öz sinfi ehtiyaclarına uyğunlaşdırmaqla, bu əxlaqın bəzi cəhətlərini qullarda saxlamağa çalışırdılar. Qula təlqin etməyə

çalışırdılar ki, ağa və onun ailəsi onun tərbiyə hökümdarı olub, onun üçün qəbiləni və itirdiyi vətəni əvəz edir. Roma imperiyasında qullar arasında hətta xüsusi pərəstiş – öz ağasının yaxud patronunun “dahiliyinə” pərəstiş təlqin edilirdi.

Quldarlıq quruluşunu əvəz edən feodalizmdə özünəməxsus əxlaqi formalar yaranırdı. İnsanları bir-birinin üstünə qaldırmaq, adamlar arasında rəhmsizlik, milli-dini, irqi nifaq salmaq, onları parçalayıb idarə etmək feodalizmə xas olan əxlaqi münasibətlər idi. Belə cəmiyyətdə ayrıca fərd himayə olunmadan özünü təhlükəsiz hiss edə bilməzdi. Ona görə də o, anadangəlmə belə himayəyə malik deyildisə, onu əldə etməli idi. Silkə mənsub olma ayrılmaz fərdi xassədir. Əxlaqi nüfüz insanın statusundan asılıdır və ona “anadangəlmə” verilmiş “təbii” əxlaqi keyfiyyətlərə malik olmaq kimi görünür.

Cəmiyyətin belə strukturunu tam müvafiq olaraq ədalət haqqında feodal təsəvvürü “ləyaqətə görə” qeyri-bərabər əvəz və qeyri-bərabər əxlaqi məsuliyyət nəzərdə tutur. K.Marks qeyd etmişdir ki, feodalizmdə istər təhkimli kəndlilər, istərsə feodallar, istər vassalar, istərsə suzeranlar, istər ruhani olmayanlar, istərsə də keşişlər – “hamı asılıdır”. Belə şəraitdə ictimai rəy də statusun müdafiəsi problemi birinci dərəcəlidir.

Qrupların, korporasiyanın, həmçinin hər bir ayrıca fərdin silki-nüfuz statusları iyerarxiyasında tutmalı olduğu “layiqli yer” haqqında təsəvvür feodal fikir tərzi üçün pozulmazdır. Əxlaqi şüurun bu başlanğıc mövqeyi o qədər mübahisəsizdir ki, onu hətta müzakirə etmirlər. Bu və ya digər fərdin, qrupun nüfuzu barədə mübahisə gedə bilər, lakin sosial-əxlaqi iyerarxizm prinsipinin özünün ədalətli olması şübhə altına alınmır. Beləliklə, əsas fikir fərdin həm obyektiv mövqeyini, həm də onun əxlaqi həyatının subyektiv parametrlərini ifadə edir. Müxtəlif sosial qrupların arasında kəskinləşən məsafə hissi çoxlu qadağalar, adətlər, ayinlər, lazım gəldikdə isə qılıncın tiyəsi ilə də mühafizə olunur. Əxlaqi həyatda “öz yerini bilmək” barədə “ilahi” qanun kimi dini formalarda möhkəmləndirilir.

“Bütün əxlaqi tələblərin “ata” və “oğullar” münasibətlərinə bərabər tutulması feodal mənəviyyatı tələblərini hamının başa düşdüyü dildə ifadə etməyə imkan verirdi. Məsələn, feodal Çinində “atalar”-“oğullar” ölçüsü ilə hazırlanmış yazılı davranış qaydaları özünün aşağıdakı möhkəmlənmiş qarşılıqlı münasibətini almışdı: ata-oğul, hökümdar-təbəələr, böyük qardaş-kiçik qardaş, ər-arvad. Oğul hörmətli, ata həddən artıq sevəndir, hökümdarlar ədalətli, təbəələr sədaqətlidirlər, böyük qardaş kiçik qardaşa oğlu kimi, kiçik qardaş isə böyük qardaşa atası kimi münasibət bəsləyir, ər arvadına zəif insan kimi yanaşır, arvad itaətkar və sədaqətlidir – bu qaydaların sadə əxlaqi məzmunu belədir. Belə bir cəhət əlamətdardır ki, bu əxlaqa görə, hökümdarın həyatına qarşı cinayət atanın həyatına qarşı cinayətin eynidir və heç bir şəraitdə bağışlanılmazdır. Feodal əxlaqının mühafizəedici, sinfi-siyasi mənası bunda parlaq ifadə olunur” (3, s.86).

Feodal istehsal münasibətlərinin kapitalist istehsal münasibətləri ilə əvəz olunması həm də cəmiyyətdə hökm sürən əxlaqi sərvətlərin bütün sisteminin yenidən qurulmasına, əxlaqi şüurun keyfiyyətcə başqa strukturuna malik şəxsiyyətin meydana gəlməsinə səbəb olur. Silki-status əlamətinə görə qeyri-bərabər fərdlərin şəxsi asılılığı əsasında qurulan feodal sosial əlaqə forması formal cəhətdən öz aralarında bərpa olunan və öz həyat fəaliyyətində təkrar istehsal və kapital artımı prosesinə tabe olan adamlar arasında şey asılılığı münasibətləri ilə əvəz olunur. Köhnə əsas siniflərin-feodalların və təhkimli kəndlilərin əvəzinə ictimai həyatın öz səhnəsinə yeni siniflər - burjuaziya və ploteriat çıxırlar. Həmin zamandan etibarən bu yeni siniflər arasında mübarizə dünya tarixinin inkişafını müəyyən edir. Dünya bazarı təşəkkül edir. Köhnə patrixal əlaqələr dağılır, ticarət-pul münasibətləri cəmiyyətin bütün məsamələrinə daxil olaraq yeni nümunələr, davranışın

əxlaq etalonlarını yaradır. Başqa cür hərəkət edən, dünyanı və öz-özünü başqa cür qiymətləndirən şəxsiyyətin yeni tarixi tipi meydana gəlir. İnsanın ona aid edilən məziyyətlərinin spesifik "yığını" ilə birlikdə yeni idealı əmələ gəlir. Beləliklə kapitalizmin qayda qanunlarına müvafiq olaraq insanlarda yeni əxlaqi düşüncələr, hisslər yarandı.

Kapitalizmlə yanaşı, keçmiş sovet məkanında və dünyanın bir çox yerində sosializm quruluşu yarandı. Bu quruluş da özü ilə yeni əxlaqi münasibətlər meydana gətirdi. Sosializm cəmiyyətində isə davranış qaydaları tamamilə yeni xarakter aldı. Yalançı ideologiya ilə qurulan bu quruluş insanları, xüsusi ilə gəncləri boş xəyalla, xülya ilə tərbiyə edir, onlarda sosializmə qarşı şüuru formalaşdırmaq üçün ümumi düşüncə tərzini tərbiyə edirdi. Sosializm cəmiyyətində isə daha yeni əxlaqi yanaşmalar (kommunizm işinə sədaqət, sosialist vətəninə, sosializm ölkələrinə məhəbbət, cəmiyyət xeyrinə vicdanla işləmək, işləməyən dişləməz) meydana gəldi. SSRİ məkanında bəlli kommunizm əxlaq kontekstində həmin cəmiyyətin saxlanılması və vahid sovet adamının əxlaqi xarakteri nəzərdə tutulsa da, bəzi müsbət məqamları da var idi. Bütövlükdə isə milli xarakterin, milli əxlaqi düşüncələrin formalaşdırılmasına yönəldilmiş bir ideya idi.

Müstəqillik illərində isə artıq xalqımız öz milli adət-ənənələrinə, milli dəyərlərinə, dini, ictimai-siyasi, mədəni, əxlaqi baxışlarına müstəqil olaraq sahib oldu.

Vətənpərvərlik hissi milli zəminə - İslam dininin mənəvi sərvətlərinə, ümumbəşəri dəyərlərə əsaslanan fəal hissdir. Taleyin bizə bəxş etdiyi murdar qonşuların millətimizə qarşı törətdikləri soyqırım dərslərini heç bir dövrdə "qan yaddaşımızdan" silməməliyik. Bu gün gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsində məhz mənəvi dəyərlərimizə söykənməliyik. Hər hansı bir problemi tədqiq edərkən ilk növbədə onu milli mədəniyyətimizlə, adət-ənənələrimizlə, etnik-milli hisslərlə əlaqələndirməli və həmişə bu tükənməz xəzinədən bəhrələnməliyik. Azərbaycan Respublikasının sabiq prezidenti, ulu öndərimiz mərhum Heydər Əlirza oğlu Əliyevin milli-mənəvi dəyərlərimizi qorumaq haqqında 14 avqust 2001-ci il tarixli məlum bəyənatı bunu bir daha sübut etdi. "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdəndir.

Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mənəvi səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik" (H.Əliyev).

Milli-mənəvi dəyərlərimizdə həya hissinə, insan ləyaqətinə, onun daxili aləminə, ətrafdakılara, öz-özünə münasibətinə aid ibrətamiz fikirlər əsas yer tutur. Bu əxlaqi güvənc yerimizdə tələbə-gənclər sədaqətə, xeyirxahlığa çağrılır. Yetişməkdə olan gənc nəslimiz nə qədər abır-həyalı olsa, öz nəfsini idarə edə bilsə, başqalarına qarşı mərhəmətli olsa, o qədər də şəxsiyyətə çevrilər, öz məninə qovuşa bilər. Mənliyi olmayan cahil və tüfeyli gənc cəmiyyətə fayda verə bilməz. Ulu əcdadlarımız yaşlı və gənc nəsli mərdliyə, mübarizliyə, düşmənə nifrət etməyə, əyilməzliyə, qorxmazlığa çağırır. Gənc o zaman bütöv şəxsiyyət olar ki, o, yaltaq, rəzil, qorxaq olmasın, mərd, əyilməz olsun. Düşməndən qorxmasın, vətənin hər qarışı üçün mübarizə aparsın.

Gənc nəsil bir daha bilməlidir ki, onlar saf və ülvi əxlaqa, təmiz niyyətə malik olan Azərbaycan xalqının varisidirlər. Onlar bu adı daşımağa və yaşatmağa borcludurlar. Bunun üçün isə bu əxlaqi-mənəvi sərvətləri daim öyrənməli və gündəlik əməli işlərinə tətbiq etməlidirlər.

Yuxarıda dediklərimiz bir daha sübut edir ki, əxlaq uşaq və yeniyetmələrin, gənclərin, yaşlı nəslin, bir sözlə, bütün cəmiyyət üzvlərinin şəxsiyyətinin inkişaf nüvəsini təşkil edir. Əxlaqı olmayan fərddən nə müəllim, nə valideyn, ana, ata, konkret desək, heç bir fəaliyyət sahəsində şəxsiyyət ola bilməz. K.D.Uşinskinin ifadəsi ilə desək, əxlaqsız savadlılıq donuzun burnuna salınmış qızıl həlqələrə bənzər. Buna görə də hər bir gənc xüsusi olaraq onlara buyurulanlara əməl etməli, milli mentalitetimizə, adət-ənənələrimizə sadiq qalmalı və onları qorumalıdır.

Əxlaqlı adam kamil insan olur. Müasir dövrdə kamil, müdrik, təkmil insan kimə deyirlər? Kamil insan elm bilik sahibi, şair təbiətli, filosof təfəkkürlü olub, bütün elmləri öyrənməli, dünyagörüşünün incəliyi ilə fərqlənməli, incə məqamları, sətiraltı psixoloji çalarları anlamaq qabiliyyətinə malik olmalı, dünya mədəniyyətindən, dünyanın siyasi işlərindən xəbərdar olmalı, sağlam, açıq fikirli, iti zehinli, yüksək zövqlü, uzaqgörən olmalıdır. Kamil insan təkəbbürlü, ağılsız, nadan olmamalı, ancaq bu günü ilə yaşamamalı, xeyirxah, tədbirli, çalışqan, iş bacaran, hay-küysüz, hesablanmayan hər bir çətinliyə sinə gərməyi bacarmalıdır. Kamil insan elm, ağıl sahibi olmalıdır. Elmsiz insan şoran torpağa səpilmiş tum kimidir (A.A.Bakıxanov). Lakin, adam üçün elm sahibi olmaq hələ azdır. Elm gərək xalqın həyatına, məişətinə, onun tələbatlarına kömək etsin, belə olmasa o elmin faydası olmaz. Əməlsiz elm, torpağa diri-diri basdırılmış adam kimidir (A.A.Bakıxanov). Kamil adam həqiqət sirlərinin kəşfində və puç etiqadların məhv edilməsində, kor, nadan, cahil adamların xatirinə cəmiyyətə zidd hərəkətlərdən əl çəkməyi bacarmalı, həqiqi insan, nəcib əxlaq sahibi olmalıdır. Zənnimizcə, kamil insan ən azı aşağıdakı vəzifələri yerinə yetirməyə borcludur. İnsan pis əməldən uzaq olmalı, yaxınlıq etməyi bacarmalı, zülmü özünə peşə seçməməli, öz həmvətənləri ilə həlim münasibətdə yaşamağı və onlara həlim münasibətlə yanaşmağı bacarmalı, elmi yaymağı özünə adət etməli, öz qüvvəti ilə, imkanları ilə cəmiyyət içərisində nifaq yox, qayda-qanun yaratmağı bacarmalıdır.

## Ədəbiyyat


1. Bayramov Ə.S. Etnik psixologiya məsələləri. Bakı, 1996
2. Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, Elm və təhsil, 2011, 484 s.
3. Baxşəliyev Ə.T. Etika (dərslik). Bakı, 1986
4. Əfəndiyev T. Əxlaq necə yaranmışdır. Bakı, 1957


## ETHICS AND HUMANISTIC VALUES

**M.I.Jabbarli**


## SUMMARY

Moral norms, features of behaviour, people’s attitude towards each other within tribal communal system are considered in this article. It is stressed that the sense of patriotism, adherence to national moral values and nobility were inherited by the Azerbaijani pe-

ople from their ancestors.

## ЭТИКА И ГУМАНИСТИЧЕСКИЕ ЦЕННОСТИ

**М.И.Джаббарлы**

### РЕЗЮМЕ

В статье исследуются моральные нормы, особенности поведения, отношение людей друг к другу в племенно-общинном строе. Отмечается, что чувство патриотизма, приверженность национально-моральным ценностям и благородство унаследованы азербайджанским народом от своих предков.

# Ə D Ə B İ Y Y A T Ş Ü N A S L I Q

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# L I T E R A R Y  C R I T I C I S M

2018 - № 48

# XX ƏSRİN 40-CI İLLƏRİNDƏ CƏNUBİ AZƏRBAYCAN MÜHACİR ƏDƏBİYYATININ YARANMA SƏBƏBLƏRİ VƏ BÖLÜNMÜŞ VƏTƏN DƏRDİ

**A.H.Hüseynova**
Sumqayıt Dövlət Universiteti
5008, Sumqayıt, 43-cü məhəllə
e-mail: sdu.adil@gmail.com

***Açar sözlər:*** Cənubi Azərbaycan, mühacirət ədəbiyyatı, bölünmüş vətən, Azərbaycan dili, muxtariyyət, azadlıq
***Keywords:*** South Azerbaijan, immigrant literature, divided homeland, Azerbaijani language, autonomy, freedom
***Ключевые слова:*** Южный Азербайджан, эмигрантская литература, разделённая родина, азербайджанский язык, автономия, свобода

Məlum olduğu kimi, Cənubi Azərbaycan mühacirət ədəbiyyatı 1946-ci ildən sonrakı dövrlərdə yaranmışdlr. Mühacir yazarlar İrandan və Cənubi Azərbaycandan mühacirət etmiş yaradıcı siyasətçilər, milli ruhda əsərlər yazan yazıçı və şairlər idi. “Seyid Cəfər Pişəvəri, Məhəmməd Biriya, Həmzə Fəthi, Hökumə Billuri, Balaş Azəroğlu, Mədinə Gülgün, Qulamrza Səbri Təbrizi, Qulamhüseyn Saedi, Məhəmmədəli Mahmud, Həmid Nitqi və başqa yazıçı və şairlər İran hökumətinin despotizmindən yaxa qurtararaq, dünyanın müxtəlif yerlərinə, bir hissəsi isə Şimali Azərbaycana mühacirət etmişdilər. Bu proses 1945-1946-cı illərdə Cənubi Azərbaycanda Milli Hökumətin süqutundan sonra baş vermişdi” [10]. Məhz bu dövrdən sonra bölünmüş vətən, vahid Azərbaycan, parçalanmış vətən dərdi, yurd, el-oba həsrəti, milli-mənəvi birliyin zərurəti və s. mövzular ədəbiyyatda öz geniş əksini tapdı.

Şimali Azərbaycanda mühacirət ədəbiyyatının yaranması səbəbləri İranda baş verən siyasi proseslərlə bağlı idi. Yazıçı-publisist, partiya ideoloqu Seyid Cəfər Pişəvəri 1945-ci ilin axırlarında Azərbaycan Demokrat Partiyasının orqanı olan “Azərbaycan” qəzetində partiyanın minimun tələblərini irəli sürdü. Bunlar aşağıdakılardan ibarət idi:

- Azərbaycan dilinin hüquq və statusunun genişləndirilməsi;
- Konstitusiyaya əsaslanan inzibati, iqtisadi və mədəni muxtariyyət əldə edilməsi;
- vilayət şurasının yaradılması.

Azərbaycan Demokrat Firqəsi separatçılıqdan uzaq, müstəqil və vahid İran tərkibində muxtariyyət ideyasını müdafiə edirdi. Lakin İran hökuməti buna mane olsaydı, onda Azərbaycan müstəqilliyini əldə etmək fikrində idi. Adıgözəl Məmmədov “Cənubi Azərbaycan hərəkatının süqutunun gizlinləri: İ.Stalin-M.Bağırov-S.C.Pişəvəri” məqaləsində göstərir ki, “SSRİ İran neftini ələ keçirmək üçün müxtəlif gedişlər edib. İkinci Dünya müharibəsi zamanı SSRİ İran planını arxaya keçirsə də, sonradan yenidən fəailiyyətə başlayıb. Bu fəailiyyət üçün isə əsas məsələ azərbaycanlıların ayağa qaldırılması, hətta müstəqil demokratik Cənubi Azərbaycan Respublikasının yaradılması da olub” [11]. Deməli, Cənubi Azərbaycanda muxtariyyət və ya müstəqil respublika yaradılmasında SSRİ-nin geosiyasi marağı əsas rol oynamışdır.

Cənubi Azərbaycanda hakimiyyət ən az qan tökülməklə ələ keçirildi. 1945-ci il Təbrizdə Milli Təsis qurultayı keçirildi. Qurultay öz bəyanatında aşağıdakıları bildirdi:

1. Azərbaycan xalqı tarixən özünəməxsus millət, dil, mədəniyyət və ənənələrlə səciyyələnən tarixə malikdir. Bu keyfiyyətlərin olması Azərbaycana Atlantika bəyannaməsində bütün xalqlara vəd olunan azadlıq və mxtariyyət əldə etməyə ixtiyar verir.

2. Azərbaycan millətinin İrandan ayrılmaq və ya İranın ərzi bütövlüyünə xələl gətirmək arzusu yoxdur. Çünki Azərbaycan özü ilə digər vilayətlər arasında mövcud olan sıx mədəni, təhsil, siyasi əlaqələrindən xəbərdardır.

3. Azərbaycan milləti var gücü ilə demokratiyanı, o cümlədən, onun İranda konstitusiyalı hökumət formasını müdafiə edir.

4. İranın bütün vətəndaşları kimi, azərbaycanlılar Milli Məclisə deputatlar seçməklə və vergi ödəməklə mərkəzi hökumətin fəailiyyətində iştirak edəcəklər.

5. Azərbaycan milləti açıq və rəsmi şəkildə bildirir ki, İranın bütövlüyünə hörmət etmək şərtilə, digər millətlər kimi onun öz hökumətini qurmağa və daxili prosesləri, dövlət işlərini idarə etməyə ixtiyarı vardır.

6. Azərbaycan milləti azadlıq yolunda böyük qurbanlar verdiyindən, öz muxtariyyətini demokratiyanın möhkəm təməli üzərində qurmağı qərara alıb, buna görə də Azərbaycan Muxtar Hökumətinə nazirlər seçilməsi üçün Milli Qurultaya müraciət edir.

7. Azərbaycan millətinin öz milli və ana dilinə xüsusi bağlılığı var. Bu, aşkardır ki, Azərbaycan xalqına başqa dilin qəbul etdirilməsi onun tarixi inkişafını ləngitmişdir. Məhz bu səbəbə görə qurultay öz diplomatik nümayəndələrinə məktəblərdə və hökumət idarələrində bacardıqca tez zamanda ana dilinin işlədilməsi haqqında göstəriş verir.

8. 150000 imza ilə dəstəklənən qurultay özünün təsis yığıncağını elan edir və Azərbaycanı idarə etmək, yuxarıda adı çəkilən qərarları həyata keçirmək üçün Milli Məclis çağırılanadək Komitə təyin edir" [6, 195-196]. Göründüyü kimi, Azərbaycan xalqı öz beynəlxalq və milli hüquqlarından istifadə edərək muxtar və müstəqil dövlət qurmaq, milli dilini ictimai həyatın bütün sahələrində işlətmək, separatçılığa yol vermədən özünüidarəyə nail olmaq, idarəçilik qurumlarına malik olmaq hüququnu bəyan etdi.

Azərbaycan Muxtar Hökuməti azərbaycançılıq ideyalarını həyata keçirirdi. Tadeuş Svyataxovski yazır: "İki Azərbaycan arasındakı əlaqələr həm çoxcəhətli idi, həm də müxtəlif xarakter daşıyırdı: sovet dövründən qabaqkı illərdə olduğu kimi bu əlaqələr gah intensiv xarakter alır, gah da yenicə cücərməyə başlayırdı. Rəsmi nümayəndələrin səfərləri kimi, Bakı yaradıcı qurumlarının Təbrizə gəlişinin üstün olduğu mədəni mübadilə gücləndirildi. Mədəni inqilabın xarakterinə güclü sovet təsiri var idi və bunun da ən diqqətəlayiq cəhəti ədəbiyyata göstərilən dövlət qayğısından ibarət idi. Ədəbi dilin, ən çoxu ərəb deyil, fars ünsürlərindən təmizlənməsi uğrunda aparılan kampaniya, bu dili rus dilindən alınma sözlər daxil etməklə, Azərbaycan dilinin Bakı variantı ilə eyniləşdirmək cəhdinə çevrildi. Forma, tematika, dramaturgiya, qəzet, redaksiya kimi istilahlar, eləcə də sırf rus sözləri olan obraz, zavod, povest kimi sözlər Təbriz qəzet və jurnallarının dilinə daxil oldu. Bu, Təbrizdə yaşayan sovet yazıçıları, jurnalistləri və təbliğatçılarının əlbir redaksiya işinin əməli nəticəsi idi. Ana Vətən, ana dili, Azərbaycanın şanlı keçmişi və onun tarixi şəxsiyyətləri mövzusunda məhəbbətlə yazan şair və yazıçılar eynilə Sovet İttifaqı haqqında da tərifli sözlər uydururdular. Tədqiqatçı Səkinə Berengian Təbriz mətbuatında dərc olunan yazılardan elə tipik şeir başlıqları misal gətirir ki, bunların arasında Oktyabr inqilabına, qalibiyyəti Qızıl Orduya, May bayramına və hamısından daha

çox Stalin və Leninə həsr edilmiş mədhiyyələr var. Şərqi Avropanı qeyri-adi dərəcədə xatırladan bir tərzdə, yerli milliyyətçiliyin təşəkkülü SSRİ-nin şəninə yaltaqlıqla söylənmiş yaltaq ifadələrin yayılması ilə əl-ələ gedirdi" [6, 206-207]. Buradan məlum olur ki, iki Azərbaycan arasında mədəni, ədəbi-bədii əlaqələr güclənirdi. Əslində Şimali Azərbaycanda kommunist, sosialist ideologiyası bütün sahələrə, o cümlədən cənubdakı ədəbi-bədii və siyasi-publisist yaradıcılığa sirayət edirdi.

Azərbaycan Demokrat Firqəsi Parsabaddan Həmədana kimi ərazilərə nəzarət edirdi. M.C.Bağırovun tapşırığı ilə İran Kürdüstanının lideri Qazı Məhəmməd ona rəsmi olaraq müraciət etdi. Müraciətdən aydın olur ki, İran Kürdüstanının maraqları ilə bağlı qərarlar Demokrat Firqəsi tərəfindən qəbul olunurdu. İran Kürdüstanı müəyyən muxtariyyət hüququna malik olmaqla Cənubi Azərbaycan ərazisinə aid idi. M.C.Bağırovun tapşırığı ilə Təbrizə göndərilmiş incəsənət xadimləri və təşviqat qrupları Cənubi Azərbaycanda yaşayan xalqlar, o cümlədən də, Azərbaycan türkləri ilə görüşür və onlarda milli özünüdərk şüuru formalaşdırırdılar. İran Azərbaycanında ilk dəfə olaraq milli dil haqqında qərar qəbul olunmuşdu (6 yanvar 1946-cı il). Qərarda deyilirdi:"Bu gündən Azərbaycanda rəsmi dövlət dili Azərbaycan dilidir" [5, 217].

1945-1946-cı illərdə Milli hökumətin fəaliyyəti dövründə M.C.Bağırovun köməyi ilə Cənubi Azərbaycanda Azərbaycan radiosu, Dövlət teatrı, Dövlət universiteti və digər milli mədəniyyət ocaqları yaradılmışdır. Əlbəttə, əks tərəf, yəni Tehran bütün bu hadisələri sakitcə izləmir, öz fəaliyyətinin konturlarını formalaşdırmağa çalışırdı.

M.C.Bağırovun ssenarisinə görə, hətta Sovet Ordusu İrandan çıxarılsa belə, SSRİ-nin nəzarəti altında olan müstəqil Cənubi Azərbaycan dövləti və Şimali Kürdüstan Quzey Azərbaycan ərazisinə birləşdirilir və gələcəkdə bu, ölkənin sərhədlərini İraq sərhədlərinədək gətirib çıxarır. Bu isə, öz növbəsində, SSRİ-ni İraq kürdləri və azərbaycanlılarından (türkmənlərdən) ingilislərə qarşı təzyiq və təsir vasitəsi kimi istifadə etməklə, İraqın şimalındakı, Mosulda olan zəngin neft yataqlarına yaxınlaşdıracaqdı.

Publisist bədii əsərlərdə əksini tapan "böyük Azərbaycan", "müstəqil Azərbaycan milləti" ideyaları vahid İran kimliyi ilə ziddiyyət təşkil edirdi.

Sovet Azərbaycanının kütləvi informasiya materialları, bədii əsərləri kiril əlifbasında yazıldığı üçün Cənubi Azərbaycanda lazimi səviyyədə yayılmadı. Sovet Azərbaycanı daha cox Cənubda demokratlara silah-sursat verir, onlara hərbi təlim keçməkdə yardım edirdi. Sovet Azərbaycanının rəhbəri M.C.Bağırov Moskvanın İrandakı siyasətinə uyğun hərəkət edirdi. O, Cənubi Azərbaycan Muxtar Hökumətinin Sovet Azərbaycanına birləşməyini istəyirdi. "Təbriz rejimində, hər halda, iki rəhbər şəxsiyyət: Daneşian və Kəbiri iki Azərbaycanı birləşdirmək zərurətinə inam bəsləmələri cəhətdən tanınmışdılar və onlar mümkündür ki, Pişəvərinin xəbəri olmadan Bağırovun casusları ilə daim əlaqə saxlayırdılar. Həqiqətən, Pişəvəri dəfələrlə ... bildirmişdi ki, tabeliyində olan hökumət məmurlarından bəzilərinə tam nəzarət edə bilmir və özünün açıq çıxışlarında birləşdirilmə ideyasının nəzərdə tutulmasını qəti şəkildə rədd edirdi." [6, 207-208] Bəziləri hər iki Azərbaycanın birləşməsinə kommunistlərə satqınlıq hesab edirdilər. Varlı təbəqələr, din xadimləri yeni rejimə qarşı çıxdı. Tezliklə hökumət məğlub oldu və süqut etdi.

Azərbaycan Muxtar Respublikası iqtisadiyyat, ictimai həyat və mədəniyyət sahəsində radikal islahatlar apardı. 1945-1946-cı illər milli demokratik hərəkatı "bədii ədəbiyyatın, incəsənətin, bütün mədəniyyətin inkişafında yeni dövr açdı, demokratik və sosialist məzmunlu realist ədəbiyyata güclü təkan verdi" [8, 3]. Göründüyü kimi, Milli Hökumətin

ədəbiyyatı realist, demokratik və sosialist məzmunlu bədii yaradıcılıq prosesi idi.

Azərbaycan Milli Hökuməti mədəniyyətin, xüsusilə ədəbiyyatın inkişafı üçün geniş miqyaslı tədbirlər gördü. 1946-cı ildə Yazıçı və şairlər cəmiyyəti yaradıldı. Cəmiyyətin mərkəzi mətbu orqanı "Günəş" jurnalı idi. Cəmiyyətin bir çox şəhərlərdə bölmələri fəailiyyət göstərirdi [7, 104-105]. Bu illərdə Azərbaycan dilində 50 adda qəzet və jurnal nəşr edilirdi, dərsliklər və bədii əsərlər də milli dildə çap edilirdi. Milli ideyaları təbliğ edən Təbriz radiostansiyası yaradıldı, milli qəhrəmanların - Səttarxanın, Bağırxanın, Xiyabaninin heykəlləri ucaldıldı. İqtidarda olan Azərbaycan Demokrat Partiyasının siyasəti "Azərbaycan xalqının mədəni həyatının zənginləşməsinə, onun milli özünüdərkinin inkişafına səbəb oldu" [7, 104-105]. Mütərəqqi ideyalar təbliğ edən elmi və bədii əsərlər xalqın demokratik hüquqları uğrunda mübarizə aparırdı.

Azərbaycan Milli Hökumətinin süqutundan sonra mürtəce İran hökuməti fədailərin, demokratların kütləvi qırğınını təşkil etdi, onlar represiyaya məruz qaldılar, dar ağaclarından asıldılar, güllələndilər. Demokratik hökumətin qəbul etdiyi bütün qanun və qərarlar ləğv edildi. Təbriz Universiteti bağlandı, Azərbaycan dilində yazılmış bütün əsərlər yandırıldı. "Yenidən Azərbaycan dilinin istifadə sahələri ciddi surətdə məhdudlaşdırıldı. "Vahid İran milləti" konsepsiyasının təbliğatı gücləndirildi... 1945-1946-cı illər hadisələrindən sonra mürtəce İran alimlərinin əsərlərində Azərbaycan xalqının tarixi, onun etnik mənsubluğu, ədəbiyyatı, dili saxtalaşdırılmaqda davam etdirildi. Mürtəce məzmunlu məqalələrdə İran hakimiyyət orqanlarının azərbaycanlıların assimliyasiya siyasətinə haqq qazandırıldı. Onların müəllifləri hökumətə Azərbaycanın Midiya adlandırılmasını təklif etdilər" [7, 105-106]. Bütün bunlar əslində Tehranın əsrlər boyu qeyri-farslara, o cümlədən azərbaycanlılara münasibə-tinin ifadəsinin, onların farslaşdırılmasının, milli özünəməxsusluğunun, milli varlığının məhv edilməsinin davam etdirilməsini göstərir. Beləliklə, İran mürtəce, şovinist dairələri ölkədəki bütün xalqların milli mədəniyyətlərini, ədəbiyyatlarını, dillərini, ənənələrini, milli özünəməxsusluqlarını məhv edərək onlar üzərində hökümranlığını təmin etdi. Demokratik dövlətin süqutundan sonra xalqın milli varlığının daşıyıcısı olan folklor əsərləri belə qeyri-leqal şəkildə yayılırdı.

Belə bir şəraitdə Cənubi Azərbaycandan mühacirət İranın mürtəce, şovinist dairələrinin intiqamından xilas olmağın yeganə yolu idi. SSRİ isə mühacirləri qəbul etdi. T.Svyataxovski ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin məlumatına əsasən göstərir ki, "Culfa körpüsü üzərində İran azərbaycanlılarını daşıyan 110 yük maşını qeydə alınmışdı; bunlara dövlət məmurları, hərbi heyət, mühacirlər və Pişəvəri də aralarında olmaqla partiya rəhbərləri daxil idi. Qaçqınların ümumi sayı 15000 nəfərə çatırdı" [6, 219]. Bununla da sovet rejimi şəraitində yaşayan cənublu yazarlar mühacirət həyatı sürüb mühacirət ədəbiyyatının nümunələrini yaratdılar. "40-cı illərin sonlarında Cənubi Azərbaycandan Şimali Azərbaycana mühacirət edən Balaş Azəroğlu, Hökumə Billuri, Mədinə Gülgün, Əli Tudə, Söhrab Tahir kimi qələm sahibləri Cənubi Azərbaycan, Təbriz həsrətini öz yaradıcılığında qoruyub saxlamaqla o taylı-bu taylı Vahid Azərbaycan ideologiyasını istər-istəməz öz yaradıcılıqlarında cücərdirdilər. Vətənin bütövlüyü ideyaları şimallı-cənublu Azərbaycan ədəbiyyatının inkişafına xidmət edirdi" [3, 74]. Mühacirət ədəbiyyatının əsas mövzusu bölünmüş vətən və milli-mənəvi vəhdət ideyaları idi.

M.Mehdibəyova mühacir ədəbiyyatın yaranma səbəblərini göstərərək yazır: "Bəşər tarixində dəfələrlə müşahidə olunduğu kimi, dünyanın bir sıra xalqlarının həyatında siyasi-tarixi gedişatın təsiri altında elə hadisələr baş verir ki, sonralar uzun müddət onların

əks-sədası beyinlərdə və şüurlarda səslənməkdə davam edir. Bu cür taleyüklü hadisələrdən biri də, müxtəlif səbəblərdən, ən başlıcası isə başqa bir millətin və ya dövlətin intervensiyası, kobud müdaxiləsi nəticəsində millətin ən yaxşı oğullarının vətəndən didərgin düşməsi, millət üçün fəailiyyətlərin xaricdə davam etdirməyə məcbur olması hadisəsidir. Siyasi terminlərə "emiqrasiya", yaxud "mühaqcirət", yəni öz yurd-yuvasından köçməyə məcbur olmaq adlanan bu hadisənin iştirakçıları da siyasi mühacirlər, köçkünlər, emiqrantlar adlanır və onların ictimai, siyasi, ədəbi, mədəni fəailiyyəti də bu termin altında ümumiləşdirilir" [4, 8]. Müəllif mühacirliyin məcburi zorakılıq, müdaxilə ilə bağlı olduğunu, mühacir ədəbiyyatın da həmin şəraitdə yarandığını qeyd edir. Bu baxımdan Cənubi Azərbaycan mühacir ədəbiyyatı spesifikliyilə fərqlənir. Belə ki, Cənubi Azərbaycan yazarları öz doğma vətənlərinə gəldiyindən onları o qədər də mühacir hesab etmək olmaz. Mühacir ədəbiyyatı vahid Azərbaycan ədəbiyyatının tərkib hissəsi olsa da müəyyən cəhətlərilə fərqlənir. Tədqiqatçı Cənubi Azərbaycan mühacirət nəsrində 1947-ci ilin xüsusi mərhələ təşkil etdiyini göstərir.

Mühacirət və Cənubi Azərbaycan ədəbiyyatını qarşılıqlı əlaqə şəraitində tədqiq edən Sabir Əmirovun ədəbi prosesə yanaşmasını Balaş Azəroğlu üç mərhələyə ayırmışdır:

1. 1941-1946-cı illərdə milli azadlıq uğrnda gedən mübarizə və milli hökumət dövrünü əhatə edən ədəbiyyat;
2. 1947-1979-cu illərdə ölkədə irticanın hökm sürdüyü dövrdə ədəbiyyat;
3. 1979-cu ildən sonra işıq üzü görən ədəbiyyat.

Yorulmadan axtarışda olan Sabir bu mərhələlərin ədəbi prosesini dövrün və zamanın, məkan və ictimai şəraitin çərçivəsində həqiqi bir ədəbiyyatşünas səriştəsi ilə tədqiq və təhlil etmişdir" [1, 3]. B.Azəroğlunun və bu bölgüsü milli-demokratik, irtica və islam inqilabı dövrlərini əhatə edir.

S.Əmirov isə öz əsərinin girişində aşağıdakı bölgünü irəli sürür:

1. 1941-1946-cı illər xalq hərəkəti dövrü;
2. 1947-1953-cü illər irtica dövrü;
3. 1953-1978-ci illər. "Ağ inqilab" dövrü;
4. 1978-1985-ci illər. Pəhləvi sülaləsinin süqutu. İlk addımlar;
5. 1985-1990-cı illər. Təkamül və təlatümlü dövrlər" [2, 7]. Bu bölgüdə irtica dövrü iki mərhələyə bölünərək islam inqilabından sonra Pəhləvi sülaləsinin süqutunun proses kimi davam etdiyi və inkişaf dövrü göstərilir.

40-50-ci illərdə Şimalda və Cənubda mühacirət ədəbiyyatı hər iki vətənin mənəvi vəhdəti prosesinə çevrildi. S.Əmirov bu münasibətlə yazır: "Mühacirət dövrü ədəbiyyatının tədqiqini əsərə daxil etməsək də yeri gəlmişkən xatırlatmağı vacib hesab edirik ki, Milli hökumətin süqutundan sonra (1946) vətəni tərk etməyə məcbur olan fədai şair və yazıçılar öz süngülərini qələmlə əvəz etdilər. Mühacirət illərində Balaş Azəroğlu, Əli Tudə, İbrahim Zakir, Mir Mehdi Çavuşi, Aşıq Hüseyn (Cavan), Mədinə Gülgün, Hökumə Billuri, Söhrab Tahir, İsmayıl Cəfərpur, Əbülfəz Hüseyni, Hüseyin Ərəboğlu, Əliqulu Heydərzadə kimi şairlər demokratik poeziyann xəzinəsini yeni motivlərlə zənginləşdirirdilər. Bu dövrün nəsrinin uğurlarından da inamla söz açmaq olar. Mühacirətə qədər Həmzə Fəthi Xoşginabi, Bəylər Haili, Mir Rəhim Vilai, Abbas Pənahi, Qəhrəman Qəhrəmanzadə, Qafar Herisli, Rəhim Cadniki, M.Ərməğan, Məcid Ziya topladıqları zəngin həyat materialı əsasında hekayə, povest və romanlar yazmaqla Cənubi Azərbaycan nəsrində yeni cığır açdılar. Həmid Məmmədzadə, Məmmədrza Afiyət, Firuz Sadıqzadə, Məmməd Dadaşzadə, Ağaverdi, Cəfər Müciri, Əyyub Nəmini kimi yazıçıları məhz mühacirət illəri-

nin yetirmələri hesab etmək heç də yanlış olmazdı” [2, 8]. Müəllifin qeyd etdiyi kimi, Cənubi Azərbaycan yazıçı və şairlərinin bəziləri mühacirətə qədərki mərhələdə, digər bir qismi isə mühacirət dövründə yetişmiş və formalaşmışlar.

## Ədəbiyyat

1. Azəroğlu B. Yarım əsr axtarışda // S.Əmirov. Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1900). Bakı: Elm, 2000, s.3
2. Əmirov S. Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1900). Bakı: Elm, 2000, 257 s.
3. Gülxani Pənah, Əhmədli Salatın. Sənət, sənətkar və zaman (Müasir ədəbi mühitə ümumi baxış). Bakı: UniPrint, 2014, 602 s.
4. Mehdibəyova M.Cənubi Azərbaycan mühacirət nəsri (1947-1990-cı illər). Bakı: Nurlan, 2007, 190 s.
5. Rəhimli Ə. (Bije). Mübarizə burulğanında keçən ömür: Seyid Cəfər Pişəvəri. Bakı: Nurlan, 2009, 400 s.
6. Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2000, 378 s.
7. Байрамзаде С. Южный Азербайджан: от “21 Азер”а до “белой революции в Иране. Баку: Tərəqqi, 2016, 336 с.
8. Биллури А.И. Развитие реалистической демократической поэзии в Иранском Азербайджане. Баку: Элм, 1972, 122 с.
9. Гасанлы Дж. Южный Азербайджан: начало холодной войны. Баку: Адилоглу, 2003, 456 с.
10. Azərbaycan mühacirət ədəbiyyatı // https//az.wikipedia.org/wiki/Az
11. Məmmədov A. Cənubi Azərbaycan hərəkatının süqutunun gizlinləri: İ.Stalin-M.Bağırov-S.C.Pişəvəri / ölke.az/news/ofetail iranda-adr-in-yaranması-kürdüstan-planları-stalinin-atom-silahına-göre-irana-etdiyi-güzəşt/93225

## REASONS FOR THE ORIGIN OF IMMIGRANT LITERATURE OF SOUTH AZERBAIJAN IN THE 40s OF THE 20th CENTURY AND SORROW FOR DIVIDED HOMELAND

**A.H.Huseynova**

**SUMMARY**

Historical, political, cultural and literary reasons of South Azerbaijan immigrant literature are studied in this article. The fall of Azerbaijan Autonomous Republic in the north of Iran and the emigration of freedom-loving people and intellectuals to North Azerbaijan after democratic Azerbaijani government was toppled by Tehran regime are also discussed.

# ПРИЧИНЫ ЗАРОЖДЕНИЯ ЭМИГРАНТСКОЙ ЛИТЕРАТУРЫ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В 40-ЫЕ ГОДЫ XX ВЕКА И ГОРЕ РАЗДЕЛЕННОЙ РОДИНЫ

**А.Г.Гусейнова**

## РЕЗЮМЕ

В статье исследуются историко-политические и культурно-литературные корни зарождения эмигрантской литературы Южного Азербайджана. Также затронуты темы падения Азербайджанской Автономной Республики на севере Ирана и эмиграции национальной интеллигенции и сторонников свободы в Северный Азербайджан после свержения демократического азербайджанского правительства тегеранским режимом.

## M Ü N D Ə R İ C A T


R İ Y A Z İ Y Y A T   B Ö L M Ə S İ

**F.N.Səmədzadə.** Bəzi tipik üstlü tənliklərin həlli........................................................... 5

**M.B.Vəliyev, F.N.Səmədzadə.** Funksiyanın qiymətlər oblastının tapılması qaydaları........ 11

İ N F O R M A T İ K A   B Ö L M Ə S İ

**G.C.İsgəndərova.** Psevdotəsadüfi ədədlər ardıcıllıqlarının şifrləmə proseslərinə tətbiqi.... 18

T İ B B   B Ö L M Ə S İ

**М.Г.Алиев, Н.С.Алиаскерли, Л.И.Рустамова.** Частота встречаемости цитомегаловирусной инфекции у взрослых пациентов с различными патологиями в г.Баку…. 26

**Х.Т.Мансурова.** Нозокомиальные микозы………………………………………….. 31

**М.С.Зейналов.** Результаты определения частоты встречаемости уреаплазменной инфекции у женщин……………………………………………………………………. 39

İ Q T İ S A D İ Y Y A T   B Ö L M Ə S İ

**R.Ə.Əlizadə.** Transaksion xərclərin təsnifatı və təhlili...................................................... 45

**N.H.Muxtarlı.** Beynəlxalq əmək bölgüsünün modellərindən istifadə və milli iqtisadiyyatın inkişafı................................................................................................................ 50

**İ.Ş.Əliyeva, A.N.Eminov.** Turizm sahəsi üçün kadr hazırlığında beynəlxalq təcrübə......... 58

**G.M.Səfərova.** Aqrar sektorda lizinq əməliyyatlarının inkişaf istiqamətləri....................... 67

**R.Z.Bayramov.** Kreditləşdirmə sisteminin iqtisadi mahiyyəti.......................................... 72

**R.Ə.Əlizadə.** Səlahiyyətlərin bölgüsü: transaksion xərclər və informasiya təminatı........... 79

**E.S.Abdullayev.** Yeni qəbul edilmiş “IFRS 16-İcarə” standartı və onun uçotda əks etdirilməsinin bəzi mühüm məsələləri........................................................................... 84

**R.M.Quluyev.** Qeyri-neft sektorunun inkişafının stimullaşdırılmasının təkmilləşdirilməsi problemləri................................................................................................................ 91

**K.Ə.İbrahimova.** Bazar iqtisadiyyatı şəraitində iqtisadi təhsil sisteminin nəzəri və metodoloji aspektləri.......................................................................................................... 96

**A.Y.Rzayev, T.S.Suleymanov.** Azerbaijani agricultural export to EU: overcoming CAP.. 103

**E.C.Balakişiyev.** İnvestisiya fəaliyyətinin nəzəri aspektləri: mahiyyəti, təsnifatı və kateqoriyaları.............................................................................................................. 114

**T.M.Allahmanli.** Development trends of economic relations between Azerbaijan and Poland.......................................................................................................................... 119

H Ü Q U Q   B Ö L M Ə S İ

**G.Z.Məmmədli.** Hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında qanunvericiliyin formalaşması məsələləri.......................................................................................... 125

P E D A Q O G İ K A   B Ö L M Ə S İ

**V.A.Hacıyev.** Yanacağın enerjisi. Yanacağın xüsusi yanma istiliyi mövzusunun Azərbaycanın yanacaq ehtiyatları ilə əlaqəli tədrisi.......................................................... 131

**E.N.Məmmədova.** A.S.Makarenkonun pedaqoji irsi və “Azərbaycan məktəbi” jurnalı...... 137

T A R İ X   B Ö L M Ə S İ

**İ.H.Əlizadə.** BP və tərəfdaşlarının “Əsrin müqaviləsinin”nin hazırlanmasında iştirakı...... 145

SİYASƏTŞÜNASLIQ BÖLMƏSİ

**B.E.Nəbiyev.** Azərbaycanın xarici siyasətində MDB ilə münasibətlərin geosiyasi əhəmiyyəti........................................................................ 154
**H.S.Karademir.** Xəzər regionu ölkələri arasında Türkiyənin xarici iqtisadi siyasətinin sabitləşdirici amilləri........................................................................ 160
**R.K.Babayev.** Terrorçuluqla beynəlxalq mübarizənin hüquqi-normativ əsasları............... 168
**S.Q.Həsənova.** Dövlət idarəçiliyində stress problemi........................................................ 175

DİLÇİLİK BÖLMƏSİ

**A.M.Şabanova.** İngilis və Azərbaycan dillərində "göy" və "yaşıl" rəng adları ilə formalaşan frazeologizmlərin müqayisəli təhlili........................................................................ 182

PSİXOLOGİYA BÖLMƏSİ

**M.İ.Cabbarlı.** Əxlaq və humanist dəyərlər........................................................................ 189

ƏDƏBİYYATŞÜNASLIQ BÖLMƏSİ

**A.H.Hüseynova.** XX əsrin 40-cı illərində Cənubi Azərbaycan mühacir ədəbiyyatının yaranma səbəbləri və bölünmüş Vətən dərdi........................................................................ 197

# CONTENTS

## SECTION OF MATHEMATICS


**F.N.Samadzadeh.** Solving some typical exponential equations *(in Azeri)*.......................... 5

**M.B.Valiyev, F.N.Samadzadeh.** The rules to find the range of a function *(in Azeri)*......... 11


## SECTION OF INFORMATICS


**G.J.Isgandarova.** Application of sequences of pseudo-random numbers in the processes of encryption *(in Azeri)*........................................................................................ 18


## SECTION OF MEDICINE


**M.H.Aliyev, N.S.Aliaskerli, L.I.Rustamova.** Appearing frequency of cytomegalovirus infection in adults with different pathologies in Baku City *(in Russian)*…………………... 26

**H.T.Mansurova.** Nosocomial mycoses *(in Russian)*………………….............................. 31

**M.S.Zeynalov.** The results of determining the appearing frequency of ureaplasma infection in women *(in Russian)*…………………......................................................................... 39


## SECTION OF ECONOMICS


**R.A.Alizadeh.** Classification and analysis of transaction costs *(in Azeri)*........................... 45

**N.H.Mukhtarli.** Using the models of international division of labor and national economy development *(in Azeri)*.............................................................................................. 50

**I.Sh.Aliyeva, A.N.Eminov.** International practice of personnel training for tourism sector *(in Azeri)*....................................................................................................................... 58

**G.M.Safarova.** Directions of development for leasing operations in agrarian sector *(in Azeri)*...................................................................................................................... 67

**R.Z.Bayramov.** Economic essence of credit system *(in Azeri)*.......................................... 72

**R.A.Alizadeh.** Separation of duties: transaction costs and informational support *(in Azeri)*........................................................................................................................ 79

**E.S.Abdullayev.** Newly adopted IFRS 16 Leases standard and some important questions of its reflection in accounting *(in Azeri)*.............................................................................. 84

**R.M.Guluyev.** Problems of improving the stimulation of development of non-oil sector *(in Azeri)*....................................................................................................................... 91

**K.A.Ibrahimova.** Theoretical and methodological aspects of economic education system in market economy *(in Azeri)*........................................................................................... 96

**A.Y.Rzayev, T.S.Suleymanov.** Azerbaijani agricultural export to EU: overcoming CAP.. 103

**E.J.Balakishiyev.** Theoretical aspects of investment activity: essence, classification and categories *(in Azeri)*........................................................................................................ 114

**T.M.Allahmanli.** Development trends of economic relations between Azerbaijan and Poland.......................................................................................................................... 119


## SECTION OF LAW


**G.Z.Mamedli.** Problems of formation of legislation concerning criminal charges against corporate bodies *(in Azeri)*.............................................................................................. 125


## SECTION OF PEDAGOGY


**V.A.Hajiyev.** Fuel energy. Teaching the subject of special combustion temperature of fuels in the context of fuel resources of Azerbaijan *(in Azeri)*................................................. 131

**E.N.Mammadova.** Pedagogical heritage of A.S.Makarenko and "Azerbaijan mektebi" journal *(in Azeri)*.................................................................................................... 137

SECTION OF HISTORY

**I.H.Alizadeh.** Participation of BP and stakeholders in the preparation of the "Contract of the Century" *(in Azeri)*.................................................................................... 145

SECTION OF POLITICAL SCIENCE

**B.E.Nabiyev.** Geopolitical importance of relations with the CIS for the foreign policy of Azerbaijan *(in Azeri)*.................................................................................................. 154

**H.S.Karademir.** Stabilization factors of Turkish foreign economic policy among the countries of the Caspian region *(in Azeri)*..................................................................... 160

**R.K.Babayev.** Legal and normative framework of international struggle against terrorism *(in Azeri)*........................................................................................................... 168

**S.G.Hasanova.** Problem of stress in state management *(in Azeri)*..................................... 175

SECTION OF LINGUISTICS

**A.M.Shabanova.** Comparative analysis of colour (green and blue) termed phraseological units in English and Azerbaijani languages *(in Azeri)*......................................................... 182

SECTION OF PSYCHOLOGY

**M.I.Jabbarli.** Ethics and humanistic values *(in Azeri)*....................................................... 189

SECTION OF LITERARY CRITICISM

**A.H.Huseynova.** Reasons for the origin of immigrant literature of South Azerbaijan in the 40s of the 20th Century and sorrow for divided Homeland *(in Azeri)*........................... 197

## “ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ” JURNALINA TƏQDİM OLUNAN MƏQALƏLƏRİN TƏRTİBAT QAYDALARI

1. Elmlər doktorları və professorlar istisna olmaqla, hər məqalə üçün müvafiq elm sahəsi üzrə elmlər doktorunun rəyi təqdim edilməlidir.

2. Jurnala təqdim olunan məqalənin strukturu ümumdünya miqyasında elmi məqalələrə şamil edilən tələblərə cavab verməlidir. Yəni, məqalədə toxunulan problem ümumi şəkildə müəyyənləşdirilməli, onun mühüm elmi və praktiki məsələlərlə olan əlaqəsi göstərilməli, müəllifin bu problem üzrə istinad etdiyi ən son işlərin təhlili verilməli, məqalənin həsr olunduğu problemin həll olunmamış hissələri, habelə alınan nəticələr və onların perspektivləri göstərilməlidir.

3. Mövzusunun səthi və tezissayağı olduğu, elmi baxımdan kifayət qədər əsaslandırılmadığı məqalələr qəbul edilmir.

4. Məqalənin başlığı qısa olmalı, məzmunu əks etdirməli və 100 işarədən artıq olmamalıdır. Məqaləyə üç dildə (Azərbaycan, ingilis və rus dillərində) açar sözlər əlavə olunmalıdır. Azərbaycan dilində təqdim olunan məqalənin sonunda ingilis və rus dillərində, ingilis dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və rus dillərində, rus dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və ingilis dillərində eyni məzmunlu xülasələr verilməlidir.

5. Məqalə jurnalın redaksiyasına bir nüsxədə printerdən çıxarılmış şəkildə (A4 formatda) və elektron variantda (kompakt diskdə) təqdim olunmalı, nüsxə müəllif tərəfindən imzalanmalıdır. Alternativ olaraq, məqaləni journal@oyu.edu.az ünvanına da göndərmək olar.

6. Məqalənun mətni Microsoft Word proqramında Times New Roman şrifti ilə yığılmalıdır. Şriftin ölçüsü 12, sətirlərarası interval 1 olmalıdır. Sol və sağ tərəfdən məsafə 2,8 sm, yuxarı və aşağıdan isə 3 sm olmalıdır. Birinci sətirdəki boşluq 1,25 sm, düstur, rəsm və cədvəllərdə interval məsafələri (yuxarı və aşağıdan) 6 punkt olmalıdır. Şəkillər (rəsmlər) 11 ölçülü rəsmaltı yazılarla müşayiət olunmalı və mətnə skan edilmiş şəkildə (yəni skannerdən keçirilmiş şəkildə) daxil edilməlidir. Cədvəllərdə şriftin ölçüsü 11 olmalıdır. Düsturlar Word Equation redaktorunda yığılmalıdır.

7. Təqdim olunun məqalə 5-15 səhifə həcmində olmalıdır. Həcmi 15 səhifəni aşan məqalə yalnız redaksiya heyətinin razılığı ilə qəbul olunur. Mətnin qrammatik cəhətdən düzgünlüyü müəllif tərəfindən yoxlanılmalıdır.

8. Qoşma səhifədə müəllifin adı, soyadı, atasının adı, elmi dərəcəsi (varsa), iş yeri, iş yerinin ünvanı, müəllifin e-mail ünvanı və əlaqə telefonları göstərilməli, habelə əlyazmanın əvvəllər heç bir elmi nəşrdə dərc olunmadığı və elmin hansı sahəsinə aid olduğu qeyd olunmalıdır.

*əlaqə telefonu: (051) 572 34 36*
*email: journal@oyu.edu.az*
*ünvan: Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, Ümumi şöbə*
*http://www.journal.oyu.edu.az*

## GUIDE FOR AUTHORS

1. All the submitted articles must be peer-reviewed. The peer-reviewers name and affiliation must be included as part of the article to be located at the end after the References. It should be on a separate line 2 lines below the last reference and start with the words “Reviewed by…”.
2. The contents of an article must meet generally accepted international scientific norms. The aim and the purpose of the article as well as its feasibility must be clearly indicated. It should deal with innovative ideas, developments, directions, misdirections, areas which need to be explored, future outlook, prior errors, problems, personnel, funding, or trends in the chosen field.
3. The manuscript with incomplete coverage of the subject will not be accepted.
4. The title of the article must be concise not to exceed 100 characters and be in full conformity with the contents. The article should include keywords. Also, an abstract is required consisting of 50-100 words.
5. Overseas authors are expected to submit their articles electronically to fuadhud@yahoo.com. Local contributors should submit a hard copy (in A4 format) and electronic version of their articles (in a compact disk) directly to the editorial office (see contact addresses at the bottom of this page) or mail it to journal@oyu.edu.az.
6. Microsoft Word is the only preferred input program. The font used should be Times New Roman of 12 points. Text must be single spaced with 2.8 cm left/right margins and 3 cm top/bottom margins. Figures must be scanned and captioned in 11-points Times New Roman. Formulae should be input using Word Equation. And tabular data should be input using 11-points Times New Roman.
7. Authors are encouraged to submit articles ranging from 5-15 pages (including appendixes, references, figures and tables). Sanction of editorial board is required for the acceptance of manuscripts exceeding 15 pages. The author should check the text for grammar.
8. Each article should include title, name, patronymic, current affiliation, postal address, e-mail and phone numbers of the author who should also provide a written evidence that the presented manuscript has been never published before. Also, the author must indicate the field of science to which his (her) manuscript belongs.

*Tel.: (+994 51) 572 34 36*
*email: journal@oyu.edu.az*
*Postal Address: General Department, Odlar Yurdu University, 13 K.Rahimov St., Baku AZ1072, Azerbaijan*
*http://www.journal.oyu.edu.az*

## ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. За исключением докторов наук и профессоров, каждая статья должна иметь рецензию доктора наук в соответствующей области науки.

2. Структура представляемой в журнал статьи должна отвечать общемировым требованиям к научным статьям. То есть, статья должна включать определение проблемы в общем виде, её связь с важными научными и практическими задачами; анализ последних достижений и публикаций по данной проблеме, на которые опирается автор; выделение нерешённых частей проблемы, которым посвящается данная статья; формирование целей статьи (постановка задачи); содержание основного исследования с полным обоснованием полученных научных результатов; выводы из проведенного исследования и перспективы в данном направлении.

3. Рукопись, в которой материал изложен поверхностно, тезисно, без достаточного научного обоснования - не принимается.

4. Заголовок должен быть кратким, отражать содержание статьи и не превышать 100 знаков. Статья должна содержать ключевые слова на трёх языках (азербайджанском, английском и русском). Если язык статьи – азербайджанский, в конце приводятся идентичные по содержанию резюме на английском и русском языках. Аналогично, англоязычная статья сопровождается азербайджанским и русским, а русскоязычная – азербайджанским и английским резюме (идентичного содержания).

5. Рукопись представляется в редакцию журнала в одном экземпляре хорошего качества формата А4 вместе с электронным вариантом (на компактном диске). Экземпляр подписывается автором. Электронный вариант можно прислать и по адресу journal@oyu.edu.az.

6. Текст статьи должен быть набран в программе Microsoft Word шрифтом Times New Roman 12 размера с одиночным междустрочным интервалом. Верхние и нижние поля – 3 см, левые и правые – 2.8 см. Отступы: первой строки (абзац) – 1,25 см, интервалы (выше и ниже) от формул, рисунков, таблиц – 6 п.т. Рисунки и фото сопровождаются подрисуночными текстами в шрифте Times New Roman 11 размера и вставляются в текст в отсканированном виде. Формулы набираются в редакторе Word Equation с полуторным междустрочным интервалом.

7. Объём представляемой статьи должен быть в пределах 5-15 страниц. Статьи большего объема принимаются только по согласованию с редколлегией журнала. Текст должен быть проверен на грамматические ошибки, вычитан и просмотрен автором.

8. На отдельной странице указываются фамилии, инициалы автора, учёная степень (если имеется), место работы, почтовый адрес места работы, а также электронный адрес и контактные телефоны автора. В сопроводительном письме следует указать, что рукопись ранее нигде не публиковалась. Также необходимо указать принадлежность статьи к той или иной научной сфере.

*контактный телефон редакции: (+994 51) 572 34 36*
*email: journal@oyu.edu.az*
*адрес: Баку AZ1072, ул.Кёроглу Рахимова 13, Университет Одлар Юрду, Общий отдел*
*http://www.journal.oyu.edu.az*

Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyində qeydiyyatdan keçmişdir

This Journal is registered at the Ministry of Press
and Information of the Republic of Azerbaijan

Lisenziya №138
10 fevral 1999-cu il
********
License No. 138
February 10, 1999

Yığılmağa verilmişdir: 07.04.2018. Çapa imzalanmışdır: 10.04.2018
Formatı: 60x84 1/8. Həcmi: 26,5 ç.v. Ofset çap üsulu. Tiraj: 100

Sent for print: 07.04.2018. Authorized for printing: 10.04.2018
Format: 60x84 1/8. Volume: 26.5 p.l. Offset printing. 100 copies